Şirin Xanım
Kərimbəyli Şadiman

Haqq dünyasına qovuşmuş, anam,
Mənsurə Ələvsət qızına
ithaf edirəm

ÖTƏNLƏRDƏN GƏLƏN SƏSLƏR – 2

Bakı-2014

Kitaba maddi və mənəvi dəstək göstərdiyinə görə həyat yoldaşım Abdullov Əli Əli oğluna minnətdaram.

Redaktoru: Abdullov Əli Əli oğlu

Şirinxanım Kərimbəyli Şadiman
«Ötənlərdən gələn səslər – 2»
Qanun Nəşriyyatı, Bakı 2014, 480 səh.

Qeyd: ünvansız şeirlər Neft Daşlarında yazılıb

Şirin xanım Kərimbəyli Şadiman Azərbaycan ədəbiyyatında öz dəsti xətti olan sənətkarlardan biridir. Onun yaradacılığı təkcə Vətən məhdudiyyətində qalmır. O, öz ürəklər fəth edən yaradıcılığı ilə çoxdan Azərbaycan sərhədlərini aşıb. Dünyanın harasında bir ağrı-acı varsa, Şirin xanımın ilhamlı qələmi orda olur və o ağrıları nəzmə çəkir. Şair istər şeiriyyəti, istərsə də publisist düşüncələri ilə oxucu ürəyini riqqətə gətirən sənətkardır. Nəşriyyatımız adından müəllifə yeni-yeni yaradıcılıq zirvələri arzulayırıq.

Sayt: www.shirinxanım-shadiman.net

Q $\frac{0602010000}{AB022051}$ qrifli nəşr

© Ş.Kərimbəyli Şadiman, 2014
© Qanun Nəşriyyatı, 2014

ÖTƏNLƏRƏ BİR NƏZƏR

Zaman yerində dayanmır, o, hərəkətdədir. İnsan nə edirsə yaxşı, ya pis ömür səhifələrinə yazılır. Bunu isə yaddaş edir, şüurun bizi idarə etdiyi yaddaş... Hələ uşaq vaxtlarımdan, kitabla, mütaliə ilə maraqlanandan evimizdə Ömər Xəyyamın, Məhsəti Gəncəvinin rübai kitabları əlimdən düşməzdi. Daha doğrusu, kəndimizdəki 8-illik məktəbin açılmasının səbəbkarı, məktəbin direktoru, ədəbiyyat müəllimi rəhmətlik Sabir dayım olmuşdu. Onun şəxsi kitabxanasından, o kitabları özüm əldə etmişdim. O, bərk-bərk, rəhmətlik nənəm Xanımanaya tapışırardı ki, bu qızı evə buraxma, buraxsan da nəzarət et, deyəsən, o, mənim kitablarımı oğurlayır. Mən ilk şeirimi 6-cı sinifdə yazmışam. Bir zaman uşaqlıq dövrümüzdə televiziya səhərdən axşama qədər amerkalı zənci qadın Anjela Devisdən bəhs edirdi. Mən də ondan təsirlənib bir sovet uşağı kimi belə şeir yazmışdım:

Amerkada bir zənci var,
Onun adı Anjeladır.
O qəhrəman, cəsur qızın
Qollarında qandal vardır.

Şeir bir neçə bənd idi, amma yaddaşıma yalnız bir bəndi həkk olunub. O zaman bu şeiri heç yerə yazmamışdım. Bilmirəm, rübai ustadlarının təsirindənmi, ya mənim şeriyyətdə ilk addımlarım atmağımdanmı, dördlük məni daha çox ram etmişdi. İlk qələm təcrübəm də dördlüklərdən ibarət idi. Dördlüklər əsasən orta məktəbin son illərini və tələbəlik dövrünü əhatə edir. O zaman bu könül duyğularımı yazıya alanda nə zamansa kitab şəkilində çap olunacağını təsəvvürümə belə gətirməzdim. Kim deyərdi ki, bizim yaşadığımız qurluş dağılacaq, biz müstəqil olacağıq, insan öz beyin məhsulunu araya-ərsəyə gətirməyə nail olacaq. Əlbəttə ki, burda maddiyyat da öz işini görür, o nöqteyi-nəzərdən həyat yoldaşım Abdulov Əliyə minnətdaram. Elə o illərin şeirlərinin də kitab halında çap olunmasının səbəkarı odur. Keçən əsrin 70-ci illərində yazdığım şeirlərin bir neçəsi çapdan çıxmış kitablarımda özünə yer almışdı. Şair-publisist Əli Rza Xələfli haqqımda «Adı Şadiman olanın...» kitabını yazanda, kitablarımda yayınlanmış o illərin bir neçə şeirinə şübhə ilə yanaşması bizim bu şeirləri kitab halında çap etməyə vadar etdi. Kitabın birinci hissəsi «Ötənlərdən gələn səslər» adıyla 2013-cü ildə 632 səhifə ilə artıq çapdan çıxıb. Çox ağır zəhmət bahasına ötən illərin tarixinə çevrilmiş arxivimi çək-çevir etdim. Şükür Allaha ki, artıq ikinci hissəsi də çapa hazırdır. İkinci hissədə mindən yuxarı dördlüklər, qəzəllər, bayatılar, ilahi, dünya vətən, ilham, sevgi şeirləri toplunun qayəsini təşkil edir. İndi mən tam əminliklə deyə bilərəm ki, yeniyetməlik və gənclik dövründə yazdığım şeirlər həyata vəsiqə aldı. Yaxın zamanda «Ötənlərdən gələn səslər» kitabımın ikinci hissəsi də dəyərli oxucuların ixtiyarında olacaq.

Hörmətlə: Müəllif. 27.04.2014. Pirallahı

ÖTƏNLƏRDƏN GƏLƏN SƏSLƏR

Ürəyimi dəlib keçdiz.
Axan qanın sutək içdiz,
Gəlib, yenə canı seçdiz,
Hər sədanız xoş nəfəslər,
Ötənlərdən gələn səslər.

Sizi yaddan çıxartmadım,
Üstünüzdə gəzdi adım,
Ömür ötdü addım-addım,
Avazınız xəyal bəslər,
Ötənlərdən gələn səslər.

Sizi sevdim duyğu kimi,
Keçmişimə sayğı kimi,
Boylanırsız qayğı kimi,
Xatiratlar min bir kəslər,
Ötənlərdən gələn səslər.

Misraların boyu olduz,
Günlərimin sayı olduz,
Xəyalımdan keçən yolduz,
Dərdə salıb can qəfəslər,
Ötənlərdən gələn səslər.

Şadimanın qələmi var,
Kağızlartək aləmi var,
Vərəqlərdə etmin ah-zar,
Demin, dünya boş həvəslər,
Ötənlərdən gələn səslər.
Ötənlərdən gələn səslər.

05.04.2012

YARADANDAN GƏLƏN İŞIQ

YET FƏRYADA

Ömür-günüm getdi bada,
Aman Allah, yet fəryada.

Qəm-qüssələr mənə qalmış,
Başım üstün gəlib almış,
Tez boynuma qolun salmış,
Ürəyim bir tənha ada,
Aman Allah, yet fəryada.

Üz tutdumsa kimə, yandım,
Öz canımdan lap usandım,
Düşmənimi dostum sandım,
Külüng vurdu başa o da,
Aman Allah, yet fəryada.

Fələk gözdən yaşı udur,
Göylər düşən daşı udur,
Zaman qaçır yaşı udur,
Çox uzaqda deyil qada,
Aman Allah, yet fəryada.

Saralıbdı ömrün tağı,
Durub gəlir qürub çağı,
Mənimlə bir bəxt ortağı,
Bənzəri var onun yada,
Aman Allah, yet fəryada.

Şirin xanım qəfəslərdə,
Ömür gör nə həvəslərdə,
Hicran gəzir nəfəslərdə,
Yetişmədi kimsə dada,
Aman Allah, yet fəryada.
Aman Allah, yet fəryada.

13.08.1989

XUDAYA, ALIŞIB YANDI ÜRƏYİM

Xudaya, alışıb yandı ürəyim,
Bir kimsə dadıma yetmədi, neylim?
Qaldı aralıqda min bir diləyim,
Cəfakeş həyatım bitmədi, neylim?

Dünya ağırlıqda həsrət sinəmdə,
Quruyur ağrıdan gözümdə nəm də,
Zaman zildə gedir, arzular bəmdə,
Bu hicran qapımdan getmədi, neylim?

Xudaya, sən özün yaratdın məni,
Özün də üstümə tökmüsən qəmi,
Gecəli-gündüzlü çağırdım səni,
Fəryadım bir əsər etmədi, neylim?

Ömür bağçasında çiçəklər əkdim,
Min bir zəhmət ilə cəfasın çəkdim,
Onu suvarmaqçın ağlar fələkdim,
Üstün xəzan aldı bitmədi, neylim?

Xudaya, Şadiman dərddən boğuldu,
İçində neçə min sitəm doğuldu,
Mənim də xəmirim belə yoğruldu,
Acılar gözümdən itmədi, neylim?

21.10.1991

İLAHİ

Ömrümün göyünü tutdu buludlar,
Zamanım yolundan döndü, İlahi.
Kəsdi başım üstün ahlar, fəryadlar,
Bəxtimin ulduzu söndü, İlahi.

Ah çəkdim, ahıma boyandı bəşər,
Güllətək qəlbimi qəm dəlib-deşər,
Hicranın közündə ürəyim bişər,
Bu nə yol-irizdi, yöndü, İlahi.

Zaman taleyimi saldı qəfəsə,
Qalmışam acımla nəfəs-nəfəsə,
Girdi fələk daim bəxtimlə bəhsə,
Tək mənim başıma endi, İlahi.

Vallah çəkdiyimin haqq-hesabı yox,
Könlüm iqtidarsız, inqilabı yox,
Daha ürəyimin dərdə tabı yox,
Demə ki, ayaqda göndü, İlahi.

Şadiman axıdar qəlbinə yaşlar,
Hər yanda nalələr, qəmə qarqışlar,
Yenə üstümüzü alıbdı qışlar,
Səadət qapımdan gendi, İlahi.

25.09.1994

MƏN NİYƏ GƏLDİM

Üzdü ürəyimi sonsuz kədər, qəm,
Üzdə şad olduqca könlümü dəldim.
Yorğun bəbəklərdən qurumadı nəm,
İlahi, dünyaya mən niyə gəldim?

Əzabım min oldu, sevincim kəhər,
Hiyləgər baxışlar yolumda qəhər,
Hər dildən bağrıma basıldı zəhər,
İlahi, dünyaya mən niyə gəldim?

Zaman acıları bağrımı üzdü,
Yetər ki, ürəyim zülümə dözdü,
Xoşbəxtlik özü də bir quru sözdü,
İlahi, dünyaya mən niyə gəldim?

Dövranın süngüsü köksümü deşdi,
Hey dolur-boşalır o qanlı teşti,
Doğulub ölmək də əzablı işdi,
İlahi, dünyaya mən niyə gəldim?

Döğulub ölməyin özü azarmış...
Əbədi kahasın sözü qazarmış,
Madam doğulanın sonu məzarmış,
İlahi, dünyaya mən niyə gəldim?

15.03.1995. Pirallahı

AMAN ETMƏK OLMAYIR

Biz də canlı sırasına daxilik,
Hər canlını keçib, ötmək olmayır.
Ağrı çoxdur, sıralanıb bədəndə,
Onlar ilə yola getmək olmayır.

Cahan qanlı fəlakətlə doludur,
Haqqa gəlmək Yaradanın yoludur,
Deyirlər ki, hamı onun quludur!
Hamı təki iman etmək olmayır.

Vicdanımız hücrəmizdə qışqırır,
Qanı qovur, qan beyində fışqırır,
Biri aslan, biri isə quş qırır,
Haqq hardadı?! Ona yetmək olmayır.

İndi hamı doğmalıqdan çıxıbdı,
Bəndə əhli xoşqılıqdan çıxıbdı,
Deyirlər ki, yer Xaliqdən çıxıbdı,
Xaliqdən də qaçıb itmək olmayır.

Yeri, göyü fırladan bir ahəng var.
Bizdən göydə, bizdən yerdə nəhəng var,
Hər simada şirələnmiş min rəng var,
Onları da ayırd etmək olmayır.

Ey Şadiman, hər addımdan sarsılma,
Hər yuvaya, hər qoltuğa qısılma,
Bu həyatın meydanında basılma,
Basıldınsa, aman etmək olmayır.

25.10.1987

ÖTMÜR İLAHİ

Qanımız töküldü, axdı sel təki,
Fəryadımız sənə yetmir, İlahi.
Hansı dil bağlanıb bizim dil təki,
Bülbültək bağında ötmür, İlahi.

Dağılıb elimin şah cah-calalı,
Qəlb necə gəzdirsin dərdi-məlalı,
Çaxnaşıb yurdumun əhli-əyalı,
Günahsız qurbanlar bitmir, İlahi.

Vətənə göz dikib bir quduz yağı,
Saralıb elimin bağçası, bağı,
Çəkib sinəmizə min yerdən dağı,
Bu dağın ağrısı getmir, İlahi.

Halal çörəyimiz harama dönüb,
Neçə min insanın ocağı sönüb,
Bizdən göylərin də üzümü dönüb?
Yağıya heç divan etmir, İlahi.

Şadiman dərd ilə qol-boyun olub,
Torpağı özgəyə kim boyun olub?
Dünyanın işləri lap oyun olub,
Haqlının düz sözü ötmür, İlahi.

24.02.1990

BİTMƏDİ BU SEVGİ

Dərd mənim üstümə qoşunun çəkdi,
Oldu həyat mənə qəfəs, İlahi.
Üstümə göylərin buludu çökdü,
Boğuldum, gəlmədi nəfəs, İlahi.

Sənin nurun ilə gəzdim aləmi,
Haraya döndərdim içdə naləmi,
Kökləndi eşqinə ömrümün dəmi,
Bitmədi bu sevgi, həvəs, İlahi.

Dərddən qaça-qaça, dərdə köklendim,
Düşdüm əllərinə tamam təkləndim,
Üzümü çevirib mən sənə döndüm,
Çağırdı hüzura xoş səs, İlahi.

Biz acı çəkəndə sənə boylandıq,
Can bağlılığını eşqlə çox andıq,
Daldıq xəyallara, sonra oyandıq,
Səni dana bilməz heç kəs, İlahi.

Bir bax Şadimana göylərdə gəzir,
Onun ürəyini ah-aman əzir,
Könlümü etmişəm eşqinə nəzir,
Yerdən şər ayağın gəl kəs, İlahi.
Yerdən şər ayağın gəl kəs, İlahi.

12.12.1989

YET FƏRYADA

Tale niyə gülməz üzə?
Əzab verir könlümüzə,
Hər addımda durur üzə,
Ömrü, günü verir bada,
Səndən gəlsin, Rəbbim, səda.

Ağrıları salır dilə,
Qoymayır ki, üzü gülə,
Qəm gətirir bilə-bilə,
Heç vaxt gəlib yetməz dada,
Səndən gəlsin, Rəbbim, səda.

Arzu, istək çiçəklədi,
Hər bir ağrı ürəklədi,
Zülüm qalxıb gerçəklədi,
Qurtarmayır cana qada,
Səndən gəlsin, Rəbbim, səda.

Haqsızlıq haqqı ayaqlar,
Durmur yerdə heç ayaqlar,
Şadimana qəm varaqlar,
Sənə olsun könül fəda,
Səndən gəlsin, Rəbbim, səda.

22.10.1988

HEÇ DEMƏDİ

Bu dünyanın dərdlərini,
Tanrı mənə heç demədi.
Ağlatdıqca mərdlərini,
Bir cığır tap, keç demədi.

Künclərinə sıxılıdıqca,
Büdrədikcə, yıxıldıqca,
Çıx-daş olub çıxıldıqca,
Yoldan birin seç demədi.

Döyüşdürdü insanlığı,
Artdı bədən ehsanlığı,
Çoxaldı can viranlığı,
Əməlinə puç demədi.

Ürəyimi saldı çənə,
Söyləmədi bir yol mənə:
Qanad qurub verim sənə,
Dur bu yerdən uç demədi.

24.04.1990

DÜNYA BİR PƏNCƏRƏDİ

DÜNYA

Dodaqların ah-amanı,
Bəbəklərdə nəmdi dünya.
Sındırılan qəlb gümanı,
Ağızlarda təmdi dünya.

Güllələnmiş sabahlarda,
Ərzi tutmaz günahlarda,
Qara geymiş can ahlarda,
Ağılından kəmdi dünya.

Min bir sevgi şıltaqlığı,
Cavanlığın batağlığı,
Zamanənin yaltaqlığı,
Oyunlardan dəmdi dünya.

Çən düşübdü bağlara da,
Bu niskilli çağlara da,
Bu Şadiman ağlara da,
Doğulandan qəmdi dünya

28.03.1995 Pirallahı

ACI GÖZ YAŞI

Hardasa dünyada ağrı-acı var,
Bir-birindən ayrı qardaş-bacı var,
Tökülür ömürlər vaxtsız, və'dəsiz,
Ağılı, ürəyi qəm çökdürür diz.
Hər qapı döyəndə acı göz yaşı,
Ağladar torpağı, çatladar daşı.
Bir yetim gözləri yollarda qalar,
Bir körpə güllələr altında solar.
Bir ana gözündən axar qan yaşı,
Dünyanın ağrıyar əzabdan başı
Heç bir xalqa, elə gülmədi savaş,
Görən gələcəkmi haqq evinə baş?!

28.12.1986

NƏ OLDU

El malın talayıb yığma bucağa,
Sərvəti küncldə qalan nə oldu?
Haram-halal bilmib, qatma ocağa,
Sandığı haramla dolan nə oldu?

Ev yıxıb, qapılar bağlayan da var,
Sinələr, ürəklər dağlayan da var,
Bir vaxt güldüyünə ağlayan da var,
Nahaq deyən dildə yalan nə oldu?

Mənsəbin, şöhrətin əlindən tutan,
Arxa kölgəsində yüksəyi tutan,
Gücsüzün malını malına qatan,
Özgənin haqqını alan nə oldu?

Dünya keçməyibdi bir gün vaxtından,
Əli qabarlının qara baxtından,
Çox «mənəm» deyəni salıb taxtından,
Torpağı çəpərə salan nə oldu?

Xeyir-şər bilməyib, şadam, deyənlər,
Elin artığından tapıb yeyənlər,
Sutək axar işin yolun əyənlər,
Qonşunun yasında çalan nə oldu?

Həyat imtahanı çətindən-çətin,
O duyan qəlbidi bəşəriyyətin,
Özgəyə tuşlanan çirkin niyyətin,
Miskin sinəsində solan nə oldu?

Ocaq keçirənin ocağı sönər,
Addımı enişdən yoxuşa dönər,
Hiyləylə ucalan, fitnəylə enər,
«Mənəm» xəyalına dalan nə oldu?

Zaman addımlardan qəsir ucaldıb,
Dünən qaldırdığın, bu gün alçaldıb,
Şüurla ürəyi birgə qocaldıb,
Özgə bostanın yolan nə oldu?

Çox cahangirləri kor eləyibdi,
Haqqın qulağına düz söyləyibdi,
Böhtan danışanın dilin əyibdi,
Sərvətlər üstündə talan nə oldu?

Dünya düşünəndi, dünya həyalı,
Düzə təbiidir, pisə boyalı,
Çarpışar, döyüşər evin əyalı,
İlantək bir-birin çalan nə oldu?

Ömür edir qananı, qanmayanı da,
Ürəkdən yananı, yanmayanı da,
Addımı ananı, anmayanı da,
Gedənlər getdisə, olan nə oldu?

Dünyanın malını qamarlayanlar,
Sərvətin sandığda tumarlayanlar,
Çirkin niyyətləri hamarlayanlar,
Ac qarın dərdində kalan nə oldu?

Açıq qapıları üzə bağlayan,
Hiyləni, fitnəni gözə bağlayan,
Min bir yalanları sözə bağlayan,
Haqq dili susdurdun, balan nə oldu?

Şadiman, dəryanın sirləri min-min,
Acizdir önündə hər elm, hər din,
Sən ki, hər addımda, haqq mənəm, dedin,
Düzlükdən tikdiyin qalan nə oldu?

19.11.1987

DÜNYA QƏMDƏN UZAQ OL

Yaşa, firavan yaşa,
Sənindir bu nurlu yol.
Hər diləyi vur başa,
Dünya qəmdən uzaq ol.

Fərəhlə toy-düyünlə,
Ömrə çıraq xoş günlə,
O bəxtəvər səs, ünlə,
Dünya qəmdən uzaq ol.

Bol sulu çaylarınla,
Bəxtiyar aylarınla,
Qələbə saylarınla,
Dünya qəmdən uzaq ol.

Çəkdiyin zillətinlə,
Neçə min millətinlə,
Hər ulu niyyətinlə,
Dünya qəmdən uzaq ol.

Göydə ay-ulduzunla,
Çörəyinlə, duzunla,
Alovunla, buzunla,
Dünya qəmdən uzaq ol.

Göyündə günəşinlə,
Sinəndə atəşinlə,
Hər xeyirxah işinlə,
Dünya qəmdən uzaq ol.

Yaşıllaşsın dərə, düz,
Günəşlə gəlsin gündüz,
Qoy qapını açsın düz,
Dünya qəmdən uzaq ol.

Göz yaşın çay olmasın,
Dilində vay olmasın,
Bağrın dərdlə dolmasın,
Dünya qəmdən uzaq ol.

Şadiman övladındır,
Canlı bəşər dadındır,
Hər yaxşılıq adındır,
Dünya qəmdən uzaq ol.

11.10.1986 Nasosnu

HAQQ OĞLU HAQQ

Haqq oğlu haqq, sən gələndə dünyaya,
Heç yetmədi haqq səsinə əsrlər.
Hər çatanda, hər yetəndə fəryada,
Yerbəyerdən pak dilini kəsirlər.

Sığınarkən bir əbədi düzlüyə,
Tuş olurdun hər addımda üzlüyə,
Nə olar ki, səni adəm izliyə,
Niyə səni hər addımda əzirlər?

Haqq oğlu haqq, haqq divarın sökükdü,
Özülünə düzülən daş çökükdü,
İnsanların nədən üzü dönükdü?
Mərd ərlərin hər bəlaya dözürlər.

Haqq oğlu haqq, qaldır səsin ucalsın,
Ərənlərin gur səsindən bac alsın,
Şər bayrağın əllərindən güc salsın,
Pis əməllə ürəyini üzürlər.

Haqq oğlu haqq, həqiqətə qovuşdun,
Fəryad, haray, nalə görüb sovuşdun,
Üz basdılar, bəd əmələ yovuşdun,
Pak yoluna yaman-yaxşı düzürlər.

Sən utancaq, bir qız kimi həyalı,
Ah-amanda yer üzünün əyalı,
Məmləkətdə hər addımın sayalı,
Niyə səni bəs gileyli süzürlər?

Haqq oğlu haqq, qoy alışsın ocağın,
Xoş əməllə dolu olsun qucağın,
Pozulmasın güzaranın, növrağın,
Mərdlər sənin sayəndəcə gəzirlər.

12.10.1989

GÖZƏL DÜNYADIR

Bol sulu çayları var,
Baharı, yayları var,
Müqəddəs ayları var,
Eşqə əzəl dünyadır,
Dünya gözəl dünyadır.

Göyündə nurlu günəş,
Verir bizə od-atəş,
Bulağında donar diş,
Eşqə əzəl dünyadır,
Dünya gözəl dünyadır.

Günahkarıq özümüz,
Doymaq bilmir gözümüz,
Sən addımı düz at, düz,
Eşqə əzəl dünyadır,
Dünya gözəl dünyadır.

Cəh-cəh vurur quşları,
Bir tarixdir daşları,
Ormanlar sirdaşları,
Eşqə əzəl dünyadır,
Dünya gözəl dünyadır.

Ulduzumuz, Ayımız,
Günəşimiz, yayımız,
Dənizimiz çayımız,
Eşqə əzəl dünyadır,
Dünya gözəl dünyadır.

Bölmüşük sərhədlərə.
Bərələrə, bəndlərə,
Bulamışıq dərdlərə,
Eşqə əzəl dünyadır,
Dünya gözəl dünyadır.

O ki, bizə gərəkdir,
Bir döyünən ürəkdir,
Hürksə qaçan mələkdir,
Eşqə əzəl dünyadır,
Dünya gözəl dünyadır.

Ey Şadiman, mərd yaşa,
Bax ömürə, bax yaşa,
Keç pak əməldə başa,
Eşqə əzəl dünyadır,
Dünya gözəl dünyadır.

13.10.1986 Nasosnu

DOSTLUQDUR

Millətlərin xoş məram, xoş çağı,
Sönməz, parlaq yer üzünün dayağı,
Ürəklərin pasibanı, çırağı,
Layiq olan taxtı-tacı, dostluqdur,
Ey insanlar, haqqın ucu, dostluqdur.

Həmdəm olsa neçə xalqlar, millətlər,
Qanad açar xoş arzular, niyyətlər,
Yoxa çıxar ağrı-acı, zillətlər,
Göyərçintək qanad açan, dostluqdur,
Dağda, düzdə ətir saçan, dostluqdur.

Dostluq olsa, çörək olar, su olar,
Başdan-başa dünyaya şadlıq dolar,
Bəxtəvərlik boynumuza qol salar,
Ey insanlar, birliyimiz, dostluqdur,
Əkinimiz, dirliyimiz, dostluqdur.

Gəlin seyrə çıxaq yurdu, Vətəni,
Qonaq edir bura yoldan ötəni,
Salamlayır xoş baxışlar yetəni,
Hər arzumuz, əməlimiz, dostluqdur,
Yaranannan təməlimiz, dostluqdur.

Azərbaycan diyarına bir gün gəl,
Görüşəcək sənlə burda milyon əl,
İnsanlığa rövnəq verir pak təməl,
Sabahımın od-ocağı, dostluqdur,
Bu torpağın pak qucağı, dostluqdur.

Burda ürək məhəbbətlə birləşib,
Burda düzlük, burda mərdlik sirləşib,
Neçə millət bir sinədə yerləşib,
Hər arzumuz, hər işimiz, dostluqdur,
Zaman ilə gərdişimiz, dostluqdur.

Dillər ayrı, ellər ayrı - ürək bir,
Arzu, amal, istək, məram, dilək bir,
Dünyamıza riqqət verən dirək bir,
Toyumuz da, qəmimiz də, dostluqdur,
Yaxşı, yaman dəmimiz də, dostluqdur.

Ağıl başdan, ürək candan güc aldı,
Gündüzümüz sabahlardan öc aldı,
Günəş təki fəzalara ucaldı,
Dünyamızın mərd sarayı, dostluqdur,
Səadətin hay-harayı, dostluqdur.

Ey Şadiman, evimizə çıraqdır,
Gələcəyə yazılmamış varaqdır,
Xəyanətin başı üstə yaraqdır,
Əsrimizin gələcəyi, dostluqdur,
Dünyamızın görəcəyi, dostluqdur.

13.10.1986 Nasosnu

TƏK YOLU DÜNYAM

Doludur içində min ağrı, nalə,
Gah zəhər, gah şəkər əldə piyalə,
Sənin ki, sirlərin gəlməz zavalə,
İçi hökümlərlə, ey dolu dünyam,
Ey mərdin, namərdin tək yolu dünyam.

Birinə şəkərsən, birinə acı,
Birinin başında, dürr, şahlıq tacı,
Varınla düşməndir qardaşa bacı,
Sinəsi haraylı, həşirli dünyam,
Tülkülü, pələngli, ey şirli dünyam.

Qapın taybataydır həmişə üzə,
Yaxşını, yamanı vurmazsan üzə,
Min fitnə, min feil çıxsa da üzə,
Hamını sinənə tökdün, ey dünyam,
Zamanın dərdini çəkdin, ey dünyam.

Üstündən çəkilməz qovğalar, qallar,
Başında sınıbdı möhürlər, qollar,
Sinəndən min yerə ayrılıb yollar...
Enişli-yoxuşlu, əzablı dünyam,
Hamıdan dözümlü, ey tablı dünyam.

Fəqirlər evində qonaq olanda,
Büllur saraylara daş-qaş dolanda,
Birinin üstünü dərd-qəm alanda,
Nifrət bayrağına dönmüsən dünyam,
Ən yüksək zirvədən enmisən dünyam.

Cahanda sirlərlə doludur başın,
Əcəldir, ölümdür dönük qardaşın,
Qaralan torpağın, ağaran daşın,
Tarixin sinəndə yatıbdır dünyam,
Səni ildən-ilə atıbdır dünyam.

Ağrıya dönübdür çətin günlərin,
Səadət olubdu toy-düyünlərin,
Kainat gizləyən səsin, ünlərin,
Çoxların veribdi selinə dünyam,
Çoxları allandı dilinə dünyam.

Çox körpülər saldın çaylar üstündən,
Cahillər güdaza getdi üstündən,
Boğuldu, kor oldu acı tüstündən,
Ağıl səni uşaq tutdu, ey dünyam,
Dəli sənlə qurşaq tutdu, ey dünyam.

Gah göz yaşı verdin, gah da ki, gülüş,
Hardan hara gedir axı bu gəliş?
Fələk quduzmudur? Hey qıcıyır diş.
Gəlimli-gedimli, yetimli dünyam,
Hər günü ölümlü, itimli dünyam.

Söylə hara gedir bu adəm yolu?
Təbiət başına yağdırır dolu,
İçində qarğalar, quzğunlar dolu,
Duyan ürəklərin sirdaşı, dünyam,
Hamının gözündə, ey naşı dünyam.

Şahların əlindən aldın saraylar,
Çox mənəm deyənə qurmusan vaylar,
Minin üz çevirər, minin haraylar,
Mizan tərəzidə ölçülü dünyam,
Addımda, hesabda biçili dünyam.

Dolub boşaldıqca sinən hər zaman,
Ömrün başa vurdu hey yaxşı-yaman,
Gec-tez naqislərə vermədin aman,
Gələnin, gedənin çırağı dünyam,
Hər ömrün taleyi, varağı dünyam.

23.01.1987

AĞ YAĞIŞLAR

Tutulub yenə də göylərin üzü,
Buludlar tökülür qaşqabağından.
Görən nədir onun dünyaya sözü?
Tökülür mirvari, dürr tabağından.

Yağış yağır deyə, insanlar qaçır,
Necə dənələnir ağappaq sular.
Hər kəs öz evinin qapısın açır,
Sanki yalquzaqdır şimşəklər uçur.

Bəs nədir ağladan göyləri yenə?
Gözündən sel kimi leysan tökülür.
Sığınıb dünyanın ulu köksünə,
Hər qəmçin, kədərçin qəlbi sökülür.

Hardasa nahaq qan çaya dönəndə,
Göylərin gözünə qanlı yaş dolur.
Hardasa bir tale nahaq sönəndə,
Onda fəzanın da gül rəngi solur.

Bəs necə yağmasın bu ağ yağışlar,
Namərd daş gəzdirir ürək yerinə.
Çəkir sinələrə acı naxışlar,
Dərd girir qəlblərə, gedir dərinə.

Yaxında qan tökür İran torpağı,
Ölülər şəhəri salınıb, aman,
Sanki qan ağlayır aranı, dağı,
Yenə bir dağ çəkir bu əsrə zaman.

Bəs necə yağmasın bu ağ yağışlar,
Dünya fikirlidir, kürə qəmlidir.
Sinəsin min nüvə, atom naxışlar,
Hardasa bir ana gözü nəmlidir.

Livana bir bomba saldı İsrail,
Göylərin bənizi oldu qapqara.
Dilsiz körpələri çaldı İsrail,
Fəza qoşun çəkdi buludla ora.

Yenə göylər tökdü gözünün yaşın,
Leysana büründü Beyrut torpağı.
Qanını tökərmi qardaş qardaşın?
İnsandır yandıran yerin çırağın.

Bəs necə yağmasın bu ağ yağışlar?
Dünyanın sinəsi dərd düyünlüdür.
Ana saçın yolar, yağı qarqışlar,
Biri ağ, birisə qara günlüdür.

Qoynun beşik etdi dünya insana,
Bir başı yaslıdır, bir başı toylu.
Namərdlər kəc baxıb hər zaman ona,
Mərdləri olubdur arxalı, soylu.

Bəs necə yağmasın bu ağ yağışlar?
Dünyanın dərdləri özündən çoxdur.
Həyat, həyat deyir yerdə baxışlar,
Dünyanın qəmindən heç kəsdə yoxdur!

Yerdə qəm görəndə göylər ağladı,
Göyün göz yaşına yağış dedik biz.
Vaxtsız ölənlərə qara bağladı,
Hər gözünün yaşı oldu bir dəniz.

İlahi, qırarmı insan insanı?
Çoxalan silahlar lap böyük olub.
Göylər yağış tökür, qaralıb qanı,
Adamın idrakı yerə yük olub.

05.10.1987

BİR ALƏMSƏN

Yaşadıqca zaman-zaman,
Gah fərəhsən, gah naləmsən.
İllər keçir yaxşı-yaman,
Cahan, sən ki, bir aləmsən.

Alovundan, odunnanmı?
O sehirli adınnanmı?
Acı-şirin dadınnanmı?
Cahan, sən ki, bir aləmsən.

Ağlı olan, varınnanmı?
O eşq adlı, yarınnanmı?
Əhdə bağlı, canınnanmı?
Cahan, sən ki, bir aləmsən.

Ruh oxşayan yazın əla,
Diş donduran buzun əla,
Bizlə birgə nazın əla,
Cahan, sən ki, bir aləmsən.

Şərə zəfər çal, dur görüm,
Hər qəlbdə yurd sal bir görüm,
Düzlük zirvə, al bir görüm,
Cahan, sən ki, bir aləmsən.

Min nağıllı zamanın var,
Bu qanayan ümmanın var,
Yaxşıdan az yamanın var,
Cahan, sən ki, bir aləmsən.

Gündüz adlı sabahları,
Əridirsən günahları,
Sal qəfəsə can ahları,
Cahan, sən ki, bir aləmsən.

Əmək adlı o işdənmi?
Adətdənmi, vərdişdənmi?
Bizimlə xoş gərdişdənmi?
Cahan, sən ki, bir aləmsən.

Həyat ilə vuruşdanmı?
Düz dövrandan qurluşdanmı?
Varlıqla pak yarışdanmı?
Cahan, sən ki, bir aləmsən.

Söylə, şirin yuxumsanmı?
Acımsanmı, toxumsanmı?
Min can alan oxumsanmı?
Cahan, sən ki, bir aləmsən.

Acı-şirin suyundanmı?
Canlar udan quyundanmı?
Millətlərin sayındanmı?
Cahan, sən ki, bir aləmsən.

Şadiman xoş anınnanmı?
Pak adınan, sanınnanmı?
Bu canın o canınnanmı?
Cahan, sən ki, bir aləmsən.

16.10.1987

KÖÇÜN SÜRƏN DÜNYADI

Kimlər gəlib, kimlər gedib üstündən,
Yağıları çəkinmədi qəsdindən,
Əyrilərin, yaxşıların şəstindən,
Zaman-zaman köçün sürən dünyadı,
Bildiyitək işin görən dünyadı.

Nə yıxılmaz, nə yorulmaz, dayanmaz,
Hər fitnəyə, hər əmələ oyanmaz,
Çox gördüyü rənglərə də boyanmaz,
Təbiətdə safllıq gəzən dünyadı.
Nankorların canın üzən dünyadı.

Cavanlarla ehtirasla gözləşər,
Qocalarla yaş üstündə sözləşər,
Həyat üçün ölümlə də üzləşər,
Çox mənləri tacdan edən dünyadı,
Hər haraya, ünə gedən dünyadı.

Göylərində sərt küləklər əsibdi,
Dumanları bir-birindən küsübdü,
Namərdləri haqqın dilin kəsibdi,
Dərdi-səri cahan tutmaz, dünyadı,
Hər könülə, qəlbə yatmaz, dünyadı.

Bir zamanlar ox-kamanı çıxıbdı,
Düşüncəsiz baş bədəni yıxıbdı,
Bəs xalq xalqa niyə ogey baxıbdı?
Nahaq qanı sel-su olan dünyadı,
Hər əməldə əldə qalan dünyadı.

İndi isə güllələri çağlayır,
Raketləri göylərində ağlayır,
Bir naxələf qapısını bağlayır,
Bağrı dolu, gözü nəmli, dünyadı,
Əlimizdən dünya qəmli, dünyadı.

Baş aparır ellərində nadanlar,
Sərvətini, dövlətini udanlar,
Üz çevirir çörəyini dadanlar,
Nadanlardan qubarlanan, dünyadı,
Hər əməllə nübarlanan, dünyadı.

O baxmadı nə qaraya, nə ağa,
Sularında gün keçirdi qurbağa,
Saxlamayır nə bir nökər, nə ağa,
Hamısını yola salan dünyadı,
Gələnlərə yenə qalan dünyadı.

Körpəsini beşiyində bələyən,
Gələnləri ələyində ələyən,
İlan təki dil çıxaran, mələyən,
Yaxşılara yaxşı olan dünyadı,
Hər varlığın naxşı olan dünyadı.

Qan-qırğını əskik olmaz başından,
İnsan doymaz torpağından, daşından,
Gedənləri xəbər tutmaz yaşından,
Milyonları yola salan dünyadı,
Gələnlərlə özü qalan dünyadı.

Çaylarında coşub daşar selləri,
Baş aparar, qorxu bilməz yelləri,
İldırımtək çaxıb keçər illəri,
İnsanlara yenə möhtac dünyadı,
Kiminə tox, kiminə ac dünyadı.

Gələnləri gedənlərlə dəyişər,
Tələsinə tülkü düşər, fil düşər,
Tamah ilə meydanlarda döyüşər,
Hər cəbhədən qalib çıxan dünyadı,
Çox mənlərin evin yıxan dünyadı.

Varı-yoxu qanmayanı, qandırdı,
Ocağında yanmayanı, yandırdı,
Öz kökünü anmayanı, andırdı,
Bəd üzlərdə burun ovan dünyadı,
Keçilməzdə atın qovan dünyadı.

Bir məzlumu vurduqca baş-gözünü,
Harayına tez yetirdi özünü,
Verdi ona ocağının közünü,
Hər yuvaya qulaq olan, dünyadı,
Şadlığından, dərddən dolan, dünyadı.

Neyləsin ki, hər gələni gülməyir,
Yaşamağın düzgün yolun bilməyir,

Hər tökülən gözün yaşın silməyir,
Gedənlərə qoca olan, dünyadı,
Gələnlərlə cavan qalan, dünyadı.

Ey Şadiman, gəl ovutma özünü,
O şan-şöhrət bağlamasın gözünü,
Fürsət ikən de gəlsin öz sözünü,
Könlüm kimi çılğın coşan, dünyadı,
Gedənlərə səni qoşan, dünyadı.

18.10.1987

DÜNYA ŞƏRƏ MÜBTƏLA

Yaşamaq olardı topsuz, tüfəngsiz,
Kürəni çökdürən qan-qırğına diz,
Bilməli, sağ qalmaz belə yer üzü,
Əməl tutmalıdır hər düzgün sözü,
Silahdan da güclü yağı var bizə,
Başımız düşməndir ürəyimizə!

Alimlər kəşf edir, kəşfləri yaxşı,
Hamının bir deyil haqqa baxışı,
Bəlkə də bilmirdi atom yaradan,
Gedəcək bir torpaq, bir el aradan.
Dünyanı xeyirə calamaq gərək,
Qəlblərdə haqq odu qalamaq gərək.

Dünyaya kəc baxan, boynu yoğunlar,
Hiyləyə köklənmiş oynu, yoğunlar,
Təbiət insana bir hədiyyədir,
Haqqın kölgəsində yatan, hiylədir.
Dünyanı biz şərdən gəlin qoruyaq,
Onun gözlərini birlikdə oyaq.

28.04.1987

İNSANLAR YARADIR

Gün-gündən çoxalır kəndlər, şəhərlər,
Elə hey qaynayır coşur nəhirlər,
Min bir arzu ilə açır səhərlər,
Dünyanın göyündə şimşəklər çaxır,
İnsanlar yaradır, insanlar yıxır.

Haqqın, ədalətin boğulur səsi,
Artır adamların zülüm qəfəsi,
Haram yeyənlərin dolur kisəsi,
Bəşər bir-birinə ögeytək baxır,
İnsanlar yaradır, insanlar yıxır.

Fikirlər, duyğular bir-birinə yad,
Doğma atasına düşməndir övlad,
Hiylələr bəşərə amansız səyyad,
Bügünün əllərin neytıron sıxır,
İnsanlar yaradır, insanlar yıxır.

Yenə qucağına doldurub bomba,
Sürür ağ atını hey oba-oba,
Qoymayır od-ocaq, qoymayır soba,
Zalımlar yolundan izindən çıxır,
İnsanlar yaradır, insanlar yıxır.

Çox gördü, götürdü ərlər, ərənlər,
Həyat bağçasından arzu dərənlər,
Tarixin yoluna qüssə sərənlər,
Dünyanın köksündən qara qan axır,
İnsanlar yaradır, insanlar yıxır.

Ellər məhəbbətlə versə baş-başa,
Hər dildən qopardı: Azadlıq yaşa!
Qatı düşmən olur qardaş-qardaşa,
Beyində ildırım, şimşəklər çaxır,
İnsanlar yaradır, insanlar yıxır.

Atomun, nüvənin, ey ustadları,
Dünya dahiləri, istedadları,
Sizdən aslı qalıb yer övladları,
Söyləyin, gözünüz haraya baxır?
İnsanlar yaradır, insanlar yıxır.

Dünya aşıb-daşır, dünya qaynayır,
Ölkələr yerindən yenə oynayır,
Kim deyir ki, başın dərddən aynayır?
Dan yeri sökülür, al günəş çıxır,
İnsanlar yaradır, insanlar yıxır.

27.04.1986 Nasosnu

YIXILASI DÜNYADI

Namərdi çəkilir mərdindən başa,
Boyanıb içi də, çölü də qışa,
Gələni, gedəni edər tamaşa,
Dərdə yıxılası dünyadı, vallah,
Yanıb yaxılası dünyadı, vallah.

Ağlayır içində acı gümana,
Hər gün tələ qurur hiylə fərmana,
Çoxdan qarışıbdı yaxşı yamana,
Dərdə yıxılası dünyadı, vallah,
Yanıb yaxılası dünyadı, vallah.

Şər-şeytan eyləyir hiyləylə mazaq.
Qurulur bir gündə min qəlbə düzaq,
Fəryad qapımızdan deyildir uzaq,
Dərdə yıxılası dünyadı, vallah,
Yanıb yaxılası dünyadı, vallah.

Ara qarışdıran qana susayır,
Ətraf şər-xətadır, gəl indi ayır,
Çoxları hələ də yerində sayır,
Dərdə yıxılası dünyadı, vallah,
Yanıb yaxılası dünyadı, vallah.

Gedir ətrafında din döyüşləri,
Qansız ağaların qan yürüşləri,
Allaha qalıbdı daha işləri,
Dərdə yıxılası dünyadı, vallah,
Yanıb yaxılası dünyadı, vallah.

Hamı mənəm deyib, mənliyi yıxır,
Adam qəlizləşib, ev-evi yıxır,
Tanrı da göylərdən qəzəblə baxır,
Dərdə yıxılası dünyadı, vallah,
Yanıb yaxılası dünyadı, vallah.

Hər yoldan ötəni insan sanırıq,
Hər müşkül işləri asan sanırıq,
Çiskin dağa gəlib, leysan sanırıq,
Dərdə yıxılası dünyadı, vallah,
Yanıb yaxılası dünyadı, vallah.

Heç kim öz əmriylə doğulmayıbdı,
Doğulub cahana dağılmayıbdı,
Cəsurlar dəryada boğulmayıbdı,
Dərdə yıxılası dünyadı, vallah,
Yanıb yaxılası dünyadı, vallah.

Sanmın Şadimanı dildən ziyada,
Hər başda parlamaz ağıl, ziya da,
Dolanıb boynuma çox vaxt riya da,
Dərdə yıxılası dünyadı, vallah,
Yanıb yaxılası dünyadı, vallah.

28.04.1987

TUŞ OLMASIN NAKƏSƏ

Ara qatmaq, ara vurmaq, şər işi,
Hər adama yaxşı olmaq, ər işi,
Əcəllə də deyib-gülmək, nər işi,
Pislik etmək çətin deyil heç pisə,
Mərd dediyin, tuş olmasın nakəsə.

Çox sinənin bağlı qalar, yol-izi,
Duman alar, uzaq görən hər gözü,
Ömrü boyu qatdalayıb diz-dizi,
Ocaq çatan, od-köz üçün döz hisə,
Mərd dediyin, tuş olmasın nakəsə.

Xeyir verməz hər açılan qapılar,
Şər əlində düzün köksü çapılar,
Harda olsa, düzə yağı tapılar,
Dəyirmandan dolu çıxmır çox kisə,
Mərd dediyin, tuş olmasın nakəsə.

Mənəm dedi, çox özündən deyənlər,
Arxasını, kökünü də öyənlər,
Axar suyu arxa bənddən əyənlər,
Kişi adı yaraşmayır hər kəsə,
Mərd dediyin, tuş olmasın nakəsə.

Ar olmayır ulusunu dananda,
Baş ağrıyır, yaxşı-yaman qananda,
Qəlb dincəlməz, ürək odla yananda,
Qızıl parlaq, bəxt ağlamıb güc misə,
Mərd dediyin, tuş olmasın nakəsə.

Arzularla, məramlarla ucallıq,
Şənliklərdən, toy-bayramdan tac allıq,
Ömür keçər, biz də bir gün qocallıq,
Ay gələnlər, gördümü hər əl əsa?
Mərd dediyin, tuş olmasın nakəsə.

Yolun üstə çox tərəzi qurular.
Lilli sular düzü görər, durular,
Gülzarlıqda gül axtarır arılar,
Bağlı yolu namərd gələr tez, kəsə,
Mərd dediyin, tuş olmasın nakəsə.

Ey Şadiman, həyat səni yoxlayır,
Hərzə baxış sinə için oxlayır,

Çox istəklər şər əlində yuxlayır,
Baş sahibi, tufan etmə, el əsə...
Mərd dediyin, tuş olmasın nakəsə.
Mərd dediyin, tuş olmasın nakəsə.

25.10.1987

BU DÜNYA MƏNİMDİ

Ruhumdan alışan odum, közüm var,
Həyatdan doymayan könlüm, gözüm var,
Hələ deyiləsi çoxlu sözüm var,
Məcnunu olmadım heç boş xülyanın,
Bu dünya mənimdi, mən də dünyanın.

Ovqatım köklənib xoş məramlara,
Ürəyim yatmayır heç haramlara,
Cığırlar açıram canda kamlara,
Qanadlı quşuyam, sanki hər yanın,
Bu dünya mənimdi, mən də dünyanın.

Sevda yolçuları canımdan keçir,
Eşqi şəfa təki qanımdan keçir,
Bütün səadətlər anımdan keçir,
Gözüm qonağıdır şirin röyanın,
Bu dünya mənimdi, mən də dünyanın.

Şadiman qələmi sözə calayır,
İçində gah sevinc, gah qəm ulayır,
Dilin zəhəri də könül bulayır,
İnsan, gün ışığı olsun həyanın,
Bu dünya mənimdi, mən də dünyanın.

16.02.1986

NAMƏRDLƏR

Qardaş deyib, qolun salar boynuna,
Hiylə ipin bir gün dolar boynuna,
Əyriliyin qoymaq olmaz boynuna,
Çörək verər, çörək alar namərdlər,
İlan təki bir gün çalar namərdlər.

Addımını hər gün, hər an izləyər,
Ev yıxmaqçın, sanki fürsət gözləyər,
Can desə də, bir əliylə bizləyər,
Mərd görəndə od götürər namərdlər,
Var görəndə ad itirər namərdlər.

Fürsət düşsə, loğmasından keçərmi?
Gül içindən tikanlığı biçərmi?
Ömrü boyu bir çətin yol seçərmi?
Hörümçəktək torun qurar namərdlər,
Qan qaraldar, ara vurar namərdlər.

Hər addımda kişilikdən danışar,
Hər adama düşən bəxtə qarışar,
Dərəlikdi, zirvələrlə yarışar,
Ömrü boyu mənəm deyər namərdlər,
Onun-bunun başın yeyər namərdlər.

Ey Şadiman, bilmək olmür üzündən,
Nə anlarsan, sənə baxan gözündən?
Niyə bir gün soruşmayır özündən?
Bu əməllə hara gedir namərdlər?
Nələr edib, nələr edir namərdlər?!

26.04.1988

KƏŞF EDƏN İNSAN

Torpağı, səmanı kəşf edən insan,
Bir əlində şöhrət, bir əlində qan.
Önündə min kərə dünya verdi can,
Səni kəşf edəni yad etdinmi heç?!
Canını ruhuna ad etdinmi heç?

Elə məğrurluğun yıxıbdı səni,
Əcəl qılıncına taxıbdı səni,
Dəfələrlə yerə çaxıbdı səni,
Səni kəşf edəni yad etdinmi heç?!
Canını ruhuna ad etdinmi heç?

Özün hardan keçib, hara gəlirsən?
Bezib həyatından zara gəlirsən,
Ömrünü bitirib gora gəlirsən,
Səni kəşf edəni yad etdinmi heç?!
Canını ruhuna ad etdinmi heç?

Özünü çox zaman göydə sanırsan,
Sərxoş həyatını meydə sanırsan,
Bilirəm, hər şeyi yaxşı qanırsan,
Səni kəşf edəni yad etdinmi heç?!
Canını ruhuna ad etdinmi heç?

Şadiman dönübdü aha, amana,
Gözləri dikilib yaxşı-yamana,
İnsan, heç gəldinmi bir yol imana,
Səni kəşf edəni yad etdinmi heç?!
Canını ruhuna ad etdinmi heç?

05-06.02.1989

SƏN SİRLİSƏN

Ahlar gəzir göydə, yerdə,
Hər kəs dözür düşən dərdə,
Bə'zən ögey baxdın mərdə,
Qanlar dolu əsrlisən,
Dünya, necə sən sirlisən?

Hikmətinə vurulmuşam,
Saat təki qurulmuşam,
Bulanmışam, durulmuşam,
Hər işində kəsirlisən,
Dünya, necə sən sirlisən?

İnsanların dinə nalan,
Qopur dildən, düşür yalan,
Oyuncaqdı əldə talan,
Göylər dələn qəsirlisən,
Dünya, necə sən sirlisən?

Nərdivanın haqqa çıxır,
Kimi gördü tutub yıxır,
Dəli təki can vurnuxur,
Hamı deyir, bəs kirlisən,
Dünya, necə sən sirlisən?

Şadimanı görsən, çağır,
Eşitməsə qışqır, bağır,
Qoyma, başa daşlar yağır,
Düşünürlər məkirlisən,
Dünya, necə sən sirlisən?

07.10.1988 Nasosnu

DÜZDƏ QOYAN DÜNYADI

Tale ilə barışıbdı hər zaman,
Çox arzunu gözdə qoyan dünyadı.
Niyə bilməm aqilə verməz aman?
Dünya mərdi düzdə qoyan dünyadı.

Oğrusunu, əyrisini doydurub,
Yoxsulunun sinəsini oydurub,
Düzlərinin dərisini soydurub,
Dünya mərdi, düzdə qoyan dünyadı.

Toxunanda ilan təki çalandı,
Üstbəüstdən min-min oda qalandı,
Əvvəl-axır sonu qırğın, talandı,
Dünya mərdi, düzdə qoyan dünyadı.

Sədəlövhün çox ağlatdı gözünü,
Doğulana tez göstərdi üzünü,
Ağlı kəsən dərddən döydü dizini,
Dünya mərdi, düzdə qoyan dünyadı.

Hər kəsin də qarasına deyinər,
Gedənlərin dalınca çox öyünər,
Gələnlərin sinəsində döyünər,
Dünya mərdi, düzdə qoyan dünyadı.

Para üstə, sərvət üstə oturar,
Tənbəlinə yuxu verər, yatırar,
Sürər düzə vecsizləri otarar,
Dünya mərdi, düzdə qoyan dünyadı.

Arzu-kamı sinələrdə düyünlər,
Haram pulla parıldayar əyinlər,
Xarab olar baş yormaqdan beyinlər,
Dünya mərdi, düzdə qoyan dünyadı.

Şirin xanım, salma qəmə özünü,
Söndürməsin zaman şehi közünü,
Mən də haqlı sayıram bu sözünü,
Dünya mərdi, düzdə qoyan dünyadı.

18.02.1989

O TAY, BU TAY VƏTƏNDİ

TƏBRİZ DEDİM

Gözlərimin yaşı dərya içində,
Həsrət cəllad çıxdı Vətən biçimdə,
O tayımda yadlar seçə-seçimdə,
Aralıqda qurub kədər nə bardaş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Günahkarı kim idi bu torpağın?
Sahibi var hər kiçikcik yarpağın,
Altındadır Azərbaycan bu dağın,
Necə ayrı olsun söylə gözlə qaş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Xəyalımda pak Savalan qəm dağı,
Qartalları oynaşanda sübh çağı,
Xudafərin söylər dərdli bir ağı,
Şəhriyarın gözlərində qanlı yaş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Ağızlardan eşidirəm, ancaq mən,
Təbrizimin başı üstə duman, çən.
Savalanın saçlarına düşüb dən,
Ağırlaşır dərd əlində qalan baş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Ömür keçir, illər sürür karvanın,
Ana torpaq, yuxudamı Sarvanın?
İki yerə parçalanıb bir canın,
Zaman gedir, əlimizdən alır yaş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Kim deyir ki, bəxtiyardır günümüz,
Uca-uca zirvələrdə ünümüz.
İran oldu yaman bizim günümüz,
Bəxtimizə diyirlətdi qara daş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Ulu babam, qalx ayağa, cavab ver,
At oynatdın, qılınc vurdun, əsdi yer,
Yurdun əsir, xan Araza etdi yer,
Bu ayrılıq aləmlərə oldu faş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Bizimkidir, orda ağlar qalanlar,
At oynadır, hiylə, fitnə, yalanlar.
Başı üstü dərd-ələmlə olanlar,
Bizə oldu həsrət dağı tək sirdaş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Necə uzun oldu həsrət, iztirab,
Sinə, ürək daha etmir axı tab,
Üzü tutub sənə edir el xitab,
Bağlı yollar açılaydı bir gün kaş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Bakı hələ səni səslər, can Təbriz,
Bir ananın övladıyıq axı biz.
Azərbaycan deyəndə qəlb çökür diz,
Neylim həsrət zirvələrdə oldu baş,
Təbriz dedim, sinəm yandı, a qardaş.
Təbriz dedim, sinəm yandı, a qardaş.

24.01.1987

PIÇILDAŞAN DEYİLMİ?

Azərbaycan, parlaq, nurlu gözlərin,
Hər addımda tarix olan izlərin,
Bəd ayaqda bükülməyən dizlərin,
Sinələrdə coşub-daşan deyilmi?
Ürəklərlə pıçıldaşan deyilmi?

Azərbaycan, bahar gəlib elinə,
Al günəşi kəmər elə belinə,
Yenə min bir nəğmə düşsün dilinə,
Qarşı dağlar bir tamaşa deyilmi?
Lalə, nərgiz başdan-başa deyilmi?

Qoy atlansın igidlərin çəməndə,
Al bəzənsin qızlar güllü çəməndə,
Sevgi salsın ürəklərin kəməndə,
Həyat gözəl, ömür şanlı deyilmi?
Zaman bizə istiqanlı deyilmi?

07.04.1987

NECƏ GEDƏ BİLƏYDİM

Ay Vətənim, səni atıb, qürbətə,
Özün söylə, necə gedə biləydim?
Məhəbbəti, eşqi satıb qürbətə,
Həsrətlərin üzünəmi güləydim?

Bir ocaqsan, qarışırsan oduma,
O pak adın həkk olunub adıma,
Qəriblikdə sən düşərkən yadıma,
Acıları kimin ilə böləydim.

Qınağ ollam dostlara, tanışlara,
Sipər ollam eyhamlı baxışlara,
Ayrılığın səbəb olan yaşlara,
Öz əlimlə özüm necə siləydim?

Qürbətləri kim deyər yurd, məkandı,
Oralara düşmək özü imkandı,
Necə pozum ürəyimdən yurd andı?
Eşqimizin bağırını dələydim.

Tanrı qoyan yol-irizi azaraq,
Sevgimizin məzarını qazaraq,
Bu sevdanı baş daşına yazaraq,
Sonra onu ziyarətə gələydim?

Şadiman – od, sən yandıran çırağa,
Sığışmayır ahım, naləm varağa,
Qorxdun, məni ürək sala fərağa,
Xiffətindən saralıban öləydim!

08.09.1994

ŞƏHİD XƏLİL RZA

Oğlu Təbrizi Vətən yolunda şəhid verən, fəraqdan bağrı partlayan istiqlal şairi Xəlil Rzaya ithaf.

Partladı sinədə döyünən ürək,
Yarımçıq yollarda qaldı hər dilək,
Necə imza qoydu bu hökmə fələk?
Ömrün gözlərinə çəkildi millər,
Şəhid Xəlil Rza, şəhid, ay ellər.

Nakam Təbrizinin dağı sinədə,
Əsir el-obanın ağı sinədə,
Vətənin ən ağır çağı sinədə,
Necə qanlı gəldi, necə bu illər,
Şəhid Xəlil Rza, şəhid, ay ellər.

Min-min yazılmamış əsəri qaldı,
Yağıya dilinin kəsəri qaldı,
Yurdun çəkilməmiş dərd-səri qaldı,
Apardı ruhunu bəmbəyaz yellər,
Şəhid Xəlil Rza, şəhid, ay ellər.

O azad şairim dedi: Hurr hər an,
Ona zindanlarda tutdular divan,
Verdi istiqbalın qolu üstə can...
Göyün buludları axıtdı sellər,
Şəhid Xəlil Rza, şəhid, ay ellər.

Dözmədi millətin axan qanına,
İyirmi yanvarda el divanına,
Lənətlər yağdırdı şər ünvanına,
Vuran ürəyindən qırıldı tellər,
Şəhid Xəlil Rza, şəhid, ay ellər.

Ağla o tay, bu tay, ey Vətən, ağla,
Acı tarixini bir də varağla,
Şəhid şairinə qaralar bağla,
Bu gün ağı deyib alışsın dillər,
Şəhid Xəlil Rza, şəhid, ay ellər.

Dözmədi yaralı el paytaxtına,
Dözmədi yurdunun sınmış baxtına,
Övladı Təbrizin şəhid baxtına,
Axan göz yaşların gurşadı sellər,
Şəhid Xəlil Rza, şəhid, ay ellər.
Şəhid Xəlil Rza, şəhid, ay ellər.

22.06.1994

VÜQAR

Füzuli torpağında şəhid olmuş,
Laçınlı Aslanov Vüqar
Qənbər oğluna

Ağla, əsir düşmüş Laçın torpağı,
Ağla, Füzulinin partlayan bağrı,
Pozuldu lay-divar şəhid növrağı,
Tuş olub minaya alışdı Vüqar,
Müqəddəs məkana qarışdı Vüqar.

Bir ana ürəyi yara bağladı,
Bir qız sevgisinə qara bağladı,
Şəhidin halına yer-göy ağladı,
Ağladı Vətənin gözləri, Vüqar,
Qanına bələnmiş düzləri, Vüqar.

Üzüyün mücrüdə qopardı ah-vay,
Uçdu ucalmamış kökündən saray,
Aləmlər söylədi, ey şəhid, haray,
Necə əzrayıla tuş oldun, Vüqar,
Amansız məzara nuş oldun, Vüqar.

Yurdun səcdəgahı şəhid oğullar,
Ulu məmələkətçin igid doğular,
Vətən qan içində dərddən boğular,
O qəddi-qamətə ağlayar, Vüqar,
Hər şəhid sinələr dağlayar, Vüqar.

Yarası sağalmaz sözlə ananın,
Necə ismarlayım, o ölüm anın?
Bu müdhiş zamanın töküm al qanın,
Bir də igidlərə qıymasın, Vüqar,
Oymasın, sinələr, oymasın Vüqar.

Sancılıb Hoqqaza o pak izlərin,
Laçın keçidində qalıb gözlərin,
Yağıya enmədi bir an dizlərin,
Şəhidlik kişilik qeyrəti Vüqar,
Fələyin mərdlərə neməti, Vüqar.

Tökmə gözlərindən o qanlı yaşı,
Uca tut daima, o uca başı,
O hər birimizin cəsur qardaşı,
Ağlama, ay anam, şəhiddi Vüqar,
Tanrı dərgahına pak yetdi Vüqar.

Şadiman yaralı anana həmdəm,
Gözünün evindən qurumayır nəm,
Ruhunun səcdənə gələrəm hər dəm,
Ağlayır alışan varaqlar, Vüqar,
Şəhid məzarları soraqlar, Vüqar.

23.06.1994

YAŞAMAĞA DƏYƏR BU YERDƏ

Bol sulu selləri qaynayıb-axar,
Dağlar bir-birinə eşq ilə baxar,
Lalələr düzləri yandırıb yaxar,
Qapımı səadət döyər bu yerdə.
Könül, yaşamağa dəyər bu yerdə.

Ağ tülə bürünər günəşli göylər,
Hər qaya, hər zirvə bir dastan söylər,
Bura qədəm qoyan qüssə, qəm neylər?
Meşələr yaşıl don geyər bu yerdə,
Könül, yaşamağa dəyər bu yerdə.

Bürüyər ormanı quşların səsi,
Riqqətə gətirər bura hər kəsi,
Yenə al-əlvandır Qafqaz ölkəsi,
Səni gur yağışlar döyər bu yerdə,
Könül, yaşamağa dəyər bu yerdə.

Dağların sultanı Çıraqqalası,
Nağıllı, dastanlı tarix balası,
Min-min əsrlərə heyrət olası,
Sərkərdə sözünü deyər bu yerdə,
Könül, yaşamağa dəyər bu yerdə.
Zümrüd bulaqların gözü aynadır,
Bülbüllər könülü, gözü oynadır,
Burda kürə günəş qanı qaynadır,
Ağaclar budağın əyər bu yerdə,
Könül, yaşamağa dəyər bu yerdə.

Min nağıl, min dastan Şabran torpağı,
Könlə gəl-gəl deyir aranı, dağı,
Şadiman, zövqə bax bu bahar çağı,
İgidlər atını öyər bu yerdə,
Könül, yaşamağa dəyər bu yerdə.

12.10.1986 Nasosnu

BİZİM BİRLİYİMİZ

Dağıstanlı ləzgi İbrahimov
Nurməhəmməd Ələddin oğluna

Azəri, Bosniya, Fələstin, Livan,
Müsəlman elləri ölüm, qan, divan,
Yoxmu kafirlərin burnunu ovan?
Müsəlman gör necə gündədi, qardaş?
Bizim birliyimiz dindədi qardaş.

Bu qırğın, bu savaş islama dəyir,
Quranın, Kəbənin qəddini əyir,
Ləzgini, talışı, kürdü də döyür,
Azəri torpağı elimiz, qardaş,
Baxma ki, ayrıdır dilimiz, qardaş.

Üç balan qalsa da köməksiz, körpə,
Sinənə dəysə də qurğuşun, qəlpə,
Köksünə sığınıb çöl, çəmən, təpə,
Açılıb güllələr ürəkdən, qardaş,
Bu alın yazısı fələkdən, qardaş.

Kafirə əsirdir müsəlman qızı,
Qüruba enibmi Kəbə ulduzu,
Birdir Quranımız, qiblənin üzü,
Batıbdı savaşa ölkəmiz, qardaş,
Müsibət andırır kölgəmiz qardaş.

Gəzərkən başımız üstündə qada,
Ey şəhid dindaşım, yetişdin dada,
Etdin cavan canı bu yolda fəda,
İslamın başının üstə dəyənək,
Kişilik qeyrəti hər kəsə örnək.

Erməni tək türkü salmıb ayağa,
Fars, kürd, talış, ləzgi qalxsın ayağa,
Buluddan göl olur çox yağa-yağa,
Bu gün kişiliyin ahı-ünüdür,
Bu gün müsəlmanın xilas günüdür.

Ey şəhid qardaşım, ruhun şad olsun,
Bu yurdda, yuvada son fəryad olsun,

İslam torpaqları qoy abad olsun,
Diz çöküb Tanrıdan dilərək aman,
Yad edər, o şəhid ruhu Şadiman!

31.06.1994. Pirallahı

SƏNİN DƏRDİN

Xalq şairi Balaş Azəroğluna

Deyirsən dumana bürünüb Təbriz,
Sənin dərdin, mənim dərdimdir, şair.
Deyirsən ayrıldı bu cığır, bu iz,
Təbriz yurd-yuvanın mərdidir, şair,
Sənin dərdin, mənim dərdimdir, şair.

Açılır cahana həzin bir səhər,
Qaranlıq köçünü dünyadan sürür.
İstəklər, məramlar çapır bir təhər,
Dünya özü boyda bir günəş görür,
Qaranlıq köçünü dünyadan sürür.

Sinəsi həsrətli, ey yurdun oğlu,
Çox da qəm eyləmə açılar yollar.
Dunya əyan edir yoxsulu, qulu,
Hər daşı bir tarix uludan ulu.
Çox da qəm eyləmə açılar yollar.

Güclü yağış yağar, bütün günahlar
Yuyunar dünyanın sinəsi üstə.
Al-əlvan geyinər aydın sabahlar,
Sülhün nəğməsini oxuyar pəstə.
Yuyunar dünyanın sinəsi üstə.

Ayrılıq, yurduma oxudun ovsun,
Ürək qəm yükünü çəkə bilməyir.
Başından dumanı küləklər qovsun,
Qədər irticanın burnunu ovsun!
Ürək qəm yükünü çəkə bilməyir.

25.01.1987

NƏ ŞİRİNSƏN, ANA DİLİM

Məmləkətin bəzəyisən,
Sən ruhumun özəyisən,
Varlığımın istəyisən,
Qovuşsun can-cana, dilim.
Nə şirinsən, ana dilim.

Yad üstündən salmasın yol,
Gəl mənimlə qol-boyun ol,
Bu sinəmə odunla dol,
Yetişsin an-ana dilim.
Nə şirinsən, ana dilim.

Çox döyüldün yağışlarda,
Çox söyüldün qarqışlarda,
Əsir oldun sərt qışlarda,
Heç doymadın cana, dilim,
Nə şirinsən, ana dilim.

Çiçək açsın Mil, Muğanın,
Sözdən keçər hər Muğamın,
Doğulandan şərbət camın,
Min can verər cana dilim,
Nə şirinsən, ana dilim.

Atam, anam gedər olar,
Gözəlliyim hədər olar,
Dünya bir gün mənsiz qalar,
Milyard ömür sana dilim,
Nə şirinsən, ana dilim.

Təbrizimdə kitaba dön,
Dilində haqq-hesaba dön,
Qələbənin yolunda ön!
Qoyma yağı dana, dilim.
Nə şirinsən, ana dilim.

Nağıl, qoşma, şux bayatı,
İsindirər bu həyatı,
Vətənimin küliyyatı
Düzülər yan-yana, dilim,
Nə şirinsən, ana dilim.

Şadimanın can odası,
Sözə bağlı hər sevdası,

Ey dilimin mübtədası,
Girmisən al qana, dilim,
Nə şirinsən, ana dilim.
Nə şirinsən, ana dilim.

08.05.1987

TORPAĞINA YAZ GƏLİB

Güllər verib bülbüllərlə baş-başa,
Dönüb yurdum yenə də al qumaşa,
Hər addımın tamaşadır, tamaşa,
Od-alovlu sinəsində saz gəlib,
Vətən, sənin torpağına yaz gəlib.

Açır yenə bağçalarda çiçəklər,
Min bir növlü ağacların ləçəklər,
Uçuşarlar kəpənəklər, böcəklər,
Sanki elə bir şahanə qız gəlib,
Vətən, sənin torpağına yaz gəlib.

Səmaların yeddi qurşaq geyibdi,
Şimşəklərin buludları döyübdü,
Ay-ulduz da göydə özün öyübdü,
Gözümüzə işıq verən göz gəlib,
Vətən, sənin torpağına yaz gəlib.

Təbəssüm var qız-gəlinin üzündə,
Od-alov var igidlərin gözündə,
Yığ sinənə lələləri düzündə,
Təbiətə həm işvə, həm naz gəlib,
Vətən, sənin torpağına yaz gəlib.
Baş-başadır Şahdağınla Qoşqarın,
Zirvələrdə tükənməzdir saf qarın,
Yaşıl xara geyinibdi baharın,
Köksümüzü odlandıran köz gəlib,
Vətən, sənin torpağına yaz gəlib.

Yenə hörür saçlarını söyüdlər,
At belində çapır yeltək igidlər,
Qorqud dilli elim dinlər öyüdlər,
Pak dilində nəğmə, mahnı, söz gəlib,
Vətən, sənin torpağına yaz gəlib.

08.05.1987

EY DƏNİZ ŞƏHƏRİ

Polad dirəkləri dayaq eyləyib,
Sığındın qüdrətli, qadir əllərə.
Dəli xəzrilərin qəddini əyib,
Əfsanə, möcüzə oldun ellərə.

Ey dəniz şəhəri, yoxdur bənzərin,
Odlu yay ayında yaylaqtək sərin,
Köksündə yurd salıb mavi Xəzərin,
Min-min dastan oldun tuti dillərə.

Ey dəniz şəhəri, neçə millətin,
Sinəndə birləşdi artdı qiymətin.
İş varmı səninçin dünyada çətin?
Çoxlu zəfər yazdın saysız illərə.

Tufanın bağrını əsir etmisən,
Xəzərin içində gültək bitmisən,
Qara qızılınla dada yetmisən,
Neftini döndərdin coşqun sellərə.

Ey dəniz şəhəri, tilsimlərinlə,
Əsrlər mat qoyan hünərlərinlə,
Addımı min dastan zəfərlərinlə,
Ən yeni tarixsən sən nəsillərə.

24-25.06.1987

TORPAĞINDA AYAQ AÇDIM

Torpağında ayaq açdım,
Çiçək təki ətir saçdım,
O ildən bu ilə qaçdım,
Pak köksündən keçdi yolum,
Vətən, sənə qurban olum.

Bahar gəlib çağlayanda,
Bülbül sinə dağlayanda,
Qəlb qəlblə əhd bağlayanda,
Ovsunlanar sağım, solum,
Vətən, sənə qurban olum.

Ərənləri necə mərddi,
Səndən qaçan nə namərddi,
Aramızda çay sərhəddi,
Tarixinin saçın yolum,
Vətən, sənə qurban olum.

Soyumazdır od-ocağın,
Necə isti pak qucağın,
Kəc baxarsa sənə yağı,
Gülsən, gülüm dolsan, dolum,
Vətən, sənə qurban olum.

Heç dilindən doyarammı?
Səndən ayrı uyarammı?
Yad elə can qoyarammı?
Etsəm əgər, qoy mən solum,
Vətən, sənə qurban olum.

05.10.1987

ŞƏHİDİN QANI

Torpaqdan lalətək cücərib çıxır,
Cənnətə bəzəkdir şəhidin qanı.
Ruhu kainatın köksündən baxır,
Döyünən ürəkdir şəhidin qanı.

Bu yurdun sinəsi çox paralandı,
Bağrı min bir yerdən hey yaralandı,
Düşüb nahaq şərə çox qaralandı,
Göyündə küləkdir şəhidin qanı.
Şahidlər torpağım deyib, bağırdı,
Tarixi zülümün evnə çağırdı,
Göydən də, yerdən də güllə yağırdı,
Sınmış bir diləkdir şəhidin qanı.

Güllə yağışları həddən ziyada,
Gözlərdən yox oldu işıq, ziya da,
Ahlar parçalandı daşda, qayada,
Usanmış mələkdir şəhidin qanı.

Şadiman, boş yerə dünya döyüşdü,
Köksü paralandı, torpağa düşdü,
Haqq neçə yol enib, ayağa düşdü,
Min illər hələkdir şəhidin qanı!

24.07.1990

DOYMAQ OLMUR

Əməyin bol, zəhmətin bol,
Zəfərləri saymaq olmur.
Yorulmazdır o əl-qol,
Vətən səndən doymaq olmur.

Bol nemətli bağlarınla,
Başı qarlı dağlarınla,
Bu bəxtiyar çağlarınla,
Vətən, səndən doymaq olmur.

Palıdların kölgə salır,
İgidlərin zəfər çalır,
Anaları layla çalır,
Vətən, səndən doymaq olmur.

Gözlərinin işığı bol,
Evinin yaraşığı bol,
Ellərinin aşığı bol,
Vətən, səndən doymaq olmur.

Dəli-dolu çaylarınla,
Ötüb keçən aylarınla,
Min bir zəfər saylarınla,
Vətən, səndən doymaq olmur.

Möcüzədir, dağın, düzün,
Sehirlidir parlaq üzün,
Vallah, deyim sözün düzün,
Vətən, səndən doymaq olmur.

Millətimin anasısan,
Göllərində sonasısan,
Sinəmizdə yanasısan,
Vətən, səndən doymaq olmur.
Vətən, səndən doymaq olmur.

16.10.1987

ƏYİLƏN DEYİL

Ey bizi süngülərlə, əymək istəyən cəllad,
Şəhidlə el dolsa da, bu xalq əyilən deyil.
Onsuz da bu məmləkət sizdən ummayır imdad,
Haqqı naçar qalsa da, bu xalq əyilən deyil.

El basılmaz Babəklər, Koroğlular yurdudur,
Mərdanə birliyimiz əyilməz bir ordudur,
Sabaha addımlayan amalımız bax budur,
Ölüm min-min olsa da, bu xalq əyilən deyil.

O tökülən qanları unutmaz Bakı, Gəncə,
Boğazdandı ölkədə riya, ölüm, işgəncə,
Ey siyasət qulları silinməz qanlı gecə,
Yağı zəfər çalsa da, bu xalq əyilən deyil.

Gözü yaşlı Bakımız verdi min-min qurbanlar,
Susduruldu arzuya, kama yetməmiş canlar,
Şəhid oldu cavanlar, axdı sel təki qanlar,
Qollar qandallansa da, bu xalq əyilən deyil.

Halal çörəyimizə gizli zəhər qatanlar,
Qabarlı əlimizlə haram vara çatanlar,
Zərli imarətlərdə harın-harın yatanlar,
Sazım matəm çalsa da, bu xalq əyilən deyil

Haqqımız tapdalanır, vicdanlar qəfəsdədi,
Torpağıma göz dikmiş yağı min həvəsdədi,
Namərdin yeri zirvə, mərd axır nəfəsdədi,
Amalımız solsa da, bu xalq əyilən deyil.

Demokratiya deyərək, boğazını yırtanlar,
Ey əyrini, oğrunu yuxarıya dartanlar,
Aşkarlıq işığında mikrob təki artanlar,
Ürəkləri çalsa da, bu xalq əyilən deyil.

Şadiman, səslənəcək ədalətin nəğməsi,
Çatacaqdır dünyaya Azərbaycanın səsi,
Şər, iftira yuvası olub yağı ölkəsi
Səsimizi alsa da, bu xalq əyilən deyil.

09-10.02.1990

BİR GÜN GƏLƏR

Vətən, bir gün gələr, haqqın qapısı
Üzünə açılar, dözüb səbir et.
Qarışıq dövranda kəsilib asi,
Yağının bağırın üzüb, səbir et.

Zaman haqsızlara qan ağladacaq,
Bağrına dağ çəkib hey dağladacaq,
Riyakar qapısın haqq bağladacaq,
Şeytanı əlinlə əzib, səbir et.

Varımız yağını iştaha salıb,
Özgə tikəsindən dildə dad qalıb,
Haram tikəlilər sonda alçalıb,
Hiyləni, fitnəni sezib, səbir et.

Ey yurdum, aldanma min bir sifətə,
Yol vermə bağrına dolan xiffətə,
Köksündən püskürən hər xəyanətə,
Bir çarə tapmaqçın gəzib, səbir et.

Səbirlə tapılıb hər gizli mətləb,
Səbirlə vüsala yetişər tələb,
Onsuz da dövrandan ağrı çəkir qəlb,
Zaman dəryasını üzüb, səbir et.

İnsanlıq tamaha yanan bir tifil,
Haqsızın, qansızın əlində səfil,
Həyat bir şahmatdır, udarsansa, bil,
Atını, filini düzüb, səbir et.

Ey Vətən, yadlara yağlı aş oldun,
Səni sevənlərə qanlı yaş oldun,
Şəhid düşən üçün qəbrə daş oldun!
Dünyada talandı, bezib, səbir et.

12.10.1992

TAĞAYIM

Dönə-dönə sənə qayıdıram,
kənd-kəsəyim, yurdum, ocağım...

Çocuqluğum gül qoynunda yatıbdı,
Xatiratı köhləninə çatıbdı,
Olmuşları uyğulara qatıbdı,
Doğulmuşam qucağında, Tağayım,
Boy atmışam ocağında, Tağayım.

Gilavarın çılğınlıqla əsərdi,
Şıltaqlıqla yollarımı kəsərdi,
Dəli-dolu göylərindən küsərdi,
Od qoyardı ürəklərə, Tağayım,
Yollanardı fələklərə, Tağayım.

Nazlı Xəzər saçlarımdan öpərdi,
Dalğaları vücuduma səpərdi,
Təpələrin ləpələrə sipərdi,
Dənizinlə oynaşardıq, Tağayım,
Gur sellərlə qaynaşardıq, Tağayım.

Yaz gələndə Gilgilçayı coşardı,
Qəzəbindən öz həddini aşardı,
Dərya nədir? Yoxuşa dırmaşardı,
Gur telini gün yayardı, Tağayım,
Əldən düşüb uyuyardı, Tağayım.

Ayaqyalın qumlar üstə gəzərdim,
Qucaqlaşıb dalğalarla, üzərdim,
Saçlarıma mirvari qum düzərdim,
Günəş odun qalayardı, Tağayım,
İsti qurdtək ulayardı, Tağayım.

Səhər oldu, ev işlərin bölərdik,
Qap-bacanı yığışdırıb silərdik,
Şor bulağın cığırına enərdik,
Qəh-qəh çəkib gülüşərdik, Tağayım,
İş-güc ilə döyüşərdik, Tağayım.

Səsləyərdi anam məni bulaqdan,
Harayları getməz idi qulaqdan,
Gur suları töküb yalın ayaqdan,
Addımları atıb izə, Tağayım,
Üz qoyardıq evimizə, Tağayım.

Köç eylədi, o illərin yel təki,
Qayıtmadı, axıb getdi sel təki,
Uşaqlığım şehə batmış gül təki,
Qönçəsini tufan vurdu, Tağayım,
Qəm yedirdi, dərd doydurdu, Tağayım.

Novruz gəldi tonqalları çatardıq,
Bir-birini od üstündən atardıq,
Qapıları pusanları tutardıq,
Deyib-gülüb, şadlanardıq, Tağayım,
Oddan keçib, odlanardıq, Tağayım.

Qoyun-quzu qayıdardı düzlərdən,
Bir yorğunluq oxunardı üzlərdən,
Açılmazdı, heç başımız dərd-sərdən,
Uşaq-böyük çalışardıq, Tağayım,
Gün uçub şər qarışardı, Tağayım.

İşığımız neft lampadan süzərdi,
Gecələri xof nağıllar üzərdi,
Su maşını qapı-qapı gəzərdi,
Sabahlarla yarışardıq, Tağayım,
Hər əzaba alışardıq, Tağayım.

Gur sobamız çırta-çırtla yanardı,
Mənim könlüm od-ocağı anardı,
Qışda çöldə əllərimiz donardı,
Yığışardıq ocağına, Tağayım,
Baş qoyardıq qucağına, Tağayım.

Şirin xanım dəli, çılğın övladın,
Ölsəm zərrən, qalmış olsam öz adın,
Yaddaşımdan silinərmi pak adın?
Uşağlığım, ən xoş çağım, Tağayım,
Əzablarla ucalığım, Tağayım.

26.01.1992

ANA VƏTƏN

Yaşıllığa bürünübdü bağça-bağ,
Nə gözəldir könül oxşar bu növrağ,
Günümüz xoş, taleyimiz olub ağ,
Ana vətən, günlərimiz var olsun,
Bağrın başı gül-çiçəklə qoy dolsun.

Yaz sinəni bəzəyibdir al-əlvan,
Mənim dəvam-dərmanındır xoş havan,
Axır yenə irmaqların gür, rəvan,
Ana vətən, düzlərində yaraşıq,
Mingəçevir gecələrə gür işıq.

Dəli külək çöldə, düzdə deyinir,
Ağacların yaşıl ipək geyinir,
Güney-qüzey ürək kimi döyünür,
Ana vətən, ellər əkin-biçində,
Hərarət var o sinənin içində.

Qara gözlü gözəllərin nazlanar,
Aşıqların bağrı-başı sazlanar,
Odlar yurdu baharlanar, yazlanar,
Ana vətən, açar gözəl səhəri,
Bağ-bağçanın çiçəklənir bəhəri.

Nələr keçir ürəyimdən bircə an,
Göylərində nə qızarır gözəl dan,
Ürəyimə həyat verir coşan qan,
Ana vətən, yurdun-yuvan ətirli,
Al düzlərin qalaq-qalaq çətirli.

Ürəyimin söhbəti bol, sözü bol,
Qaynar-qaynar bulaqların gözü bol,
Torpağının çörək verən özü bol,
Ana vətən, nəfəsində həyat var,
Səadətə şux, qol-boyun büsat var.

Ömür keçir, zaman keçir, il keçir,
Novrağından taleyimiz su içir,
Ömrümüzdən xoş, mənalı gün keçir,
Ana vətən, ələnsin qoy gur yağış,
Ötsün-getsin ömüründən qarlı qış.

Qərib-yolçu qaranquşlar gəldilər,
Uzaqlardan gəlib yorğun idilər...
Bahar ilə birgə deyib güldülər,
Ana vətən, al səhərin çağlasın,
Ürəyini gündüzlərə bağlasın.

27.04.1986 Nasosnu

CAN ARAZ

Can Araz, hey can Araz,
Eyləmədin qan Araz.
Hamı yıxır talayır,
Heç olmur divan Araz.

Gözüm baxır qan-yaşa,
Yetməyir can sirdaşa,
Bizi Vətəndən edən,
Görüm dönəydi daşa.

Göyləri çən alıbdı,
Ətəyin gen salıbdı.
Güney-Qüzey deməkdən,
Dillər qabar çalıbdı.

Yol gedir Ərdəbilə,
Bərk demə, yağı bilə.
Bizi candan ayıran,
Can deyir bilə-bilə.

Yollar üstü yağışdı,
Hər gözdə bir baxışdı.
Getdim Araz boyunca,
O taydan el baxışdı.

Təbriz üstə gün düşməz,
Sədam batar ün düşməz.
Yağı asan kəndirə,
Min yerdən düyün düşməz.

Can Araz, hey can Araz,
Eyləmədin qan Araz.
Hamı yıxır talayır,
Heç olmur divan Araz.

17.03.1989

TƏBRİZ DEDİM

Ayrılıqlar gör bizlərə neylədi?
Təbriz dedim, yandı sinəm, göynədi.

Ağrılardan keçdi vətən torpağı,
Bizi dərdlə ölçdü vətən torpağı,
Bağrımıza köçdü vətən torpağı,
Ayrılıqlar gör bizlərə neylədi?
Təbriz dedim, yandı sinəm, göynədi.

Bu nə sitəm, bu nə karvan, bu nə köç?
Düşdü yurdda, düşdü eldə köçə-köç,
Can bədəndən ayrılarmı? Deyin heç,
Ayrılıqlar gör bizlərə neylədi?
Təbriz dedim, yandı sinəm, göynədi.

Deyirlər ki, Araz axır qırmızı,
Yağı, düşmən durdu üzə qırmızı,
Hansı millət durub deyər qır bizi?!
Ayrılıqlar gör bizlərə neylədi?
Təbriz dedim, yandı sinəm, göynədi.

Biz də belə bir taleyi yaşarıq,
İçimizdə dərdə coşub daşarıq,
İl ötdükcə ağrımızı qaşarıq,
Ayrılıqlar gör bizlərə neylədi?
Təbriz dedim, yandı sinəm, göynədi.

O tayımdan bu tayıma sərhəd var,
Hər zülümün içində də bir həddi var,
Aramızda qoluzorlu namərd var,
Ayrılıqlar gör bizlərə neylədi?
Təbriz dedim, yandı sinəm, göynədi.

Bu tarixi biz yaşadıq, siz görmün,
Ey cavanlar, bükülən bir diz görmün,
Biz çözməsək, kəramətli iz görmün,
Ayrılıqlar gör bizlərə neylədi?
Təbriz dedim, yandı sinəm, göynədi.

Şadimanın xəta sanmın sözünü,
Günah bilib, heçə danmın sözünü,
Necə silim ürəkdən yurd közünü?!
Ayrılıqlar gör bizlərə neylədi?
Təbriz dedim, yandı sinəm, göynədi.

08.10.1986

AŞIR-DAŞIR SİNƏNDƏ

Məhəbbətin aşır-daşır sinəndə,
Al səhərə bürünmüsən yenə də,
Bu günündən bir pay düşür mənə də,
Neft Daşları, saf ab-havan var olsun,
Mənim könlüm gur sulara yar olsun.

Buruqların günəşə əl eyləyir,
Hər addımın bir dastan boy söyləyir,
Sənlə olan dağı, düzü neyləyir?
Neft Daşları, coşğun dəniz dağındır,
Buruqların meşələrin, bağındır.

Yenə gündüz həyat çoşur, çağlayır,
Çətinliklər zəhmətinlə ağlayır,
Neçə tale ömrün bura bağlayır,
Neft Daşları, yurdumun od qalası,
Vətənimin möcüzəli balası.

Sıx buludlar göy üzünə gələndə,
Başın üstün duman, çiskin dələndə,
Yağış, leysan qəh-qəh çəkib güləndə,
Göy Xəzərdə gur dalğalar çaxnaşar,
Xırda-xırda balıqlar da qaynaşar.

Yatmış səhər yuxusundan oyanır,
Günəş durub şəfəqlərə boyanır,
Yer də, göy də hüzurunda dayanır,
Qağayılar vurur özün sulara,
Qaqqıldayıb sürtür üzün sulara.

Ləpə üstə dirəklərdi, dayağın,
Dərinlərə pərçimlənib ayağın,
Gecə-gündüz alovlanır çırağın,
Neft Daşları, mehmanına məkan ver,
Titrəməsin ayağımın altda yer!

Körpü salaq ürəyimdən dənizə,
Tufanlarla qoy könlümü üz-üzə,
Qasırğayla qurşaq tutaq diz-dizə,
Qat oduna ürəyimin odunu,
Neft Daşları, yazdım könlə adını.

Şadimana sən olmusan pasiban,
Oynat təbi, ol onunla mehriban,

Günəş təki nurun olsun çıraqban,
Neft Daşları, nə odludur ocağın?
Ana təki çox istidir qucağın!

13.05.1986

VƏTƏN TORPAĞI

Qışda quzeyimsən, yayda güneyim,
Sübh çağı şehlərlə nəş'əli meyim,
Bağrı sarı bülbül – uzaq Güneyim,
Seyir, tamaşadır aranı, dağı,
Mənə candan əziz vətən torpağı.

Bir sarı siminəm, mizrab istərəm,
Çəkdiyin ağrıya hesab istərəm,
Tabsız səbirimə mən tab istərəm,
Bizi parçaladı düşmən ayağı,
Mənə candan əziz vətən torpağı.

Göyündən asılan günəşin olum,
Sönmüş ocağında atəşin olum,
Bu haqsız dövranla gərdişin olum,
Öz insanında gəz yurda dayağı,
Mənə candan əziz vətən torpağı.

Bilməm nə hikmətdir sevgin diləkdə,
Özün boylanırsan canda, ürəkdə,
Ağrın döşək salıb yatıb kürəkdə,
Sinəyə yaradır ayrılıq dağı,
Mənə candan əziz vətən torpağı.

Dur aç sərhədləri, keçim Təbrizə,
Tikələr, parçalar dağ çəkib bizə,
Asaq müjdələri gecə-gündüzə,
Sənin harayların yırtsın qulağı,
Mənə candan əziz vətən torpağı.

Gəzək məmləkəti istək içində,
Yıxaq sərhədləri, ötək içində,
Ya qalxaq, ya da ki, itək içində!
Yazaq misra-misra bu ağ varağı,
Mənə candan əziz vətən torpağı.

10.07.1987

TORPAĞIM

Müddətdi ki, başın üstün alıbdı
Fitnə-feil, eldə yasdı, torpağım.
Bədnəzərin gül sinəndən çalıbdı,
Qəm oxuyan nə avazdı, torpağım.

Fələkdənmi yetdi qəfil fəlakət?!
Yasa batdı Odlar Yurdu məmləkət,
Yağılara qismət oldu şan-şövkət,
Zalım bizə məzar qazdı, torpağım.

Güllə keçdi, parçaladı sinələr,
Yuvasında qara geydi binələr,
Lal dünyanın fəraqına dinələr...
Ürək daha sınıq sazdı, torpağım.

Öz yurdundan qaçıb çıxan kişilər,
Öz əliylə evin yıxan kişilər,
Öz dərdinə durub baxan kişilər,
Ağlımızda nə ayazdı, torpağım.

Biz də axı bu Vətənin adıyıq,
Guya, yanan ocaqların oduyuq,
İndi yağı gülləsinin dadıyıq,
Çoxu başdan çox dayazdı, torpağım.

Müsibətlər yurd-yuvaya yeriyir,
Mənliyimiz ayaq altda əriyir,
Hər çatan da özünə bir ər deyir,
Boş-boş ötən nə nəvazdı, torpağım.

Şadimanı durun çəkin çarmıxa,
Ürək dözmür qan-qırğına göz baxa,
Düşmən gələ, yurd-yuvana od yaxa,
Qartal sanan özü qazdı, torpağım.

26.06.1990

EY ŞƏHİD QƏBİRİ

Nakam igidlərin ləyaqət evi,
Tükənsin millətin bu dərdə səbri.
Biz boğa bilmədik iblisi, divi,
Ey şəhid qəbiri, şəhid qəbiri.

Günahkar batacaq qara günaha,
Qəfəsdən çırpındıq azad sabaha,
Oldu yurdumuza bu addım baha,
Ey şəhid qəbiri, şəhid qəbiri.

Sinədə şırımlar açdı bu dağlar,
Bu vaxtsız ölümlər sinələr dağlar,
Dərdlərdən ovulub töküldü dağlar,
Ey şəhid qəbiri, şəhid qəbiri.

Güllə yağdıranın haqqa qəsdi nə?
Durdu nakamların yağı qəsdinə,
Baxmadı bəndələr tanrıya, dinə,
Ey şəhid qəbiri, şəhid qəbiri.

Qarşında diz çöküb ağlaram hər gün,
Getməz bu sinədən ölüncə düyün,
Biz nə vaxt görərik dünyada bir gün?
Ey şəhid qəbiri, şəhid qəbiri.

Titrər için-için dərddən bağrımız,
Daşnakdır, ay ellər, bizim yağımız,
Yağının dişinə yem torpağımız,
Ey şəhid qəbiri, şəhid qəbiri.

Şadiman baş əyir, durub qarşında,
Gözündən yaş gəzir məzar daşında,
Min dəfə qocaldı cavan yaşında,
Ey şəhid qəbiri, şəhid qəbiri.
Ey şəhid qəbiri, şəhid qəbiri.

22.07.1990

SEHRİNDƏN ALIŞDIM

Unudulmaz səsli Rübabə Muradovaya ithaf

Səsindəki sehirindən alışdım,
Yandı bağrım oda, közə, Rübabə.
Ürəyimin hicranına qarışdım,
Doldu qan-yaş küskün gözə, Rübabə.

Nə bəladı, büryan oldu ürəklər?
Niyə bizi qarqışladı fələklər?
Ayrı düşdü o tay, bu tay diləklər,
İllər keçdi dözə-dözə, Rübabə.

Qafqazlardan Savalana səsləndin,
Ərdəbili ürəyində bəslədin,
Bu ağrını hər bir kəsdən həslədin,
Dönük Araz baxmır sözə, Rübabə.

Haqsızlıqlar parçaladı sinəni,
Uçurtdular Ərdəbildə binəni,
Doğradılar ana dildə dinəni,
Yurdun qanı çıxdı dizə, Rübabə.

Başın üstə fələklər qan ağladı,
Yurd ayrıldı, bu dərddən can ağladı,
Zaman ötdü, qapında an ağladı,
Müsibətin qalxan-nizə, Rübabə.

Bir ömürdü, biz də köçüb, gedərik,
Dərd şərbətin haqdan içib, gedərik,
Ayrılığı yovuq seçib, gedərik,
Zaman gülsün neylək üzə, Rübabə.

Segah üstə ağladırsan ürəyi,
Səsin Rəbbin könlə yatan mələyi,
Çatdırırsan yurddan yurda diləyi,
Arzun daşa dəymiş kuzə, Rübabə.

Biz qorxağıq, yoxsa fələk amansız?
Ömür ötür, köç üstündə səhmansız,
Görüb yağı, qalsın daha fərmansız,
Kim ayıra, kimlər dözə, Rübabə.

Oxu «Heydər baba»dan sən misranı,
Düşsün ərzə, silkələsin İranı,
Yandırırsan başdan-ayaq bu canı,
Ağrı-acı durub üzə, Rübabə.

Sən səhnədə Leyli olub ağladın,
Yurda Məcnun ürəkləri dağladın,
Füzulinin harayıyla çağladın,
Harayların zalım əzə, Rübabə.

Sən də yurddan yurda pənah gətirdin,
Qüzey tapıb, Güneyini itirdin,
O tayda da bülbül kimi ötürdün...
Səsin yerdən göyə ərzə, Rübabə.

Şirin xanım bir dünyalıq dərd daşır,
Hönkürtülər qəlbə düşür, dərd daşır,
Deyirlər ki, Araz özü yurd aşır,
El gələcək, bir gün bizə, Rübabə.

04.04.1980 Yasamal

VƏTƏN DEDİM

Vətən dedim, ürəyimə dağlar çəkildi,
Vətən dedim, gözüm qaldı, Araz, o tayda.
Gözlərimdən leysan təki yaşlar töküldü,
Vətən dedim, dözüm qaldı, Araz, o tayda!

Bu nə həsrət, bu nə hicran, bu nə ayrılıq?
Yandı könül gilə-gilə əzab içində.
Yağıların üzdə oldu bizə xoşqılıq,
Parçaladı yurd-yuvanı qəzəb içində.

Qərib-qərib Dərbəndimə baxıb, ağlaram,
Borçalıdan qopan haray sinə parçalar.
Mən özüm də bu dərdlərə yanan dağlaram,
Dərdlərimiz mağar qurar, bizə əl çalar.

Ey soydaşlar, Vətən bizə şərəf işidir,
Bu yaralı torpaqları qorumaq gərək.
Torpağa da, dövlətə də arxa, kişidir!
Dözməlidir, sərhədlərə, sədlərə kürək.

Gəl götürək sərhədləri, yıxaq sədləri,
Köləlikdən qurtulmağın yolu savaşdır!
Məmləkətin yurdum deyən, qoçaq mərdləri,
Yağıların kəsiləcək qolu – savaşdır!

Ondan keçir dövlətçilik, yurda sədaqət,
Kişi özgə dövlətlərin əsiri olmaz.
Güclülərin əlindədir yalnız həqiqət,
Belə getsə, yurdumuzdan heç nə də qalmaz.

Araz dedim, Təbriz coşdu qanla damarda,
Cuşa gəldi ürəyimə sızan haraylar.
Araz dedim, Babək Ərkdə çarpışdı darda,
Qayalarda toz qopartdı, çatladı vaylar.

Biz hayların məkirinə duşüb qalmışıq,
Yenə qalxıb Qarabağı pay umur onlar.
Bəsdir daha künc-bucaqda yuva salmışıq,
Bir olmasaq, axacaqdır hələ çox qanlar...

Şadimanı qınamayın ərlər, ərənlər,
Parça-parça məmləkətdən Vətənmi olar?
Ey yurdları qul qismində, əsir görənlər,
Köləlik də istiqlala heç tənmi olar?

27.12.1988

ÜZÜ GÜLMƏSİN

Qırıldı içimdə ümidlər, Allah,
Bizi bu zülümə salan gülməsin.
Taladı dünyanı pis cəhdlər, Allah,
İlantək sinələr çalan, gülməsin.

Müddətdi tökülür elin göz yaşı,
Yenə didərgindir yurd vətəndaşı,
Yağının başına ağırdır daşı,
Dünyanı dolaşan yalan, gülməsin.

Cəlladlar, qansızlar meydan sulayır,
Hər qanun başında quduz ulayır,
Neçə günahsızı qana bulayır,
Əldən nəş'əmizi alan gülməsin.

Şadiman, qırılıb elin çırağı,
Niyə eşidilməz haqqın sorağı?
Çox qanlar axıtdı yağı yarağı,
Qalsın aralıqda nalan, gülməsin.

28.01.1989 Tağay

VƏTƏNİM HARAY

Bir anda kədərin tikir min saray,
Toqquşub içində, acı duyğular.
Haray, ey alışan Vətənim, haray,
Alıbdı üstünü yenə qayğılar.

Çırpınır, döyüşür adınla illər,
Günlər qaçaqaçda, zaman tələsir.
Aparsın ağrını qanadlı yellər,
Qarşında gah günəş, gah qatı duman.

İdrak qovhaqovda min arzu doğur,
Bəxtinsə ağlayar bir uşaq kimi.
Hər açılan sabah bir gecə boğur,
Bəxtəvərdir kimi, bədbəxtdir kimi?!

Sənin də bəxtinə köləlik düşdü,
Parça-parça Vətən, bəlalı yurdum,
Elinə istiqlal – kişiyə işdi,
Nə vaxt yaranacaq bəs Milli Ordum?!

12.11.1989

GÜNAHKAR KİM OLDU

Günahkar kim oldu bu ayrılığa?
Kişilər pis çəkdi yurd qeyrətini.
Qoy olsun dedilər, dözərik dağa,
Dünya gizlətmədi heç heyrətini.

Bu ağlar taleyə kim gələcəkdir?
Cana sitəm edən xislət neyləsin?
Keşməkeş ömrünə qəm verəcəkdir,
Ayrılıq neyləsin, həsrət neyləsin?!

Çoxdan ürəyini qırdılar, Vətən,
Talanlar, qırğınlar keçdi sinəndən.
Sənə fitnə-fəsad qurdular, Vətən,
Ahın zərrə-zərrə, bax keçir məndən.

Səni parçaladı, böldü azğın yad,
Dərdinlə qəlbləri talan etmisən.
Nə qədər sinəmdən qopsa da fəryad,
Candan birdəfəlik çıxıb getmirsən.

Ruhumdan, canımdan doğmusan Vətən,
Səni ürəyimdən ata bilmirəm.
Əgər ölməmisən, sağmısan, Vətən
Ayıq ol, heç rahat yata bilmirəm.

Şadiman sadəlövh, düşmənin iblis
Necə məftun olub mələk dilinə.
Səni aralıqda oynatmasın hiss,
Mizrabtək toxunma ürək telinə.

12.11.1989

XALQIN SƏSİ

Özgəsinin torpağına göz dikən ey cəlladlar,
Partlayacaq başınızda min-min ahlar, fəryadlar.
Yurdumuza, yuvamıza «mənimki» deyən yadlar,
Ata-baba yurdumuzda bir dövlət yaratdınız,
Havamızdan, suyumuzdan çoxaldınız, artdınız.

Bu nankorluq ulunuzdan, kökünüzdənmi miras?!
O hiyləgər əllériniz qurdu məkirli bir tas,
Tanrı özü haqsızlığa gec-tez tutacaqdır yas,
Özgəsinin torpağında vəhşi qanqala döndüz,
Çirkin əməllər uğrunda çox alçaldız, çox endiz.

O tökülən pak qanların ruhu bir gün gələcək,
O məkirlə tutduğunuz yurdun bəxti güləcək,
Dünya gec-tez haqsızlığı anlayacaq, biləcək,
Fəqət, qiyamət o zaman duracaq qarşınızda,
Partlayacaq həm hiyləgər, həm murdar başınızda.

Əfsus, «Böyük Ermənistan» xülyasına düşənlər,
Yurdumuzu qan eyləyib aradan sürüşənlər,
Ey genosid qazanında qaynayanlar, bişənlər,
Azərbaycan çox görübdü bu məkirli donlardan,
Allah sizə keçməyəcək, bu günahsız qanlardan.

Qarabağın torpağında yenə də qan tökülür,
Kəlbəcərin şiş zirvəsi düşmən əllə sökülür,
Yağıların fitnəsiylə haqqın dizi, bükülür,
Dədəm Qorqud, aç gözünü, ey ulum, gör bü günü,
Xain əllə bəxtimizdən açılmayan düyünü.

Azərbaycan oğulları, birləşin yumruq kimi,
Yağıların sürünübdü arxada quyruq kimi,
Bu harayı yurd-yuvadan dinləyin buyruq kimi,
Düşmənlərin sinəsindən vurmaqçın dəmirləşin,
Ey qoç igid kişnərtili, Koroğlular, birləşin!

15.05.1990 Nasosnu

YAĞI GÜLLƏSİNƏ TUŞ OLAN BAKI

19.01.1990-cı ilin gecəsi Bakı küçələri, sovet qoşunlarının-rus işğalçılarının basqısı ilə al qanlara boyandı, etnik qövmündən asılı olmayaraq, mənliyi olan azərbaycanlı bu tarixi heç zaman unutmamalıdır! Kölelik kişiliyə zərbə vuran ən dəhşətli bəladır!

Yağı gülləsinə tuş olan Bakı,
Sinəsi qanlarla, ey dolan Bakı!

Güllələr yağışa döndü o gecə,
Dözdün ah-vaylara söylə sən necə?
Nahaq qanlar gördü saysız park, küçə,
Yaxıldı adına qaralar, Bakı,
Silinməz sinədən yaralar, Bakı.

Qapını əcayib iblis bağladı,
Qız, gəlin başına qara bağladı,
Azadlıq eşqiylə sinən çağladı,
Söndü çıraqların o gecə, Bakı,
Fitnə qalib gəldi gör necə, Bakı?!

Fələk də leysanlar tökdü gözündən,
Buludlar ağladı dərdli üzündən,
Yetmədi dünyaya haray sözündən,
Söndü isti, halal ocağın, Bakı,
Doldu qanlar ilə qucağın, Bakı.

Tökülən qanlardan yarandı sellər,
Qaldı halımızdan xəbərsiz ellər,
Tarixə saldırsın bu qanı illər,
İsti yatağında döyülən Bakı,
Təqsirsiz, günahsız söyülən Bakı.

Rusun İmperyası bizə qan oldu,
Bütün yurd-yuvaya bir divan oldu,
Əliylə İrəvan Yeravan oldu,
Hey acı dərdlərdən qan udan, Bakı,
Kölelik acısın, ey dadan Bakı.

Haylara gətirib, el verdi burda,
İki yüz il əzablar uddurdu yurda,
Nə oldu bəs Türkə, şanlı Boz Qurda?
Şəhidlər üstünə tökülən, Bakı,
Bağrı işgəncədən sökülən, Bakı.

Baxıram hüsnünə, partlayır bağrım,
Kimi bu haraya, bu qəmə çağrım?!
Yıxır ürəyimi, dağıdır ağrım,
Yiyəsiz uşaqtək ağlayan, Bakı,
Kölə xalqımızı dağlayan, Bakı.

Kişilər, dözməyin qana, qırğına,
Çəkin xəncərləri, basmayın qına,
Tamaşa etməyin, tökülən qana!
Bütün yurd-yuvanın, gözüdür Bakı,
Vətənin ocağı, közüdü Bakı.

Sən də, yurdun qızı, mərd əskər olaq,
Vallah, zəiflikdi durub saç yolaq,
Şəhidlər düzülüb, bax, qalaq-qalaq,
Qana ürcah olan bir çağdı, Bakı,
Bütün Azərbaycan ocaqdı, Bakı!

Şadiman, işğalı bilməyən, bilsin,
Tanrı pis qonşunu həyatdan silsin,
Yurda xor baxanın gözü tökülsün,
Fəryadla dünyanı oyadan, Bakı,
Haqqımız yolunda qan udan, Bakı.

28.01.1990 Tağay

TƏBRİZƏ MƏKTUB

Təbrizim, ağrıyla qolladım məktub,
Sənin ünvanına yolladım məktub.

Ünümüz yetməyən, ey ana Təbriz,
Kəslib xanların açdığı yol-riz,
Barı, halımızdan hali olun siz,
Şəhidlər oğulu, qızı yurdumun,
Sındı qol-qanadı, sazı yurdumun.

Gülləyə tutuldu yalın əl-ayaq,
Bakı qan içində üzdü bu sayaq,
Ümidsiz Bakıma, gəl sən ol dayaq,
Axdı, selə döndü qanı yurdumun,
Qəhərlə boğulub canı yurdumun.

Partlayır qüssədən, ələmdən ürək,
Salsın bəlalara yağını fələk,
İki ildir qurub elimə kələk,
Tökülür gözündən yaşı yurdumun,
Açılmır fitnədən başı yurdumun.

Əgər Quzeyimə düşsə güzarın,
Görərsən yüzlərlə şəhid məzarın,
Çatdır, dünyamıza el ahu-zarın,
Yetişsin dadına ellər yurdumun,
Haqq sözün söyləsin, dillər yurdumun.

Bizdən pay umurlar el torpaqları,
Çəkilir Vətənə sinə dağları,
Solur könüllərin həyat bağları,
Davakar adlanır özü yurdumun,
İki ildir gülmür üzü yurdumun.

Bəlaya tuş olub düzü məmləkət,
Döyür qapımızı hər gün fəlakət,
Harama dönübdü halal bərəkət,
Düşüb bəd ağıza sözü yurdumun,
Sönübdü ocağı, közü yurdumun.

Yağıya tuş olub gözəl Qarabağ,
Qanlı səngərlərə dönüb dərə, dağ,
Xaraba qalıbdı evlər, bağça-bağ,
Qalıbdı əllərdə bəxti yurdumun,
Sökülür, dağılır taxtı yurdumun.

Rusun işğalına tuş olmuşuq biz,
Göylərdə vurulan quş olmuşuq biz,
İndi bəbəklərdə yaş olmuşuq biz,
Qız-gəlin harayı, vaydı yurdumun,
Dərdi yığın-yığın taydı, yurdumun.

Haya, ermənıyə verib silahı,
Al qana boyayır, gələn sabahı,
Çıxıbdı, göylərə ellərin ahı,
Köksü parça-parça oldu, yurdumun,
Bağrı şəhidlərlə doldu, yurdumun.

Şadiman çağlayan, yanan el qızı,
Hönkürür qələmi, kağızı, sözü,
Gəlib yetişəndə əlinə yazı,
Təbriz, söyləyərsən dərdin yurdumun,
Çağır Koroğlusun, mərdin yurdumun.

09.02.1990

VƏTƏN DEYİB

Vətən deyib suyunu, havasını sevdiyim,
Sevinciylə şadlanıb, qüssəsiylə öldüyüm,
Sonsuz acı-ağrısın könül dərdi bildiyim,
Bacarmırıq biz sənə yaxşı övlad olmağı,
Düşmənینə bir yolluq son qələbə çalmağı!

Budur yenə qırğınlar, çarpışmalar başlayır,
Yağı ocaq başında, başımızı daşlayır,
Susun deyir bizlərə, məğlub hissi aşlayır,
Nə vaxt öyrənəcəyik biz də qisas almağı?!
Düşmənینə bir yolluq son qələbə çalmağı!

Bizi iki yüz il yağı, qul kimi bəsləyibdi,
Vətəni sevməməyə könül həvəsləyibdi,
Millətləri bir yerə yığıb qəfəsləyibdi,
İmperya öyrədibdi bizə yatıb qalmağı,
Qarını bəsləməyi, bu yolla ucalmağı.
Bacarmırıq, biz sənə yaxşı övlad olmağı.

Bu Vətənin içini sərhədlər yarır keçir,
Düşmənlər qoşalaşıb yurdumun qanın içir,
Yenə vətən insanın yağı sünbültək biçir,

Öyrənmişik ağlayıb, saçımızı yolmağı,
Bacarmırıq biz sənə yaxşı övlad olmağı,
Düşməninə bir yolluq son qələbə çalmağı!

Yenə xain əliylə bölünür torpağımız,
Yenə şişir dikəlir sinədən qəlb dağımız,
Haçan gələr, ey Vətən, bir firavan çağımız?
Öyrəşmişik köç edib, təzə məkan salmağı,
Bacarmırıq biz sənə yaxşı övlad olmağı,
Düşməninə bir yolluq son qələbə çalmağı!

Şadiman dikib başın sinəsinə, ey Vətən,
Qulaqları batmasın gur səsinə, ey Vətən,
Yenə yad xofu düşüb nəfəsinə, ey Vətən,
Mən kişilik saymıram kölətək ucalmağı!
Bacarmırıq biz sənə yaxşı övlad olmağı,
Düşməninə bir yolluq son qələbə çalmağı!

17.03.1990

NECƏ YAŞAYIRIQ BİZ

Gülləboran olunduq, yenə ocağımızda,
Dərdi daşıyırıq biz.
Bəslədik iblisləri, isti qucağımızda,
Necə yaşayırıq biz?

Vətən ahlar içində, fəryada gələni yox,
Qırılıb-çatılırıq, ölümüz var yerdə çox,
Ürəyimiz partlayır, nə dözürük dərdə çox?
Necə yaşayırıq biz?

Kölə babalar bizə, kölə Vətən saxlayıb,
Hər əsrdə min dəfə, ölüb-itən saxlayıb,
«Böyük qardaş» qəzəbli, yalançı eşq laxlayıb,
Necə yaşayırıq biz?

Düşmənin tanımayan, başa yaman kül olur,
Ağlayan ürək üçün, haray salan dil olur,
Millət tökülür çölə, dünyada səfil olur,
Necə yaşayırıq biz?

Azərbaycan, kimdədir sənin torpağın, daşın?!
Niyə dərddən qurtulmır, dincəlməyir heç başın?
Səni qorumaq üçün, nə etdi Vətəndaşın?!
Necə yaşayırıq biz?

Hanı Borçalı, Dərbənd, İrəvan, Göyçə hanı?
Nədən qorumuşuq bəs, tən içində bu canı?
Bürüyüb vücudumu bir illət həyəcanı,
Necə yaşayırıq biz?

İndi də Qarabağa göz dikib qansız yağı,
Dağılır kənd, qəsəbə, sönür yurdun çırağı,
Çatdırın məzarlarda yatanlara sorağı,
Necə yaşayırıq biz?

Təbriz, qaldır başını bax o taydan, bu taya,
Bax Vətənin qəlbindən dikələn ahu-vaya,
Uçub töküləydi kaş başımıza daş-qaya!
Necə yaşayırıq biz?

Biz nəyin fəxrindəyik, ey dilibir yurddaşlar,
Axı necə sinədən dikəlib qalxır başlar?
Axıdırıq kişili, qadınlı acı yaşlar!!!
Necə yaşayırıq biz?
Kölelik eşqiylə çox, a yanıb yaxılanlar,
Ey rusun ayağına qul təki yıxılanlar,
Bəsdir, sizi qorxutdu ayı donlu xoxanlar,
Necə yaşayırıq biz?

Hanı atlar üstündə qılınc çalan dədələr?
Qalxıb qəbirlərindən bağrımızı didələr,
Hanı başı papaqlı, hanı Vətəndidələr?
Necə yaşayırıq biz?

Şadimanı dilindən durun çəkin çarmıxa,
Ya mən doğulmayaydım, ya ruhum çıxsın yoxa,
İşğala dözmək olmur, axı göz baxa-baxa,
Necə yaşayırıq biz!
Necə yaşayırıq biz?

17.03.1990

ÖZÜMÜ AXTARIRAM

YOLLARA DİKİLİB QALIB

Gözlərim yollara dikilib qalıb,
Könlümün evini dumanlar alıb,
Ömrümün illəri xəyala dalıb,
Nə bir gedənim var, nə bir gələnim,
Nigarançılığa qəlbim bələnib.

Tale keşməkeşli olurmuş, aman,
Məni imtahana çəkdi bu zaman,
Dünyanın işləri yamandır, yaman,
Bir gündə qəm-qüssə, sevinc də gəlir,
Könlümdə min cürə heyrət yüksəlir.

Mənim həyatıma ağrıyan ürək,
Səni susdurmasın fırtına, külək,
Coş, gurla sədanı eşidək, bilək,
Həyat yollarında büdrəməyək, gəl
Fərəhlə qurulsun hər köklü təməl.

06.02.1985

GÖZ AÇDIM

Göz açdım-açmadım mən bu həyata,
Yenə can həmdəmim qəm, kədər oldu.
Kədərə, qüssəyə hey bata-bata,
Sevincim, şadlığım bir qədər oldu.

Əzablar ruhumu möhkəm eylədi,
Ancaq rahatlığı çox kəm eylədi,
Fərəh anlarımı bir dəm eyldi,
Zənn etdim, ömürüm dərbədər oldu.

Hər cür şübhələri puç etdi hünər,
Məni çox işlətdi, suç etdi hünər,
Yalın ayaqlarla yol getdi hünər,
Özü öz halımdan lap betər oldu.

04.04.1987

XƏTAKAR

Tülkü təki çəkilibdi qınına,
Heç əziyyət verməz, vallah canına,
Tökər çoxlu ağ vərəqlər yanına,
Ondan-bundan yazar-pozar xətakar,
Həddin aşar, yolun azar xətakar.

Hiyləbazdır cavanlıqdan, lap düzü,
Sənə baxar, guya gülər boz üzü,
Nə vaxt görən qurtaracaq öz sözü,
Qan qaraldır, qəlb yandırır xətakar,
Canı candan usandırır xətakar.

Ondan deyir, bundan deyir, doymayır,
Bir kimsəni, vallah, gözdən qoymayır,
Heç olmasa, yaxşı-yaman saymayır,
Hər pisliyə lap müntəzir, xətakar,
Şərləməkçin adam gəzir, xətakar.

Üzü-gözü sir-sifəti saralır,
Hər gün neçə ağ vərəqlər qaralır,
Kim deyər ki, şər işlərdə daralır,
Günü-gündən yolun azır, xətakar,
Hər adama quyu qazır, xətakar.

Bir kimsəylə heç oturub, durmayır,
Adam yoxdur ona tələ qurmayır,
O kəs varmı onla ara vurmayır?
Ləkə vurar, adlar pozar, xətakar.
Səhər yazar, axşam yazar, xətakar.

Mərdimazar əlinə can düşübdü,
Əmələndən çox ürəklər şişibdi,
Bu peşədə tamam-kamal bişibdi,
Top dağıtmaz qala qurub, xətakar,
Qələmiylə yolda durub, xətakar.

08.05.1987

ƏLLƏRİNDƏ ŞƏFQƏT VAR

Həkim, sənin əllərində şəfqət var,
Mərəzlərin yolun bağlar ürəyin.
Təbabətsiz dünya olar ahu-zar,
Könüllərə həyat vermək diləyin.

Çöhrəndəki təbəssümlər qəlb açar,
Çox sinənin ağrısına sən açar,
Təbibliyin pak həyata yol açar,
Ey təbibim, yorulmazdır biləyin.

Bu ürəyim od əlində qalmışdı,
Mərəz onu girdabına salmışdı,
Başım üstün zalım ölüm almışdı,
Əzrailin yaman bildin kələyin.

05.02.1988

DOĞUM GÜNÜM

Ömür keçir, saç ağarır, yaş artır,
Qəlb içində arzu-dilək baş qatır,
Hər keçən də yollarıma daş atır,
Çalma, partlar taleyimin qavalı,
Doğum günüm, nə gəlmisən havalı?

Mən heç yolun yarısına çatmadım,
Boş işlərlə öz başımı qatmadım,
Yorğanımı çəkib başa yatmadım,
Ömür-günün dəyir cana zavalı,
Doğum günüm, nə gəlmisən havalı?

Göz açandan çarpışıram aylarla,
Ürəyimdən yara açan vaylarla,
Göz yaşımdan çeşmə gəzən çaylarla...
Fikirin var, soruşasan sən halı,
Doğum günüm, nə gəlmisən havalı?

Bu dünyaya öz xoşumla gəlmədim,
Gələn gündən bir doyunca gülmədim,
Niyə gəldim? Gəldiyimi bilmədim,
Utancdanmı, üzün-gözün həyalı?
Doğum günüm, nə gəlmisən havalı?

Deyiləsi sözün varsa, de, danış,
Ürək yanır, sən də ora dur qarış,
Bilirəm ki, deyəcəksən, nə yarış?
Sevməmişəm heç bir sözü boyalı,
Doğum günüm, nə gəlmisən havalı?

Şadimanın gözündə gəz qəmini,
Ağrılara tut gözünün nəmini,
Vurnuxuram, tapım işin çəmini,
Dodaqlarım doğulandan dualı,
Doğum günüm, nə gəlmisən havalı?
Doğum günüm, nə gəlmisən havalı?

02.09.1988

DÖVRAN DOLANIR

Yaş ötür, gün keçir dövran dolanır,
Mənsə öz yerimdə sayıram hələ.
Bəs niyə bəxtimin suyu bulanır?
Ağ cığırlar çəkir həyat gur telə,
Mənsə öz yerimdə sayıram hələ.

Bir ömür veribdi qədərim mənə,
Can verir qarşımda hər an, hər saat.
Qəm salır könlümü dumana, çənə,
Bəs nə vaxt gələcək bəxtə xoş büsat?
Can verir qarşımda hər an, hər saat.

Çırpınır, vuruşur duyğu ürəklə,
Hər gün döyüşdədir insan həyatla.
Düşüncə ağılla, ömür diləklə,
Fikirlər öcəşir bu batabatla,
Hər gün döyüşdədir insan həyatla.

Heç də ürəyimi qınamayın siz,
Onun döyüntüsü başda çatlayır.
Canımı ağrıyla sınamayın siz,
Fikirlər dözməyir canda partlayır,
Onun döyüntüsü başda çatlayır.

Mən də ağrılardan ucada durdum,
Döyüşə səslədim diləklərimi.
Ürək can yandırdı, bacada durdum.
Aləmlər ağladı çəkdiklərimi?
Döyüşə səslədim diləklərimi?

01.09.1989

ÖMRÜN İLLƏRİ

Ötür karvan təki ömrün illəri,
Yaşımın üstünə yaş gəlir daha.
Saraldır bağçada açan gülləri,
İntəhasız könlü qəm dəlir daha.

İllərin çovğunu, qarı ələnib,
Qara saçlarıma müddətdi belə.
Üzümə illərin çəni ələnib,
Əzabdı, niskildi, hiddətdi belə.

01.09.1989

ÖMÜR SINAQ MEYDANI

Həyat çətin, ömür sınaq meydanı,
Leysanları döyəcləyir başıma.
Bilinməyir əyri hanı, düz hanı?
Kim yol açar, kim səd çəkər qarşıma?

Zaman məni tələsdirər, qovlayar,
Gah fərəhlə, gah niskillə hovlayar,
Hiyləsiylə başımızı tovlayar,
Duz yerinə zəhər qatar aşıma.

Hardan gələr, hardan gedər bu günlər,
Neçə-neçə açılmayan düyünlər.
Namərd əllə bəxtimizi düyünlər,
Bir ömürlə nələr gəlməz başıma?!

Gələnlərin sinəsində çağlayar,
Gedənlərin qapısını bağlayar.
Şadla gülər, ağlayanla ağlayar,
Hansı başlar dəyməz ömür daşına?!

Qovğalıdır, məkirlidir işləri,
Parçalayar, yalquzaqtək dişləri.
Süd verəndi hər gələnə döşləri,
Özü ölçər, sayı verməz arşına.

Ey Şadiman, nə qovğadır, bu qovğa?
Buraxmayır həyat bizi heç yovğa,
Bəxtimiz də hər işində lap lovğa,
Hər gün, hər an yaş gətirər yaşına.

24.11.1989

ƏSİR ÜRƏYİMDƏ

Əsir ürəyimdə soyuq bir külək,
Ümidsiz həyatım fəğanə gəlir.
Elə qəm verirsən mənə, ey fələk,
Başsız duyğularım tüğyanə gəlir.

Bir gün görməmişəm bu dünyada mən,
Qəlbimin sultanı çiskin, duman, çən,
Vaxtsız saçlarıma ələm salıb dən,
Adam bu mühitdən lap canə gəlir.

Dolaşır hər yanda yalan, riyalar,
Baş alır ən çirkin, iyrənc xülyalar,
Dincimi aldığım, ey tək röyalar,
Vicdanlar yığışıb üsyanə gəlir.

Birinin əlində varidat, dövlət,
Canlı insanları eyləyir alət,
Dünyada hakimdir zülüm, səfalət,
İblislər çoxalıb ət-qanə gəlir.

Mərifət azalıb, çoxdu öyüdsüz,
Arxları kəsilən qaldı söyüdsüz,
Körpələr böyüyür analı südsüz,
Dünyaya çocuqlar divanə gəlir.

Vallah, özümüzə olmuşuq cəllad,
Nə ah eşidirik, nədə ki, fəryad,
Bu məzlum millətə etməkdən imdad,
Başa çəkilən də divana gəlir.

Vicdan ayaq altda inləyərkən ah,
Min bir bəlasıyla açılır sabah,
Yığılır üst-üstə qalatək günah,
Kim deyir bu bəşər imanə gəlir?

Günümüz qaradır, can gəlir zara,
Haqqını istəyən qəlb para-para,
Şadiman, bununla gedirik hara?!
Gün-gündən vulkanlı zamanə gəlir.

11.02.1990

AĞIL QOY

Kökündən, soyundan niyə ayrılıb?
Düşmüsən dağlara, daşlara, düzlük.
Yolundan azanı yoluna qaytar,
Ağıl qoy divanə başlara, düzlük.

Dünya qan içində boğulub qalıb,
Haqsızlar haqlının sinəsin çalıb,
Qəlblərdə pisliklər yurd-yuva salıb,
Ağıl qoy divanə başlara, düzlük.

Sərvətlə, dövlətlə mənsəb tuturlar,
Var üstə doğmanı yada satırlar,
Yaxşını yamana niyə qatırlar?
Ağıl qoy divanə başlara, düzlük.

Mənəm deyənlərin ağzını bağla,
Haqsızın yasın tut, üstündə ağla,
Uzağa gedərmi dünya bu dağla?
Ağıl qoy divanə başlara, düzlük.

Ürəklər, diləklər ucuzlaşıbdı,
Arxalı köpəklər quduzlaşıbdı,
Niyə bəs bəndələr həddi aşıbdı?
Ağıl qoy divanə başlara, düzlük.

Telefon zəngiylə ad-sanlaşırlar,
Əyri yollar ilə imkanlaşırlar,
Yalançı şöhrətlə həddi aşırlar,
Ağıl qoy divanə başlara, düzlük.

Kilid vur hərcayi ötən dillərə,
Ədaləti analt bəd əməllərə,
Salma həqiqəti, haqqı əllərə,
Ağıl qoy divanə başlara, düzlük.

İdraka, kamala baxan yoxdu, yox,
Düz addım atana tuşlayırlar ox,
Dünyanın acları toxlarından çox,
Ağıl qoy divanə başlara, düzlük.

Tanrı da üzünü döndərib bizdən,
Haqsız axan qanlar dünyada dizdən,
Açılsın pərdələr düz görən gözdən,
Ağıl qoy divanə başlara, düzlük.

Sinələr, könüllər diləksizləşib,
Torpağa bağlılar dirəksizləşib,
Vicdanı olan da ürəksizləşib,
Ağıl qoy divanə başlara, düzlük.

Sevgilər, eşqilər dönükləşibdi,
Tanrının ziyası sönükləşibdi,
Haramı udanlar çevikləşibdi,
Ağıl qoy divanə başlara düzlük.

Şadiman sızlayıb yanan kamandı,
Yolu azan bizik, zaman, zamandı,
Dünya öz oxundan çıxar, amandı,
Ağıl qoy divanə başlara düzlük.
Ağıl qoy divanə başlara düzlük.

24.11.1989

İÇİMDƏ DOLAŞIR

İçimdə dolaşır qərib bir hicran,
Mən bu müsibətə qarışmadayam.
Yanır gilə-gilə, fəğan edir can,
Eşqimin külünə sarışmadayam.

Tək mənə tuş oldu fitnə, kələklər,
Elə hey könlümün için ələklər,
Ünümə yetməyir yerlər, fələklər,
Divanə talelə vuruşmadayam.

Kimə can dedimsə, vurdu başımdan,
Zəhərli qanqaltək bitdi qarşımda,
Bir xoş gün görmədim mən heç yaşımda,
Kədərlə, ələmlə yarışmadayam.

Tanrının gözündən düşmüş qulam mən,
Taleyin yolunu kəsib duman, çən,
Ağardı saçlarım qar təki dən-dən,
İndi bu ömrümlə barışmadayam.

Hiylədən, fitnədən uzaq ürəklə,
Hələ də ümidlə yanan diləklə,
Kinitək qorxulu mən bu fələklə,
Bəxtin ətəyindən yapışmadayam.

Şadiman, könlünü etmə əyləncə,
Lap başdan, binadan həyat işgəncə,
Davakar bəxtinlə çəkilib küncə,
Hələ kor qismətlə qapışmadayam.

03.05.1990

TALEYİMİN ÖNÜNDƏ

Sönük taleyimin önündə bə'zən,
Günlərlə xəyala dalıram, neylim?
Mənim ürəyimi qismətdir əzən,
Meylimi aləmə salıram, neylim?

Həyatım işgəncə, ömrüm işgəncə,
Bu sınıq, talesiz ürək əyləncə,
Bəxtimin əlindən sığınıb küncə,
Yüyənsiz dünyayla qalıram, neylim?

Qədirsiz, qiymətsiz torpağım ağlar,
Yağılar əlində çırağım ağlar,
Qaraya boyanmış bayrağım ağlar,
Nəhirsiz buludam, doluram, neylim?

Şadiman, qəmindən fələk bezardı,
Rəhimsiz dövranın qulağı kardı,
Qanunlar əlində görən də kordu,
Məramlar içində soluram, neylim?!

23.06.1990

BAŞI POZUQ ZAMANƏDƏN

Başı pozuq zamanədən, dövrandan,
Haqq işinə bircə alqış, gözləmə.
Canın getsə, cismə ölüm, o candan,
Nə xoş duruş, nə xoş baxış gözləmə.

Əllər əyri, gözlər fitnə, iç yağlı,
Kəndarlarda üzə qapı kip bağlı,
Dünya özü «Məlikməmməd» nağılı,
Bəxt xalına ondan naxış gözləmə.

Gördüyünü anlasa da, qansa da,
Məkirlilər həqiqəti dansa da,
Susuzluqdan tələf olub yansan da,
Kor bəxtindən leysan, yağış gözləmə.

Ey Şadiman, ilham coşğun şəlalə,
Həyadanmı cismi, bağrı al lalə,
Bu ürəyim suya təşnə piyalə,
Şərqisinə tərif, yarış gözləmə.

23.07.1990

BİZ SABAHA YOL GEDİRİK

Bu dünyanın qucağında
Hər işi asan edirik.
İsinib yer ocağında,
Biz sabaha yol gedirik.

Üfüqləri yara-yara,
Duyğuları ara-ara,
Çətinliyi salıb tora,
Biz sabaha yol gedirik.

Arzu dolu zəfərlərlə,
Aya, ilə səfərlərlə,
İgidliklə, sərt hünərlə,
Biz sabaha yol gedirik.

Şadlıq yağsın xoş üzlərdən,
Nur tökülsün qoy gözlərdən,
İlhamlanıb dürr sözlərdən,
Biz sabaha yol gedirik.

Bu torpaqdır dayağımız,
Heç sönməsin çırağımız,
Üzülməsin ayağımız,
Biz sabaha yol gedirik.

Enişlərlə, yoxuşlarla,
Amal salan naxışlarla,
Namərd üzən baxışlarla,
Biz sabaha yol gedirik.

Dünya bizim, haqdan yazaq,
Tufan olsun gözdən uzaq,
Könül, yerdən, göydən yazaq,
Biz sabaha yol gedirik.
Biz sabaha yol gedirik.

04.02.1986

MƏKTƏB İLLƏRİ

Səni ki, unutmaq mümkünsüz inan,
Yamanca çağlatdın tuti dilləri.
Ürək sənə bağlı, getməz bu peyman,
Əlvida, müqəddəs məktəb illəri.

Titrək əllərinə çanta aldığım,
Kiçik kənd yoluna cığır saldığım,
O pak uşağlığa zəfər çaldığım,
Əlvida, müqəddəs məktəb illəri.

Kövrək addımlarla yollar getdiyim,
Uca zirvələri dilək etdiyim,
Boranı, sazağı eşqlə ötdüyüm,
Əlvida, müqəddəs məktəb illəri.

Həyat yollarında ey düz yerişim,
Odlu sınaqlarda mətin vuruşum,
Elmdə, savadda qəti duruşum,
Əlvida, müqəddəs məktəb illəri.

İsmətin, qeyrətin yolları olan,
Yorulmaz, bükülməz qolları olan,
Elmə, maarifə gur işıq salan,
Əlvida, müqəddəs məktəb illəri.

Ata-anamıztək mehribanlığın,
Uşaq dünyamıza istiqanlığın,
Aydın gələcəyə pak insanlığın,
Əlvida, müqəddəs məktəb illəri.

Cəhaləti üzə bağlı eylədin,
Avamlığın köksün dağlı eylədin,
Bizi nə bəxtiyar çağlı eylədin,
Əlvida, müqəddəs məktəb illəri.

Qoynuna sığındıq bir bala kimi,
Yer verdin bizlərə sən qala kimi,
İzlədin bizləri düz yola kimi...
Əlvida, müqəddəs məktəb illəri.

Bu Şirin zirvəyə hey ucalsa da,
Elmdən, ədəbdən o tac alsa da,
Unutmaz tək səni, yaş qocalsa da,
Əlvida, müqəddəs məktəb illəri.
Əlvida, müqəddəs məktəb illəri.

24.05.1972 Siyəzən

ANANIN BAXIŞLARI

Günəşdir yolumuzda,
Udar qarlı qışları.
Qüvvətdir qolumuzda,
Ananın baxışları.

Gecəmizə çıraqdır,
Ömrümüzə varaqdır,
Yoxuşlarda yaraqdır,
Ananın baxışları.

Gecə-gündüz izləyir,
Yolumuzu gözləyir,
Hər anı əzizləyir,
Ananın baxışları.

Qışımda ocaq olar,
Leysanda bucaq olar,
Ən isti qucaq olar,
Ananın baxışları.

Çətində sirdaşımdı,
Dağdan uca başımdı,
Qəmimdə göz yaşımdı,
Ananın baxışları.

Şadiman, pak adındı,
Yoxuşda fəryaddındı,
Bədəndə şirin candı,
Ananın baxışları.

11.10.1986 Nasosnu

QARA YELLƏR

Əsdi üstümüzdə hey qara yellər,
Cırdı sinəsini, ağladı illər,
Sitəmdən doğulan qəlb zülmü neylər?
Bunu anlamaq və düşünmək yetər,
Sabahın acısı bügündən betər.

Bu Şadiman ki, var içi qüssədir,
Onun ələmləri hissə-hissədir,
Ürək də, könül də, qəlb də xəstədir,
Cırır sinəsini ağlayır ürək,
Bu ahı, amanı eşitmir fələk!..

10.10.1991

A NEFTÇİ OĞLAN

Əllərin qabarlı, ürəyin təmiz,
Çək aləmə keşik, a neftçi oğlan.
Səni öz qoynuna alıbdı dəniz,
Xəzərmi ev-eşik, a neftçi oğlan?

Küləklər əlini işdən soyutmaz,
Əməksiz səadət könlü ovutmaz,
Gözlərin gecəyə qısılıb yatmaz,
Küləklər dəyişik, a neftçi oğlan.

Möhkəm biləklərin yorulmaq bilmir,
Bəxtindən gecə də, iş-güc çəkilmir,
Zülmətin də bağrı sənsiz sökülmür,
Dirəklər lap beşik, a neftçi oğlan.

Mənim də taleyim düşübdü bura,
Ruhumda vurğunluq vardır sulara,
Yatmış duyğularım ayılıb dura,
Düşə sözə işıq, a neftçi oğlan.

06.03.1986

QURBAN OLUM, AY ANA

Sənsiz həsrət əlində,
Qoyma dolum, ay ana,
Nə od-közdür gözündə,
Qurban olum, ay ana.

Bu müqəddəs elinə,
Şirin-şəkər dilinə.
Ağaran gur telinə,
Qurban olum, ay ana.

Hərarətin bir ümman,
Nə tez keçir il, zaman.
Qocalıq vermir aman.
Qurban olum, ay ana.

Söhbətin, sözün gözəl,
Dünyamdan özün gözəl,
İşıqlı üzün gözəl,
Qurban olum, ay ana.

Tələsən qırışına,
İllərlə yarışına,
Aylarla vuruşuna,
Qurban olum, ay ana.

Şadimanın çıraqı,
Ömrünün ağ varaqı,
Sevmə məndən iraqı,
Qurban olum, ay ana.

14.10.1987 Tağay

ÖTÜR KEÇİR GÜNLƏRİM

Ötür keçir lal-kar axan sel təki,
Gah dadlıdı, gah dadsızdı günlərim.
Əsir hələ bir yüyənsiz yel təki,
Gah adlıdı, gah adsızdı günlərim.

Niyə bilməm dağlarında çiskin, çən?
Gah yamandı, gah ümmandı, günlərim.
Hər gün, hər an saçlarıma salır dən,
Gah aydındı, gah dumandı günlərim.

Əskik olmaz zirvəsindən qarları,
Gah enişli, gah yoxuşlu günlərim.
Tufan qoymaz tutsun bağda barları,
Gah alışlı, gah verişli günlərim.

Zaman tökər min dərdi-sər başına,
Gah şirindi, gah acıdı günlərim.
İl ötdükcə, yaş gəldikcə yaşına,
Gah anadı, gah bacıdı günlərim.

Ey Şadiman, yola baxır gözlərin,
Gah atadı, gah qardaşdı günlərim.
Hər sübh-səhər qəlbə axır sözlərin,
Etibarlı vətəndaşdı günlərim.

24.04.1988

XƏTİRİNƏ DƏYİBLƏR

Könül, yenə xətirinə dəyiblər,
Boşca yerə qəlb çırağın əyiblər,
Yaxşı-yaman, nə deyiblər, deyiblər,
Qəlb ağrıdan hər bir sözdən, incimə,
Dönük üzdən, dönük gözdən, incimə.

Ömür gedər əldən, qalan nə olar,
Axır bir gün dünya sənsiz, eh qalar,
Gənclik uçar, ömür solar, gün solar,
Hər alqışdan, hər qarqışdan, incimə,
Mənası puç, hər baxışdan, incimə.

Addımını hər addım düz atırmı?
Mərd dediyin kölgələrdə yatırmı?
Ürək ki, var hər amalı qatırmı?
Səhv addımın duruşundan, incimə,
Bu dünyanın qurluşundan, incimə.

Çox ərənlər köçün sürüb gedibdi,
Sinəsini şər hesablar didibdi,
Namərd olan mərdi candan edibdi,
Sərt amaldan, sərt yerişdən, incimə,
Həyatınla bu vuruşdan, incimə.

Körpə gəlir, bu dünyaya demə düz,
Yaxşı-yaman öyrədirik ona biz,
Bu torpağa qoyacaqsa, o bəd iz,
Əslin ara, kökün ara, incimə,
Sevər gecə zülmət qara, incimə.

Mənəm, deyən çox yapışıb varından,
Zirvə üçün keçdi namus, arından,
Ürəklərin boranından, qarından,
Tufanından, küləyindən, incimə,
Coşan çirkin diləyindən, incimə.

Bəndələrin iyi gəlir torpaqdan,
Həyan yoxdu, bağa solmuş yarpaqdan,
Nə qalacaq payızına can bağdan?
Hiyləgərdən, bədəsildən, incimə,
Nakişidən, naəsildən incimə.

Can deyərlər bilirsən ki, üzünə,
Söz çıxardar, tələ quran sözünə,

Mərdlər ilə təsəlli ver özünə,
Süni üzdən, süni sözdən, incimə,
Ağrı verən, xoş gündüzdən, incimə.

Çox hiyləgər əl tumarlar başını,
Çox naəsil kəsib durar qarşını,
Bildiyintək ömrə ölçüb arşını,
Çəkib bəxti dərdə, zora, incimə,
Tökmə gözdən yaşı qara, incimə.

Hər döydüyün qapı üzə gülərmi?
Hər əl dönüb göz yaşını silərmi?
Şər dediyin haqq-hesabı bilərmi?
Həyat çətin, aman edib, incimə,
Könlün üçün iman edib, incimə.

Ey Şadiman, həyat necə gözəldir,
İnsan-varlıq, demə daim, əzəldir,
Bir xoş kəlam sınıq könlü düzəldir,
Çətinlikdən haray salıb, incimə,
Sirli dünya kimə qalıb? İncimə!

28.05.1986. Nasosnu

SALDI YAMAN QƏMLƏRƏ

Fələk məni saldı yaman qəmlərə,
Necə dözüm könül üzən dəmlərə?
Göz altında qurumayan nəmlərə,
Haqsızlıqlar sinəm için dağladı,
Naxələflər üzə qapı bağladı.

Hey döyüldüm, hey çırpındım sonu yox,
Üzlər var ki, nə astarı, donu yox,
Bəla gördüm «mənəm» deyən sözdən çox,
Naxələfə işin düşdü, yamandı,
Hər əzaba dözüb durmaq, amandı.

Boğazlarda boğulan hay kimiyəm,
Zəmilərdən biçilən tay kimiyəm,
Göz yaşında çırpınan çay kimiyəm,
Ruhum qopub, göyü-yeri vurnuxur,
Axan sular sonra tapır bir çuxur.

25.03.1989

VİCDAN

İnsan idrakının sabahı olub,
Zülmətə qələbə çalıbdı vicdan.
Hər qəlbin, ağılın allahı olub.
Ürəyi əlinə alıbdı vicdan.

Haqsızlıq görəndə qəzəbdən coşub,
Düzlüyə, xeyirə min dastan qoşub,
Neçə min keçilməz sədləri aşıb,
Həyat simfonyasın çalıbdı vicdan.

İşığa həssasdır odlu gözləri,
Qəlblərə mehmandır loğman sözləri,
Oduna qərq edib al gündüzləri,
Günəşi köksünə salıbdı vicdan.

Hər addım izlədi haqqın qədərin,
Gövhər dəryaları dərindən dərin,
Basıb gen bağrına insan kədərin,
İncə mətləblərə dalıbdı vicdan.

Onun pak məkanı həmişə yazdır,
Nurlu gecəsi də daim bəyazdır,
Qəlbləri fəth edən yanıqlı sazdır,
Gah zildə, gah bəmdə çalıbdı vicdan.

Ömrün yelləriylə həmahəng əsər.
Büdrəyən anlarda yolunu kəsər.
Addımı xeyirlə yoğrulmuş əsər,
İlantək pisliyi çalıbdı vicdan.

Min cür qanunları yazar düzünə,
Nurundan min günəş doğar düzünə,
Bacar, bəd ayaqda düz bax üzünə,
Görərsən qəhrindən solubdu vicdan.

Hər addım kölgətək izlədi bizi,
Yığdı, cilovladı gecə-gündüzü,
Bir nadan əlində bükülüb dizi,
Darda, çətinlikdə qalıbdı vicdan.

Göylərin üzünü bulud görəndə,
Qəlbi nalə çəkən bir ud görəndə,
Kökü baltalanan palıd görəndə,
Üsyankar göylərtək dolubdu vicdan.

O ürəklə gülər, ürəklə ağlar,
Hökmüylə min şərin qapısın bağlar,
O nazlı bülbüldür, könülsə ağlar,
Nə yaxşı idrakdan olubdu vicdan.

Şadiman, gözüylə səni izləyib,
Büdrəyən anında hər an gözləyib,
Mehriban anatək hey əzizləyib,
Boynuna qolunu salıbdı vicdan.

07.06.1987

YAZIQ

Dözüb iblislərin min bir üzünə,
Özünü tələyə salana, yazıq.
Hiylə pərdəsini çəkib üzünə,
Günahsız ürəyi alana, yazıq.

Hər dildən bəd sözü dərd eyləməzlər,
Kökündən namərdi mərd eyləməzlər,
Həyat bir şahmatdır, nərd eyləməzlər,
Burda gün görməyib, solana yazıq.

Çoxları min yolla çəkilir başa,
Bir dada yetməkçin dönürlər daşa,
Dünyada namərdlik heç yetməz başa,
Elə qarğış olan, balana yazıq.

Sərvəti talayıb, üstün örtərlər,
Özünü, sözünü gözə dürtərlər,
Mənsəbçin əyilib, ayaq sürtərlər,
Xain tələsində qalana yazıq.

Şadiman, dünyanın əzabı bitməz,
Demə, bu yaşamaq əbəsdir, yetməz,
Bulunma içində, dərdi-sər bitməz,
Bu acı hiss ilə, dolana yazıq.

10.10.1989

ÇƏTİNDİR

Namərd olan göstərdiyin yolun nə,
İz qoyduğun o sağın nə, solun nə,
Şər işlərə təməl qoyan qolun nə,
Bu həyatda sənlə yeriş, çətindir,
Amalına köklü vuruş, çətindir.

Əlac olan, dərd əlində əlacsız,
Xeyirli iş çıxmaz səndən heç bacsız,
Şərəf-şöhrət axtarmadın sən tacsız,
Vicdanında dönüş etmək, çətindir,
Səninlə bir yol da getmək, çətindir.

Həyat içrə soyuğun nə, odun nə,
Sənnən sonra qərar tutan adın nə,
Çox dilləri zəhər edən dadın nə,
Məsləkini duyub-anmaq, çətindir,
Od-közündə bir gün yanmaq, çətindir.

Çox gözləri yaşlı qoydu əcdadın,
Çox sinələr dəlib oydu əcdadın,
Pisliyindən nə vaxt doydu əcdadın?
Namərd, sənlə addım atmaq, çətindir,
O kölgəndə qəfil yatmaq, çətindir.

Qəlb sındırmaq, ürək qırmaq peşəndir,
Sadəlövhlər, tilovuna düşəndir,
Ovsununla çox bağırlar şişəndir,
Əməlinlə yarışmaq da, çətindir,
Hər işinə qarışmaq da, çətindir.

Məramını anlamazlar dünyada,
Yolundaca saç ağartdı dünya da,
Təmizləri çox vermisən, sən bada,
Tələ quran, ucalmaq da, çətindir,
Ömür sürüb qocalmaq da, çətindir.

Şadimanın od-alovu, közü çox,
Taleyinin, enişi çox, düzü çox,
Sinəsində deyiləsi sözü çox,
Düzə eniş, səd düşəndə çətindir,
Namərd ələ mərd düşəndə çətindir.

14.10.1987 Tağay

MƏN NEYLƏYİM, AY ANA

Könlümü dərd alanda,
Günüm sənsiz qalanda,
Könlüm-gözüm dolanda,
Mən neyləyim, ay ana?

Ağaran tellərinə,
Savaşan illərinə,
Soluxan güllərinə,
Mən neyləyim, ay ana?

Tələsən günə, aya,
Ötüşən yaza, yaya,
Yaman günə, ah-vaya,
Mən neyləyim, ay ana?

Ağrıyan ürəyinə,
Qayğılı diləyinə,
Yorulan biləyinə,
Mən neyləyim, ay ana?

Qocalıq boyun burub,
Budur, qapında durub,
Dişinə çox can vurub,
Mən neyləyim, ay ana?

Qırışan ələ, üzə,
İşıqdan qalan gözə,
Qiymətdən düşən sözə,
Mən neyləyim, ay ana?

Şadiman könlü dolu,
Sənsən işıqlı yolu,
Gözdən yağanda dolu,
Mən neyləyim, ay ana?

16.10.1987

VİCDAN GÖZÜN YUMANDA

İnsan yolunu azır,
Özünə quyu qazır,
Qətlinə fərman yazır,
Ürək çəndə, dumanda,
Vicdan gözün yumanda.

Tamah həddini aşır,
Ağılla hey savaşır,
Qəzəb də, kin də daşır,
El, yurd qalar amanda,
Vicdan gözün yumanda.

Vara hərislik artır,
Adam özünü dartır,
Qəlbi pisliyə dartır,
Hamıdan borc umanda,
Vicdan gözün yumanda.

Gözləri bağlı olur,
Qapısı bağlı olur,
Qarını yağlı olur,
Addımdan var umanda,
Vicdan gözün yumanda.

Gördüyünü qamarlar,
Yediyini hamarlar,
Yığdığını tumarlar,
Ürək ahda, amanda,
Vicdan gözün yumanda.

Ondan-bundan qorxmayır,
Halal-haram baxmayır,
Doğmasına baxmayır,
Ömür oxda, kamanda,
Vicdan gözün yumanda.

Tutduğundan yapışır,
Var-dövlətlə qapışır,
Hərisliklə tapışır,
Tamah olar kamında,
Vicdan gözün yumanda.

Qılınclaşar millətlər,
Ucuzlaşar qeyrətlər,
Çirkin olar niyyətlər,
Ağlar məkan, zaman da,
Vicdan gözün yumanda.

Şadiman, üzlər gülməz,
Əl edəni qəlb bilməz,
Gözdən yaş da tökülməz,
Bayquş uçar damında,
Vicdan gözün yumanda.

13.06.1987 Nasosnu

MƏNİM ATAM

Zəhməti ilham bəslədi,
Zirvələri qaçıb tutam,
Hər işi xoş nəfəslədi,
Mənim atam, mənim atam.

Zülmətimə mayak oldu,
Kədərimə dayaq oldu,
Həyatıma çıraq oldu,
Mənim atam, mənim atam.

Əzabkeşim, cəfakeşim,
Sinəmdəki od-atəşim,
Başım üstə pak günəşim,
Mənim atam, mənim atam.

Taleyimin qalasıdır,
Hər günümə qalasıdır,
Dərdə zəfər çalasıdır,
Mənim atam, mənim atam.

Sinəsindən od almışam,
Düzlüyündən ad almışam,
Vicdanından and almışam,
Mənim atam, mənim atam.

Şadimanın pasibanı,
Yeri, göyü asimanı,
Unutmaram pak simanı,
Mənim atam, mənim atam.

16.10.1987

ATA-ANA QOCALDI

Cavanlıqda canlarını üzdülər,
Ömrümüzə xoş günlərin düzdülər,
Üzümüzü məhəbbətlə süzdülər,
Bizim ilə aydan-aya ucaldı,
Ay cavanlar, ata-ana qocaldı.

Biz ucaldıq zirvələrin fövqünə,
Ovsunlandıq cavanlığın zövqünə,
Bol həyatın, şad həyatın şövqünə,
Onlar min bir çətinlikdən bac aldı,
Biz firavan, ata-ana qocaldı.

Sabah üçün çox üzdülər özlərin,
Gözümüzçün kor etdilər gözlərin,
Necə vaxtsız qırış basdı üzlərin,
Bizim üçün ucalığı tac aldı,
Ey övladlar, ata-ana qocaldı.

Baş ağrıdı, başlarını tutdular,
Qəm-kədəri varlığına çatdılar,
Xoş günlərlə qəlbə sevinc qatdılar,
Uşaqları güclərindən güc aldı,
Ay oğullar, ata-ana qocaldı.

Yad qızına, yad oğluna birləşdi,
Həyatları, taleləri sirləşdi,
İşıqları evlərində gurlaşdı,
Yaddan çıxdı, bəlkə onlar ac qaldı?
Unutdular, ata-ana qocaldı.

Pis oğul-qız yığ ağlını başına,
Bax onların gözdən axan yaşına,
Qocalıqda bunlar gələr başına,
Xoş günümüz, günlərindən öc aldı,
Dodaq büzmə, ata-ana qocaldı.

Günahımız o «Qocalar evi»dir,
Kor ağlımız vicdanınmı dividir?
Unutmayaq, bu zamanın evidir,
Namərdlərdən qisasını düz aldı,
İmdad edin, ata-ana qocaldı.

Şadimanın ora düşdü güzarı,
Artdı qəlbdə sinə dağı, ah-zarı,
Mən demirəm, ey oğul, qız, at yarı,
Dilsiz ocaq torpağa kölgə saldı,
Qeydə qalaq, ata-ana qocaldı.

16.10.1987

ADAM VAR Kİ

Adam var ki, bilmədi öz sözünü,
Hər addımda mərd göstərdi özünü,
Vaya, yasa ağlatmadı gözünü,
Belə mərddən, vallah namərd yaxşıdır.

Övlad var ki, doğmasına baxmadı,
Bəd günündə ürəyini sıxmadı,
Qarşısına kişi kimi çıxmadı,
Pis övladdan, övladsız dərd yaxşıdı.

Dünya böyük, min bir yerə bölünür,
Aciz olan ayaqlarda sürünür,
Çətin anda xeyirlə şər görünür,
Hər addımda ora sərhəd yaxşıdır.

Səbir kasan qəfil aşıb, daşanda,
Vicdanınla yüz bir zirvə aşanda,
Hissin, duyğun çaylar təki coşanda,
Uçmamaqçın arada bənd yaxşıdır.

Üzə gülən çox olsa da dünyada,
Yaxşılığı gəl unutma dünyada,
Çox namərdi, mərdi udub dünya da,
Yüz namərddən bir nəfər mərd yaxşıdır.

Şadimanın başı sirdən aynamaz,
Köklü ürək hər söz-sovda oynamaz,
Xeyir ki var, şərlə qanı qaynamaz,
Hərzə ötən dilə kəmənd yaxşıdır.

17.10.1987

ÇATANDI QARDAŞ

Çətin anlarında dadına çatan,
Üstündə özünü od-közə atan,
Ata olmayanda ömrə mərd atan,
Dərdini dərdinə qatandı qardaş,
Hər anda əlindən tutandı qardaş.

Yurda hərarətli, isti qucağı,
Ata yuvasının odu, ocağı,
Bacının, ananın tək tutacağı,
Arxadı, dirəkdi, dayaqdı qardaş,
Çətin zamanlarda ayıqdı qardaş.

Tənha anlarında dadına yetən,
Ağlar çağlarında qapında bitən,
Nalənə, ahına, fəryadına tən,
Gözlərin dolanda, dolandı qardaş,
Elinə, gününə qalandı qardaş.

Olmasın dünyada bacı qardaşsız,
Tez solar qalanda bir ocaq başsız,
Gözün gözəlliyi nədir ki, qaşsız?
Ömrünü ömrünə calayar qardaş,
Odsuz ocağını qalayar qardaş.

Elin gözlərinə nurdu, çıraqdı,
Çətində yurduna gücdü, yaraqdı,
Min-min igidlikdən ölməz soraqdı,
Baş üstə şərəfli bir tacdı qardaş,
Sınıq könüllərə əlacdı qardaş.

Arxası küləklər vuran sərt dağdı,
Hər dərdi-sərinə daim qonağdı,
Amma bəd ayağda möhkəm sınaqdı,
Tufanlara dözən qayadı qardaş,
Namusdu, ismətdi, həyadı qardaş.

Atanın, ananın kişi övladı,
Dost-düşmən içində oğuldu adı,
Əfsus həm şirindi, həm acı dadı,
Yolunda başını qoyandı qardaş,
Bacı arxasında dayandı qardaş.

Şadiman, yurduna, elinə aşiq,
Ata ocağına olar yaraşıq,
Qanını qanına hey qaşıq-qaşıq,
Möhtac anlarında qatandı qardaş,
Yükünü çiyninə çatandı qardaş.

14.11.1987

KÖNLÜNÜ ALAN BACIDI

Başında əsəndə tale küləyi,
Ataya-anaya qızar ürəyi,
Analıq qüruru – uca diləyi,
Hayına, halına qalan, bacıdı,
Dar gündə könlünü alan, bacıdı.

Damarından axan qanı qanınnan,
Ölüm ayağında keçər canınnan,
Yolun çətinliyə düşsə yanınnan,
Özünü araya atan, bacıdı,
Dərdindən günəştək batan, bacıdı.

Ananın ömür-gün havadarıdı,
Polad bir igidin gözəl yarıdı,
Həyatın nemətli, şux baharıdı,
Qəminə ürəkdən ağlar, bacıdı,
Xoşbəxt anlarında çağlar, bacıdı.

Qədər nəm eyləsə qara gözünü,
Verər ürəyinə öz od-közünü,
Min-min bəlalara atıb özünü,
Qolunu boynuna salan, bacıdı,
Sənlə bir saralıb solan, bacıdı.

Atanın, ananın hər ehtiyacı,
Açılmaz dərdinin loğman əlacı,
Ata ocağının, yurdun möhtacı,
Dar anda qolundan tutan, bacıdı,
Hər ah-fəryadına çatan, bacıdı.

Şadiman, sənlə birlikdə yanan,
Enişdə, yoxuşda öndə dayanan,
Səni söz ilə yox, göz ilə anan...
Qəminin burnunu ovan, bacıdı,
Könlünün buludun qovan, bacıdı.

14.11.1987

NƏ DEYİM?

Haqsızlıqlar qəlbdə çiçək açanda,
Ədalətin qarasına, nə deyim?
Şahlıq tacı namərd başı qucanda,
Bu dünyanın parasına, nə deyim?

Unutqanlıq içimizdən kükrəyib,
İmdadsızı dar ayaqda təkləyib,
İş bilməzlər, iş biləni yükləyib,
Pozulmayan sırasına, nə deyim?

Bu zamanə qansızlara ev-eşik,
Bağrı başı min bir yerdən dər-deşik,
Sinəsində ağı deyir boş beşik,
Harası pak, harasına nə deyim?

Ey Şadiman, dövran könlü haçalar,
İçimizin duyğuların parçalar,
Bəd günündə yallı gedər, əl çalar,
Bəla vuran yarasına, nə deyim?

12.10.1990

QULAQ AS

Bu yerə qədər şeirlərimin
çapına imkan verməyənlərə...

Könül otağımın pəncərəsinə,
Niyə qara pərdə çəkirsən, namərd?
Qulaq as sinəmin titrək səsinə,
Yazmaq mənə həyat, yazmamaqsa dərd.

Mən odlar qızıyam, sinəmin odu,
Mənsiz də dünyanı isidəcəkdir.
Layiqsiz nə lazım şöhrətin adı,
Ümidsiz olanı qəm didəcəkdir.

Mən qanqal etmişəm diləklərimi,
Yolumu tikanla çəpər edənə.
Çağırıb tökərəm fələklərimi,
Pisliyi yoluma sipər edənə.

09.02.1989

ŞƏFALIDIR

həkimlərə

Ürəklərə calayıbdı sevinci,
Həsr eləyib ömrümüzə illəri.
Hər insana öz canı da, bir inci,
Şəfalıdır həkim, təbib əlləri.

Hərarətli gözlərində həyat var,
Təmkin ilə ağrıları ovlayar,
Qorxuları könlümüzdən qovlayar,
Şəfalıdır həkim, təbib əlləri.

Ümidi tez çıraq edər gözləri,
Sevinclərə qərq eləyər üzləri,
Məlhəmlidir qəlbdən qopan sözləri,
Şəfalıdır həkim, təbib əlləri.

Qəfil ağrı başda qurar əndişə,
Xəstəliklər çəkər min bir can dişə,
Ürək dözməz bədən ilə gərdişə,
Şəfalıdır həkim, təbib əlləri.

Onlaradır həyatımız əmanət,
Çox verirlər ömürlərə zəmanət,
Qəlblərində ilahidən kəramət,
Şəfalıdır həkim, təbib əlləri.

Qəfil ağrı amanları kəsəndə,
Könlümüzdə acı tufan əsəndə,
Hər xəstə can həyatından küsəndə,
Şəfalıdır həkim, təbib əlləri.

İnsan, sən ki bəlalarla baş-başa,
Çox vaxt dəyir ağrılardan qəlb daşa,
Yaş üstünə yaş gəlsə də, şad yaşa,
Şəfalıdır həkim, təbib əlləri.

22.06.1993

TALEYİMİN GÜNLƏRİ

Keçir taleyimin günləri yeltək,
Demirəm pis yazıb yazımı qədər.
Çağlayır saatlar yanıqlı diltək,
Açmadım, qapımdan girsin qəm, kədər.

Ömrümün möhnəti canımdan keçdi,
Ona çox dilxoşluq eylədim, neylim?
Ən ağır yolları həyatım seçdi,
Onun acıların necə söyləyim?

Heç vaxt bədbinliyi qoymadım yaxın,
Sübh oldu, qapımı açdım iş-gücə.
Arzular can atdı hey axın-axın,
Bu coşğun həyatdan ayrılım necə?

Şadimandan doğur həyatın eşqi,
Onun səadəti qanımda gəzir.
Ömrümün keçdikcə taleylə məşqi,
Qəlb sevincə dostdur, qüssəni əzir.

24.07.1985

BƏXTƏ BAX

Can içimdə döndü acı qubara,
Həsrət qaldım dil-dodağa, bəxtə bax.
Dərd qapımı açdı-girdi dübara,
Yaş süzüldü al yanağa, bəxtə bax.

Üstbəüstdən könlə oldu zülümlər,
Qəm bağrımı alma təki dilimlər,
Dörd yanımı hədələyir ölümlər,
Hicran olub yağ çırağa, bəxtə bax.

Diləklərim əhdə dönük çıxdılar,
Üzə gülüb dalda evi yıxdılar,
Ürəyimi yandırdılar, yaxdılar,
Ömrüm olub tuş qınağa, bəxtə bax.

Al bağrımı dağladı qəm, qovurdu,
Tufan təki ömrü ərşə sovurdu,
Şadiman ki, dünyada bir hovurdu,
Çəkir fələk çox sınağa, bəxtə bax.

25.09.1994

İLLƏRİNİZ MÜBARƏK

İllər keçir əl çatmayan yel təki,
Arzu, məram bərə batmaz sel təki,
Könül ki, var min havada tel təki,
Dadınıza yetsin uca, pak fələk,
Neçə belə illəriniz mübarək.

Nəsibiniz olmasın sərt yoxuşlar,
Ömrünüzə qəm salmasın naxışlar,
Bəxtinizə çıraq olsun baxışlar,
Zirvələrin yeri olsun çox dilək,
Neçə belə illəriniz mübarək.

Hər ömürün acı-şirin dəmi var,
Hər taleyin nəş'əsi, ya qəmi var,
Cöz içində şadlıq-qüssə nəmi var,
Tanrı özü o aləmə pak dirək,
Neçə belə illəriniz mübarək.

Aşıb daşan gur arzular şəlalə,
Həyat yolu tuş olmasın məlalə,
Ağrı-acı yol tapmasın xəyalə,
Bəxtinizdə heç əsməsin sərt külək,
Neçə belə illəriniz mübarək.

Övladınız elə igid, mərd olsun,
Haqsızlığa haqq sözünüz sərt olsun,
Qapınızı tanımayan dərd olsun,
Yüz il dursun müdrik ağıl, saf ürək,
Neçə belə illəriniz mübarək.

30.12.1992

YETMƏZ TANRIYA GİLEYİM

Gözümün yaşına bürünüb acı taleyim,
Yetməz tanrıya gileyim.
Kimsələrdən haray diləyə-diləyə,
Tənhalıq dumanında boğuluram,
Gur yağışlara dönüb
min-min çaylara dağılıram.
Ruhum axtarır məni sularda,
Düşüb qalır yollarda.
Bu acı tale oyununa özüm də qarışıram,
Hər gün həyat meydanında
onunla yarışıram.

09.02.1992

ÜRƏYİM DƏNİZDƏ

Ürəyim dənizdə, gözüm quruda,
Arada həsrətin gəmisi durur.
Könül fəqan edir, dönüb bir uda,
Dəli duyğularım aranı vurur.

Ömür-gün fikirli, anlar əzablı,
Oynaşır könlümdə qəm burulğanı.
Boylanır sinəmdən can iztirablı,
Könlə həyan olan dost, həmdəm hanı?

Şadiman daşlardan yonulmuş qaya,
Onun çox leysanlar başına döyür.
Ürəyim dönübdü qəzəbli çaya,
Çırpına-çırpına kədəri yuyur.

29.08.1989. Gəmidə

KÖNLÜM EVİ

Könlüm evi dopdoludur qan ilə,
Gecə-gündüz binəsibəm can ilə.

Gözlərimin yaşlarından boğullam,
Ah içində hər gün ölüb doğullam.

Dərdlərimi kağız tutmaz, dil qabar,
Tale yolu sərt qayalıq, nahamar.

İçimdəki qəm yükündən əyilləm,
Arsız, haqsız baxışlardan döyülləm.

Batır-çıxır bu Şadiman, yox ada,
Bir fırtına quşu təki dəryada.

29.10.1995

A TALE QUŞU

Uçdun əllərimdən a tale quşu,
Qondun yenə kimin çiyninə bilməm.
Hansı yağı dilin tutdu qarqışı?
Enişi don biçdi əyninə bilməm.

Heç saya salmadın qəlb uçulmuşu,
Olmuşam bir səfil, üzgün dalınca.
Çıxdı öz oxundan bu ömür naşı,
Könlə divan tutdu soraq alınca.

Sən də mənim təki divanəsən bil,
Gəzirsən yer ilə göy arasında.
Ömrümün özütək viranəsən bil,
Harayım inləyir can yarasında!

11.06.1992

BOĞULDUM

Laqeydilik, iküzlülük, min sifət,
Allah, niyə bu zamanda doğuldum?
Üzdü məni bu müsibət, bu xiffət,
Göz yaşımdan axan seldə boğuldum.

Haram tikə ağızlara yol tapır,
Boş fərmanlar kağızlara yol tapır,
Hiylə, fitnə gecə-gündüz at çapır,
Bu minvalla gələn ildən boğuldum.

Açan sabah göy bəyazı, ağıdı,
Sərvət yatar ağıllara yağıdı,
Hamımıza Tanrı özü ağıdı,
Hər fitnədən, hər feildən boğuldum.

Çox ocağın şər közünü üfürdü,
Qanunlara, fərmanlara tüfürdü,
Haqqımızı zalım kəslər sümürdü,
Hərzə-hərzə ötən dildən boğuldum.

Şadimanın canı gündən bezardı,
Soyuqqanlıq içimizdə azardı,
Allah, bu nə alqı-satqı, bazardı,
Öz-özünə yağı eldən boğuldum.

12.10.1990

QADINLAR

Əməyiylə, hünəriylə ucalar,
Əlçatmayan zirvələrdən bac alar,
Bala bəslər, özü isə qocalar,
Kainatın nur beşiyi qadınlar,
Bu dünyanın ev-eşiyi qadınlar.

Sinəsində məhəbbəti bitməyir,
Bağladığı əhdü-peyman itməyir,
Hər ürəklə könlü yola getməyir,
El-obanın şam-çırağı qadınlar,
Səadətin can varağı qadınlar.

Böyüdüyü övladları həyatı,
Hər laylası dastan, qoşma, bayatı,
Laylasıyla yatızdırar elatı,
Qara saçın, ağa boyar qadınlar,
Körpəsinə canın qoyar qadınlar.

İşində də, evində də çalışar,
Zəhmətinin bəhrəsinə alışar,
Qəhrəmandır, zəfərlərlə yarışar,
Məhəbbətə gözəl ana qadınlar,
Ərlərinə nazlı sona qadınlar.

Mələhət var, o işvəkar səsində,
Qiymətlidir, şad həyatın çəksində,
Ana kimi bu dünyanın köksündə,
Arzularla coşar-daşar qadınlar,
Bir ömür də cavanlaşar qadınlar.

16.02.1986

ANALAR

Dünyaya şad, xoşbəxt həyat diləyər,
Kövrək sinələri incə analar.
Bir körpə ömrünə həyat çiləyər,
Əriyər şam təki gecə analar.

Övlad böyütdükcə qayğısı artar,
Günəşlə oyanar, günəşlə batar,
Yorğun sinəsində qundağı yatar,
Dağtək arxalanar gücə analar.

Şirin laylaları dünyanı gəzər,
Nə bir yol inciyər, nə bir yol bezər,
Bəla tufanının qışını sezər,
Ocaqtək alışar necə analar?

Ərinə arxadır, evinə dayaq,
Bir gözü yuxuda, bir gözü oyaq,
İlahi yaradan mələyi duyaq,
Çiçəktək ətirli, incə analar.

Həyatı yorğunluq içində keçər,
Balayçın canından, ömründən keçər,
Hər işin çətinin özünə seçər,
Qoymaz əl-qolunu dincə analar.

Şadiman, bir həyat bəxş edib bizə,
Gözünün işığın qatıbdı gözə,
Qalaq övlad təki sadiq xoş sözə,
Qocalıb qalmasın küncə analar.

16.02.1986

ŞİRİN LAYLALAR

Şirin laylalı, ana,
Gecələr həzin-həzin.
Alışdın yana-yana,
Çimir etmədi gözün.

Layla balam dedikcə,
Yuxu gözü yedikcə,
Gecə oldu güdükcü,
Alışdı odun-közün.

Gecəni sabah etdin,
Yuxuya min ah etdin,
Arzuya, kama yetdin,
Bitmədi layla sözün.

Beşiyi yırğaladın,
Ocağa od qaladın,
Duztək bala yaladın,
Güldü gecə də üzün.

Bu məhəbbət bitmədi,
Heç başından ötmədi,
Ürəyindən getmədi,
Balan dünyada izin.

16.02.1986

KÖNÜLLƏRİN ƏLACI

Əllərin şəfqətli, gözlərin nurlu,
Fədakar əməyin, yolun uğurlu.
Nə qədər həyat var, ömrün qururlu,
Dərdli könüllərin əlacı təbib,
Dünyanın zinəti, şah tacı təbib.

Ümidlər dikilir o pak əllərə,
Etdiyin məlhəmlər düşər dillərə,
Sən ver mərəzləri əsən yellərə,
Ağrılı canlara vəfalı təbib,
Həyata, dünyaya şəfalı təbib.

Ömrə həyat deyir min-min baxışlar,
Gələr bədənlərə vaxtsız sərt qışlar,
Əllərin qəlblərə həyat bağışlar,
Dünyanın nəş'əsi, sevinci təbib.
Həyat Yaradandan dürr, inci, təbib.

22.09.1988 Nasosnu

NECƏ AYRILIM

Qəm qəmə qarışıb, sevinc sevincə,
Mən necə ayrılım həyatdan, necə?
Baxışlar gah kobud, gah da ki, incə,
Qaçışır önümdə o baş-bu başa.
Hamının ömürü gedir tələşa.

Heç doymaq olmayır gözəl həyatdan,
Ancaq zaman qovur, düşürür atdan,
Ömür zəncirlənib ilahiyyatdan,
Bəxti toxunmasın heç kəsin daşa,
Hamının ömürü gedir tələşa.

Biz də bu cahandan uçub gedərik,
Çalxanan dünyadan qaçıb gedərik,
Aləmə od-atəş saçıb gedərik,
Yaşayaq, ey ürək, günlə baş-başa,
Hamının ömürü düşür tələşa.

07.10.1988

HARDA BİR GÖZƏL GÖRDÜN

Hiyləgər aşiqlərə

Məhəbbəti əlində oyuncaq eyləmisən,
Harda bir gözəl gördün oxudun eşq nəğməsi.
Çoxlarına qeyrətdən dastanlar söyləmisən,
Ağrıtmadı bir yol da səni vicdanın səsi.

Özündən razı oldun həyatın yollarında,
Nə əzab, nə ehtiyac duymadın ömrün boyu.
Hər gözəlin boynuna dolandı qolların da,
Zəhərlədin məkirlə, qurdun ağıla toyu.

Namusdan söz düşəndə, ən mötəbər məclisdə,
Sən icazə istəyib, nitq söylədin bir qədər.
Sənə tay tanışların özün kimi pis hissdə,
Bu yolda heç addımın, sanki getmədi hədər.

Ürəyi ələ aldın, sonra alçaldıb atdın,
Xəyanətlə inamı fəqət, qoydun üz-üzə.
Hər güldən bir iy alıb onun qoynunda yatdın,
Yeri gəlsə, qəlb qırıb, sonra da durdun üzə.

Neçə nazlı dilbəri yerindəcə ovladın,
Şirin məramlarıyla lap ağlını apardın.
Çox günahsız ceyranı talasından qovladın,
Çox sakit məkanlarda neçə tufan qopartdın.

Evləndin, aylə qurdun, gözlərin yığılmadı,
Hər gün yalan söylədin evdə öz xanımına.
Əfsus, hiylə sarayı bircə yol dağılmadı,
Şikarını görəndə yaxşı çəkildin qına.

Baxırsan boy-buxuna, hamısı öz yerində,
Düşünürsən bir igid, bir ərdir o bu elə.
Deyirlər ki, ey qadın, sakit ol öz yerində,
Od yananda od olur, sönəndə dönür külə.

06.11.1989

HAQQ DEYƏN ÜRƏK

Ey haqqı səsləyib, haqq deyən ürək,
Haqq yaman döyülür nadan əlində.
Min illər dünyada yol gedir həlak,
Fəğanı, naləsi qalıb illərdə.

Başına qılınclar endiriləndə,
Qanından yüz Araz çağlayıb daşdı.
Namərdlər əlində dindiriləndə,
Lallığa qapanan daş oğlu, daşdı!

Dinəndə susdurub, lal eylədilər,
Haqqı lağa qoyub güldü namərdlər.
Elə qarasına böhtan dedilər,
Dolaşdı dünyanı bəlalı dərdlər.

Hərdən baharlaşıb, çiçəkləyəndə,
Xəzana saldılar ömür yolunu.
Bir düşgün qocatək imək ləyəndə,
Zəncirə saldılar o əl-qolunu.

Haqqı susdurdular, artdı nalə, dərd,
Dünyanı dolaşdı hər addım yalan.
Önündən cızıldı neçə sərhəd, səd,
Artdı addım-addım hey qırğın, talan.

Hər kəs haqlı oldu özü-özünə,
Bəşər qılıncladı biri-birini.
Pərdəni tutdular haqqın üzünə,
O da torpaqladı müdrik sirrini.

Yandı gilə-gilə haqqın sinəsi,
Göydə buludlar da fəğanə gəldi.
Uçuldu, töküldü min yol binəsi,
Tanrı da önündə əfğanə gəldi.

Dolaşdı dünyanı yalan karvanı,
Sevgilər, vəfalar çirkaba batdı.
Hanı beyinlərdə həqiqət, hanı?
Həyatın sədaqət taleyi yatdı.

Ey haqqı səsləyib, haqq dediyin kəs,
Haqq sənin, haqq mənim ürəyimizdə.
Gələnlər anadan doğulmur nakəs,
Qoy haqqa sığınsın dirəyimiz də.

Şadiman, ümidli yaşa dünyada,
Haqla ol, həyatın əşrəfi düzdü.
Dünya tərəzidi, yetəcək dada,
Bir gözü əyrisə, bir gözü düzdü.

10.11.1989

ŞAMINI YANDIRIR HƏYAT

Hər gecə şamını yandırır həyat,
Onun çırağına yığışır dünya.
Köç edənlər candan qoparır fəryad,
İçində natamam qalır min xülya.

Belə ömür edir zamanla həyat,
Biri tələsməkdə, biri vurmaqda.
Hər cəfaya dözən insansa ustad
Özünə min məkan, yuva qurmaqda.

Haqlı da, haqsız da yaşayır müdam,
Yamanın oduna yaxşı da yanır.
Gah müdrik, gah cahil, gah çılğın adam,
Bə'zən öz varlığın, öz hissin danır.

Şadiman, yolduqca saçını tale,
Pərişan telləri yellər aparır.
Vulkantək püskürdür içini tale.
Həyat yollarında fəryad qoparır.

12.11.1989

BİR HƏSRƏT GƏZƏR

Gözlərim yollara baxmaqdan həlak,
İçimdə hüzünlü bir həsrət gəzər.
Ağrıdan dincəlmir bəlalı ürək,
Gecəli-gündüzlü özünü üzər.

Taqətim kəsildi, səbrim tükəndi,
Fələk yaman çəkdi qəm bərə-bəndi,
İşlətdi ömrümə feili, fəndi,
Salmadı bəxtimə heç zaman nəzər.

Şadiman düşünmə, səbrin dənizdi,
Ağrılar evində ürək kənizdi,
Ağlayan könüldü, gülən bənizdi,
Yazıya pozu yox, eyləmə həzər.

08.12.1989

YAŞAMAQ OLMAZ

Döndərmə baxışını,
Bəxtsiz yaşamaq olmaz.
Çək qəlbə naxışını,
Önündə səbəbkaram.

Ey əziz tacı-taxtım,
Ey şirin-şəkər baxtım,
İlin, zamanın, vaxtın
Önündə səbəbkaram.

Dil dedi, qəlb yazmadı,
Heç yolunda azmadı,
Ürəkdə gəzir adın,
Önündə səbəbkaram.

Könlü qəmə dəyişmə,
Ürəyimlə döyüşmə,
Misralarla deyişmə,
Önündə səbəbkaram.

Şadimana dayaq ol,
Ürəyimə vardır yol,
Məhbus et, tut bağla qol,
Önündə səbəbkaram.

13.11.1989

TALE QARŞINDAYAM

Tale, qarşındayam, sanki müqəssir,
Ömürdən gileyli, səndən gileyli.
Mən ki, qolu bağlı bir qulam əsir,
Ruhumun çəkilmir heç səndən meyli.

Usanıb qalanda yollarda yorğun,
Səni yamanlayıb, qarqışlayıram.
Bəxtəvər çağımda mən oğrun-oğrun.
Yoluna can qoyub alqışlayıram.

Hər işin yönünü sənlə yozdum,
Səndən qalibiyyət gözlədim ömrə.
Ağrıya düşəndə təntidim, dözdüm,
Daim qulaqlarım şəkk durdu əmrə.

Tale, qarşındayam, özün görürsən,
Xəzan yarpağına tay etmə məni.
Mənimlə həyatın üzün görürsən,
Atıb bir tərəfə tez getmə məni.

Ümidim qollara sarılıb qalıb,
Əli ətəyindən buraxan deyləm.
Ömür də usanıb darılıb qalıb,
Qoyma diz bükülə, dərdə əyiləm.

Görürsən, ürəyim haqqa payəndaz,
Hər gün çarpışıram ətrafımla mən,
Görürəm nəzərin cana düşür az,
Yaxın gəl, dilləşim sərrafımla mən.

Tale, Şadimanın ruhunu dindir,
Qoy səs-səsə versin bülbüllər təki.
Nə olar, bircə yol qəlbi sevindir,
Ürək cuşə gəlsin saf tellər təki.

16.12.1989 Nasosnu

BU QƏDƏR BAĞLIYKƏN

Bu qədər bağlıykən qəlbim-qəlbinə,
Günahkar oldu göz-gözə, ayrıldıq.
Düşdü aramıza bu həsrət yenə.
Talelə gəldik söz-sözə, ayrıldıq.

Elə indi-indi alışan ürək,
Həsrətlə, vüsalla barışan ürək,
Uzaq xəyallarla yarışan ürək,
Durdu acıyla üz-üzə, ayrıldıq.

Ömrümün göyləri qaranlıq gecə,
Sonsuz duyğularım coşur indicə,
Gəlim hüzuruna yalvarım necə?
Qarışdı yenə köz-közə, ayrıldıq.

Ey tale, görürsən gözümdə təlaş,
Yenə bəbəklərdə gilələnib yaş,
Axı, dərdi-sərdən ağırlaşır baş,
Heç tuş olmadı iz-izə, ayrılıdıq.

31.12.1989

TƏBİƏT RUHA QİDA

ANAM DƏNİZ

Anam dəniz, gəlmişəm
Sevimli qucağına.
Artır sevincim, nəş'əm
Gələndə sorağına.

Ləpələrin sakitcə
Pıçıldaşır mənimlə.
Təbim coşur bax necə
Bu xəyal yelkənimlə.

Aç qoynunu, əzizim,
Qucağına sığınım.
Sularda qalsın izim,
Şadlığımdan uğunum.

Qağayılar atarkən
Bərq sulara özünü.
Mən də durub sübh, erkən
Görürəm dan üzünü.

Hər ikiniz gözəlsiz.
Həm dan üzü, həm də sən.
Ürəyimdə əzəlsiz,
Çox vurğunam sizə mən.

21.04.1984 Tağay

MİRVARİ SƏPİLİB

Bu yaz çağı dupduru, ay nurlu üzlü Xəzər,
Al günəş sularına mirvarilər tökübdü.
Şairin dili kimi söhbətli, sözlü Xəzər,
Yenə Neft Daşlarına min bir rəng çökübdü.

Hər rəngin öz duyumu, öz çaları, səsi var,
Elə bil mavi dünya işığınla birləşir.
Ləpənin ruhu oxşar, necə xoş nəfəsi var,
Nağılıyla, sehri ilə ürəyimdə yerləşir.

25.05.1987

BAHARIM

Gəlişinə şad olubdu ürəklər,
Xoş gəlmisən bizim elə, baharım.
Qanad çalır yenə saysız diləklər,
Yaraşıqsan bağa, gülə, baharım.

Gəlişinlə ana torpaq al geyər,
Qız-gəlinlər ipək, qumaş, şal geyər,
Cığırlarda igid atı nal geyər,
Xoş bəzənib gəldin belə, baharım.

Xonça tutar ana, bacı, yenə də,
Gör nə qədər arzu, kam var sinədə,
Qız gəlinlər obalarda, binədə,
Xına yaxar ələ, telə, baharım.

Odlar yurdu od qalayar torpaqda,
Atlas geyər hər ağac, kol, yarpaq da,
Bərəkətdən aşıb-daşar tabaq da,
Elin varı dönər selə, baharım.

Badam, püstə, fındıq, şəkər çörəyi,
Səmənilər süfrələrin gərəyi.
Tonqalların qapımızın dirəyi,
Xonçan gəzər əldən-ələ, baharım.

Şirin xanım gəlişinlə öyünər,
Pak ürəyi məhəbbətlə döyünər,
İlhamından könlüm qumaş geyinər,
Sevgin düşər dildən-dilə, baharım.

05.03.1989

BU BAYRAM AXŞAMINDA

Süfrələrə düzülüb
Şəkərbura, paxlava,
Səmənidən süzülüb
Xonça bəzəyi halva,
Gözəl Novruz kamında,
Bu bayram axşamında.

Min illərin nağılı
Dolaşır mahal-mahal,
Alır başdan ağılı
Hər ocaqda xoş əhval.
Gözəl Novruz kamında,
Bu bayram axşamında.

Qoğalı, qovurğası,
Süfrəyə yaraşıqdı.
Ötür qışın qovğası,
Yaz ilə barışıqdı.
Gözəl Novruz kamında,
Bu bayram axşamında.

Küsüşənlər barışa,
Sevişənlər birləşə,
Yetə arzular başa,
Dünyamız yeniləşə.
Gözəl Novruz kamında,
Bu bayram axşamında.

Dildə Tanrı duası,
Ürəklərə qovuşsun.
Batsın ölüm yuvası,
Müharibə sovuşsun!
Gözəl Novruz kamında,
Bu bayram axşamında.

Şamdı evlərin damı,
Tonqallar ərşə büləmd.
Təzə geyinib hamı,
Al bürünüb şəhər, kənd.
Gözəl Novruz kamında,
Bu bayram axşamında.

Şadimana məmləkət,
Cənnət məkandı, Allah.
Ötə eldən fəlakət,
Qalib çıxa xoş sabah.
Gözəl Novruz kamında,
Bu bayram axşamında.

20.03.1994

XOŞ GƏLMİSƏN

Təbiətin gözəl qızı,
Könlümə nur ələmisən.
Yerin parlaq dan ulduzu,
Ay Novruzum, xoş gəlmisən.

Ətəyində yaz gecələr,
Qışın ömrü tez incələr,
Tonqal geyib lal gecələr,
Ay Novruzum, xoş gəlmisən.

Qoy keçməsin şamlarımız,
İşıqlansın damlarımız,
Gurlasın axşamlarımız,
Ay Novruzum, xoş gəlmisən.

Çərşənbələr, bax atlanıb,
Qışın dizi lap qatlanıb,
Yerlər-yurdlar baratlanıb,
Ay Novruzum, xoş gəlmisən.

Qışla savaş bitəcəkdir,
Haqq haqqına yetəcəkdir,
Çətin günlər ötəcəkdir,
Ay Novruzum, xoş gəlmisən.

İl il üstə gələcəkdir,
Dərd-bəlamız öləcəkdir,
Sabahımız güləcəkdir,
Ay Novruzum, xoş gəlmisən.

20.03.1994

ÜÇ DƏNƏ NƏRGİZ GÜLÜ

Çiçəklərin şahıdı,
Bağların zərif tülü,
Baharın sabahıdı,
Üç dənə nərgiz gülü.

Gecəmdə şam yandırdı,
Qəmimi dayandırdı,
Nəş'əmi oyandırdı,
Üç dənə nərgiz gülü.

Bükülmüşdü kağıza,
Baxdım döndü ulduza,
Bənzər utancaq qıza,
Üç dənə nərgiz gülü.

Bayramıma töfhədir,
Ömrümdən bir səhifədir,
O gecədən lövhədir,
Üç dənə nərgiz gülü.

Şadimanın nəş'əsi,
Könlünün eşq rişəsi,
Sevinci, əndişəsi,
Üç dənə nərgiz gülü.

12.03.1993

ÇILĞIN KÜLƏKLƏR

Tanrının gözündən düşmüşükmü biz?
Əsdirir bayırda çılğın küləklər.
Qışın qarşısında torpaq çökür diz,
Xəzri neçə-neçə tufan bələklər.

Bayırda dolaşır acı rüzigar,
Dağlara, daşlara meydan oxuyur.
Küləyin səsindən qulaq olur kar,
Quşbaşı qar özün evə toxuyur.

Çöldə əsim-əsim əsir ağaclar,
Çılpaq meşələrin bağrı yarılır.
Vaxtsız gələn qışa tapmır əlaclar,
Yağan qar hasara, daşa sarılır.

Hardasa bir evsiz küçədə yatır,
Canının soyuğu küçədən betər.
Yalquzaq xəzri aləmi qatır,
Bu gecə ağrısı aləmə yetər.

Düzün də, dağın da beli qırılır,
Çöllərin dumanı zirvəyə qalxır.
Xəzridən buludun donu cırılır,
Qılıncın sıyırıb köksünə taxır.

Qışın hikkəsindən göylər dolarsa,
Fələklər davakar qışla ötüşər.
Şadiman, cahanda haqq yurd salarsa,
Dünyanın bəxtindən min qış ötüşər.

11.12.1989

QAĞAYI

Qumaş tükün qaralara boyanıb,
Xəzərimə yasmı tutdun, qağayı?
Önündəcə çirkli dəniz dayanıb,
Qara suyu necə daddın, qağayı?

Sübh-səhəri bəzər hayın, harayın,
Qulağımdan getmir könül ah-vayın,
Gözəllikdə yoxdur sənin heç tayın,
Xoş məramı tez unutdun, qağayı.

Mən bilirəm, çox cəfaya dözmüsən,
Nəfəs boğan havadanmı bezmisən?
Tufanlarla quş canını üzmüsən,
Bəlkə çirkli sular uddun, qağayı?

Hisli, paslı qanadını gərmisən,
Bu dirəklər şəhərinə sərmisən,
Hər dalğanın gözündən yaş dərmisən,
Ləpələrin üstə yatdın, qağayı.

Qışğırığın götürübdü aləmi,
Ağladırsan içimdəki naləmi,
Lələklərin oxşar yazar qələmi,
Ürəyimdən söz oyatdın, qağayı.

12.10.1990

YURDUMUZA YAZ GƏLƏNDƏ

Bağ-bağçalar gözəlləşər,
Günəş, torpaq lap dilləşər,
Küləklə göy, yer əlləşər,
Təbiətdə göz güləndə,
Yurdumuza yaz gələndə.

Gen dirliklər hamarlanar,
Dərə-düzlər tumarlanar,
Çətinliklər qamarlanar,
Əmək zirvə, dağ dələndə,
Yurdumuza yaz gələndə.

Gülər insan, gülər həyat,
Qəlb oxşayar gözəl büsat,
Arzu çapar meydanda at,
Kainatda söz güləndə,
Yurdumuza yaz gələndə.

Halal əmək dadlı olar,
Ürəklərə şadlıq dolar,
Toy-büsatlar ərzi alar,
İnsanlarda üz güləndə,
Yurdumuza yaz gələndə.

Ot göyərər, bir boy qalxar,
Çaylar dəli-dolu axar,
Sərt ildırım, şimşək çaxar,
Gurşadları düz böləndə,
Yurdumuza yaz gələndə.

Qol götürüb bahar oynar,
Bulaqların gözü qaynar,
Ələm, qüssə gözdən yaynar,
Süfrə açar el çəməndə,
Yurdumuza yaz gələndə.

Torpaq necə incələnər,
Butalanar, qönçələnər,
Günəş göydən yerə enər,
Açar nərgiz, yasəmən də,
Yurdumuza yaz gələndə.

Şadiman, ruhum atlanar,
Misralarım qanadlanar,
Ürəyimdə ocaq yanar,
Təb şahintək süzər məndə!

Yurdumuza yaz gələndə.
Yurdumuza yaz gələndə.

06.04.1986 Tağay

PAYIZ DÜŞÜNCƏLƏRİ

Açıbdı sinəsin xəzanlı dağlar,
Saralır düzlərin çiçəyi gülü.
Buludlar günəşin yolunu bağlar,
Susubdu bağların o şah bülbülü.

Tökülür yarpaqlar bir-bir ağacdan,
Sanki öz canından ayrılır bir can.
İndi əsər yoxdu yamyaşıl bağdan,
Bu gün köçün sürən, dünən dedi can.

Yamyaşıl düzləri ac yalquzaqdək,
Yenə qan-tər tökür payız küləyi.
Hardasa bir çiçək indi qalıb tək,
Sönübdü gözündə həyat diləyi.

Mən sənə pis deyə bilmirəm, payız,
Hər fəslin öz qanun-qaydası vardır.
Bax, ayaq altında o yarpaq yalqız,
Bir üzü bahardır, bir üzü qardır.

Min-min qanunlarla doludur həyat,
Dünyaya gəlmək də, getmək də qanun.
Yaranan yolçudur, illərsə səyyad,
Torpağa qarışmaq, bitmək də, qanun!

Qərib ölkələrdən gələn qaranquş,
Gəldiyi yerlərə yol alır yenə.
Ördəklər payıza bağlı olan quş,
Bu da təbiətdə böyük ənənə.

Sarı payız gəldi çəmənə, düzə,
Əcəb çılpaqlaşdı yaşıl budaqlar.
Əyləşib baharla yenə üz-üzə,
Bu lüt bağça-bağlar eşqlə budaqlar.

Qanundur dünyanın gecə-gündüzü,
Bu dörd fəsil isə bacı-qardaşdır.
Şadiman, ilhamın dolmasın gözü,
Tələsən ömürdür, düşünən başdır.

03.10.1986

BAHAR, XOŞ GƏLDİN

Bürünüb ipək, xaraya,
Bahar, xoş gəldin, xoş gəldin.
Yol açmısan gül saraya,
Yetib yenə hay-haraya,
Bahar, xoş gəldin, xoş gəldin.

Al düzlərimiz yaraşıq,
İlhama gəlir lap ürək.
Çırağımızda gur işıq,
Sinəyə sazı bas, aşıq,
İlhama gəlir lap ürək.

Cəh-cəhin vursun qoy quşlar,
Bəzənsin yenə kainat.
Gurlasın sellər, yağışlar,
Yerə, göyə min alqışlar,
Bəzənsin yenə kainat.

Günəş parlasın al yansın,
Alqış, min alqış bahara!
Torpaq yuxudan oyansın,
Dünyam şadlığa boyansın,
Alqış, min alqış bahara!

Məhsulumuz bol olsun, bol,
Əlvan geyinsin, qoy ellər.
Uğurlara yol olsun, yol,
Yorulmayan qol olsun, qol,
Əlvan geyinsin, qoy ellər.

Gecələr doğsun ay göydə,
Çıraqban olsun ulduzlar.
Nəğmə ucalsın qoy neydə,
Ərzdən qaçsın ah, giley də,
Çıraqban olsun ulduzlar.

Diləklər coşub-çağlasın,
Sevinsin ana təbiət.
Dərd-qəmin yolun bağlasın,
Çətinlik düzdə ağlasın,
Sevinsin ana təbiət.

İlhamla gurlasın ürək,
Bahara min nəğmə deyək.
Aşıb-daşsın arzu, dilək,

İnsanlığa sülhdir dirək,
Sevinsin ana təbiət.

06.04.1986 Tağay

EY DALĞALAR

Məni məftun etmisən özünə, ey dalğalar,
Göylərdən nur ələnər üzünə, ey dalğalar.

Torpağın eşqi qədər eşqin var bu canımda,
Dəli təki vurursan dizinə, ey dalğalar.

Tufanların əsəndə necə məğrur durursan,
Ürək-dirək verirsən özünə, ey dalğalar.

Səsin-sədan düşübdü kürreyi-ərz ağzına,
Əsirəm pıçıltına, sözünə, ey dalğalar.

Qucaqlarsan hərdən bir uçuşan qağayını,
Büllur suların çırtdar gözünə, ey dalğalar.

Xəzərin zümzüməsi, balıqların ürəyi,
İsindir canlıları közünə, ey dalğalar.

Şadimanın ruhunun çeşməsini qurdala,
Boşalt hayqırtıları izinə, ey dalğalar.

20.12.1986

BİR XALIDIR

Bir xalıdır naxışlara bürünüb,
Bahar gəlib gözəl elə, obaya.
Çöhrələrə, baxışlara bürünüb,
Sevinc yaşı tökür burda hər qaya.

Bahar gəlir bir əlində bənövşə,
Bir əlində novruzgülü, yasəmən.
Bağ-bağçalar boylanırlar günəşə,
Yaşıllaşıb bomboz olan düz, çəmən.

Yenə atlas paltarını geyinir,
Bahar gəlir, uca dağlar başına.
Sinələrdə ürəklər şux döyünür,
Sevgi dönür ülvi can sirdaşına.

16.03.1987

TƏBİƏT ŞƏRQİSİ

Coşur min işvəylə dağda şəlalə,
Həyadan qızarıb utancaq lalə,
Burda qartalların gözü piyalə,
Qaynayır, çağlayır yenə bulaqlar,
Zər-ziba geyinib hikmətli dağlar.

Təbiət həyalı mələyə bənzər,
Kollarda turaclar, qumrular gəzər,
Gözlərim aləmi qürurla süzər,
Burda qəfil əsir dəli küləklər,
Göy çalma bağlayır göylər, fələklər.

Əngin asimanın güzgüsü günəş,
Tökər ürəyimə yenə od, atəş,
Duyğumuz, arzumuz, sanki qaynar teşt,
Qol götürüb oynar gözəl təbiət,
Büllurdan büllurdur ondakı niyyət.

17.03.1987

BAHAR, TUT ƏLİMDƏN

Bahar, tut əlimdən gedək düzlərə,
Nura bürüdüyün süd gündüzlərə,
Baxaq sevinc yağan odlu gözlərə,
Alışaq birlikdə, yanaq birlikdə,
Bu al sabahları sanaq birlikdə.

Uçaq küləklərin tərkində yenə,
Qoy oda bürünsün bu qəlb, bu sinə,
Bağırım sığınıb güllü köksünə,
Gəl qol çək, layiqli, təmiz niyyətə,
İkimiz qovuşaq əbədiyyətə.

Düşsün şad sevgimiz qoy dildən-dilə,
Bir dastana dönsün ellərdən-elə,
Sən mənim sinəmi çiçəkli elə,
Dolanaq bir yerdə çəməni, düzü,
Şadiman sənlə haqlayar yüzü.

22.03.1987

BULAQLAR QAYNASIN

Ana təbiətin ey xoşbəxt qızı,
Dağların, düzlərin parlaq ulduzu,
Bas isti bağrına sədəfli sazı.
Qoy çöllər, çəmənlər oynasın, bahar,
Dumduru bulaqlar qaynasın, bahar.

Səp elə, obaya çoxlu gül-çiçək,
Bağçalar bağlasın yamyaşıl ləçək,
Sərin çeşmələrin gözündən içək,
Oyansın sinəndə duyğular, bahar,
Ərisin bağrında qayğılar, bahar.

Aç geniş süfrəni çöldə, çəmində,
Gözəl don geyinsin qoy yasəmən də,
Torpaq buludların döşün əmində,
Sığal çək dərəyə, düzlərə, bahar,
Min-min xalı toxu izlərə, bahar.

Yenə al qoynuna qaranquşları,
Sənin həsrətində qalan quşları,
Qəbul et şəninə gur alqışları,
Sən ey gözəlliyin ocağı, bahar,
Dunyanın laləzar qucağı, bahar.

O ilahi hüsnün əqli alandı.
Sinəyə eşqinlə sevgi qalandı,
Gənclik ta əzəldən sənin balandı,
Sənlə yaranıb gözəllik, bahar,
Bədnəzər kəsərli üzərlik bahar.

Başına döndüyüm həyat pərisi,
Yenə yamyaşıldır yerin dərisi,
O səndən almışdır gözəllik dərsi,
Qoy həyat sənlə yarışsın, bahar,
Bülbüllər güllərə daraşsın, bahar.

22.03.1987

MAVİ GECƏM

Bürünüb Xəzərimin sən mavi örpəyinə,
Sularla qol-boyunsan, ey altun, mavi gecə.
Bu axşam zil qara yox, ağ geymisən əyninə,
Dəniz elə məmnundur, sənsə incidən incə.

O mavi örpəyin də yaraşır qara telə,
Nağılmı danışırsan? Söylə, ulduzlar ilə,
Xəzər də əl eyləyir, qoynunda həzin yelə,
Ay göylərdən güləcək bu sehirə indicə.

Qoxlayıb saçlarını, hənuz əfsunlanıram,
Mavi örtüyün altda, sanki tumarlanıram,
Çılğın duyğularımla sutək hamarlanıram,
Çəkilib ruhum ilə, mən rahatca bir küncə!

19.10.1987

QAMÇILAYAR KÜLƏKLƏR

Qamçılayar sağa-sola atını,
Xəzər üstə ayaq açar küləklər.
Belə qurub əzəl gündən həyatı,
Buludların üstə uçar küləklər.

Sular üstə yaradıbdı oylağı,
Üzülməyir göydən, yerdən ayağı,
Çağlamaqdır gecə-gündüz fəraqı,
Ləpələrə qolun açar küləklər.

Həzin-həzin qol götürüb oynayar,
Düşüb suya gur sularla qaynayar,
Kim deyər ki, başı bir dəm aynayar?
Şıltaqlıqçın olmaz naçar küləklər.

Şadimanın tellərini qucaqlar,
Qurar qəlbdə atəş dolu ocaqlar,
Xatirələr qurar ruha şən çağlar,
Orda gültək ətir saçar küləklər.

26.04.1988

AY NİYƏ TƏN BÖLÜNÜB?

Baxıram dalğın-dalğın,
Ulduzlar yığın-yığın,
Sanki gül-çiçək yığın,
Ləl ulduz axışında,
Göylərin ağuşunda,
Başına qəm ələnib,
Ay niyə tən bölünüb?

Baharın qız çağında,
Gözəllik şux bağında,
Axşamı bir tamaşa,
Göz edir sirr, sirdaşa,
Sanki lap çarxı dönüb,
Ay niyə tən bölünüb?

Gecəyə Ay gur işıq,
Ulduzlar, Ay qarışıq,
Düzəldək gəl barışıq,
Göylərin qucağında,
Ulduzlar ocağında,
Gözündə işıq sönüb,
Ay niyə tən bölünüb?

Bu da bir bilməcədir,
Sakit, sirli gecədir,
Duyğularım incədir,
Doluram otağımda,
Duyğuya qul çağımda,
Söz gülür varağımda,
Süslü mehlər əsnəyib,
Ay niyə tən bölünüb?
Ay niyə tən bölünüb?

13.04.1986

AY DƏNİZDƏ ÇİMƏNDƏ

Yenə də xumar-xumar yatırsan mavi dəniz,
Elə qucub dalğalar bir-birini mehriban.
Necə də sakitliyə bürünübdü göy bəniz.
Asimanda ulduzlar qatar-qatar, çıraqban.

Gecədir. Bütün aləm bürünüb sakitliyə,
Yalnız zülməti pozan göydə aypara Aydır.
Bu sakit dalğalarda yuyunmaq üçün deyə,
Ay çimir ləpələrdə, sanki günəşli yaydır.

Bu dəniz adasında Ay sularda çimində,
Elə bil gözləyirmiş sakinlərin yatmağın.
Salır qaranlıqları ustalıqla kəmində,
Bu minvalla gözləyir, o, günəşin çıxmağın.

Ay dənizdə çimində necə füsnikar olur,
Sanki nur seli axır pak dənizin üstünə.
Bu sular məskənində sinəm qürurla dolur,
Baxıram heyranlıqla nurlu Ayın hüsnünə.

06.05.1986

EY SARALAN YARPAQLAR

Əsir yenə həzin payız küləyi,
Mavi gözlü səmaların mələyi,
Qurur əcəb bağça-bağa kələyi,
Dəli külək üstünüzü torpaqlar,
Ömür bitər, ey saralan yarpaqlar.

Həyat qısa, hüzünlüdür necə də,
Yaraşıqsız hər həyətdə, küçədə,
Nəğmə idiz gündüzlərdə, gecədə,
Dəli külək üstünüzü torpaqlar,
Ömür bitər, ey saralan yarpaqlar.

Addımlayır üstünüzdən yaxşı-pis,
Başınızı alır yenə, duman, his,
Sizə qəlbdən həyat dilər gözəl hiss,
Dəli külək üstünüzü torpaqlar,
Ömür bitər, ey saralan yarpaqlar.

Bir vaxt zövqlə oxşayardı sevən göz,
Şəninizə qoşulardı şirin söz,
Daha qalmıb o zamankı alov, köz,
Dəli külək üstünüzü torpaqlar,
Ömür bitər, ey saralan yarpaqlar.

Nədir belə pıçıltılı haraylar?
Keçən günü son gününüz haraylar,
Uçulubdu taclı, yaşıl saraylar,
Dəli külək üstünüzü torpaqlar,
Ömür bitər, ey saralan yarpaqlar.

03.10.1986

SEVGİLİ DAĞLAR

Başına döndüyüm sevgili dağlar,
Müqəddəs vüsala mehman qalımmı?
Dəli həsrətiniz qəlbimi dağlar,
Əyri qayalara könül salımmı?

Yaşıl xara geyib dərələr, düzlər,
Necə məhəbbətlə könlümü közlər,
Dikilibdi gözəl aləmə gözlər,
Özüm qadanızı min yol alımmmı?

Çıxıb qartalların yazın seyrinə,
Şahinlər özünü verirlər günə,
Quşlar nəğmə oxur eşqin xeyrinə,
Nəğməkarın kimi mən də dolummu?

Köçür uzaqlara ördəklər, qazlar,
Sinəndə təbiət yenə də nazlar,
Qalxır pərdə-pərdə min bir avazlar,
Mən bir udun olum mahnı çalımmı?

Alışır eşqinlə yanan varaqlar,
Nə xoşdur sevincə bürünmüş çağlar,
Başına döndüyüm sevgili dağlar,
Dadlı xəyallara burda dalımmı?!

07.03.1987

BƏNÖVŞƏ

Söylə, nə burmusan boynunu yenə?
Düşübdür gəlişin dumana, çənə,
Göylərdən günəş də göz edir sənə,
Şaxta işləməsin qana, bənövşə,
Bahar sənə olar ana, bənövşə.

Tərifin sığmayır kitaba, sözə,
O mələk duruşun gəlməsin gözə,
Gözəllik verirsən cığıra, izə,
Kolların dibində sona, bənövşə,
Bahar sənə olar ana, bənövşə.

Darıxma, düzənlər yenə al geyər,
Bahar bağça-bağın qapısın döyər,
Çaylar, şəlalələr özünü öyər,
Günəş atəş verər cana, bənövşə,
Bahar sənə olar ana, bənövşə.

Sıxma ürəyimi, ey gözəl çiçək,
Gəl axan çeşmədən doyunca içək,
Ormanlar bağlasın yamyaşıl ləçək,
Soyuqdanmı gəldin cana, bənövşə?
Bahar sənə olar ana, bənövşə.

Kəkliklər, turaclar sıxsın əlini,
Günəş sığallasın incə belini,
Səhərin şəbnəmi yusun telini,
İçində sevdalar yana, bənövşə,
Bahar sənə olar ana, bənövşə.

Toxuna bilmirəm ləçəklərinə,
Qarış ürəyimin küləklərinə,
Şadiman od qoyub diləklərinə,
Məlhəmdir ətrin ona bənövşə,
Bahar sənə olar ana, bənövşə.
Bahar sənə olar ana, bənövşə.

16.03.1987

TƏK CANIM BAHAR

Təbəssümlə gülür çöhrələr, üzlər,
Sanki gur çıraqdır baxışlar, gözlər,
Bürünüb yaşıla dərələr, düzlər,
Duyğumu coşduran tək canım, bahar,
Üzünə açıqdır ünvanım, bahar.

Pəncərəmi döyür xəzri küləyi,
Yenə özün öyür xəzri küləyi,
Mənə səndən deyir, xəzri küləyi,
Boylan qapbacamdan, oyanım bahar,
Üzünə açıqdır ünvanım, bahar.

16.03.1987

GƏL EY BAHAR

Sinəmizdə aşıb daşır diləklər,
Yorulmayır, usanmayır biləklər,
Halalıqla vurur gözəl ürəklər,
Gəl ey bahar, qədəmlərin var olsun,
Dünyam sənə ən istəkli yar olsun.

Yeddi rənglə gəl sən bizim dağlara,
Yaşıl tül çək bağçalara, bağlara,
Gözəllik ver xoş günlərə, çağlara,
Gəl ey bahar, yol gözləyir bənövşə,
Salma onun həsrətini dil-dişə.

Qaranquşlar yarı yolda qalıbdı,
Şiş dağları duman, çiskin alıbdı,
Həsrət mənim boynuma qol salıbdı,
Gəl ey bahar, dəli əsir küləklər,
Vüsalınçın tüğyan edir ürəklər.

16.03.1987

YAZ GÖZƏLİ

Süzülürsən ətəyimdən, üzümdən,
Axıb getdin kipriyimdən, gözümdən,
Nadincliyin şır-şır axır dizimdən.
Bağça-bağa vurdun gözəl naxışı,
Təbiətin yaz gözəli, yağışı.

Hər nolçadan axır sular, tökülür,
Qurdun-quşun yurd-yuvası sökülür,
Hislərimin üstə sevinc çökülür,
Aparırsan buralardan sərt qışı,
Təbiətin yaz gözəli, yağışı.

Torpaq altdan baş qaldırır çiçəklər,
Ağaclarda təzə-tərdi ləçəklər,
Göy şaqqıldar, şimşəklər də gerçəklər,
Parladarsan qayalarda boz daşı,
Təbiətin yaz gözəli, yağışı.

Ruhum külək üstə qanad açıbdı,
Yerdən göyə, göydən yerə qaçıbdı,
Bir könlüm var, bilməm hara uçubdu?
Şadimana müjdə etmə göz yaşı,
Təbiətin yaz gözəli, yağışı.

04.04.1987

KEŞİYİ ÇƏKİR

Yalnız qağayılar keşiyi çəkir,
Yoxdur nə hayqırtı, nə səs, nə səda.
Sularda sakitcə pıçıltı gəzir,
Sanki bir dənizdir, bir mən dünyada.

Dalğalar küləklə bir vüsal kimi,
Hər tərəf gözəldir lap xəyal kimi,
Böylə xoş mənzərə hüsnü-hal kimi,
Bürüyüb könlümü, şad gəlir əda.

Külək də boylanır ləpələr üstə,
Oxuyur nə isə ağzında pəstə,
Bürüyüb canımı nura ahəstə,
Çəkir ruhu göyə bərk qanun-qayda.

Dalğa da, Xəzər də mənlə dilləşir,
Sanki bütün aləm lap sehirləşir,
İçimdə bir dünya fərəh yerləşir,
Gözəl təbiətdən dadıram qida.

04.04.1987

HEKAYƏSİ DAĞLARIN

Buludları dumanlarla döyüşən,
Dərə, düzü azılmayır dağların.
Hər addımda öz donunu dəyişən,
Hekayəsi yazılmayır dağların.

Min sirlidir köksündəki yamaclar,
Kol dibindən qaçar kəklik, turaclar,
Başa qoyub dumanlardan şah taclar,
Mərd sırası pozulmayır dağların.

Ara-sıra ormanlardan gün qaçır,
Buludları başı üstə səf uçur,
Keçiləri qaya üstə iz açır,
Çeşmələri qazılmayır dağların.

Ey Şadiman, ürək açan tamaşa,
Şəbnəmləri yaş axıdır hər daşa,
Yenə coşub ürəyimlə təb qoşa,
Dastanları yozulmayır dağların.

24.11.1989

DUMANLARI KÖKSÜNÜ SARAN

Yenə dumanları köksünü saran,
Leysanlı, yağışlı dağlar neyləsin?
Səssiz ilğımlarlı yanan bir aran,
Elə su, su deyən bağlar neyləsin?

Çeşməsi quruyan qərib sellər də.
Sonası didərgin düşmüş göllər də,
Günəşi qarsıdan tənha çöllər də,
Ümidin yollara bağlar, neyləsin?

Küləklər başını tutub qaçarlar,
Sanki bağ-bağatda qanad açarlar,
Qoşulub quşlara göydə uçarlar,
Qucağı baharlı çağlar neyləsin?

Düzlərdə gəzişən o nazlı ceyran,
Eyləyib özünə aləmi heyran,
Ürkək nəzərlərlə eşqlə boylanan,
Sinədə ilhamım çağlar, neyləsin?!

25.11.1989

İLHAMA BAĞLI ANLAR

MƏNİM İLHAMIM

Qoy çağlasın bu ürəyim,
Nə qədər ki, ilhamım var.
Odur mənim saf diləyim,
Onsuz məni qüssə qovar.

Bir sehirmi, bir nağılmı,
Aman ürək, mən bilmirəm?
Ovsunlayıb söz ağlımı,
Onsuz deyib mən gülmürəm.

Mənim üçün mənası var
Hər çiçəyin, hər otun da.
Duyğularım könlü qovar,
Günlər yüyrək can atında.

Sökülən dan, batan axşam,
Sanki seyir, tamaşadır.
Min əsirlik sirli daşam,
Arzum, hissim baş-başadır.

Mənə gəl-gəl deyir həyat,
Köz yurdumda, söz elimdə.
Ey Şadiman, yaşa, yarat,
Öz evində, öz dilində.

13.04.1986

QÜVVƏTİM OL

Ey ümid, qolumda qüvvətim ol gəl,
Gəl mənim başımda tac olub yüksəl,
Mənimlə qayalar sıldırımlar dəl,
Çarpışaq, vuruşaq bəxt meydanında,
Gəl qədrini bilək hər bir anın da.

Ey ümid, adına bağlıdır adım,
Sənsən bu həyatda mənim ustadım,
Sənsiz gedər əldən yaşamaq dadım,
Dəli ehtirasla bağrıma od tök,
Çök dərd-ələmimin sinəsinə, çök.

Zülmət gecələrdə nurlu ayım ol,
Sonsuz səhralarda şaqraq çayım ol,
Çovğunda, sazaqda odlu yayım ol,
Günəştək işıqlat al səhərimi,
Şadlıqla əzizlə dərd, qəhərimi.

Ümid, gəl keçilməz yolları keçək,
Həyatın dirilik suyundan içək,
Bizə yaxın gələn mələlı biçək,
Süzək şahin təki güney-qüzeydə,
Arzumuz köklənsin kamanda, neydə!

Ümid, sinəm üstə sənin yerindi,
İzlərin yarğantək kökü dərindi,
Dalınca illərlə qəlbim süründü,
Bahar gülləritək çiçəklə yenə,
Yeni bir ilhamla döyünsün sinə!

19.04.1987

PEYMANIM VAR

Mənim də qəlbimdə öz peymanım var,
Qədəri olmayan diləklər təki.
Sinəmdə çırpınan mehribanım var,
Çırpınır köksümdə mələklər təki.

Gecədən sübhədək qalıram oyaq,
Sözləri özümə sanıram dayaq,
Fələyə dönmüşdü varlığım bayaq,
İndisə, əsirəm küləklər təki.

Hicrana sarılıb qalıb saatlar,
Açılır beynimdə ən dərin qatlar,
Salır ürəyimə sağalmaz çatlar,
Ömrümü-günümü ələklər təki.

Kimsə qınamasın bu Şadimanı,
Ələnir başıma qəmin dumanı,
Pozulur əqlimin fikir səhmanı,
Uçulur, tökülür dirəklər təki.

19.04.1987

XƏYALINLA ALIŞARAM GECƏLƏR

Xəyalınla alışaram gecələr,
Sənsiz könül necə yatıb dincələr?
Ürək ki var, yolundaca incələr,
Ucalığım, həqiqətim, hardasan?

Göz qalıbdı yollarında didərgin,
Ömür gərgin, həyat gərgin, gün gərgin,
Gülzarlıqda bir tale var, lap ölgün,
Təmiz, şəffaf ülviyyətim, hardasan?

Uca-uca eşq dağına çıxmışam,
Ayrılığın yurd-yuvasın yıxmışam,
Sevdanın ağ əllərini sıxmışam,
Quş qonmayan sədaqətim, hardasan?

Sellər-sular təki coşub çağlaram,
Həsrətinin əl-qolunu bağlaram,
Hicranından dağa dönmüş, dağlaram,
Qələmimə şan-şöhrətim, hardasan?

Bahar gəlib, bağçamızda çiçəklər,
Arzularım qəlb içində ləçəklər,
Ömür keçər, qocalığım gerçəklər,
Kağızıma səadətim, hardasan?

Şadimanın vüsalının əlacı,
Həsrət, hicran acı olur, çox acı,
Şadlığımın, fərəhimin baş tacı,
Misralara məhəbbətim, hardasan?

11.10.1986 Nasosnu

GƏZMƏ YENƏ HAVALI

Dəli könül, gəzmə yenə havalı,
Salma məni səhralara, düzlərə.
Bir ürək var, yoxdur onun zavalı,
Yatıb qalıb ocağında közlərə.

Düşüb oda alışmağın nədəndir?
Ağılımla vuruşmağın nədəndir?
Hisslərimlə yarışmağın nədəndir?
Düşmə yenə cığırlara, izlərə.

Qartal təki qanad açıb uçursan,
Uca-uca zirvəyə yol açırsan,
Dəli təki biyabana uçursan,
Od tökürsən baxışlara, gözlərə.

Oda düşüb, ocağında qovruldum,
Külə dönüb, qap-bacaya sovruldum,
Torpaq idim, meşələrə vuruldum,
Odun oldum, odu keçmiş közlərə.

22.04.1987

ARZULARIM AŞIB DAŞIR

Arzularım aşıb-daşır sinəmdə,
Ürək ilə pıçıldaşır sinəmdə,
Min sıldırım, keçid aşır sinəmdə,
Mərd əməli, uca düzü gözlərəm,
Zülmət üzən pak gündüzü gözlərəm.

Şadlığımız, sevincimiz bir aləm,
Naqis görsəm, artar qəlbdə ah-naləm.
Nə gözəldir yaşamağa bu aləm,
Ucalığı, ülviyyəti gözlərəm,
Pak addımı, pak niyyəti gözlərəm.

Ömrümüzün işığı çox, nuru çox,
Dünya böyük, biri acdır, biri tox,
Namərdlərin hər addımı qəlbə ox,
Mərd yerişi, mərd duruşu gözlərəm,
Ömür ilə hər vuruşu gözlərəm.

Baxış var ki, od ələnir üstünə,
Baxış var ki, el yığılır tüstünə,
Çevrilməsin insanlığın qəsdinə,
Düz baxışı, düz yerişi gözlərəm,
Ürək ilə hər gərdişi gözlərəm.

Dünya sonsuz, ömür uca, gün qısa,
Çox bulanıb gah şadlığa, gah yasa,
Qaçdı ayaq, tutdu bir gün əl əsa,
Yaxşılığı, yamanlığı gözlərəm,
Bəndələrdən insanlığı gözlərəm.

Çox naqislər qıyıb uca canlara,
Çox namərdlər əl buladı qanlara,
Üz tutaraq insan dolu anlara,
Həyat deyən diləkləri gözlərəm,
Düzə vuran ürəkləri gözlərəm.

Başımızda çaxnaşmada buludlar,
Sipər olub şimşəklərə palıdlar,
Şər görəndə, ürək qəmdən buludlar,
Şirin dili, sadə eli gözlərəm,
Haray salan udda teli gözlərəm.

Həyat gözəl, ömür qısa, gün gödək,
Üzər göldə qaz, yaşılbaş, çil ördək,
Gəlin birgə şərin ağzın bir güdək,
Dilin düzün, elin sözün gözlərəm,
Şərin üzün, mərdin özün gözlərəm.

Addım var ki, bircə hayı vay oldu,
Ömrümüzü əldən alan say oldu,
Cavanlığı qoca edən ay oldu,
Qəlbə çıraq ayı, ili gözlərəm,
Ürək açan toy-düyünü gözlərəm.

Ey Şadiman, ilham atın qamçıla,
Qoyma şərin bəd ağızı açıla,
Yolumuzda daim günəş saçıla,
Arzularda dənizliyi gözlərəm,
Ürəklərdə təmizliyi gözlərəm.

12.06.1986 Nasosnu

MİSRALARIM

Sığmaz pak qəlbində eşqin ümmana,
Düşməsin məramın çiskin, dumana,
Gəlməzdi ağıla, vallah, gümana,
Könlümüz birləşə, ay misralarım,
İstəyimiz ola, çay, misralarım.

Zamanın əlində ömür bir sınaq,
Gəl birgə alışaq, gəl birgə yanaq,
Nə çirkin baxışdan, nə gözdən sınaq,
Şadlığımız olsun, dağ, misralarım,
Xoşdur bu firavan çağ, misralarım.

Qoy könül bağında açsın gül-çiçək,
Həyat badəsindən biz düzlük içək,
Enişi-yoxuşu mərdliklə keçək,
Sevinclə alışsın göz, misralarım,
Çıxsın qoy meydana söz misralarım.

Ey dost, əllərini bir ver əlimə,
Titrək barmaqlarla sığın telimə,
Sənki yaraşıqsan könül evimə,
Dərdli taleyimi yaz misralarım,
Ahəngi ud, kaman, saz misralarım.

Şadiman, tez ötür gənclik yaşımız,
Həyat cəfaların çəkdi başımız,
Eniş-yoxuşludur, bil ki, qarşımız,
Qoyaq dağa-daşa iz, misralarım,
Birik eyni qəlbdə biz, misralarım.

25.10.1987

ÜRƏYİM

Uşaqlığı dərd-ələmə ataraq,
Saldın məni dildən-dilə, ürəyim.
Sağalmayan bir mərəzlə yataraq,
Cığır saldın teldən-telə, ürəyim.

Sevincimi, şadlığımı apardın,
Qəlb içində qəfil tufan qopartdın,
Duyğularım nalə atın çapardı,
Dastan oldun eldən-elə, ürəyim.

Ələm, kədər qoşun çəkdi üstümə,
Ocaq çatdın, baxdın gendən tüstümə,

Sənin kimi, kim durdu, can, qəsdinə?
Vurdun məni seldən-selə, ürəyim.

Gəncliyimi gəl qaytar sən yenə də,
Diləklərim baş-başadır sinədə,
İnan, vəfa qalmadı heç sənə də,
Sitəm etdin ildən-ilə, ürəyim.

Şadimanın bağrı dolub qəm ilə,
Ömür sürüb niskil ilə, nəm ilə,
Yol getmədin gözü, könlü dəm ilə,
Verdin ömrü yeldən-yelə, ürəyim.

18.10.1987

NALƏSİLƏ GÖZ AÇIB

Mən Füzuli naləsiylə göz açıb,
Nəsiminin fəryadıyla yanıram.
Natəvanın gülzarında gül açıb,
Tikanları, qanqalları danıram.

Məhsətinin rübabından alışdım,
Alov olub ocağına qarışdım,
Hikmətlərin dünyasında yarışdım,
Yaxşıları, yamanları anıram.

Uzaqlarda, yaxınlarda yox gözüm,
Addımımdan narazıyam mən özüm,
Soyuq, isti çox görübdü bu üzüm,
Bəndələrin hər üzünü qanıram.

Hər sinədə alov olmaz, od olmaz,
Hər xörəyə hər dil üstə dad olmaz,
Hər yetənə el ucaldan ad olmaz,
Ürək var ki, sazağından donuram.

Əyrilərin əyri gedən sözünü,
Namərdlərin evlər yıxan özünü,
Çox başların düz görməyən gözünü,
Sinəmdəki sözlərimlə yonuram.

Şadimanam, əlimdədir qələmim,
El xoşbəxtsə nə kədərim, ələmim,
Firavandır bu bəxtiyar aləmim,
Ün yetməyən zirvələri sanıram.

19.11.1987

İLLƏR NƏ TEZ ÖTÜŞÜR

Yaş üstünə gəlir yaş,
Dincəlməyir ürək, baş,
Varlıq həyata sirdaş,
Günlər aya yetişir,
İllər nə tez ötüşür.

Yorulmaz əl çalışır,
Zirvələrlə yarışır,
Duyğu, amal sayrışır,
Qara saça dən düşür,
İllər nə tez ötüşür.

Dünən körpə canımız,
Coşub-daşan qanımız,
Şöhrətimiz, şanımız,
Qocalıqla görüşür,
İllər nə tez ötüşür.

Zaman əldə çıraqdır,
Hər ömür bir varaqdır,
Həyat telə daraqdır,
Qara ağla bitişir,
İllər nə tez ötüşür.

Yeddi rəngli fəsillər,
Ömrün yolun kəsirlər,
Hey dəyişir nəsillər,
Yaşlı qüvvədən düşür,
İllər nə tez ötüşür.

Uca zirvəyə qonaq,
Şadiman, necə danaq?
Bağban bağçaya qonaq,
Təzə barlar yetişir,
İllər nə tez ötüşür.
İllər nə tez ötüşür.

09.10.1987

KÖNÜL NƏĞMƏSİ

Köksüm yenə bulaq təki qaynayır,
Xəyal atım ilhamımla oynayır,
Dolmuş sinə kim deyər ki, aynayır?
Şair könlüm məhəbbətsiz yaşarmı?
Çılğın seltək bağrım coşub-daşarmı?

Tərlan sayaq səmalarda uçaram,
Qızıl güləm, bağ-bağçada açaram,
Ağ buludtək gündüzlərə qaçaram,
Zülmətlərin yurd-yuvasın yıxaram,
Al günəşəm, asimandan çıxaram.

Mən dənizəm, təlatümüm soyumaz,
Od köksümdə duyğularım uyumaz,
Xəyal səddim fırtınalar oyumaz,
Gəl arama, sinəm içi gileydir,
Bağrın içi gah tütəkdir, gah neydir.

Alovundan fəza sinə cırarkən,
Şimşək təki buludları vurarkən,
Həsrət yenə fitnə-fəsad qurarkən,
İlhamımla qucaqlaşır küləklər,
Cuşa gəlir min-min çılğın diləklər.

Gəl oyatma, könül sakit yatıbdı,
Yenə xəyal dəryasına batıbdı,
Elə bilmə, al günəşim batıbdı,
Sevgilidir, bu baharlar, bu yazlar,
Yoxluğumla torpaq, səma ayazlar.

İstəklidir, bu möhtərəm ay-illər,
İlhamımdır, şirin-şəkər xoş dillər,
Coşub daşan köksə sevgi deyirlər,
Eşq yolunda dolmuş gözlər ağlayır,
Ürəyimi duyğulara bağlayır.

05.01.1987

SƏNDƏN KİM DOYDU?

Sehirinə sehir çatmaz,
Sirrini heç kimə satmaz,
Hər sinədə, qəlbdə yatmaz,
Min-min canlar vaxtsız uydu,
Həyat, səndən de, kim doydu?

Şirinlikdən yemək olmur,
Sənə hər söz demək olmur,
Daddığını öymək olmur,
Acılığın çox qəlb soydu,
Həyat, səndən de, kim doydu?

Gəlib-gedən çarpışmada,
Sənin ilə vuruşmada,
Hər günümlə yarışmada,
Min-min gələn canın qoydu,
Həyat, səndən de, kim doydu?

Qara saçı ağ elədin,
Qəlblərə qəm, dərd bələdin,
Başa duman, qəm ələdin,
Çox qəlbləri qəmin oydu,
Həyat, səndən de, kim doydu?

Gedənlərin gözü qaldı,
Deyiləsi sözü qaldı,
Yaxşı-yaman izi qaldı,
Burda toydu, orda vaydı,
Həyat, səndən de, kim doydu?

İnsanların ev-eşiyi,
Səhər-axşam çək keşiyi,
Yırğalanır sirr beşiyi,
Əldən qaçan ildi, aydı,
Həyat, səndən de, kim doydu?

Könül, səndən çəkməz gözün,
Başdan-başa sehir özün,
Şadimana nədir sözün?
Fərz edək ki, hər gün toydu,
Həyat, səndən de, kim doydu?

17.10.1987

CAN ATIRSAN AĞRIMAĞA, ÜRƏYİM

Nə inlərsən bu qəm dolu dünyaya,
Duyan bilir, az verilir hay vaya,
Bilirəm ki, sən deyilsən daş-qaya.
Ömrə, günə həyat verən mələyim,
Can atırsan ağrımağa, ürəyim.

Mərdlik elə nemətdir ki, duyan az,
Nadanlardan qopub gəlməz xoş avaz,
Ömür özü barmaqlarda dinən saz,
Yaranışdan ruhumladır diləyim,
Can atırsan ağrımağa, ürəyim.

Canlılardan insan özün baş sayır,
Baş olanın əqli niyə şər yayır?
Çəmənzarı nədən basır, ot-çayır?
Yaradanın əlindədir ələyim,
Can atırsan ağrımağa, ürəyim.

Yer üzünün ən alisi insandır,
Demə, onun həyat yolu asandır,
Sən sinəmdə gur çırağı gəl yandır,
Tez yıxılsan, kəsiləcək, bil heyim,
Can atırsan ağrımağa, ürəyim.

Əzəl gündən od günəşdən alırıq,
Bir yer üstə min-min sərhəd salırıq,
Yaxşı-yaman adımızla qalırıq,
Ömür özü segah üstə qəlb neyim,
Can atırsan ağrımağa, ürəyim.

Ölüm də var, şadlıq da var, sevinc də,
Zəiflik də, mərhəmət də, zor-güc də,
Yorğun da var, düşgün də var, girinc də,
Hansı dərdi misra-misra mən deyim?
Can atırsan ağrımağa, ürəyim.

Şadimanı od içində köz etdin,
Hər acımı kağızlarda söz etdin,
Mən demirəm hansını səhv, düz etdin?!
Candan çıxmır tufan qıran küləyim,
Can atırsan ağrımağa, ürəyim.
Can atırsan ağrımağa, ürəyim.

14.11.1987

DİLLƏR EŞİTSİN

Ürək, ağlayanda elə ağla ki,
Səsini ünyetməz ellər eşitsin.
Sınan ümidimə könül bağla ki,
Ərşə soraq edən dillər eşitsin.

Başımdan əskilməz hicranın dağı.
Sənə öz varlığın yağıdır, yağı.
Solur pünhan-pünhan gənc ömür bağı,
Yaş üstə yaş qoyan illər eşitsin.

Həsrətdə qalanda, gözü yaş alsa,
Haqqına ayrılıq bir gün daş olsa,
Qəlbim həzin-həzin dolub-boşalsa,
Simi zənguləli dillər eşitsin.

Ömrümün payızı qapımda durub,
Səfil dilənçitək boynunu burub,
Yenə boranları toy-büsat qurub,
Üşüyən sonalı göllər eşitsin.

Sevgilər, eşqilər oyuncaq olub,
Sərvətlər ən isti bir qucaq olub,
Odu tükənməyən qəlb ocaq olub,
Ünümü Məcnunsuz çöllər eşitsin.

Bu dərya könlümdən tufan sovuşmaz,
Çılğın duyğularım qəlbə yovuşmaz,
Ayrı düşən yurdum yurda qovuşmaz,
Araza qarışan sellər eşitsin.

Qəlbdə istəklərim verib baş-başa,
Gəzir karvan-karvan o baş, bu başa,
Heç arzum, diləyim yetməyir başa,
Tanrıya yetişən yellər eşitsin.

Şadiman, dərdi-sər bükdü belini,
Ağlama, sızlama, dinc qoy dilini,
Yaxınlar, uzaqlar görür çölünü,
Qoy vaxtsız ağaran tellər eşitsin.

11.12.1989

ŞIĞIYIB GEDƏN ZAMAN

Şığıyıb gedən zaman, harda qaldı izlərin?
Dikilibdi bəxtimə məlul-məlul gözlərin,
Yandırır ürəyimi qaladığın közlərin,
Axtarıb tapa bilmir ötənləri taleyim,
İncidirsən könlümü, budur sənə gileyim!

Yenə bulud alıbdı günlərimin üstünü,
Yandır sinəmdə tonqal, dünya görsün tüstümü,
Qurmuşam könül içrə məhəbbətin büstünü,
Sən allah gəl dağıtma, mənə yadigar qalsın,
Qoy bu eşqin qəsiri günəşədək ucalsın.

10.01.1987

NƏĞMƏSİ ÇAĞLAYAN

Nəğməsi çağlayan bir ürəyəm mən,
Ünü zilə qalxan sehirli sazam.
Günəşi qəlblərə hərarət verən,
Sevgisi min dastan baharam, yazam.

Şimşəyi çıxaran göyün fövqünə,
Leysanı tökülən bulud zövqünə,
Qönçəyəm, açaram gənclik şövqünə,
Sevgisi min dastan baharam, yazam.

Dəli yellər təki, əsərəm qəfil.
İçimdə duyğular didərgin, səfil,
Məni anlamayan, duymayan qafil,
Sevgisi min dastan baharam, yazam.

İsti od-ocağım – alovlu günəş,
Müqəddəs qucağım bu kürə, bu ərş,
Bağrımdan soyumaz heç zaman atəş,
Sevgisi min dastan baharam, yazam.

Şadiman, demə ki, ağrıyır ürək,
Onla baş-başadır yüz, milyon dilək,
Bu ana diyarda birlikdə gülək,
Sevgisi min dastan baharam, yazam.

08.06.1987

MƏHƏBBƏT – MÖCÜZƏ

Məhəbbət – möcüzə, sirr xəzinəsi,
Heç zaman əyilməz şöhrətə, ada.
Hissin tərənəsi, qəlbin ruh səsi,
Başından əskilməz heç dərd, heç qada.

Səyinlə çox azdı yolundan ürək,
Hicranı, həsrəti hökmran etdin.
Bə'zən iblis oldun, bə'zən də mələk,
Vaxt oldu əyildin, qul oldun, getdin.

Kimlər bu azara tutulmadı, de?
Şahları taxtından saldın avara.
Hansı ürək sənə satılmadı, de?
Çox könül bağında qaldın avara.

Önündə kiçildi fədakar ağıl,
Sən boğdun idrakı, əsir eylədin.
Sənin öz dünyan var, bir ucu nağıl...
Sədəlövh ürəkdən qəsir eylədin.

Sən ucuz tutmadın hər təbəssümü,
Məhəbbət çəkişin çox iti olur,
Hardasa qırılsa bir könül simi,
Sanki gülzarında çiçəklər solur.

Məhəbbət, Şadiman əlində naçar,
Hökümlər sənindir, o da icraçı.
Min bir əldə gəzir bu sirli açar,
Yedirdiyin acı, yediyi acı.

10.08.1988

ZALIM ZAMAN

Zalım zaman gen sinəsin açıbdı,
Çalın-çarpaz dağlar çəkir mərdlərə
Min halalın başına dərd açıbdı,
Dözməz sinə, dözməz bağır dərdlərə.

Köməksizi, taqətsizi təkləyər,
Qəfil oxtək sinəsini oxlayar.
İmkanılın qarşısında baş əyər,
Bəd işinə gözün yumar, yuxlayar.

Qeyrətlini dağa, daşa qovlayar,
Yuvalının yuvasını alar tez.
Həqiqəti haqqı pusar, ovlayar,
Sinəsini ilan təki çalar tez.

Göz açandan ömrümüzlə vuruşar,
Zəncirləyər, buxovlayar, düzləri.
Kökümüzə, soyumuza qarışar,
Kor eyləyər uzaq görən gözləri.

Ey Şadiman, taleyimiz qəfəsdə,
Dərdi-sərlər sarmaşıbdı canlara.
Yaman ki var, hər an ayrı nəfəsdə,
Sevinc-kədər izin qoyar anlara.

11.12.1989

QAYIT BU YOLDAN

Nə qədər cavanam, gec deyil hələ,
Qayıt, ey ürəyim, qayıt bu yoldan.
Salma varlığımı, salma nəhs ələ,
Qayıt, al sabahım, qayıt bu yoldan.

Yalandan üzünə gülənlər olar,
Pakanə sirrini bilənlər olar,
O könül qapına gələnlər olar,
Qayıt, ey günahım, qayıt bu yoldan.

Hər gün açılmayır hər kəsə qapı,
Hardasa qırılır taleyin sapı,
Gəzmə söz mülkündə sən qapı-qapı,
Qayıt, səcdəgahım, qayıt bu yoldan.

Cavanlıq qapıda durub dayanmaz,
Hər gün evimizdə gur işıq yanmaz.
Çılğınca məramlar yatsa, oyanmaz,
Qayıt naləm, ahım, qayıt bu yoldan.

Heç şeir, şeriyyət dadına çatmaz,
Özünü uğrunda odlara atmaz,
Ruhum ulduz təki göylərdə batmaz,
Qayıt, ey sirgahım, qayıt bu yoldan.

29.08.1989 Gəmidə

OCAĞIYLA YANDIRAN

Bu dünyanı ocağıyla yandıran,
Sinəmdəki oda-közə neyləyim?
Bir günəş yox, min günəşi andıran,
Bu atəşli yanar közə neyləyim?

Dəli könlü məhvərindən qoparan,
İlhamımı pak evinə aparan,
Ürəyimi xəncəriylə tən yaran,
Bulaq təki qaynar sözə neyləyim?

Sona kimi çeşmələrdə dolaşan,
Qartalları zirvələrdə yarışan,
Hər ah üçün sinəm üstə vuruşan,
Hər addıma, hər bir izə neyləyim?

Eniş-yoxuş bilmib yollar, gedibdi,
İztirabı sinəm için didibdi,
Duyğuları çöldə Məcnun edibdi,
Bükülməyən məğrur dizə neyləyim?

Həsrətiylə biyabanda ağlayar,
Bağlanmayan qapısını bağlayar,
Sinəsini ocağında dağlayar,
Məhəbbəti gəldi gözə, neyləyim?

Şadimanı hisslər ilə oynadan,
Çeşmə təki bağrın, köksün qaynadan,
Min-min könül baxdı, keçdi aynadan...
Mənim könlüm baxmaz sözə, neyləyim?

22.11.1987

SIZLAR XƏYALLARIM

Sızlar xəyallarım hey için-için,
Könlümdə ilğımlar dolaşar-keçər.
Bircə yol anlayıb, duymadın neçin?
Ürəyim həsrətin əlinə keçər.

Anlat duyğuları, nə deyirsən sən?
Vusal həsrətiylə gün dolaşmışam.
Yenə bəxt mülkümə çöküb duman, çən,
Enişə çıxmışam, dağlar aşmışam.

Gecələr içində yuxular nalan,
Ey uyğum, dadıma yet, zamanıdı.
Ayrılıq ürəyi etməsin talan,
Dağıt könlümdəkin, qəm dumanıdı.

11.12.1989

DİLƏ GƏLİR

Bu çılğın könlümün həyəcanından,
Ürək dilə gəlir, dil dilə gəlir.
Şeriyyət ayrılır coşğun canından,
Zaman dilə gəlir, il dilə gəlir.

Qələmsiz, vərəqsiz dünyada heçəm,
Hazıram yolunda canımdan keçəm,
Ondan başlar izim, cığırım, küçəm,
Qara saçlarımda tel dilə gəlir.

Ocaqsız alışıb yanıram hələ,
Heç sinə görməyib yanmağı belə,
Bu cismi-bədənim gəlibdi dilə,
Doğulduğun torpaq, el dilə gəlir.

Hisslərim könlümə hey divan tutur,
Sinəm şeriyyətin köksündə yatır,
Dünyanın yükünü çiyninə çatır,
Ürəkdə ahəstə tel dilə gəlir.

Yaşaya bilmirəm duyğularımsız,
Qəlbi ovsunlayan qayğılarımsız,
Mən heçəm o qadir uyğularımsız,
Gözümdə bulanıq sel dilə gəlir.

Şadiman, misralar sənə çıraqdır,
Sevgilin bir qələm, bir də varaqdır,
Hissin gərdişindən ürək soraqdır,
Məcnun taleyinə çöl dilə gəlir.

18.01.1987

OVUT KÖNLÜMÜ

Ey misra, azacıq ovut könlümü,
Dağıt gözümdəki çiskini, nəmi.
Hər yerdə, hər zaman pak tut könlümü,
Çünki bir sınaqdır ayrılıq dəmi.

Çılğın duyğularım versin baş-başa,
Uçurtma könlümün sevgi mülkünü.
Heç məram, heç istək dəyməsin daşa,
Yetsin fəzalara köksümün ünü.

Viranə etmə gəl duyğularımı,
İlahi hissini sevgitək qoru.
Ucalt sənə bağlı qayğılarımı,
Od-ocaq sinəmin keçməyir qoru.

Ey misra, alışdır sən od-közümü,
İşığın gecəmə saf çıraq olsun.
Mən ki, çox mehriban tutdum dözümü,
Sənsiz səadətim ağ vərəq olsun.

27.08.1989

YARILIR BAĞRIM

Dolaşır içimdə soyuq küləklər,
Yarılır bağırım qəmdən, İlahi.
Ürək min cür təzad doğar, bələklər,
Qurumaz gözlərim nəmdən, İlahi.

Bir soyuq baxışdan buz oluram, buz,
Karvansız sarvanam, gəzirəm sussuz.
Yaşaya bilmərəm ilhamsız, sözsüz,
Ayırma, bu çılğın dəmdən, İlahi.

Hələ yazılmayıb ağ varaqlarım,
Sönməyib könlümdə eşq çıraqlarım,
Qəlb döyüş meydanı, söz yaraqlarım,
Dolmasın sözlərim qəmdən, İlahi.

Susub Şadimanın könül nəş'əsi,
Artır təşnələrdən can əndişəsi,
Qoyma ki, qırıla həyat şüşəsi,
İlham vurnuxmasın kəmdən, İlahi.

10.12.1989

RƏBBIM İLƏ DANIŞIRAM

Diri ikən dərd könlümü
məzarladı torpaqlara,
Yandı içim, dondü duyğum
xəzan olmuş yarpaqlara,
Arzuların ağ örtüyü
döndü qara duvaqlara.
Al gündüzüm gecə təki
zülmətlərə büründü ah.
Nədən oldu fəlakətlər
düzaq etdi məni, Allah?
Qara bəxtim uyğun təki
mürgüləyir nə müddətdi,
Dəstəkləyib arzuları,
Bu nə sitəm, nə vəhdətdi?
Ocaq çatdım qəlb evində
keçdi odu, qoru qaldı,
Səyyad idim, ov ovladım,
Getdi əldən, toru qaldı.
Ürəklərin iç üzünü
çöhrələrdə astar gördüm.
Nahaq sözlə yazladı dil,
Nə qımışmaq, nə ar gördüm,
Günəşin də, al gündüzün
simasında bir tor gördüm.
Zəncirləndi susmaz dillər
öz sözünün bəlasına,
Tanrıdamı qulaq verməz
allahsızlıq duasına?!
Qəhir olmuş Şirin xanım
sitəmlərə ürcah oldu,
Süfrəsində təamı da
qüssə-kədər, qəm-ah oldu.
Bəlkə də bu duyanlara
Tanrı qoyan sirli yoldu?
Qapanmışam öz könlümün
dəryasında mən coşuram,
Kainata üz tutmuşam,
Rəbbım ilə danışıram.

26.01.1992

LAYLA ÇALANDAN

Beşiyimə şirin layla çalandan,
Gecələri boynuma qol salandan,
Dolmuş könlü xoş ləhcəylə alandan,
Canım ana, nəğmən könlə yayıldı,
Lap çocuqkən duyğularım ayıldı.

Sevgilərin gur yağıştək yağarkən,
Göy üzündə aytək laylan doğarkən,
Şaqraqların göz yaşımı boğarkən,
Canım ana, dilin mənə var oldu.
Ruhun ilə varlığıma yar oldu.

Nə şirinmiş səndəki o lətafət,
Nənnim üstə laylaların şux afət,
Qucaqlardı könlüm için gül sifət,
Canım ana, tər varlığım öyündü,
Məhəbbətin ürəyimdə döyündü.

Bəstəkarım, şairim də sən idin,
Sevincini mənə verib, qəm yedin,
İlhamımın qulağına can dedin,
Canım ana, mən dinlədim dilində,
Yatdı könlə, yatdı ruha dilin də!

Tellərinin qarışığı telimdə,
Şirinliyin, ululuğun dilimdə,
Ana adın ocağımda, elimdə,
Canım ana, qayğıların çağladı,
Gəncliyinin qapısını bağladı.

Mənə verdin o qapqara telləri,
Yolumdaca çox əritdin illəri,
Mən boy atdım, soldu ömrün gülləri,
Canım ana, çiçəklədi gül bağım,
Çox borcludur sənə mənim bu çağım.

Ömür verdin həyatınla sən mənə,
Bəxşiş verdin təblə dolu bir sinə,
Şirin xanım bir körpədir bil sənə,
Canım ana, hər şeyimsən dünyada,
Pak adına bax, baş əyir dünya da.

25.03.1989

YAŞIMIZA YAŞ GƏLİR

Kitabxanaçı, tatar qızı Ravilda Abubəkirovaya ithaf

İllər ötür yaşımıza yaş gəlir,
Acı-şirin min bir duyğu dağ dəlir.
Dostlarının bu gün səsi yüksəlir,
A Ravilda, əlli yaşın mübarək,
Ucalardan uca başın mübarək.

Cavanlığın ilk keçidi əllidir,
Təmizliyin, sədaqətin bəllidir,
Qarşıdadır ömür-günün, yaş nədir?
A Ravilda, əlli yaşın mübarək,
Ucalardan uca başın mübarək.

Qocalığı yaxın qoyma, amandı,
Yaş nədir ki, qəlb qocalsa yamandı,
Ömür yoldur, qaçıb gedən zamandı,
A Ravilda, əlli yaşın mübarək,
Ucalardan uca başın mübarək.

Şirin xanım ümidlidir sabaha,
Ürəyində heç yer vermə dərd, aha,
Əlli il də qeyd eləyək bir daha,
A Ravilda, əlli yaşın mübarək,
Ucalardan uca başın mübarək.

08.05.1989

AŞIR-DAŞIR ÜRƏYİM

Diləklərlə aşır-daşır ürəyim,
Gələcəkdir səadətim, dirəyim,
Bir şirin söz, bir gülər üz gərəyim,
O qismətdir, özü tapıb haraylar,
Məhəbbətdən qurar könlə saraylar.

Sel-su olub, hər dəryaya axmaram,
Bir kimsəyə mən pis gözlə baxmaram,
Şimşək olsam, yerli-yersiz çaxmaram,
İlhamımın qızınaram oduna,
Misraların tez düşərəm yadına.

Günlərimi yaxşı-yaman sanaram,
Çırağıma piltə olub yanaram,
Ötən ömrü xəyallarla anaram,
Bu təbimdir, bələdləyib küçəni,
İncitmərəm ürəyimdən keçəni.

06.02.1985

CAN, NƏFƏSİMDİR

Köksümdə doludur əzab, iztirab,
Qalmadı könlümdə nə taqət, nə tab,
Bəs necə səslənər tarsız bir mizrab?
Göylərə yüksələn ünüm, səsimdir,
Kükrəyən, hayqıran can, nəfəsimdir.

Anlarla bağlaşır, coşur həyatım,
Budur Yaradana varlıq isbatım,
Ya dalğayla üzüm, ya da ki, batım,
Bu ahlar, fəğanlar mənim bəsimdir.
Kükrəyən, hayqıran can, nəfəsimdir.

Üzüyolaları sevməyir heç kəs,
Gərək sərt olasan, qırılsın qəfəs,
Doğuldum, deməli deyildir əbəs,
Gördüyüm, duyduğum öz həvəsimdir,
Kükrəyən, hayqıran can, nəfəsimdir.

06.02.1985

GƏLİN KİMİ GÖRÜNDÜ

Tale mənə bir bəzəkli gəlin kimi göründü,
Ayım, günüm yoxuşlarda ilan təki süründü,
Başım üstə uçdu könül, arzuları küləktək,
Qanad açdı səmalarda göy geyimli mələktək.
Duman çökdü, qəlb dağının ətəkləri buzladı,
Ürəyimdə ümidlərim uşaq kimi nazladı.
Sabahlara yetmək üçün cəhd elədim, yeridim,
Ömür səhər yellərində şehə düşdü əridi.

06.02.1985

YAYIB ÜZÜNƏ

Günəş şəfəqini yayıb üzünə,
Bəxtimin, günümün çırağı ilham.
İndi mən mailəm bircə sözünə,
Gah qoşma, bayatı, gah ağı, ilham.

Üzündən, gözündən nur yağa-yağa,
Misramı salırsan hər ağ varağa,
Mən qulun olmuşam, sən isə ağa,
Çəkmə ürəyimə eşq dağı, ilham.

Hissimlə döyüşdə keçir günlərin,
Heç bitib qurtarmır toy-düyünlərin,
Dolaşıb bağrıma səda-ünlərin,
Bilmirsən nə solu, nə sağı, ilham.

Çəkib çevirirəm sinədə ahı,
Qarışıq salmışam axşam-sabahı,
Niyə sən olmusan könlün allahı?
İndi sən yazırsan xoş çağı, ilham.

Gah arandan baxdın, gah da dərədən,
Gah qapıdan girdin, gah pəncərədən,
Məni kağızlara, ey sail edən,
Verirsən hər yerdən sorağı, ilham.

Şadiman önündə bir tifil olub,
Sənə qovuşandan can səfil olub,
Bütün ağrılarım dönüb, fil olub,
Yamanca edirsən marağı, ilham.

04.04.1987

KÖNLÜMÜN SƏSİ

Sinəm dolu, bir nəğməkar bülbüləm,
Hər yetənə vurulmağı nə biləm?
Tuti-tuti ötən, şirin bir diləm,
Sözüm gəzər şərqi təki dünyada.
Çalışıram getməsin heç gün bada.

Çəmənzarda lalə, nərgiz doludur,
Döyəcləyən şimşək, yağan doludur,
Hər taledə çətin sevgi yoludur,
Sevgi keçər, vurulmağa alışma,
Közə bağlı ocaq təki alışma.

Gözəl deyib, çox sevənlər səslədi,
Sinəsində eşq, məhəbbət bəslədi,
Qara gözdən nə gizlədi, həslədi,
Adamlara qurdu saysız kələklər,
Hörmüzü də çox aldatdı mələklər.

Təmiz sevgi böyütmüşəm sinəmdə,
Gözüm qaldı həm sevincdə, həm qəmdə,
Məhəbbətlə yoğrulubdu binəm də,
İlahi eşq mənim qadir allahım,
Şəfəq saçan gur işıqlı sabahım.

Çox gözəllər gəlib keçib bu yoldan,
Ömür ötür, biz qalırıq əl-qoldan,
Arı doymur yaratdığı saf baldan,
Həyat özü gətirdiyin aparır,
Xeyirlə şər hər gun fəryad qoparır.

08-09.01.1987

QOPDU ŞİMŞƏKLƏR

Başımın üstündə qopdu şimşəklər,
Ağladı halıma dilsiz fələklər,
Puç oldu içimdə min-min diləklər,
Nə tez payız oldu ömrümün yazı,
Söndü taleyimin o bəxt ulduzu.

Mən də möhnətlərin acısın daddım,
Qəlbdə mürgüləyən qəmi oyatdım,

Onu şələləyib kürəyə çatdım,
Batdı, cəh-cəh vuran, könül avazı,
Söndü taleyimin o bəxt ulduzu.

Elə Şadimanı qınayıb gəzin,
Bildiyiniz kimi könlünü üzün,
Boynuma ağrıdan mərcanlar düzün,
İndi deməyin ki, deyil bu yazı,
Söndü taleyimin o bəxt ulduzu.

09.01.1987

KÖNLÜMDƏKİ DUYĞULARIM

Könlümdəki duyğularım yüyənsiz atlı,
Körpə kimi, çocuq kimi ağlar diləklər.
Sinəm içi hərb meydanı, qəmim qanadlı,
Bir gecədə saysız kədər doğar, bələklər.

Həyat məni gah güldürər, gah da ağladar,
Bir zəhərli ilan təki nəş'əmi udar.
Nə yazdığın, nə pozduğun bilməyir qədər,
Baş aparar yolum üstə min bir kələklər.

Amallarım çarpışmada, yolum təzadlı,
Əlçatmayan zirvələrim adsız və adlı,
Hər anımız, hər günümüz dadsız və dadlı,
İçimizin fəğanından ağlar fələklər.

Məğrur-məğrur baş endirər taleyim mənə,
O mənimlə çox dözübdü dumana, çənə,
Ana kimi qucaqlayar boynumu yenə,
Nələr edər bu təmasa göydə mələklər.

Ey Şadiman, çarpışmada içimdə ürək,
Üstündəcə çox açıldı başıma kələk,
Bu yoldaca sən etdikcə özünü həlak,
Hey dolaşdı sinən için başsız küləklər.

16.09.1989 Nasosnu

DƏRD QOYAN FƏLƏK

Dərdimin üstünə dərd qoyan fələk,
Bu dərdi könlümdən necə silim mən?
Sinəmin içini çox oyan fələk,
Sənin məramını nədən bilim mən?

Təzadın hissinlə ovladı məni,
Həsrətin düzünə qovladı məni,
Hər yerdə, hər zaman tovladı məni,
Aç hikmət qapısın, seçə bilim mən.

Mən də bu dünyanın can yolçusuyam,
Ömrün sabahına an yolçusuyam,
Qəlb vuran müddətdə qan yolçusuyam,
Bu dərdi, ağrını biçə bilim mən.

Ömürdən o üzə həyat görünmür,
Bədən ayaq üstə, qanad görünmür,
Bəndə olan yerlər abad görünmür,
Nədən süd gündüzü gecə bilim mən?

Belə Şadimana divan tutma, gəl,
Onun ürəyini ünvan tutma, gəl,
Həyat şərbətinə zəhər qatma, gəl,
Verdiyin qədəhi içə bilim mən.

18.09.1989 Nasosnu

MÖHNƏTƏ DÜŞƏNDƏN

Möhnətə düşəndən könlüm qərarsız,
Keçir ömrüm, günüm naleylə, ahla.
Sinə bir xəzanmış əhdsiz, ilqarsız,
Sözlərim qol-boyun olub sabahla.

İçimdə qovuşur hicran-hicrana,
Bəxtin ucbatından gəlmişəm cana,
Ünüm yayılıbdı bütün cahana,
Sözlərim qol-boyun olub sabahla.

Ey misram, hardasan? Gecikdin yenə.
Dərdinə dözməyir heç yazıq sinə.
Çaxnaşan hislərim enir köksünə,
Sözlərim qol-boyun olub sabahla.

Müddətdi gəzişir gözlərimdə qəm,
Çarpışır ilğımtək könlümlə aləm,
Dolub daşır yenə həyat piyaləm,
Sözlərim qol-boyun olub sabahla.

23.11.1989

QAPIM DÖYÜLDÜ

Yatmışdım. Qərib gecə. Sükut içində hər yan.
Səssizlik öz kamında, birdən qapım döyüldü.
Qorxulara büründüm, ruhum olmadı həyan,
Bu ani səadətin önündə qəm əyildi.

Yönəldim tez qapıya, görən gələn kim ola?
Sordum astaca, susqun kimsən? Ey gələn, danış.
Nə səs varmış, nə səda, sükut gəlmədi yola,
Səslənən qulağımmış, hər şey könlümə tanış.

Bu zaman daxilimdə haçalandı duyğular,
Qulaqları oxşayan ilhamın nəfəsiymiş.
Qəlbi pərvazlandıran bu bəzəkli uyğular,
Sözlərlə cilalanan ürəyimin səsiymiş...

24.11.1989

KİMSƏSİZ HƏSRƏT

İçimdə dolaşır kimsəsiz həsrət,
Doğulur min dilək, ölür min dilək.
Çəkdikcə çəkirəm zillət, əziyyət,
Alır inamımı qaçır bu ürək.

Hardasa dolaşır fikirlər ərzi,
İdrakın əlində durmur tərəzi,
Bilməm, nədir mənlə böylə qərəzi?
Tərlantək göylərdə uçur bu ürək.

Dondurur gözlərdə vüsal sevinci,
Bə'zən ağılıma göstərir küncü,
Boylanır ruhumda lap inci-inci,
Məramı, istəyi qucur bu ürək.

Şadiman ağlayan ruha bəladı,
Sanıram, hər işim haqqa qaladı,
Ağlım əmirinə lap mübtəladı,
Ağlın qapısını açır bu ürək.

26.11.1989

ÜZÜB MƏLALI

Üzüb bu mələlı, bu iztirabı,
Bağlı yollarımı açaydın, fələk.
Könlü əzablarda qoyan hicranın,
Başına min bəla açaydın, fələk.

Ötüşən illərim fəna içində,
Girirlər min dona zaman köçündə,
Alışıb yanıram mən də içində,
Məni oddan alıb, qaçaydın, fələk.

Düşmüşəm felinə qəliz işlərin,
Çəkəydin ömrümün iti dişlərin,
Hay-küyü böyükdür bu gedişlərin,
Könül üfüqündə saçaydın, fələk.

Mən də Yaradanın bir bəndəsiyəm,
Yanan ürəyimin həyat səsiyəm,
Üfürsən göylərə tez düşəsiyəm,
Düşəndə ruhumu qucaydın, fələk.

Tələsib aparma bu Şadimanı,
Görürsən çəkirlər gözə dumanı,
Tapaydın ruhuma düşən zamanı,
Alıb qanadına uçaydın, fələk.

26.11.1989

QƏFƏSƏ DÜŞMÜŞƏM

Mən qolu-qanadı bağlı bir quşam,
Qəfəsə düşmüşəm, qəfəsə, Allah,
Dərdimin gözündən axan bir yaşam,
Qəfəsə düşmüşəm, qəfəsə, Allah.

Arzular, diləklər batıb içimdə,
Bəxtim, taleyim də yatıb içimdə,
İşim keçən kəslər min bir biçimdə,
Qəfəsə düşmüşəm, qəfəsə, Allah.

Tanrı verdi odlu sözləri mənə,
Dikilib baş kəsən üzləri mənə,
Fitnədir, fəsaddır gözləri mənə,
Qəfəsə düşmüşəm, qəfəsə, Allah.

Çox bəlalı həyat bir vurhavurdu,
Şeytanlar yolumda çox tələ qurdu,
Qarşımda hər zaman iblislər durdu,
Qəfəsə düşmüşəm, qəfəsə, Allah.

Gethaget dünyanın tələsi aşkar,
Hər bir fəsadına mən yazıq şikar,
Görüb eşitməkdən yaxşıdı kor-kar,
Qəfəsə düşmüşəm, qəfəsə Allah.

Bəs ilham neyimə lazımdır mənim?
Olubdu bəxtimtək özümə qənim,
Çəkilməz könlümdən çiskinim, çənim,
Qəfəsə düşmüşəm, qəfəsə Allah.

İnlə, ey ürəyim, salamlarınla,
Qəlbini ağladan kəlamlarınla,
Qəlbə ağrı verən bu kamlarınla,
Qəfəsə düşmüşəm, qəfəsə Allah.

22.07.1990

BƏXTİ GƏZDİ

Bəxti gəzdi gözüm eli, ölkəni,
Həsrətindən günüm dönüb ay oldu.
Dəryalarda batdı sevda yelkəni,
Eşqim, sevgim, məhəbbətim vay oldu.

Nələr çəkdim mən dünyanı görəli,
Qəm bağının güllərindən dərəli,
Kəsdi yolu ayrılığın bəd əli,
Gözlərimdən axan yaşlar çay oldu.

Bu nə tale yazısıymış fələkdən?
Hey keçirdir anlarımı ələkdən,
Çətin imiş qəm gəzdirmək ürəkdə,
Gizli eşqim el içində hay oldu.

Mən çəkəni heç kimsələr çəkəmməz,
Buludlanmış könlümdən sis çökəmməz,
Qəm sarayın əsən yellər çökəmməz,
Acı ömrüm dağdan ağır tay oldu.

Hər addımda qəlbə dəyən ah nədi?
Ələmimi ürəyində köklədi,
Zalım kədər taleyimi təklədi,
Hekayətim dastanlara tay oldu.

Sinəm tutmur ömrün qeylü-qalını,
Allah özü xeyir etsin dalını,
Sormun dostlar, Şadimanın halını,
Pünhan dərdi vərəqlərə say oldu.

14.11.1992

ÇİÇƏK ƏTİRİ

Çiçək ətri çəmənlərdən gəlməsə,
Gül bağçayla, çiçək düzlə barışmaz.
Asimandan günəş baxıb, gülməsə,
Eşq ürəklə, sevən gözlə barışmaz.

Sübh özüdür dan yerinə qarışan,
Ulduzlardı səf-səf olub sayrışan,
Gecələrin ağrısıyla alışan
Şam çıraqla, ocaq közlə barışmaz.

Sevirsənsə, mətləbini hali et,
Təmizliyi hər işində ali et,
Dildən çıxan kəlamı dağ balı et,
Can sirdaşla, baxış üzlə barışmaz

Şadimanın ilhamıdır çağlayan,
Sakit-səssiz hicran deyib, ağlayan,
Ömrü-günü misralara bağlayan,
Ürək canla, dodaq sözlə barışmaz.

17.03.1989

DƏYDİM QƏLBİNƏ

Bu payız axşamı dəydim qəlbinə,
Gətirdim könlünə sazağı, çəni.
Ürək üsyan etdi fəryada, ünə,
Bağışla, can dostum, bağışla məni.

Sən çıxdığın yola çıxmaram daha,
Ancaq ürəyimi əydim mən aha.
Könlünü qıraraq batdım günaha,
Bağışla, can dostum, bağışla məni.

Dilimin dediyin könlüm deməди,
Bəs o üzündəki küskünlük nədi?
Araya girənlər sənə nə dedi?
Bağışla, can dostum, bağışla məni.

O gün qarşılaşdıq, təsadüfən biz,
Barışıq eylədi kiprik altda göz,
Mən tapa bilmirəm bu təmasa söz,
Bağışla, can dostum, bağışla məni.

Şadiman rəfiqə sanıbdı səni,
Gecə də yuxuda anıbdı səni,
Demə ki, bir yolluq danıbdı səni,
Bağışla, can dostum, bağışla məni.

23.11.1989

QUŞCAĞAZ KİMİ

Qəfəsdə çırpınan quşcağaz kimi,
Ürəyim imkansız, özüm imkansız.
Qışı qarlı gələn soyuq yaz kimi,
Buludu leysanlı, gözüm imkansız.

Sevgini vərəqə dastan eyləyən,
Qartal məramları yoldan əyləyən,
Sevirəm sözünü könlə söyləyən,
Bitib tükənməyən közüm imkansız.

Həsrəti içində alova dönən,
Neçə yol alışıb, neçə yol sönən,
Təbə yetmək üçün zirvəyə enən,
Aləmdən qızaran üzüm imkansız.

Xiffətim sinədə göynər yaradır,
Hissim, həyəcanım para-paradır,
Kədərim bir dünya hicran yaradır,
Dərdimi çəkəcək dözüm imkansız.

Şadiman alışır, içində tonqal,
İlham bir davadır, təbsə qeylü-qal,
Hərdən usandırır məni həbsi-hal,
Qələmə bükülən sözüm imkansız.

02.01.1990 Nasosnu

BƏXTİMİN GÜLLƏRİ

Bəxtimin gülləri soldu bağımda,
Hicran küləkləri sovurdu, getdi.
Ömrüm düşdü qaldı gül yarpağında,
Həsrət ürəyimi qovurdu getdi.

Qələmdə, kağızda gəzdi sözlərim,
Könlün ağrısına dözdü sözlərim,
Bütün müşkülləri çözdü sözlərim,
Aranı mənimlə tez vurdu getdi.

Sığındı ağrılar hücrə içinə,
Çəkdi ürəyimi hər dəm içinə,
Həyatım yükləndi hicran köçünə,
Elə köç içində yurd qurdu getdi.

Şadiman yapışıb ömür bağından,
Anlar qopur düşür gün budağından,
Zaman halay tutub ötən çağından,
Sanki hay-harayla bir ordu getdi.

26.09.1988 Nasosnu

TELƏ SÖYLƏDİN

Könül, səni yaman saldılar çənə,
Vaxtsız dərdlərini yelə söylədin.
Tuş oldu gözlərim acışan nəmə,
Fəğanı sazımda telə söylədin.

Qərarsız eşqinin möhnəti çoxmuş,
Taleyin ömrümə zəhərli oxmuş,
Sənin ələmindən dünyada yoxmuş,
Dərdini nəğməli dilə söylədin.

Ömrü zəmi təki biçdi tez zaman,
Dərd sinə içində sızlayır yaman,
Sonsuz möhnətinə ağladı ümman,
Sən də şikayəti ilə söylədin.

Ox təki sinəmi dəldi baxışlar,
Məhəbbət ürəyə hicran bağışlar,
Axdı dolu təki gözdən yağışlar,
Döndü dəli çaya, selə söylədin.

Şadiman, gen dünya sənə qəfəsdi,
Taqətin kəsilib, quru nəfəsdi,
Əgər deyirdinsə, dünya həvəsdi,
Bəs niyə ilhamı elə söylədin?

10.11.1989

TANRI MƏNİ DOST EYLƏDİ

Tanrı məni dost eylədi dilsiz-dilsiz vərəqlərə,
Sanki ömür yollarında döndü sönməz çıraqlara.
Möhnətimə dözdü qələm, hər addımda fəğan, nalə,
Yandı sinə gecə-gündüz bu əzablı çılğın halə.
Üsyan etdim köləlikdən taleyimin gərdişinə,
Bu dünyanın zaman-zaman müəmmalı gedişinə.
Qələm susmaz, könül çağlar, bəxtim şeyda bir bülbüldü,
Ey Şadiman, ömür ki var gülzarlıqda açan güldü.
Nə qədər ki, solmayıbdı hüşyar olsun bu bağça-bağ,
Gün gələr ki. könül susar, sənsiz qalar qələm-varağ.

08.11.1989

MÖHNƏTİNƏ DÖZÜM QALMAYIB

Vaxtsız möhnətinə dözüm qalmayıb,
Ovut ovunmayan ruhumu, səhər.
Hələ ki, könlümü hicran almayıb,
Sovut bu qaynayan ahımı, səhər.

Niyə nəhs aylara düşüb gəlirsən?
Qıfılı açılmaz qalıb qapılar.
İlhamımla birgə deyib gülürsən,
Deyirlər hər dərdə çarə tapılar...

Gəl möhnət yuvası etmə ürəyi,
Bəyaz örpəyini çək çiyinimə.
Sübhün möhlətiylə ütmə ürəyi,
Mən də ağ donumu geyim əynimə.

Tələs, üz-gözümü şəbnəmlə oxşa,
Qonsun kipriyimə səhər şehləri.
Sənin məhəbbətin düşübdü baxşa,
Saçlarım üstündə gəzdir mehləri.

Uçulur könlümün ümid dirəyi,
Qələmim titrəyir kağız üstündə.
Dilin şirinliyi ruhumun rəyi,
Hislərim ağlımın durub qəsdində.

Hönkürür misralar yanan halıma,
Qəflətin ağzını bağlayır ümid.
Özün də hali ol qeylü-qalıma,
Görürsən mənimlə ağlayır ümid.

Şadimanın qəlbi buludlu fəza,
Gətir göylərimə günəşi, səhər.
Sən xəzan göstərmə ətirli yaza,
Gəlib yapışmasın boğazdan qəhər.

12.11.1989

NECƏ DÖZÜRSƏN MƏNSİZ

Eşit, ey bəxt ulduzum,
Həyat çətindir sənsiz.
Səmada məsum quzum,
Necə dözürsən mənsiz?

Mən çiçəyi soluxan,
Bir bağçayam, bir bağam.
Hicranlara yoluxan,
Dərdə dözən tək dağam.

Bəs sən söylə, əlacım?
Niyə batıb çıxmırsan?
Ömrə zinətli tacım,
Heç göylərdən baxmırsan.

Parlar kəhkəşan gecə,
Gözüm səni axtarır.
Çıxacaqsan indicə,
Könlü həyəcan sarır.

Şadiman imkansızdı,
Qərarının önündə.
Hələ də gümansızdı,
Qulağı səsdə, ündə.

12.11.1989

İNDİ SÖYLƏ NECƏSƏN

Dolaşırsan, ilhamım,
Mən gündüz, sən gecəsən.
Vərəqlər üstə kamım,
İndi söylə necəsən?

Quş təki uçur illər,
Ağarır qara tellər,
Qələmə bağlı əllər,
İndi söylə necəsən?

Etdin könlü möhtacın,
Tap dərdimin əlacın.
Vərəqlər üstə acın,
İndi söylə necəsən?

Hər misran qəlbdən içir,
Ruhum odundan keçir,
Hər söz adından keçir,
İndi söylə necəsən?

Şadiman yaralı quş,
Səndən mənə nə alqış?
Tutub könlü qarlı qış,
İndi söylə necəsən?

12.11.1989

ARALI DÜŞDÜK

Ey dəli ilhamım, aralı düşdük,
Fəqət, ayrılmadı ürəklərimiz.
Yenə də hicranla, qəmlə görüşdük,
Ayrı qanad açdı diləklərimiz.

Mən səni günahkar bildim gümanla,
Sən mənə vəfasız söylədin o gün.
Nə qədər hicranı indi yamanla,
Açılmaz araya düşən o düyün.

Sən də cəfalara dözürsən mənsiz,
Misralar hönkürür qələm üstündə.
Yəqin ki, özünü üzürsən mənsiz,
Təbim haray çəkir naləm üstündə.

Gəl bu ələmlərdən qurtulmaqçın biz,
Eşqli sevgilitək duraq üz-üzə.
Hələ ki, könlümdə köçün salıb iz,
Calal ver misraya, eşq dolsun sözə.

Şadiman qərarsız yolunda ağlar,
Canın qapısına qıfıl vurma, gəl.
Eşqim, məhəbbətim sinəmdə çağlar,
Hardasan, ilhamım, tez ol, durma gəl.

13.11.1989

EŞQİ QAYNADAN MİSRALAR

SƏN NİYƏ GƏLMƏZ OLDUN?

Həyatım batdı ahda,
Dərdimi bilməz oldun.
Səsim qalıb sabahda,
Sən niyə gəlməz oldun?

Qaldı qulağım səsdə,
Ürək inlədi pəstdə,
Qəmimnən yox heç kəsdə,
Sən niyə gəlməz oldun?

Fəğanımdan qəlb ağlar,
Gəl çəkmə ona dağlar,
Yollarını kim bağlar?
Sən niyə gəlməz oldun?

Gələrəm, dedin özün,
Uzaqdır məndən gözün,
Sadiq çıxmadı sözün,
Sən niyə gəlməz oldun?

Gözü yolda gəl qoyma,
Köksümü belə oyma,
Qalıb əğyara uyma,
Sən niyə gəlməz oldun?

22.07.1985

HƏSRƏT ƏLİNDƏ

Qoymusan könlümü həsrət əlində,
Mən onun dərdini çəkə bilmirəm.
Hicranın avazı gəzir dilində,
Onun yükü ağır, çəkə bilmirəm.

Mən də ürəyimin kaman diliyəm,
Gah susqun oluram, gah da dəliyəm,
Sevdanın qəlbiyəm, vuran əliyəm,
Güllərin bağımda əkə bilmirəm.

Əsirəm rüzgartək çöldə, çəmində,
Diyarbadiyara düşmüşəm mən də,
Dön ürəyimdəki haraya sən də,
Dolmuşam, gurşadı tökə bilmirəm.

06.06.1989

GƏLMƏDİN, GƏLMƏ DAHA

Ağladı gözdə yaşım,
Ürək yol verdi aha.
Dərddən dincəlmir başım,
Gəlmədin, gəlmə daha.

Qəlb qırmaq yaxşı deyil,
Kimə salmısan meyil?
Eşqim didərgin, veyil,
Gəlmədin, gəlmə daha.

Sevgidən süfrə açdım,
Günəş olub nur saçdım,
Dərdindən çölə qaçdım,
Gəlmədin, gəlmə daha.

Gözləmək ağır dərddir,
Aramızda nə səddir,
Gün bir-birindən bəddir,
Gəlmədin, gəlmə daha.

Həsrətə dərd açmadın,
İntizardan qaçmadın,
Bağlı qapım açmadın,
Gəlmədin, gəlmə daha.

22.07.1985

KÖNÜL VERDİM

Taleyimin hökmüylə könül verdim mən sənə,
Sənsə, onun bağına tufan, boran gətirdin.
Bu bəlalı ömrümü saldın dumana, çənə,
Dilbilməz ayrılığı sən qapıma ötürdün.

Çox bəlalar çəkibdi ürək sənin ucundan,
Gəl apar hicranını, könlümü ver özümə.
Nə həsrət yollarının yapışmısan ucundan,
Leysan, dolu nə lazım hər an nəmli gözümə?

Buludlar toqquşanda əzəldən qara gəldi,
Qara üstdən qaranı çəkməyə gəl tələsmə.
Hicranın göylərində haraylarım yüksəldi,
Seltək çağlar köksümün eşq payını sən kəsmə.

08.02.1989

AĞLADI GÖZÜM TƏKİ

Bəs bu necə həyatdı?
Bəslədim közüm təki.
Dilimdə sözüm batdı,
Ağladı gözüm təki.

Yollarına çox baxdım,
Quş oldum, qanad taxdım,
Su olub sizə axdım,
Ağladı gözüm təki.

Dedin, günahdır yalan,
Düşüb yollarda qalan,
Qəmimə sahib olan,
Ağladı gözüm təki.

Qış deyil deyəm soyuq,
Qəlb dərddən oyuq-oyuq,
Həsrəti saldın duyuq,
Ağladı gözüm təki.

23.07.1985

SƏNƏ CANDAN SÖZÜM VAR

Gəl, qəmdən məni qurtar,
Könlü hicran dərd qovar.
Ürək olub kaman, tar,
Sənə candan sözüm var.

Qəlb deyil səndən bezar,
Demə, ürəyim azar,
Eşqinə dastan yazar,
Sənə candan sözüm var.

Sevgim illərdən süzüb,
Həsrət məni lap üzüb,
Yoluna kədər düzüb,
Sənə candan sözüm var.

Harda olsan, sən yarı,
Ömrün, sərvəti varı.
Könlümün xoşbəxt yarı,
Sənə candan sözüm var.

23.07.1985

GÖZLƏRİMİN YUXULARI ÇƏKİLƏR

Gözlərimin yuxuları çəkilər,
Sənsiz yaman üstümə od tökülər.
Xiffətindən bağrım-başı sökülər,
Həsrətindən qəmə batdı Ay, oğlan,
Ayrılığı qıyma mənə, ay oğlan.

Hicranından sübhə qədər yatmıram,
Yuxularım ərşə qaçıb, çatmıram,
Mən heç cürə dərdlərimə batmıram,
Gözlərimdə yaşlar olub çay, oğlan,
Ayrılığı qıyma mənə, ay oğlan.

Yollar təki intizarın uzanar,
Aydan, ildən özünə gün qazanar,
Ürək ki var, hey alışar, hey yanar,
Yoxdur sənə heç dünyada tay, oğlan,
Ayrılığı qıyma mənə, ay oğlan.

Qismət olsa qədər yazar yazını,
«Kərəmi»də bəxt kökləyər sazını,
Toy-büsata döndərərsə yazını,
Səsləyəndə səsimə ver hay, oğlan,
Ayrılığı qıyma mənə, ay oğlan.

25.07.1985

AY NAZ İLƏ GEDƏN YAR

nəğmə

Ay naz ilə gedən yar,
Məni gendən güdən yar,
Ürəyin mənə bağlı
Həsrəti dost edən yar.

Heç belə baxış olmaz,
Heç belə gülüş olmaz,
Heç belə yeriş olmaz.

Dönüb bizə gələydin,
Dünən qəlbimə dəydin,
Hamı gülüb-danışır,
Bir halımı biləydin.

Qara telinə qurban,
Bağda gülünə qurban,
Oğlan, elinə qurban.

27.05.1985

BAĞDA ÇİÇƏK ƏKMİŞƏM

nəğmə

Bağda çiçək əkmişəm,
Dibinə su tökmüşəm,
İstəkli yar xətrinə
Ora cığır çəkmişəm.

Düşüb sənə meylim, yar,
Ürək sevir, neylim yar?
Aç sirrini, bilim yar.

Çiçəklər al geyinib,
Başına şal geyinib,
Sənə nəğmə deməkçin,
Dil-dodaq bal geyinib.

Düşüb sənə meylim, yar,
Ürək sevir, neylim yar?
Aç sirrini bilim yar.

Bir dön bizim bağa gəl,
Bir sevdalı çağa gəl,
Bağça könlü oxşamır,
Keç düzəndən, dağa gəl.

Düşüb sənə meylim, yar,
Ürək sevir neylim yar?
Aç sirrini bilim yar.

27.07.1985

QAYA DİBİNDƏ YER VAR

nəğmə

Qaya dibində yer var,
Keçməyə cığırı dar,
Ürəkdə hicran gəzir,
Hardasan, ey vəfadar?

Gecəm səhər oldu, gəl,
Eşqə düşən yoldu, gəl,
Ömür-günüm soldu, gəl.

Dağlar yaşıl geyinib,
İşıl-işıl geyinib,
Könül qürbət quşutək
Qanadını gör neynib?

Gecəm səhər oldu, gəl,
Eşqə düşən yoldu, gəl,
Ömür-günüm soldu, gəl.

Hicran yolu haçalı,
Var əlində xancalı,
Hamı gülüb-danışır,
Kimə deyim bu halı?

Gecəm səhər oldu, gəl,
Eşqə düşən yoldu, gəl,
Ömür-günüm soldu, gəl.

27.07.1985

QONŞUDA BİR OĞLAN VAR

nəğmə

Qonşuda bir oğlan var,
Çəpərinin yolu dar,
Bizə sarı boylanır,
Üzündə gəzir vüqar.

Gülüşü üzə qonub,
Sevgisi gözə qonub,
Hiyləsi sözə qonub.

Deyirəm baxma belə,
Könlümü yaxma belə,
Eşqə düşmək xətadır,
Qəlbə buraxma belə.

Bildiyindən dönməyir,
Alışıbdı, sönməyir,
Göydə uçur, enməyir.

Bu cür qonşuluq olmaz,
Arada şuluq olmaz.
Heç sözündən dönməyir,
Böylə xoşqılıq olmaz.

Bir bizə gələn günü,
Salaydı ərzə ünü,
Edəydi toy-düyünü.

26.07.1985

QAPI ÜZƏ AÇIQDI

Yaxşı gündə qapı üzə açıqdı,
Yaman günə düşdüm indi, hardasan?
Hiylə, fitnə qəlbdə çamur, palçıqdı,
Başına qəm, ələm yendi, hardasan?

Bəxtiyar gün adamları səsləyir,
Yan-yörədə min tanış, dost bəsləyir,
Yaş odun da ocaq için hisləyir,
Bu günümə aləm dindi, hardasan?

Ömrümüzün taleləri qarışıq,
Xoş saatlar bəxtimizə gur işıq,

Könlüm dolu dil-dil ötək, ay aşıq,
Yandırdığım çırağ söndü, hardasan?

Sən ki, məni həmdəm deyib gəzirdin,
Ürəyimin dəryasında üzürdün,
Guya onu məhəbbətlə süzürdün,
Bəxtim qəfil yoldan döndü, hardasan?

19.01.1987

YAXINSAN AXI

Dönüklük kəşf etmə məndə, ey gülüm,
Sənsiz keçdisə də çox ayım, ilim.
Qan ağladı ürək, alışdı dilim,
Sevgi gözümüzdən qaçan bir yuxu,
Sən mənim könlümə yaxınsan axı.

Zaman iti axdı, biz ayrı düşdük,
Yalnız yuxularda gizli görüşdük,
Həsrətin oduna yanıb dəyişdik,
Sevgi gözümüzdən qaçan bir yuxu,
Sən mənim könlümə yaxınsan axı.

Çıxdı məhvərindən bir zaman ürək,
İçində soyudu hər arzu, dilək,
Əsdi aramızda qəfil bir külək,
Sevgi gözümüzdən qaçan bir yuxu,
Sən mənim könlümə yaxınsan axı.

Xatirən kükrəyən nəğməli dəniz,
Keçir gur sulardan min cığır, min iz.
Xəyalın önündə sözlər çökür diz,
Sevgi gözümüzdən qaçan bir yuxu,
Sən mənim könlümə yaxınsan axı.

Unuda bilmirəm, unutmaq çətin,
Bu da bir dərdidir, səmimiyyətin,
Yatır ürəyimdə gizli surətin,
Sevgi gözümüzdən qaçan bir yuxu,
Sən mənim könlümə yaxınsan axı.

24.01.1987 Neft Daşları

QAYIT KÖNLÜMƏ

Qəlbimin tellərin həsrət dağıdır,
Qayıt, bu narahat könlümə, gülüm.
Vallah bu ürəyim mənə yağıdır,
Qayıt, əvvəlkitək çağlasın həyat.

Zaman irəliyə can atır yenə,
Gənclik sığınıbdır ömrün köksünə,
Baxmadı nə sənə, nədə ki mənə,
Olub ömrümüzə ən mahir səyyad.

Qayıt açılmayan düyünləri aç,
Qoy ulu sevgidən başına al tac,
Verməyək həsrətə, qussə, qəmə bac,
Yuxulu ömrümü yenidən oyat.

Ürəyim çırpınır hicran selində,
Qəm ağ yollar saldı qara telimdə,
Amandır, qalmayaq dərdin əlində,
Aç qaçan günlərə bir yeni büsat.

05.04.1987

DAHA SÖZÜM YOXDUR

Bu dəli könlümü salaraq tora,
Vurursan sinəmə gündə min yara,
Mənim gündüzümü etmisən qara,
Bu ürək yolunda gedəcək bada,
Daha sözüm yoxdur sənə dünyada.

Çılğın duyğularım sinəsin cırır,
Yenə aramızı ayrılıq vurur,
Dəliqanlı gənclik arada durur,
Sən ki, bacarmırsan çatasan dada,
Daha sözüm yoxdur sənə dünyada.

Sönür ay-ulduzum gözümdə axşam,
Bir ürək yolunda oldu daha şam,
Mənimtək bacarmaz alışmağı şam,
Bilirsən, öyrətdim yanmağı oda,
Daha sözüm yoxdur sənə dünyada.

Yolur saçlarını sevgim yenə də,
Hicranın toy-büsat qurub sinədə,
Qəminin dərdindən doyub sinə də,
Məni bilə-bilə atmısan oda,
Daha sözüm yoxdur sənə dünyada.

Hicranın köksümdə tikib saraylar,
Sinəmi bürüyüb yenə ah-vaylar,
Gözlərim gözləyər, dilim haraylar,
Niyə sənə çatmır bu səs, bu səda?
Daha sözüm yoxdur sənə dünyada.

01.06.1987

YAŞAYIRAM MƏN

Uçur başım üstə sevgi buludu,
Yenə dilə gəlib könlümün udu,
Vüsal da, hicran da, qəm də uludur,
Məhəbbət yükünü daşıyıram mən,
Sənin xəyalınla yaşayıram mən.

Alışır içimdə odlu duyğular,
Alır başım üstün min bir qayğılar,
Gündə neçə kərəm ürək duyğular,
Məhəbbət yükünü daşıyıram mən,
Sənin xəyalınla yaşayıram mən.

Gözlərin mirvari Xəzərə bənzər,
Qəlbimin içində atlanıb gəzər,
Bəxtim havalanıb, tək səni gəzər,
Məhəbbət yükünü daşıyıram mən,
Sənin xəyalınla yaşayıram mən.

Ürək manqal qurub, közündə yanaq,
Eşqin zirvəsində birgə dayanaq,
Gəl biz lalə rəngli eşqə boyanaq,
Məhəbbət yükünü daşıyıram mən,
Sənin xəyalınla yaşayıram mən.

07.06.1987

MƏNİM RAHATLIĞIM

Mənim rahatlığım, mənim dincliyim,
Sənin baxışının odunda bitdi.
Bahar tərəvətli gözəl gəncliyim,
Soyuq həsrətinin badına getdi.

Alışdı bağırım, artdı iztirab,
Qalmadı könlümdə nə taqət, nə tab,
Ürəyim tək sənə eylədi xitab,
O divanə eşqin məni xar etdi.

Eşqinin səmasın buludlar boğdu,
Başına leysanlar, dolular yağdı,
Həsrətin günəştək göylərdən doğdu,
Ayrılıq yenə də kamına yetdi.

Qopdu taleyimdə çılğın küləklər,
Ağladı ahımdan göylər, fələklər,
Qol açdı, oynadı azğın kələklər,
Düşdü yollarıma, atın səyritdi.

Onda hər ikimiz baş-beyini qan,
Bizə asan gəldi məhəbbət, hicran,
Batdı sevdamızın göylərində dan,
Elə bəxtimiztək eşqimiz bitdi.

10.04.1987

KÖNÜL VURULUBDU

Könül vurulubdu ala gözünə,
Mənə elə baxma ağlım lap çaşır.
Bəs necə bir başa deyim üzünə?
Ürəklə məhəbbət hey pıçıldaşır.

Ömürümü, günümü saldın düyünə,
Qoymursan sinəmdə ürək öyünə,
Niyə yetməyirsən bir səsə, ünə?
Eşqinin selləri çağlayıb daşır.

Əlimdən almısan ixtiyarımı,
Mənli ürək adlı bəxtiyarımı,
Pozdun əhd-peymanı, pak ilqarını,
Sevgim min zirvədən-zirvəyə aşır.

Gözümdən, könlümdən düşübdü həyat,
Nə qədər insafsız oldun, ey səyyad,
Sinəndə qopduqca min nalə, fəryad,
Həsrətin kədəri qəzəblə coşur.

Gizlincə tökdükcə gözlərim yaşı,
Əyir dərd köksümə əyilməz başı,
Ya sən dilbilməzsən, ya mənəm naşı,
Dilim qəmli-qəmli nəğmələr qoşur.

19.11.1987

VARLIĞINDA ÖZÜM VAR

Məhəbbətlə alışan
Eşq əhlində dözüm var.
Taleyimə qarışan,
Sənə mənim sözüm var.

Gözlərimi yaş aldı,
Həsrət, hicran baş aldı,
Baxışın harda qaldı?
Gözlərində gözüm var.

Dərdin bir torpaq kimi,
Soluxan yarpaq kimi,
Ələmləri dağ kimi,
Bir saralan üzüm var.

Köksümün içi ocaq,
Hicran mehi tutacaq,
Gileyimlə yatacaq,
Alov altda közüm var.

Sellər təki axacaq,
Bərələrdən baxacaq,
Sərhədləri yıxacaq,
Tufan çatmaz izim var.

Alma ələ ürəyi,
Min məramlı diləyi,
Eşq fəzamın fələyi,
Varlığında özüm var.

19.11.1987

SEVDİM SƏNİ

Yığsan da sən bağrına
Üst-üstdən duman çəni,
Qəlb dözdükcə ağrına,
Nə edim, sevdim səni?

Alışdıqca alışdım,
Eşq oduna qarışdım,
Gah küsdüm, gah barışdım,
Nə edim, sevdim səni.

Külək kimi əsdikcə,
Yollarını kəsdikcə,
Səhər-axşam küsdükcə,
Nə edim, sevdim səni.

Uzandı hicran yolu,
Nə möhkəm oldu qolu,
Ömrə yağdıqca dolu,
Nə edim sevdim səni.

Gözüm yolda qalsa da,
Qəlbi həsrət alsa da,
Könlüm-gözüm dolsa da,
Nə edim, sevdim səni.

Ruhum yarpaqtək əsir,
Zaman durmur, tələsir...
Oldum yolunda əsir,
Nə edim, sevdim səni.

Köksüm içi buluddu,
Vüsalı həsrət uddu,
Bağrım zil üstə uddu,
Nə edim, sevdim səni.

Ürəyimin eşqi bol,
Ora eniş-yoxuş yol,
Sevdamıza sadiq ol,
Nə edim, sevdim səni.

01.06.1987

SEVGİ ATƏŞİ

Qız sevib, bəyənmək yaxşdır, ancaq
Onu etməyəsən əldə oyuncaq,
Qoy hər iki qəlbdə alışsın ocaq,
İsitsin hərarət göydə günəşi,
Sönməsin qəlblərin sevgi atəşi.

Əgər sevməyirsən, qarşıda durma,
Kələksə, hiyləsə, yetənə qurma,
Sevgini sevənin üzünə vurma,
Ayaqda sürünsün həsrətin nə'şi,
Sönməsin qəlblərin sevgi atəşi!

27.11.1987

BİR VÜSALIN EŞQİYLƏ

Bir vüsalın eşqiylə çırpınırdı ürəklər,
Necə də ayrı saldı bizi bu hava xətti.
Ağladı çocuq təki o şahanə diləklər,
Sevincim mirvaritək əlimdən düşdü itdi.

Qaldı bir əziz görüş yerlə göy arasında,
Sən mənə həsrətlitək, mən sənə həsrətlitək.
Bir vüsal yandı-söndü gözlərin qarasında,
Qaldı böynubükülü şadlığımız yenə tək.

Yaman qəmli göründü, gömgöy dəniz də mənə,
O da qəfil həsrətə kədərləndi elə bil.
Düşdü bəlalı ürək yenə dumana, çənə,
Bu qəfil ayrılığa yandı sinə, susdu dil.

Təyyarə qalxdı göyə, könlü saldı qəfəsə,
Bu insafsız pilotçu yenə ayırdı bizi.
Duyğular qolboyunkən, sevgi nəfəs-nəfəsə,
Göylə yer arasında qaldı bir görüş izi.

Əgər canlar, könüllər bir-birinə yaxınsa,
Neyləyər müvəqqəti bu ayrılıqlar bizə?!
Kiçikcik ara sözü ürəyinə toxunsa,
Baxanda unudular, bircə anlıq göz-gözə.

15.08.1989 Nasosnu

HƏYATIMIZ QAYNAYIRDI

Həyatımız qaynayırdı qərarsız,
Əsən həzin küləkləri neylədin?
Könlümüzün ələmləri tumarsız,
Qəlb oxşayan diləkləri neylədin?

O yetkinlik, o durğunluq çağında,
Sevgimizin şux, laləzar bağında,
Eşq yetirən arzuların dağında,
Məhəbbətli ürəkləri neylədin?

Sərt əsdikcə başda tale yelləri,
Büründükcə qəmə sevgi elləri,
Tez sorulur ömrümüzün illəri,
Sevgi adlı mələkləri neylədin?

Könlümüzün eşq yolunda günəşi,
Sinəmizdə od-ocaqsız atəşi,
Aralıqda qalan eşqin o nə'şi,
Ay-ulduzlu fələkləri neylədin?

19.11.1987

AÇILIR BAĞÇAMIN GÜLLƏRİ

Açılır bağçamın gülləri sənsiz,
Onların nə hüsnü, nə də rəngi var.
Mən yelə verirəm illəri sənsiz,
Həsrətin könlümü süpürüb-sovar.

Gəl, könül bağımın sən bağbanı ol,
Qoyma sərt ilğımlar soldursun onu.
Qoyma ayaq açsın ora tikan, kol,
Onsuz da heç olur varlığın sonu.

Dadıma yetməyə tələs, sevgilim,
Sənsiz ağ hörürəm qara telləri.
Hicranın yolunu gəl kəs, sevgilim,
Susdur o qeybətçil, yalan dilləri.

Ürəyim yolunda qərarsız qalıb,
Çırpınır qəfəsdə bir bülbül təki.
Başımın üstünü hicranın alıb,
Əlacsız dərdimin, gəl ol həkimi.

05.03.1989

SALIBDI TUFAN

Həsrətin könlümə salıbdı tufan,
Gəldi-gedər həyat baxmayır sözə.
Sənsiz çox uzundu ömürdə hər an,
Qalmadı halım ki, hicrana dözə.

Gözlərim yollardan çəkilib gəlmir,
Sənin gəlişinə peyman bağlayır.
Sorağın buluda bükülüb gəlmir,
Kipriklər yaş tutub, bəbək ağlayır.

Bu nə təmənnadır, bu nə ixtilaf,
Sevda gülüşləri dodaqda dondu.
Çıxdın nə zamandan əhdinə xilaf,
Gözümə həsrətin şəbnəmtək qondu.

Baxışlar dikilib getdiyin yola,
Elə hey gözlədim, gəldiyin gün yox.
Möhnətin əlindən qəlb dola-dola,
Yoxluğun sinəmə tuşlanan bir ox.

11.03.1989

ALIŞIR QÜSSƏDƏN

Alışır qüssədən yanır dil-dodaq,
Nə sən qayıdansan, nə mən dönənəm.
Eşqin ağacına sadiq bir budaq,
Dəli tufanına min il yenənəm.

Hər acı hicranın bir sonu vardır,
Qayıt, sevdiciyim, qayıt bu yoldan.
Yazıqlar olsun ki, qəm könlə yardır,
Qayıt, qurtar məni sən qalmaqaldan.

Ürpəşir ürəyim təklikdən daha,
Bürüyüb bağrımı dəhşətli fəryad.
Ürəyim üzünü tutub Allaha,
Dad çəkir, bu acı bəxtimə min dad.

11.08.1994

SƏN YUXUMA GƏLƏNDƏ

Ürəyim pərvazlanır,
Duyğularım nazlanır,
Sözlərim avazlanır,
Röyam üzə gələndə,
Sən yuxuma gələndə.

Eşqim bahar yağışı,
Aparır qarlı qışı,
Çağlayır gözüm yaşı,
Nəfəsini biləndə,
Sən yuxuma gələndə.

Hicran qaçır yanımdan,
Kədər çıxır canımdan,
Sevda doğub anımdan
Ayrılığı dələndə,
Sən yuxuma gələndə.

Gözlər yatır ağrınla,
Qəlb duyur sorağınla,
İpək əl yaylığınla
Yanağımı siləndə,
Sən yuxuma gələndə.

04.05.1989 Tağay

KÖNLÜM EVİN

Salıb könlüm evin həsrət qəminə,
Naləm göyə çıxsa, fəryada gəlmə.
Gözlərim öyrəşib hicran nəminə,
Verib günlərimi sən bada, gəlmə.

Əcəb bəxtiyardır yolunda bu bəxt,
Kədərin niskilli halında bu bəxt,
Halqalı zəncirlər qolunda bu bəxt,
Bəxş etdin könlümə dərd-qada, gəlmə.

Uyma hər ötəri yalan həvəsə,
Qəlbim bülbül deyil, salma qəfəsə,
Ötən günlərimlə nəfəs-nəfəsə,
Alışan sinəmdə bu oda, gəlmə.

Həyatım bir doğru ürək möhtacı,
Hər eşqə inanmaq zəhərdən acı,
Qurubdu könlümdə haqq taxtı-tacı,
Düşmüşəm fəraqa dünyada, gəlmə.

23.06.1989

GÖZLƏMƏ MƏNİ

Yolumun üstünə çıxsan da hər gün,
Əsən rüzgar təki izləmə məni.
Qursan da həsrətin evində düyün,
Çıxıb yollarıma gözləmə məni.

Hicran acıları qəlbə od vurur,
Ürəyim nə vaxtdı səndən dad vurur,
Məni ayağına gətirmir qürur,
Çıxıb yollarıma gözləmə məni.

İndi gözlərimə yuxu kimisən,
Ayrılıq avazlı qorxu kimisən,
Həsrətin sərt vuran oxu kimisən,
Çıxıb yollarıma gözləmə məni.

Xəyalım çağlayan dağ şəlaləsi,
Üşüyən çöllərin zərif laləsi,
Düşüb əllərimdən eşq piyaləsi,
Çıxıb yollarıma gözləmə məni.

21.07.1989

TALEYİMİN QAPILARI

Mənim taleyimin qapılarını
Neçin gah açırsan, gah bağlayırsan?
Bu dəli sevdanı üzüb gileydə,
Qəlbi gah açırsan, gah dağlayırsan.

Zaman niskilləri könüldə əsdi,
Ömür yollarını rüzgarlar kəsdi,
Günəşi tutmaqdı buludun qəsdi,
Hərdən gah qaçırsan, gah çağlayırsan.

Bu sərsəm gedişlər son olar haçan?
Ey eşqi unudub, sözündən qaçan,
Xəyal göylərində tərlantək uçan,
Gah şadlıq qucursan, gah ağlayırsan.

15.03.1995

TOXUNDUN KÖNLÜMƏ

Toxundun könlümə, toxundun yenə.
Qırdın qəlb sazımın saf tellərini.
Necə alışmasın qəzəbdən sinə,
Aldatdın ömrümün çox illərini.

İndi taleyə də nifrət edirəm,
Madam o yazıbdı səni bəxtimə.
Nifrət arxasınca düşüb gedirəm,
Özüm də gülürəm öz niyyətimə.

Toxundun könlümə, sənə alqışlar,
İgiddən igidmiş səndəki hünər.
Saldın ürəyimin evinə qışlar,
Necə ki, dumanlar dağlara enər.

Ey başım, bu qədər saflıq nə lazım?
Axı təmizliyi sevməyir çoxu.
Boranlı ömürlə qoşadı yazım,
O da, xəyallardan boylanan yuxu.

28.08.1989

TƏQDİM EYLƏDİN MƏNƏ

Yenə də pak eşqini büküb baxışlarına,
İlıq nəvazişinlə təqdim eylədin mənə.
Sinəm də ilk qar təki eşqin naxışlarına,
Bir heyrətə bürünüb baş əydim dönə-dönə.

Baş əydim ki, bir daha pozulmasın əhdimiz,
Önümdən günahını qovdum çox uzaqlara.
Günahınla bir yerdə ayrılıqçın cəhdimiz,
Tuş olub yay günündə tufana, sazaqlara.

Dilimin dediyini ürək demədi, neylim?
Ağlımla mən son dedim, bu ülvi məhəbbətə.
Səndən uzaqlaşdıqca, sənə uzandı meylim,
Çəkildi istəklərim səndən gizli xəlvətə.

Gözlər necə ürəyə qıfıl, açar olarmış,
Onlar bizi tuş etdi bir zaman bir-birinə.
İzinlə addımlayan izim naçar olarmış,
Sənli-mənli qoymayaq qəlb ayaqda sürünə.

Ürəyimə alışqan yaraşır bir şam təki,
Gəl onu söndürməyə cəhd eləmə, bu cəfa.
Ümidlə ümidsizlik çırpınır axşam təki,
Yaxşı ki, hər ötənin qulu olmadı vəfa.

27.08.1989

QƏLBİMƏ QƏM GƏTİRDİ

Məhəbbətin qəlbimə qəm gətirdi,
Sevincimi, şadlığımı itirdim.
Yolum üstə görünmə sən bir daha,
Gəl batırma ürəyimi günaha.

Ömrüm, günüm başdan-başa sazaqdı,
Həyatımdan bəxtiyarlıq uzaqdı,
Qəlb evimə nədən sevinc yasaqdı?
Batdı tale, batdı könlüm dərd, aha,
Gəl batırma ürəyimi günaha.

Aradakı can körpüsün uçurdu,
Könlümdəki duyğuları qaçırdı,
Şimşəkləri başım üstə saçırdı,
Nə söylərsən dərd gətirən sabaha,
Gəl batırma ürəyimi günaha.

Niyə bəxtin günü-ayı nəhs gəldi?
Diləyimin hər işinə qəsd gəldi,
Qulağıma həyat dolu səs gəldi,
İnsan olan dünyamıza can baha,
Gəl batırma ürəyimi günaha.

27.08.1989

GÖZLƏRİMİ DİKMİŞƏM

Həsrət dolu gözlərimi dikmişəm,
Gedər-gəlməz yollarına nə müddət.
Öz əlimlə sinəmə dağ çəkmişəm,
Nə döyüşmək, nə savaşmaq, nə hiddət?

Hicran qəlbi küləklərtək sürüyüb,
Yoxuşlarda sellər, sular daşlayıb.
Ağ taleyi qara zülmət bürüyüb,
Gözlərimi acı nəmlər yaşlayıb.

22.02.1992

DİLBİMƏZ

Baxışların ürəyimi ovladı,
Gözlərimdə gözüm qaldı, dilbilməz.
Şəkər dilin əqli, hissi tovldaı,
Gözüm gördü, könlüm aldı, dilbilməz.

Həsrət, hicran bağrın için odlayar,
Qovuşmaqçın yoxuşları adlayar,
Bu qamətə qoyma əğyar, yad uyar,
Qəlb qəlbimə körpü saldı, dilbilməz.

Hicran dursa aralıqda dağ kimi,
Anma məni bu dünyada sağ kimi,
Qaranlıqdan qəfil çıxdı ağ kimi.
Gecənin də köksün çaldı, dilbilməz.

Gözüm yaşı dönür daşqın sellərə,
Sənsiz ürək yaddır ötən illərə,
Fikir vermə yanlış deyən dillərə,
Ömür özü bir xəyaldı, dilbilməz.

Bu ürəyim dərd arayır, qəm üzür,
Həsrətindən suçsuz könlü nəm üzür,
Sənsiz məni hər saat, hər dəm üzür,
Bilməm vallah, bu nə haldı, dilbilməz?

08.11.1991

BƏXTƏ YAZANA DÜŞDÜ

Acılar könlümdə açdı gül-çiçək,
Vüsalın baharı xəzana düşdü.
Ümid yalan oldu, ayrılıq gerçək,
Günah eşqi bəxtə yazana düşdü.

Çılğın çocuq kimi ağladı ürək,
Yolunda özünü eylədi həlak,
Tanrı hüzurunda məhəbbətim pak,
Sevgim onu quyu qazana düşdü.

Ömrümün baharın oğurladı qəm,
Gözümdə boy atdı, çinar oldu qəm,
İnandım əğyara mən taleyi kəm,
Qış aldı ömrümü, yaza nə düşdü?

İlantək yolunda yatdı ayrılıq,
Bəxtim, səadətim dəryada balıq,
Bəlkə də neçə yol yolladı xaliq,
Qismətim qanıma susana düşdü.

Böylə, Şirin xanım, sızladın yetər,
Bu beşgünlük ömür bir səhər bitər,
İblislər əlində allandı qədər,
Xoşbəxtlik yolunu azana düşdü.

23.01.1992

ASAN OLDU

Getdin...Asan oldu necə bu gediş?
Bir yol da geriyə dönüb baxmadın.
Niyə ağrıtmadı səni bu gərdiş?
Vicdanın səsinə ürək sıxmadın.

Getdin...Gözlərimdə boşaldı həyat,
Susdu zaman özü, dondu hərəkət.
Ağrılar artıqca qəlbə verdi çat,
Ürəyi yandırdı hissə nəzakət.

Xəyanət eylədik biz eşqə o gün,
Nə sən peşman oldun, nə də mən peşman.
Saldıq aramıza açılmaz düyün,
O gün gözümüzü tutdu, sanki qan!

Fəqət ürək necə, o ki, soyumur?
Könüldən xəbərsiz dillə döyüşdük.
Şirin xatirələr bir an uyumur,
Özümüz bilmədən xiffətə düşdük.

Getdin...Üzün döndü, ürəyinsə yox,
Mənim xəyalımla sızlar hər axşam.
Günlərim gümansız, hicranınsa çox,
Gecə-gündüz yanan xəyalınsa şam.

06.11.1989

GÖZLƏRİMİ DİKMİŞƏM SABAHA

İntizarla dolu gözlərimi
dikmişəm sabaha,
Tale məni yaman öyrədib
yol gözləməyə daha...
İçimə axan göz yaşlarımla
acılarım göyərdi,
Həsrətimin zərbi-zəngi
yenə də sinəmə dəydi.
Nə qədər dözümlü yaratmış
Tanrı ürəyimi,
Vəfasızlıq uçurda-uçurda
bəxtimin dirəyini,
Dəfn etdim könlümün istəyini,
Bükdüm bağrımın alovuna,
Yaman saldın məni
həsrətin tilovuna.
Balıq təki çırpınıram,
Nə canımı almırsan,
Nə könlümə qalmırsan.
Baş açmıram səndən,
Bilməm istəyin nədir məndən?...

21.01.1993

KÖNÜL Kİ, ƏRKÖYÜN

Könül ki, ərköyün çocüq, əlimdən
Atılmış bir küncə oyuncaq təki.
Ağappaq yol saldı həsrət telimdən,
Alışır bağrımda bir ocaq təki.

Ümid tikə-tikə, qəlb para-para,
İynə ucu boyda gümanlar hanı?
Büsatım əyninə geyinib qara,
Sənin apardığın zamanlar hanı?

17.09.1995

PƏRİŞAN

Titrəyir əlimdə bu suçsuz qələm,
Qara bəxtimizdən o verir nişan.
Üzür içimizi iztirab, ələm,
Sən də pərişansan, mən də pərişan.

Solur ömrümüzün günləri dən-dən,
Yoxuşlar yorubdu, düşmüşük əldən,
Gedir göz görəli yazımız əldən,
Sən də pərişansan, mən də pərişan.

Coşur içimizdə sonsuz diləklər,
Qovuşur uyğuda dilsiz ürəklər,
Savaşa çıxıbdı ruhum ürəklə,
Sən də pərişansan, mən də pərişan.

Bu acı taleyin ismətiyləyik,
Tanrının tənhalıq qismətiyləyik,
Eşqə qovuşmağın həsrətiyləyik,
Sən də pərişansan, mən də pərişan.

19.02.1993

BİR LALƏ TƏKİ

Bilsəydim mən sənə lazımam, gülüm,
Bitərdim yolunda bir lalə təki.
Sənsizlik köksümü üşüdən zülüm,
Qonur dodaqlara piyalə təki.

Sənsiz könlüm evi darmadağındır,
Bayquşlar yollanır xarabasına.
Sevgim, eşqim, hissim xoş sorağındır,
Çevirmə əqlimi candan asinə.

Ürəyim təşnədir xoşbəxt çağlara,
Nə sən bəxtiyarsan, nə mən bəxtiyar.
Misralar ah yazar ağ varağlara,
Sinəmdə dəhşətli bir aləm uyar.

Bilsəydim mən sənə lazımam, gülüm,
Bulaqtək yolunun üstə çıxardım.
İtib bu dünyadan hey ilim-ilim,
Aytək pəncərəndən sənə baxardım.

03.04.1993

FƏLƏYİ OL

Baxışların könlümə hicran suyu çiləndi,
Yazıq bir ümidsizlik səni məndən elədi,
Əfsus ki, eşq içində ayrılıqlar belədi,
Olacaqmı həsrətlə əbədi, ya son döyüş,
Zaman qəndillərinə işıq olsun bu görüş.

Gəl birləşək ikimiz hicran-vüsal arası,
Həsrətdən qurtulmağın yoxmu bir yol çarası?
Toxunma, sızıldayır ürəyimin yarası!
Titrəyən vücudumu bük odlu atəşinə,
Buz bağlamış bəxtimi isidim günəşinə.

Gəl sənlə bölüşək dünyanın niskillərin,
Tanrısı ol bağımda o saralmış güllərin,
Omrümü qandallamış tilsimli müşküllərin,
Qəlb içindən boylanan eşqimin ürəyi ol,
Duyğumun, düşüncəmin əbədi fələyi ol.

10.08.1994

ZAMANIM DAYANAR

Baxışların könlə çıraq,
Bəxt əlində varaq-varaq.
Gəl əl-ələ verək, gülüm,
Qəmin belin birgə qıraq.

Atəşində yanar ürək,
Fəğan edər qəlbdə dilək,
Səni mənə yazanın da
Dilimizdə adı fələk.

Ocağında qovrularam,
Kül oluban sovrularam.
Qərib-qərib yollarında
Saat təki qurularam.

Bu Şadiman candan yanar,
Atəşinlə sübh oyanar.
Hicran döysə qapımızı,
Sənsiz zaman, vaxt dayanar.

24.06.1995

HƏSRƏTİNLƏ ALIŞACAĞAM

Könlüm atəşini qovundan alıb,
Yanıb vüsalına qarışacağam.
Odlu hisslərimlə mən tənha qalıb,
Sənin həsrətinlə alışacağam.

Salıb ürəyimi o dar məhbəsə,
Dünyada uymaram bir də heç kəsə,
Acı taleyimlə girərək bəhsə,
Leyliylə, Əsliylə yarışacağam.

Bir də baş vurmaram keçilməzlərə,
Baxmaram biganə, dönük üzlərə,
Yalançı, riyakar, oğrun gözlərə,
Hərb elan edəcəm, vuruşacağam.

Sevgimi çıxardıb dəmir qəfəsdən,
Salacam kədəri, qəmi həvəsdən,
Mən ki heç qurtara bilmədim nəhsdən,
Qara bəxtim ilə yarışacağam.

Həsrəti, hicranı hey yamanlayıb,
Dəli ürəyimin eşqin anlayıb,
Sadəlövh könlümü hər gün danlayıb,
Sənsiz keçən ömrə alışacağam.

07.06.1993

GÜMANIM YOX, NEYLƏYİM?

Nigar Rəfibəylinin «Neyləyim» şeirinə nəzirə

Könlüm, gözüm bu dünyaya yovuşmaz,
Sənsiz bir xoş zamanım yox, neyləyim?
Başım üstən hicran, həsrət sovuşmaz,
Gəlməyinə gümanım yox, neyləyim?

Göz yaşımdan dərya-dərya selə bax,
Bəyaz-bəyaz o qapqara telə bax,
Gəl bəxtimə ağı deyən dilə bax,
Dərdi oxşar kamanım yox, neyləyim?

Ayrılıqlar, karvan-karvan qəm yollar,
Ürəyimə necə salıb qəm xallar,
Gözlərimdə əlçatmazdı o yollar,
Səndən xəbər ananım yox, neyləyim?

Qismətimi aldı, qaçdı kələklər,
Saçın yolur içimdəki diləklər,
Bir-birinin həsrətində ürəklər,
Heç halıma yananım yox, neyləyim?

Sorağında çox qalmışam şadlığın,
Nəsib olmaz bir mənə də şadlığın,
Hardan belə bu könlümə yadlığın?
Dözməyə bir sağ canım yox, neyləyim?

Ürəyimi dərdin aldı, oxşadı,
Məsum bəxtin yolları da yoxşadı,
Taleyimiz bir-birinə oxşadı,
Canım qurban, qurbanım yox, neyləyim?

Şadimanın tellərin qəm daraqlar,
Doldu ahla, doldu vayla varaqlar,
Sağkən özüm, ölsəm ruhum soraqlar,
Candan gedib əziz canım, neyləyim?

23.05.1994

GÖZLƏRİN

Salıb ürəyimdə atəşi ocaq,
Dünyanın bağrına qoru dolacaq,
Sevgisi, nəş'əsi bax qucaq-qucaq,
Məni od-alova salan gözlərin,
Maviyə-yaşıla çalan gözlərin.

Gecə uyğularda könlümü oxşar,
Həsrəti, hicranı qəlbə axışar,
Fələk tuş eyləyib bəxti yoxuşa,
Kədərlə, ələmlə dolan gözlərin,
Maviyə-yaşıla çalan gözlərin.

İçimdə çağlayan eşqi şəlalə,
Qonub duyğu təki min bir xəyalə,
Gəlməsin, İlahi, heç vaxt zavalə,
Ağlımı əlimdən alan gözlərin,
Maviyə-yaşıla çalan gözlərin.

Mən kimə söyləyim bu həbsi-halı,
Hicranın dağ-daşa salıb vüsalı,
Apara aradan o qeylü-qalı,
Bağrımı etməyə talan gözlərin,
Maviyə-yaşıla çalan gözlərin.

Alışıb fəraqdan düşmüşəm xəstə,
Sanki son məqamdı, ürək can üstə,
Sən məndən bircə yol qəlbimi istə,
Demə ki, yolumda qalan gözlərin,
Maviyə-yaşıla çalan gözlərin.

25.05.1994

MƏN OL

Sənsiz dünya mənə soyuq məzardı,
Ömrümün mənası acı xülyalar.
Könlümün dilində qəmə həzardı,
Mənim həyatımdı sənli röyalar.

Ürək yuxularda eşqə qovuşar,
Camalın önündə səcdəyə yanar.
Bu hicran acısı nə vaxt sovuşar,
Yatmış taleyimiz birgə oyanar.

Yollara baxmaqdan gözüm kor oldu,
Bəbəklər içinə sonsuz işıq ol.
Bəxtimlə oynamaq mənə zor oldu,
Sənsiz günlərimə gəl yaraşıq ol.

Ağrılı illəri məzarla daha,
Bizi bir-birinə yazan fələkdi.
Bir olsun səcdəmiz böyük Allaha,
Sənə könül verən mən yox ürəkdi.

Gəl soyuq evimin çırağın yandır,
Hönkürən bəxtimin günəşi sən ol.
Yatan Şadimana rəhm et, oyandır,
Alışan qəlbimə əbədi mən ol.

09.08.1994

GÖZLƏRİNİN ATƏŞİ

Gözlərinin atəşi
Yaxdı könlümü oda.
Doğdu sevgi günəşi,
Ocaq çatdı dünyada.

Eşqilər mələk oldu,
Vüsallar dilək oldu,
Didərgin ürək oldu,
Heç yetmədi fəryada.

Qəlb qəlbini istədi,
Həsrət hələ pəstədi,
Yazıq qəlbim xəstədi,
Tutub onu qan-qada.

Dözmək çətin gərdişə,
Boğdu könlü əndişə,
Ayrılıq çəkdi dişə,
Bəxtim dəryada ada,

Şadiman güllərə şeh,
Zaman başı üstə meh,
Ömür çıxarır şəbih,
Verir illəri bada.

26.05.1994

MƏNİM ÜRƏYİM

Mənim ürəyim ki, eşqinlə çağlar,
Elə soyuq baxma, soyuqluq zülüm.
Ağlar həsrətinlə bəmbəyaz çağlar,
Hicran şərqisiylə alışar dilim.

Səninlə başlanır mənimçin səhər,
Yoxluğun bağrıma yayılan zəhər,
Könlümün içində hökm edər qəhər,
Olar başdan-başa işgəncə ilim.

Saatlar uzanan ağır bir zaman,
Ürək intizarda, ürək əlaman,
Vücüdum ağacdan asılmış saman,
Tufana yem olur anlarım, gülüm.

Solmuş ümidlərim sellərə ürcah,
Onu döyəcləyir qüssə, kədər, ah,
Yolunu gözləyir ürək hər sabah,
Eşqlər paramparça, qəlb bölüm-bölüm.

Didir diləkləri bu acı anlar,
Yoxluğun məhbəsdi, bitməz divanlar,
Şadiman gözündən axıdır qanlar,
Sənsizlik boşluğa açılmış ölüm!

09.08.1994

DƏNİZ GÖZLƏR

Ürək qürbət quşu oldu,
Tənələrin tuşu oldu,
Bəbəklərin yaşı oldu,
Yollarını hicran izlər,
Dəniz gözlər, dəniz gözlər.

Maviliyin bir ummandı,
Yoxluğun da lap yamandı,
Könül yenə ələmandı,
Yollarında durub gözlər,
Dəniz gözlər, dəniz gözlər.

Saldın qəlbi qəfil oda,
Fələk ağlar bu fəryada,
Getdi sevgim, eşqim bada,
Dildə ağı deyər sözlər,
Dəniz gözlər, dəniz gözlər.

Sən ağlımda qaldın niyə?
Könlü məndən aldın niyə?
Ürəyinə saldın niyə?
Atəşindən sinəm közlər,
Dəniz gözlər, dəniz gözlər.

08.03.1995

BƏBƏYİMSƏN

Göz yaşımsan, bəbəyimsən,
Gecələrə şam-çırağım.
Könlüm, canım, ürəyimsən,
Alın yazım, bəxt varağım.

Fələk çalan haqq qələmim,
Qismətimə düşən yazım.
Küllü-dünyam, eşq aləmim,
Fəğan edən könül sazım.

Ağlım, hissim, gümanlarım,
Arzu-kamım, saf murazım,
Sevgi dolu zamanlarım,
Qışdan sonra həyat yazım.

Təbib, loğman, həkim çarəm,
Əlac olmaz dərdə məlhəm.
Ayrılığın gəlsə zarəm,
Ömür keçsin sənlə bahəm.

Tənhalığa əlacımsan,
Oğrun, qərib baxışların.
Başımda ismət tacımsan,
Ömrə düşən naxışların.

Şadimanı alsa zülüm,
Əllərinlə bük qumaşa.
Ürəyimdə sevda gülüm,
Şehini çək gözə-qaşa.

05.06.1995. Pirallahı

NECƏ XATIRLAYIRSAN?

Könlümün eşqili duyğularını,
Eyvah, misra-misra sətirləyirsən.
Həsrətə bələnmiş uyğularını
İndi mənsiz necə xatırlayırsan?

Bağrımın başından qopan ahları,
Sevgimlə çağlayan al sabahları,
Yolumda etdiyin o günahları,
İndi mənsiz necə xatırlayırsan?

Hicrana bükülmüş sənli günləri,
Ömrə bənd edilmiş bu düyünləri,
Qulaqdan getməyən eşqli ünləri,
İndi mənsiz necə xatırlayırsan?

Dərdə boyun əymiş o niskilləri,
Açması sehirli can müşkülləri,
Sevgi bağçasında solan gülləri,
İndi mənsiz necə xatırlayırsan?

Sənə tapındığım min bir gümanı,
Bağrımı göynədən bumbuz amanı,
Bir zaman sevdiyin eşqli zamanı,
İndi mənsiz necə xatırlayırsan?

19.04.1995

BAHAR GÜNÜNDƏ

Mirvari göylərin bahar günündə
Günəşi bürüyən çiskin, çən oldun.
Vüsal tərlan təki süzdü önündə,
İlləri hicrana bükən sən oldun.

Yorğun baxışlarım yolunda nalan,
Əlinlə ürəyim oldu çox talan,
Rüzgardan xəfifcə saralıb solan,
Qapqara saçımda bəyaz dən oldun.

Səba yeli sayaq, illərim uçdu,
Soyuq yatağımı hicranlar qucdu,
Sənə etdiklərim boynumda suçdu,
Sənsə bu suçlardan hər dəm gen oldun.

Həyatım çalxanan qəzaya bənzər,
Ağrıyla, acıyla könlümü üzər,
Ötüşən illərə eyləsən nəzər,
Söylə, ayrılıqla niyə tən oldun?!

24.06.1995

TALEYİMİN BAHARI

Taleyimin baharı, üzümə gül bir qədər,
Dolaşsın baxışların dünyamı zaman təki.
Qoy əzablı ömrümdən silinsin qüssə, kədər,
Dolaşmasın qapımda hicran ah, aman təki.

Gözlərinin atəşi ocağımda od olsun,
O amansız ayrılıq ürəyimə yad olsun,
Ruha, qəlbə, varlığa sevgimiz imdad olsun,
Bürüməsin üzünü iztirab duman təki.

Şad, bəxtiyar günləri qoruyaq bəd nəzərdən,
Tanrım salmasın, yarım, səni heç vaxt nəzərdən,
Şadiman eşq libasın ömürlük tikib zərdən,
Şəfəqindən qamaşsın səyyarə ümman təki.

15.06.1995

SEVGİNİ ÖYƏCƏKDİR

Gözlərinin atəşi bağrımı qorsunladı,
O sevdalar günəşi ömrümə şəfəq saldı.
O əfsunlu baxışlar könlümü ovsunladı,
Bəxtimin qapısını eşqin qürürla açdı.

İçimi bürüyən ah düşdü dumana çənə,
Sükuta qul həyatım, sənə səcdəyə gəldi.
Əllərinlə səadət bəxş etdin, bu gün mənə,
Köksümdən fələklərə sonsuz sevinc yüksəldi.

Titrək dodaqlarımdan qopdu həyat nidası,
O atəşli vücudum köksümə od qaladı.
Sən oldun, ey sevgilim, dilimin mübtədası,
Dağ cüssəli vüsalın həsrətimi taladı.

Şadimana fədakar, demə, eşqin önündə,
Sənə etdiyim sitəm könlümü döyəcəkdir.
Nə qədər yer üzündə səadət toy-düyündə,
Bütün eşq şərqiləri sevgini öyəcəkdir!

24.06.1995 Pirallahı

SƏNDƏN KÜSMƏRƏM

Səni incitdiyim bəsdir, sevdiyim,
Qəlbdə eşq bəsləyən təndən küsmərəm.
Könül iltifatın açıqca deyim,
Özümdən küsərəm, səndən küsmərəm.

Taleyin dolanbac, yolları nalan,
Gecəli-gündüzlü könlümü alan,
İblisə, şeytana qələbə çalan,
Özümdən küsərəm, səndən küsmərəm.

Onsuz əlimizdən uçdu bu illər,
Qəlbdə yuva qurdu acı niskillər,
Tilsimdən yenicə çıxıb müşküllər,
Özümdən küsərəm, səndən küsmərəm.

Təşnə ürəyimin dəli sevdası,
Dilimin sevgiyə son mübtədası,
Qapında sərgərdan eşqin ədası,
Özümdən küsərəm, səndən küsmərəm.

Şadiman alışan şamdı gecələr,
Gözümdən qanlı yaş damdı gecələr,
Sənsiz damla dərdi damdı gecələr,
Özümdən küsərəm, səndən küsmərəm.

27.05.1995

ƏLLƏRİN OCAQ OLSUN

Gəl, alışan köksümə bir içim təsəlli ol,
Ömür-günüm alışsın bu sevginin odundan.
Yanan duyğularınla atəşli sinəmə dol,
Kam alsın istəklərim bu sevdanın dadından.

Əllərin ocaq olsun köksümün ayazına,
İsitsin içimdəki üşüyən sazaqları.
Gəl sığınaq əbədi bəxtimizin yazına,
Ram etsin bu sevgimiz yaxını, uzaqları.

Gur atəşin odunda ərisin hicranımız,
Boşluğa gillənməsin ömrümüz ögar təki.
İsitsin könlümüzü günəş sayaq canımız,
Bəxtimizin yolların dolanaq rüzgar təki.

04.06.1995

ƏĞYARA TAY TUTMARAM

Aşiqimi əğyara tay tutmaram,
Neçin əhdi boş sanırsan, bilmirəm?
Pak eşqini ayaqlara atmaram,
Niyə məni qısqanırsan, bilmirəm?

Əlindədi bu könlümün çarası,
Ocaq çatıb qəlblə ağıl arası,
Yuvamıza tay dünyanın harası?
Niyə məni qısqanırsan, bilmirəm?

Gecələrim gözlərinin odası,
Səadətim məhəbbətin adası,
Səni yazıb tanrı bəxtə, qadası,
Niyə məni qısqanırsan, bilmirəm?

Ürəyimi belə salma möhnətə,
Dözməz könül, dözməz ömür halətə,
Mən ki, vurğun, o baxışa, qamətə,
Niyə məni qısqanırsan, bilmirəm?

16.07.1995

QÜRURU MƏNƏM

Mavi gözlərinin qüruru mənəm,
Endirmək istəsən, endir əbədi.

Bəxtinin səadət bülluru mənəm,
Sındırmaq istəsən, sındır əbədi.

Sənlə baharlaşır ömrümün çağı,
Çəkmə ürəyimə ayrılıq dağı,
Bir çaxmağa bənddi könül ocağı,
Yandırmaq istəsən, yandır əbədi.

Haqqın dərgahına əllərim çatmaz,
Bu duyğulu tənim gecə də yatmaz,
Gözümün ağrısın çeşmələr tutmaz,
Dondurmaq istəsən, dondur əbədi.

Varlığım özgəni tutan ki, deyil,
Özü öz qismətin atan ki, deyil,
Başda sevgi quşun tutan ki, deyil,
Qondurmaq istəsən, qondur əbədi.

16.07.1995

QAYITMAYACAQ

Soyuq yatağıma girsə gecələr,
Ağlağan könlümü uyutmayacaq.
Min bir sual olub doğan necələr,
Fəqət, yanan köksü soyutmayacaq.

Əksin gözlərimə olub bir yağı,
Bu dəli sevdada hər şey bayağı,
Kəsilmir qapımdan qəmin ayağı,
Bu dərd kor taleyi ayıltmayacaq.

Məzarla, dağ olmuş acı-ağrını,
Qəbul et şahanə bu sərt doğrunu,
Sevdayla alışan, yanan bağrını,
Pakanə sevgilər ovutmayacaq.

Kölgətək xəyalın gözdən sapınsa,
Ümidə açılan yollar qapansa,
O miskin həsrətə könlüm tapınsa,
Eşqi ah-naləyə bayıltmayacaq.

Düşsən, o illərin oğrun izinə,
Yüz yol baş vursan da eşq dənizinə,
Şadiman bəxtinə düşmüş xəzinə,
Əski zamanlarda, qayıtmayacaq.

20.08.1995

GÖZLƏRİMDƏ NƏM

Sənsiz buludlanır gözlərimdə nəm,
Bahar leysanları öz yuvasında.
Sənlə xoş keçir, sevgilim, hər dəm,
Sənsən tanrım kimi, dil duasında.

Açılmaz qapımı açanım oldun,
Sardı ürəyimi dadlı nəş'ələr.
Günəşin fövqündə saçanım oldun,
Qopdu taleyimdən bu əndişələr.

Sənsiz al günəşim sönər şam təki,
Könlümün göyündə açılmaz sabah.
Qaralar gözlərim bir axşam təki,
Bağrımdan püskürən vulkan, aman-ah.

Şadiman əridər kədər qarını,
Haqqına tuşlanmış səcdələrinlə.
Açıb taleyimin qapılarını
Hər gün dolaşarsan müjdələrinlə.

19.10.1995

ÖLÜNCƏ

Getdin, ürəyimdə bu niskil oldu,
Ağrıya, acıya döndü o anlar.
Sənə yetişməyim nə müşkül oldu?
Bitib-tükənmədi, eyvah, divanlar.

Birgünlük ayrılıq bir sitəm təki,
Uçurtdu ömrümün xanimanını.
Yenə də tənhalıq, bax, matəm təki.
Ağlatdı könlümün asimanını.

Uyuşa bilmədim otağa nə sirr,
Ürək uyğularda sənə qovuşdu.
Özüm tənhalığın əlində əsir,
Yenə də həyatım qəmə yovuşdu.

Gəl, qəfil gəlişlə həsrəti yasla,
Bu ağır zülümə dözməyim yetər.
Beşgünlük ömrümü batırma yasla,
Bu ki, taleyimə ölümdən betər.

Çeşməsi tükənməz gözlərim bulud,
Ağlayıb yoluna baxdı bu gecə.

Ürəyim mizraba bənd olmuş bir ud,
Sızlayır içində təklik ölüncə.

05.11.1995 Pirallahı

TƏNHALIQ

Yenə də tənhalıq, yenə də sitəm,
Yenə də içimdə bəlalı matəm.

Dolaşır evimdə soyuq gümanlar,
Necə müdhiş ötür acı zamanlar.

Sənsiz otağımın solub günəşi,
Şimşəklərə dönüb sevgi atəşi.

Telfon insafsız da susub bu axşam,
O da kədərimdən, sanki alır kam.

Vaxt açıb içimdə dərin şırımlar,
Arada keçilməz ünsüz aşrımlar.

Əlacı bilinməz aylara qalıb,
Yenə də üstümü tənhalıq alıb.

07.01.1996 Pirallahı

TANIDI SƏNİ

Köksümün içini yandıran gülüm,
Oda döndərəydi bircə yol məni.
Qəlbi dönüklüklə imtahan edən,
Ürəyim vəfasız tanıdı səni.

Çaxdın şimşək təki yolumda bir gün,
Saldın eşqimiziin bəxtinə duyün,
Yamanca göstərdin bu sevgimə gün,
Tökdün yığın-yığın bağrıma çəni.

Mənimsə sinəmdə çağlayır həyat,
Könlümə əbədi qəm-qüssələr yad,
Bu məsumca sevgi dəryada azad,
Batmaz sularında könül yelkəni.

10.01.1987

HƏSRƏTLİYƏM

Gözümdə həsrət buludu,
Bir himə bənddi gurşadı.
Leysanı əyər palıdı,
Yetməyir, sənə ki, dadı.

Qısılıb qollar qoynuma,
Daha qoymur göz alışa.
Əzablar yükdü boynuma,
Göz yaşım axır balışa.

Dərdlərdən hali, bilənim,
Təkliyə dözüm qalmadı.
Hicran yaşını silənim,
Könlün qəmindən dolmadı.

Ürəyim naçar yolunda,
Bir gəliş, bir söz əlacı.
Hicran qandalı qolunda,
Həsrətdən doğan gün acı..

15.01.1996 Pirallahı

AYRILIQ DƏMİ

Çatdı ayrılıq dəmi,
Getməməyin əlacsız.
Qəmlə dolu sinəmi
Həsrət alıbdı bacsız.

Vüsalın yolu daşlı,
Ümidlər pərən-pərən.
Qalmışam gözü yaşlı,
Könlə agahmı görən?

Yol çantanı açmısan,
Yığışırsan getməyə.
Mən zamandan qaçmışam,
Heç vüsalın bitməyə.

Uzatmışam qolları
Sarılsın sənə bir an.
Gedənə haqq yolları,
Qalana həsrətli can.

22.01.1996 Pirallahı

***

Həsrətin şiddəti leysan andırır,
Tənhalıq könlümün için yandırır,
Ürəyim bədəndən yenə yan durur,
Qapımdan boylanır əsən küləklər,
Qoşulub mehlərə itir diləklər.

18.11.1985

MƏHƏBBƏT YALANMIŞ

Mən sənin eşqinə yandığım gündən,
Ömrün illərinə yabançı oldum.
Vaxtsız saçlarıma sevgin saldı dən,
Gəncliyim önündə yalançı oldum.

Elə bil baharda çiçəkli bağı,
Bir qəfil qasırğa soldurdu tökdü.
Gözəl cavanlığın bu yetkin çağı,
Sinəmə həsrətin dumantək çökdü.

Unuda bilmirəm səni indi də,
Aradan neçə ay, neçə il ötüb.
Uşaqtək dil açıb qəlbim dindi də,
Gün olub bülbültək o dil-dil ötüb.

Səni itirəndən deyib gülmürəm,
Sevgim də, eşqim də yad olub sənə.
Sənə vəfasız da deyə bilmirəm,
Öz sadəlövhliyim düşməndir mənə.

İndi yuxuları dola boynuna,
Qoy həsrət, ayrılıq yanıb tökülsün.
Sevinclə səadət girsin qoynuna,
Xəyali sevgimi aləmlər bilsin.

13.04.1986

SƏNİN UCUNDAN

Sənin taleyinin üfüqlərində,
Günəştək boylandım, günəştək yandım.
Eşqin ulduz oldu, mən göylərində
Ay təki keşikçi oldum, dayandım.

Bahar yağışıtək, qəfil başladın,
Dəli leysanları tökdün üstümə.
Dərdsiz gözlərimi dərdlə yaşladın,
Qaladın odlara, baxdın tüstümə.

Neçə yol ağladım, neçə yol güldüm,
Eşqimiz dərəli, eniş-yoxuşlu.
Üstümə aləmi, eli güldürdün,
Yollarsa sazaqlı, şaxtalı, qışlı.

Bəxtim nə çəkmədi sənin ucundan,
Qəlbimin evinə çaxnaşma saldın.
Vəfasızlığının tutub ucundan,
Eşqimin sinəsin ilantək çaldın.

Ürəyimin qəmi dəryalar tutmaz,
Könül bir şüşədir, gərək sınmasın.
Sınmış ürəyimi heç nə ovutmaz,
Ruhun zəhmət çəkib ovsunlanmasın.

13.04.1986

SƏNİ GÖRMƏYƏNDƏ

Səni görməyəndə halım pozulur,
Üstümə dünyanın çəni tökülür.
Sevincim ürəyə qəmtək yozulur,
Ümidin qalası uçub sökülür.

Göylərdə buludlar ağlar məniçin,
Ayrılıq dağıdar könlümün için,
İstəyim, amalım, məqsədim çin-çin,
Yolunun üstündə ürəyim ölür.

Səni görməyəndə günüm uzanır,
Könlümün atəşi ahlara yanır,
Həsrətim özünə ay-gün qazanır,
Geyinib qırmızı, üzümə gülür.

Tufanlar başlayır könlün göyündə,
Buluddan koftası parlar əyində,
Dəli istəklərim gəzir beyində,
Gözdən yaş yerinə gurşadlar gəlir.

Səni görməyəndə hər şey büsbütün,
Öz yerində qalar dünyada çətin,
Əsiri oluram mən dörd cəhətin,
Gözümə kədərin mili çəkilir.

05.10.1986

HƏSRƏT QALDIM ÜZÜNƏ

Ayrı düşdü sevgimizin yolları,
Haçan görən gözüm baxar gözünə?
Boynumuzda ayrılığın qolları,
Yenə niyə həsrət qaldım üzünə?

Sanki mənim bir dünyalıq günəşim,
Şaxtalarda, sazaqlarda atəşim,
Yenə sənsiz yaman oldu hər işim,
Yenə niyə həsrət qaldım üzünə?

Ey könlümün tələtümlü dənizi,
Susmağınla saraltmısan bənizi,
Söylə görüm, qınayıbdı kim bizi?
Yenə niyə həsrət qaldım üzünə?

Eşq bağında gül-çiçəyin qar alıb,
Cavanlığın günü, anı daralıb,
Sevgimizin yaman qanı qaralıb,
Yenə niyə həsrət qaldım üzünə?

Yetişmədi əllərinə əllərim,
Qəmli keçir sənsiz necə illərim,
Solğunlaşıb can bağında güllərim,
Yenə niyə həsrət qaldım üzünə?

Bəbəklərin göz yaşı min dənizdi,
Duyğularım xəyalına kənizdi,
Yolundaca, payız olan bənizdi,
Yenə niyə həsrət qaldım üzünə?

12.10.1986 Nasosnu

MƏN SƏNİ ARZULARAM

El-obada çal-çağır,
Üzlərdən sevinc yağır,
Şadlıqda sinə, bağır,
Tapmaz ürəyim aram,
Mən səni arzularam.

Könlüm könül möhtacı,
Olmusan eşqin tacı,
Taleyimin əlacı,
Tapmaz ürəyim aram,
Mən səni arzularam.

Günümü qara etmə,
Məndən uzağa getmə,
Dili qəmli söylətmə,
Tapmaz ürəyim aram,
Mən səni arzularam.

Ürəyim oda yandı,
Yollarında dayandı,
Bu ki, sənə əyandı,
Tapmaz ürəyim aram,
Mən səni arzularam.

12.10.1986 Nasosnu

QALA BİLMİRƏM

Vallah gecə-gündüzə,
Mehir sala bilmirəm.
Sözü düz deyim üzə,
Sənsiz qala bilmirəm.

Gözlərimdə gözlərin,
İzlərində izlərim,
Qaralır gündüzlərim,
Sənsiz qala bilmirəm

Bəlalı ürəyimlə,
Arzumla, diləyimlə,
Eşq adlı mələyimlə,
Sənsiz qala bilmirəm

Gözdə yaş gilə-gilə,
Qalmışam silə-silə,
Yoxluğu bilə-bilə,
Sənsiz qala bilmirəm

Ömrümü varaqlama,
Özgədən soraqlama,
Həsrətlə bir çağlama,
Sənsiz qala bilmirəm

Günümü etmə acı,
Eylə dərdə əlacı,
Ömrümün ehtiyacı,
Sənsiz qala bilmirəm

Başımdan getməz eşqin,
Tükənib bitməz eşqin,
Əlimə yetməz eşqin,
Sənsiz qala bilmirəm.

Həsrətdən don biçmişəm,
Fərəhimdən keçmişəm,
Təkcə səni seçmişəm,
Sənsiz qala bilmirəm

12.10.1986 Nasosnu

QARA BULUDLAR GƏZİR

Baxışında, de niyə qara buludlar gəzir?
Bu qəmginlik könlümü yenə də sıxır əzir.
Bircə görüşün üçin qüssəyə verdim nəzir,
Ki, döyməsin qapımı səhər-axaşam izinsiz,
Şadlığımı önündə daha çökdürməsin diz.

Bir kimsəyə baxmayaq, tutaq eşqlə əl-ələ,
Qoy bəxtiyar sevgimiz düşsün ellərdən elə,
Coşsun sadiq məhəbbət, ilham versin bülbülə,
Sübhdən durub oxusun yamyaşıl bağımızda,
Sinəmizə baş qoysun şadlıq bu çağımızda.

Taleyimiz qol salsın sevdamızın boynuna,
Sevgi, məhəbbət töksün, qoy doyunca qoynuna,
Ömür rəqs meydanımı? Uymayaq eşq oynuna,
Bil, ürəyimə sənsiz həyat acıdan acı,
Gəl ömürlük müjdəylə qoy başıma eşq tacı!

25.12.1986

QƏLBİMDƏ GÖYNƏYİR

Qəlbimdə göynəyir yenə də həsrət,
Çəkir bəxtimizin qarşısına səd,
Alıbdır üstümü bilsən necə dərd,
Nə olar, qayıdaq keçən günlərə,
Könül vüsalını içən günlərə.

Gələn yollarına çiçək düzərəm,
Gəlməsən ürəyi qəmlə üzərəm,
Demə dözümüm var, yenə dözərəm,
Mənim qana dönmüş nəmli gözüm var,
Gəl batan günəşim parlasın, ey yar.

Sənsiz mənasızdır açan sabahım,
Günəşi qaraya boyayır ahım,
Bəlkə özün söylə nədir günahım?
Amandır, buludlar qoyma sürünə,
Qoy uçmuş xəyallar parlaq görünə.

25.12.1986

KƏMƏNDƏ SALIR

Gündə milyon kərə kəmənde salır,
Sevgimi enişə, yoxuşa salır,
Bağrımda ömürlük bir məskən salır,
Hissimi, ruhumu alan, o gözlər,
Köksümü eyləyib talan, o gözlər.

Nə onda insaf var, nə məndə taqət,
Baxışlarda sevgi, bu ki, həqiqət,
Çəkib vüsalımın yoluna bir sədd,
Sinəmi bəlaya salan, o gözlər,
Buludtək boşalıb dolan, o gözlər.

Könül fəzasında şimşəyə döndü,
Niyə öz əhdindən, yolundan döndü?
Bəs nədən sevgimin evinə döndü?
Qəlbimdə şimşəktək çaxan, o gözlər,
Gah ögey, gah doğma baxan, o gözlər.

Yenə aramızda əsibdi külək,
Yolları, izləri kəsibdi fələk,
Etdikcə özümü yolunda həlak,
Bircə yol bilmədi, əfsus, o gözlər,
Gah od-atəş oldu, gah buz, o gözlər.

10.01.1987

YAMAN DARIXMIŞAM

Yanğısı sönməyən bir həsrət ilə,
Döndü ayrılığın hey aya, ilə.
Mən necə gətirim bu odu dilə?
Yaman darıxmışam səninçin, yaman.

Bizim sevgimizə hicran susadı,
Güldürdü aləmi, yaxını, yadı,
Acının, ağrının getməyir dadı,
Kim belə sevdaya düşübdü, aman,
Yaman darıxmışam səninçin, yaman.

Eşqimin göyünü aldı bulud, çən,
Qəmin saçlarıma salıb vaxtsız dən,
Nədən bəs əzabla yaşayıram mən?!
Bürüyüb bəxtimi qatı sis, duman,
Yaman darıxmışam səninçin, yaman.

Sevgimin gözünü həsrət bağlayır,
Sənsiz hissim, ruhum, eşqim ağlayır,
Yenə də sinəmdə sevgi çağlayır,
Köksümdə məhəbbət tükənməz ümman,
Yaman darıxmışam səninçin, yaman.

13.01.1987

BAXMA MƏNƏ UZAQDAN

Oğrun-oğrun baxma mənə uzaqdan,
Könlüm çıxıb boranlardan, sazaqdan,
Mənə vergi verdi qədər pak haqdan!
Məhəbbətlə çağlayan bir könlüm var,
Başım üstən dumanları tez qovar.

Nə deyirsən ürəyimə deginən,
Sevirsənsə canı dildən sevginən,
Bu eşqinlə birgə sevin, gülginən,
Mən baharam, qəlbi solmaz çiçəyəm,
Məhəbbətdə göyçəklərdən göyçəyəm.

Ürəyimin sevgiləri çağlayır,
Sevənlərtək eşqə ümid bağlayır,
Sənsiz ruhum uşaq kimi ağlayır,
Gəl sevgidən quraq yeni bir saray,
Salaq eşqin obasına hay-haray.

22.01.1987

SƏN YADIMA DÜŞƏNDƏ

Gözümdə giley olur,
Dilimdə bir ney olur,
Ürəyim qəmlə dolur,
Nə taqət, nə can məndə,
Sən yadıma düşəndə.

Həsrət qapım bağlayır,
Dərdin sinə dağlayır,
Gözlərim hey ağlayır,
Nə taqət, nə can məndə,
Sən yadıma düşəndə.

Dərya qəlbi dərd üzür,
Həsrət qartaltək süzür,
Ürəyim necə dözür?
Nə taqət, nə can məndə,
Sən yadıma düşəndə.

Kim qarğıyıbdır bizi?
Eşqin bağlanıb gözü,
Alışır sinəm közü,
Nə taqət, nə can məndə,
Sən yadıma düşəndə.

Sevinc məndən yan qaçır,
Başıma oyun açır,
Qapımı bəs kim açır?
Nə taqət, nə can məndə,
Sən yadıma düşəndə.

Söylə, ürək neyləsin?
Dərdin kimə söyləsin?
Könlün imdad eyləsin,
Nə taqət, nə can məndə,
Sən yadıma düşəndə.

22.01.1987

İTİRDİM MƏN SƏNİ

İtirdim mən səni bir bahar çağı,
Qopdu ürəyimdən min nalə, ağı,
Mənəmi qalmışdı həsrətin dağı?
Qaytara bilmirəm indi o günü,
Sənli xatiratın düşüb düyünü.

O gün başqa-başqa adamlar olduq,
Əsəbin əlində boşalıb dolduq,
Sinəsi tufana düşən bir yolduq,
Həsrət qanun çəkdi hey sağa, sola,
Beyin qərar verdi, qəlb ola-ola.

İtirdim mən səni, biz ki, cavandıq,
Hicranın dilinə neçin allandıq?
Şimşəkdən alışan ocaqtək yandıq,
Beləcə ayrıldı yollarımız da,
Gəzdi qəm kəndiri qollarımızda.

Yadıma düşdükcə, o günlər yenə,
O sənli günlərim əl edir mənə,
Başı qarlı dağıq düşmüşük çənə,
Bilmirik bahardı, ya da ki, qışdı,
Qədərdən taleyə bəlkə qarqışdı.

İkimiz itirdik can sevgimizi,
Artıq nişangahdır sinədə izi.
Hey dolur boşalır bəxtimin gözü,
İtən günlərimə indi yanıram,
Ürəyin əlindən mən odlanıram.

23.01.1987

DÖNDÜ YANIQLI NEYƏ

Sənin məhəbbətin söndü bəs niyə?
Döndü bu sinəmdə yanıqlı neyə,
Yandı bu dil-dodaq, yar deyə-deyə,
Çevirdin üzünü, əbədi getdin,
Sən məni cismimdən can-bezar etdin.

Ürəyim gileyli, gözüm gileyli,
Diləyim gileyli, sözüm gileyli,
Səndən ayrılalı, özüm gileyli,
Şəklini dəyişib önümdə həyat,
Sənsiz qəmə dönüb dibsiz kainat.

Dəyişib donunu şirin diləklər,
Başıma həsrətmi tökdü fələklər?
Bağrımı, köksümü dərd, qəm ələklər,
Gəl dərdli könlümü al yenə ələ,
Ürəyim ümidin üzməyib hələ.

Həsrət varlığımın yanar ulduzu,
Bağrımın, könlümün tükənməz nazı,
Sinəmin inləyən yanıqlı sazı,
Sənin məhəbbətin hələ mənlədi,
Sevincim, şadlığım, eşqim sənlədi.

23.01.1987

HƏSRƏT BAŞA BƏLAMIŞ

Eşqin sinəmə axdı,
Güman etdim ələymış.
Hicran yandırdı yaxdı,
Həsrət başa bəlamış.

Gözümdə yaş sel oldu,
Bulaqtək hardan doldu?
Nə oldu, mənə oldu,
Həsrət başa bəlamış.

Çıxdı yolundan ürək,
Qurdu başıma kələk,
Baş açа bilməz fələk,
Həsrət başa bəlamış.

Gözümdən hara getdi?
Sanki murada yetdi,

Tikantək qəlbə batdı,
Həsrət başa bəlamış.

Çıxıb yolumun üstə,
Kamantək sızlar pəstə,
Könül pəjmürdə, xəstə,
Həsrət başa bəlamış.

Eşqin sirli bağlama,
Yollarını bağlama,
Bir söz gəlib ağlıma,
Həsrət başa bəlamış.

23.01.1987

NƏ DEYİRSƏN

Gözlərinin önündəyəm,
Bu mən, bu sən, nə deyirsən?
Saf sevginin ünündəyəm,
Bu mən, bu sən, nə deyirsən?

Məhəbbətin ürəkdimi?
Arzudumu, diləkdimi?
Odun, közün küləkdimi?
Bu mən, bu sən, nə deyirsən?

Sındırdınmı qəmin belin?
Qısaltdınmı həsrət ilin?
Sevgim sazdır, dinlət telin,
Bu mən, bu sən, nə deyirsən?

Gözlərində məhəbbətmi?
Qəlbindəki pak niyyətmi?
Aramızda ülviyyətmi?
Bu mən, bu sən, nə deyirsən?

Uzansın bu eşq dastanı,
Qarşındakın bir bax, tanı,
Səni məntək sevən hanı?
Bu mən, bu sən, nə deyirsən?

Ürəyim tək sənə bağlı,
Həsrətindən sinə dağlı,
Qoyma eşqin yolun bağlı,
Bu mən, bu sən, nə deyirsən?

07.02.1987

ALƏMSƏN, GÜLÜM

Sevgim, məhəbbətim, pak etiqadım,
Yaralı köksümdə naləmsən, gülüm.
Görən yetişirmi sənə imdadım?
Gözümdə bir ayrı aləmsən, gülüm.

Sənsiz rəngi yoxdur meşənin, dağın,
Sənsiz bülbülləri oxumaz bağın,
Sənsiz ürəyimdə dərd yığın-yığın,
Gözümdə bir ayrı aləmsən, gülüm.

Gündüzdən işıqlı, nurludur gözün,
Günəşdən alovlu, odludur közün,
Ən gözəl nəğmədir, varlığın özün,
Gözümdə bir ayrı aləmsən, gülüm.

Sevgili ürəklə oxşa könlümü,
Salma dərələrə, yoxşa könlümü,
Bürü od-alovlu baxşa könlümü,
Gözümdə bir ayrı aləmsən, gülüm.

Sən bir lətafətsən, solmaz diləklər,
Birləşər nə vaxtsa yanan ürəklər...
Oxşar sevgimizi göylər, mələklər,
Gözümdə bir ayrı aləmsən, gülüm.

Ayrı bir ülfətlə valehin ollam,
Xəfifcə titrəyən saf mehin ollam,
Çiçəklər üstündə ağ şehin ollam,
Gözümdə bir ayrı aləmsən, gülüm.

Ömrümüz növrəstə, gənc çağlarında,
Batıram, çıxıram qəm dağlarında,
Asılıb qalmışam göy tağlarında,
Gözümdə bir ayrı aləmsən, gülüm.

24.01.1987

ÇIRPINAN QUŞAM

İçimdə dolaşır qəm, acı giley,
Sinəm bir kamanmı, yoxsamı bir ney?
Qalmadı köksümdə nə taqət, nə hey,
Qayıt al pərişan qalan könlümü,
Qəminlə boşalıb dolan könlümü.

Qoyma həsrətinlə gözlərim dola,
Hardasa bir qızın qisməti qala...
Son qoy qəlblər üzən bu qeylü-qala,
Qayıt, həsrətinlə çırpınır ürək,
Eyləyir ömrümü qəm ələk-vələk.

Sənsiz qəriblikdə çırpınan quşam,
Bəsdir, qəm-qüssəylə mən qovrulmuşam,
Hicran küləyindən çox sovrulmuşam,
Sərsəri yuxudan qalxıb oyanaq,
Ünyetməz zirvədə birgə dayanaq.

08.04.1987

DUMAN BÜRÜYÜB

Yenə gözlərimi duman bürüyüb,
Buludlar səf çəkib, durub üz-üzə.
Vüsalın gündüzü şamtək əriyib,
Qalıbdı qəlbimlə həsrət göz-gözə.

Alışır içimdə sevgi anbaan,
Donur damarlarda bumbuz olur qan,
Sevgimiz, eşqimiz yenə verir can,
Gələndə baxışlar, qəlblər söz-sözə.

Yuma leysanlarla könlümün bağın,
Göstərmə sinəyə dəli sel dağın,
Bəlasın çox gördüm mən ayrılığın,
Salma eşqimizlə onu iz-izə.

Qəfil şimşəklərdən alışdı ürək,
Göylərə qaldırdı odunu külək,
Sirindən baş açа bilmədi fələk,
Qarışdı qəlbimdə alov, köz-közə.

Əllər çatmasa da biri-birinə,
Hicran fəğan etsə vüsal yerinə,
Şadiman vəfalı, eşqin sirinə,
Ömürlük ürəklə durub üz-üzə.

20.04.1987

AĞIR YÜK OLUB

Həsrətin sinədə ağır yük olub,
Gəzdirə bilmirəm, ata bilmirəm.
Dərdin dərdlərimdən ən böyük olub,
Ömür köhləninə çata bilmirəm.

Nə qədər çətinmiş səndən aralı,
Qəlb sussuz səhradır, sevgi maralı,
Könül min bir yerdən sızlar yaralı,
Mən bu əzablara bata bilmirəm.

Ürək necə dözsün can gərdişinə?
Bu xəbər-ətərsiz son gedişinə,
Ürək qərarsızdır o gəlişinə,
Çatmaq gümanında, çata bilmirəm.

Gözlərim yolunda qanlı yaş tökər,
Başıma gündüz də qaranlıq çökər,
Könül sarayını həsrətin sökər,
Uzun gecələri yata bilmirəm.

Önümdə açılır nurlu sabahlar,
Bağrımı dağlayır nalələr, ahlar,
Bu sevgin başıma açdı günahlar,
Mən səni həsrətə sata bilmirəm.

Şadiman şam təki yanar gecələr,
Köksündə bir dünya həsrət gecələr,
Yoxluğun önündə ömrüm incələr,
Xəyalın bülbüldü, tuta bilmirəm.

06.11.1989

BİRCƏ BAXIŞINLA

Bircə baxışınla ovsunla məni,
Alışdır sinəmdə sevgi közünü.
Susdursun duyğular, qayğılar səni,
Dinmə, ürək desin mənə sözünü.

Başlasın gözümdə şıdırığı yağış,
Leysana bürünsün mənə o baxış,
Sinəmin içinə salsın min naxış,
Qoy mənə göstərsin sevgi üzünü.

Bircə baxışınla mənə günəş ol,
Aləmi qarsıyan od ol, atəş ol,
Ürəkdən ürəyə çəkmişəm bir yol,
Həsrət izimizdən yığsın gözünü.

20.04.1987

BÜRÜNÜB GECƏ

Sənin yoxluğuna bürünüb gecə,
Düşdüm bir daş kimi mən yatağıma.
Səni yuxundaca gördüm indicə,
Səssizcə gəlmişdin sən otağıma.

Dinib danışmadan, sən ayaq üstə,
Süzdün başdan-başa məni ahəstə,
Elə bil hakimdin sükutun üstə,
Gözlərin dönmüşdü çil-çırağıma.

Eləcə sükutla süzürdün məni,
Can alan fələktək üzürdün məni,
Vüsalın evində gəzirdin məni,
Röyan gəldim dedi tez qulağıma.

22.04.1987

QURBANAM

Sinəm sənə nişangahdır, ay ovçu,
Məğrur-məğrur duruşuna qurbanam.
Ey səyyadım, can almağın bir başqa,
Gözlə gözün vuruşuna, qurbanam.

Mən çəkəni kimsə çəkməz əzəldən,
Mən bilirəm, yaralısan gözəldən,
Sənlə mənim aramızı düzəldən,
İki könlün yarışına, qurbanam.

Başdan getməz məhəbbətin havası,
Tapılmazdır heç dərmanı, dəvası,
Xəzinədar, axtarıram qəvvası,
Tapsam onun qurluşuna, qurbanam.

Canda nə var – dəli qəlblə yanaraq,
Eşqin adın milyon kərə anaraq,
İdrakının dediyini danaraq,
Məhəbbətlə barışına, qurbanam.

22.04.1987

UZAQ EYLƏDİN

Məni qoyub həsrət, hicran içində,
Yaxın yolu niyə uzaq eylədin?
Pərdə edib al günəşə kədəri,
Könül göyün yaman sazaq eylədin.

Ayrılıqlar ürəyimin yeridi,
Qoşun-qoşun qəm üstümə yeridi,
Qəlbin yağı oda düşdü, əridi,
Ocağına töküb sən dağ eylədin.

Bu Şadiman biçarəyə yox əlac,
Həsrət alır, ondan hər gün min bir bac,
Qıfıl vurdun, qapım bağlı, bir dön aç,
Günlərimi yaxşıca çağ eylədin.

25.06.1987

ÇÖKDÜ KÖNLÜMƏ

Ayrılıq sənsizlik sorağın aldı,
İntizar yolların çəkdi könlümə.
Hey dolub boşalmaq gözlərə qaldı,
Yoxluğun yük olub, çökdü könlümə.

Sənsiz öz donunu dəyişdi ürək,
Qurdu taleyinə gündə min kələk,
Sən bulud, mən isə asiman, fələk,
Şimşəyin yüz leysan tökdü könlümə.

Ürək hər gün qaldı eşq sorağında,
Hicran nəğmə yazdı bəxt varağında,
Əsdi dəli yellər ömür bağında,
Həsrətin gül-çiçək əkdi könlümə.

Şadiman ürəyin hey yamanlayır,
Bir məsum çocuqtək hər an danlayır,
Ağlım bir hikməti yalnız anlayır,
Vüsalın, hicranın təkdi könlümə.

07.06.1987

SEVGİLİM, HARDASAN? GƏL

Qəlb şadlığa əl açır,
Sənəsə, çatmayır əl.
Qapımı hicran açır,
Sevgilim, hardasan? Gəl.

Sinədə min nalə-ah,
Sənsiz açılmır sabah.
Ömrə dərd vermək günah,
Sevgilim, hardasan? Gəl.

Yola dikilib gözlər,
Zamanım anı izlər,
Ürək tək səni gözlər,
Sevgilim, hardasan? Gəl.

Bahar gəlib çəmənə.
Can verib yaşəmənə,
Tənha deyirlər mənə,
Sevgilim, hardasan? Gəl.

Gözümdə günəş sönür,
Başıma zülmət enir,
Bəxtim yolundan dönür,
Sevgilim, hardasan? Gəl.

Ürəyim yandı oda,
Dünya boyandı oda,
Sevgim oyandı oda.
Sevgilim, hardasan? Gəl.

08.06.1987

MƏN SƏNİ GÖZLƏYİRƏM

Getməz sevgim, həvəsim,
Anını izləyirəm.
Ayrılıqdır qəfəsim,
Mən səni gözləyirəm.

Ürək qəmindən yanır,
Hayımdan el oyanır,
Qəlb müntəzir dayanır,
Mən səni gözləyirəm.

Sevdam canından keçir,
Yaş ötür, illər keçir,
Hərə sevdiyin seçir,
Mən səni gözləyirəm.

Saça ağ cığır düşür,
Qəlb həsrətlə görüşür,
Səbirimdən can üşür,
Mən səni gözləyirəm.

Anam edir danlağı,
Qonum-qonşu qınağı,
Bitmir həsrət sınağı,
Mən səni gözləyirəm.

Ürəyimə nə qaldı?
Ömür getdi nə qaldı?
Gözündə gözüm qaldı.
Mən səni gözləyirəm.

08.06.1987

İŞIQ OLMUSAN

Utanıram. Necə deyim üzünə?
Taleyimə bir yaraşıq olmusan.
Vurulmuşam söhbətinə, sözünə,
Sən bəxtimə düşən işıq olmusan.

Səbəbkarı ağılmı, ya ürəkmi?
Taleyimdə yanıb sönən diləkmi?
Dəliqanlı gəncliyimə kələkmi?
Sən bəxtimə düşən işıq olmusan.

Keçilməzdən sorağını alanda,
Sıldırımdan qəlbinə yol salanda,
Odun-suyun arasında qalanda,
Sən bəxtimə düşən işıq olmusan.

Yaradanım alov töküb gözünə,
Ürək gərək deyə düzü, düzünə.
İnan, gülüm, ürəyimin sözünə,
Sən bəxtimə düşən işıq olmusan.

08.06.1987

ARALI QALIB

Könlün göylərində dolubdu bulud.
Yenə şimşəkləri çaxnaşma salıb.
Sinəm bəm üstündə yanıqlı bir ud,
Gözüm gözlərinnən aralı qalıb.

Çapır qəlb içində qüssənin atı,
Atıbsan odlara ömrü, həyatı,
Bu da sevgimizin bir mükafatı,
Gözüm gözlərinnən aralı qalıb.

Yenə bəbəklərdə qaralır dünya,
O sənli günlərim indi bir röya,
Könlüm könlünə, de necə qıya?
Gözüm gözlərinnən aralı qalıb.

Ey sevdiyim, könlüm səma küləyi,
Ağladır yenə də yeri, fələyi,
Gəl oyat könlümdə min bir diləyi,
Gözüm gözlərinnən aralı qalıb.

09.06.1987

MƏHƏBBƏT OLMAYANDA

İki qəlb birləşərmi,
Sevgi yurd salmayanda?
Sinədə yerləşərmi,
Məhəbbət olmayanda?

Evdə söz-söhbət gəzər,
Ürəyi qeybət üzər,
Həsrət yola çən düzər,
Məhəbbət olmayanda.

Qəlblər vara satılar,
Od-alova atılar,
Tamah bağrı çatılar,
Məhəbbət olmayanda.

Göz-gözü yolda qoyar,
Sinəni hicran oyar,
Dillər kin-küdrət yayar,
Məhəbbət olmayanda.

Evlər binəsiz olar,
Eşqlər sinəsiz olar,
Ürək arada qalar,
Məhəbbət olmayanda.

Ürəyini bir dinlə,
Nə sonra ah çək inlə,
Evin uçar əlinlə,
Məhəbbət olmayanda.
Məhəbbət olmayanda.

13.06.1987

ALA GÖZLƏRİN

Nə müddətdi salıb könlü çöllərə,
Qəlb ağlayır, yaşı dönüb göllərə,
Sevgim məni dastan edib dillərə,
Dolmuş könlü gəlib ala, gözlərin,
Harda qaldı, görən ala gözlərin?

İllər ötür saça vaxtsız dən düşür,
Şadlıq, sevinc ürəyimdən gen düşür,
Həsrətimiz bir-biriylə görüşür,
Hicranlardan dözmüb dola gözlərin,
Harda qaldı, görən ala gözlərin?

İztirabım şişib, min bir dağ oldu,
Qəlb əridi, od içində dağ oldu,
Məhəbbətim həyatıma dağ oldu,
Təkcə mənə həmdəm qala gözlərin,
Harda qaldı, görən ala gözlərin?

Heç bilmədən məftun oldum üzünə,
Çox söylədim, baxma könlün sözünə,
Gizli eşqi, indi deyim üzünə,
Gözlərimdə məskən sala gözlərin,
Harda qaldı, görən ala gözlərin?

Qəlb bağında gül-çiçəklər saralır,
Heç bir şeydən qanım hər gün qaralır,
Al gündüzlər, axşam olur qaralır,
Pak sevgimə şərik ola gözlərin,
Harda qaldı, görən ala gözlərin?

Həyatımın bəxti sənə bağlıdır,
Ağıl qapım, ay insafsız, bağlıdır,
Bu nəğməkar, tuti dilim bağlıdır,
Hanı, bir gün gələ yola gözlərin?
Harda qaldı, görən ala gözlərin?

13.06.1987 Nasosnu

HƏSRƏTLƏ QOL-BOYUN

Həsrətlə qol-boyun olan vəfasız,
Şirin vüsalımı hicran eylədin.
Mən çatmaq istədim eşqə cəfasız,
Sökdün bağrın için, al qan eylədin.

Bu illər kədərlə üzdü sinəmi,
Görsəydin, qəmləri yüzdü sinəmin,
Aldığı yaralar közdü sinəmin,
Ayrılıq könlümə divan eylədi.

Qisməti bu imiş dəli könlümün,
Çatmayır eşqinə əli könlümün,
Qırılıb sazımın teli könlümün,
Çılğın duyğulara üsyan eylədi.

Başımdan getməyir sevginin odu,
Canıma əvəzsiz tək onun adı,
Atəşli ürəkdir əzəl ustadı,
Bağrımı, könlümü şan-şan eylədi.

Çətindir həyatda eşqi unutmaq,
Sinəni xəyalla daim ovutmaq,
Ürəyi ağrıdan necə sovutmaq?
Həsrəti könlümü nişan eylədi.

Necə aman etdi, ağladı ürək,
Sirindən baş açmaz asiman, fələk,
Puç oldu yolunda min duyğu, dilək,
Arada bu sinə aman eylədi.

Qəlbimin dərdini dərya götürməz,
Səsini, ününü yara ötürməz,
Belə bir aşiqi dövran yetirməz,
Mənə bu sitəmi yaman eylədi.

14.06.1987

QARA GÖZLƏRİN

Salıbdı dağa, düzə,
Sevgisin vurmaz üzə,
Vallah, gəlməsin gözə,
Qurub ara gözlərin,
Sənin qara gözlərin.

Sevgisiylə alışıb,
Bir od olub qarışıb,
Ulduzumuz barışıb,
Vurmaz yara gözlərin,
Sənin qara gözlərin.

Ay könlümün diləyi,
Qəlbə qurma kələyi,
Ürək adlı mələyi,
Salıb tora gözlərin,
Sənin qara gözlərin.

Şadiman səndən uzaq,
Yolunda boran, sazaq,
Gəl bəxti birgə yazaq,
Edər çara gözlərin,
Sənin qara gözlərin.

05.10.1987

BƏLKƏ SƏNSƏN QİSMƏTİM

Məhəbbətin gözlərində çıraqdır,
Nuru ilə gündüz olur zülmətim.
Səadətim yazılmamış varaqdır,
Kim bilir ki, bəlkə sənsən qismətim?

Bu köksümdə baş-başadır duyğular,
Toy-büsatdır, tamaşadır duyğular,
Alıb könlü başdan-başa qayğılar,
Kim bilir ki, bəlkə sənsən qismətim?

Yamaclarda açılmamış çiçəksən,
Mənim üçün göyçəklərdən göyçəksən,
Könlüm deyir, xəyal deyil, gerçəksən,
Kim bilir ki, bəlkə sənsən qismətim?

Gözlərini gözlərimdən yan tutma,
Od qəlbimi sazağınla soyutma,
Harda olsan, Şadimanı unutma.
Kim bilir ki, bəlkə sənsən qismətim?

09.10.1987

GÖZLƏRİN AXTARACAQ

Sevgimi unutsan da,
Könlün məni soracaq.
Sinəmi ovutsan da,
Gözlərin axtaracaq.

Çılğın duyğuya düşüb,
Min bir qayğıya düşüb,
Coşğun uyğuya düşüb,
Gözlərin axtaracaq.

Eşqin yolun düz görsən,
Bir pərişan üz görsən,
Harda qara göz görsən,
Gözlərin axtaracaq.

Yar yarısından qaçmaz,
Arı balsız yurd açmaz,
Quş yuvasından uçmaz,
Gözlərin axtaracaq.

Yaxşı-yaman dəmimçin,
Sevincimçin, qəmimçin,
Ömrü boyu mənimçin,
Gözlərin axtaracaq.

09.10.1987

ƏRİDİ SİNƏMİZDƏ

Əhdi dönüklərə

Əridi sinəmizdə o atəşlər, o közlər,
Necə də bir-birinə dönük çıxarmış üzlər?
Necə də quruyarmış o eşq adlı dənizlər?
Dilin dediyi ilə oturarmış ürəklər,
Necə ayrı düşərmiş bu duyğular, diləklər?

Söylə, bir başqasına necə sevirəm dedin?
Mən sadəlövh, sən isə hiylə meyilli idin,
Axı, lap bir il əvvəl sən ki, belə deyildin!
Necə dəyişdi sənin, söylə, o rüzgar atın?
Mənsiz bir başqasıyla necə keçir həyatın?

Əlbət, yaxşı düşünsən, bəs vicdan, bəs o ürək?
Ayrılığın atdığı bəs sevgi adlı mələk,
Bizi tufanlar ilə hədələyən o külək,
Bunlara nə deyirsən, bunlardamı boşmudur?
O köksünüdə çırpınan ürək, yoxsa daşmıdır?

Söylə, zəif vücudu necə aldadıb atdın?
Köksündə mürgüləyən sevgiləri oyatdın,
O kişi cüssən ilə zəpif qızı aldatdın,
Min hiyləylə sığınıb sevgimizin köksünə,
Çıxdın sən insanlığın, eşqimizin əksinə.

Anlamlı ol, qınama bu ağır sözlər üçün,
Məşuq çaylar çağlayar, aşiq dənizlər üçün,
İdrak, ağıl var ikən niyə aldanaq, neçün?
Bu məsumca gözlərim baxmasın heç gözünə,
Sənə aid sözləri göndərirəm özünə!
(O vaxt gizlətdiyimi, bax deyirəm üzünə.)

09.10.1987

ÇƏKMİŞƏM MƏN

Yolunda çox cəfalar, çox bəlalar çəkmişəm mən,
Gecələr göz yaşımı pünhan-pünhan tökmüşəm mən.
Sinəmin şadlığını, viran edib, sökmüşəm mən,
Hicrində yandı könül bağrım oldu şanə neylim?
Düşübdü aləm içrə təkcə sənə dəli meylim.

Başımın çox zülümü, çox sitəmi olub daha,
Ayrılıq anlarında ürək batıb qəmə, aha,
Cəhd etmə ruhum mənim səbəb olsun bu günaha,
Üzülüb lap taqətim, əlimdə heç qərarım yox,
Agah ol, bu dünyada bir sevgili yarım da yox.

Üzünü yadlar görür, qəm əlində mən qalmışam,
Gecələr xəyalınla, min sevinc, min qəm almışam,
Hicranın mən boynuna öz əlimlə qol salmışam,
Solmuşam dərd əlində bir tapılmaz çarə niyə?
Arada həsrət yağışı, heç yolundan sapmaz niyə?

18.10.1987

AĞLAMA

Səni ucuz tutanlarda iman yox,
Hər nakəsə kor bəxtini bağlama,
Usanmısan ayrılıqdan aman yox,
Gəl ağlama, dəli sevgim, ağlama.

İçindəki ağrıları bilərlər,
Pak adını könüllərdən silərlər,
Məcnunluğa yerbəyerdən gülərlər,
Gəl ağlama, dəli sevgim, ağlama.

Bu dünyanın min bir cürə üzü var,
Taleyimin yollarında gözü var,
Ocağının kül altında közü var,
Gəl ağlama, dəli sevgim, ağlama.

Yanan qəlbi əzabınla alışdır,
Gecə-gündüz atəşinə qarışdır,
Duyğuları yarı ilə barışdır,
Gəl ağlama, dəli sevgim, ağlama.

09.03.1995

İNCİMƏ MƏNDƏN

Bilirəm, qəlbinə bu gün dəymişəm,
Zirvələrin başı, incimə məndən.
O könül sazının telin əymişəm,
Köksümün sirdaşı, incimə məndən.

Yad baxış, yad duruş ümid əridir,
Yolunda sel olan alın təridir,
İnsafsız, küsməyin, söylə, yeridir?
Vallah, ürək naşı, incimə məndən.

Heç vaxt istəmərəm, gözlərim dola.
Eşqin həyatımı dərd, qəmə sala,
Başımın üstünü duman, çən ala,
Sənsiz töksəm yaşı, incimə məndən.

Yamandır tutulmaq dil tə'nəsinə,
Dastan olub düşmək el sinəsinə,
Qulaq ver, ruhumun titrək səsinə,
Tök ətəkdən daşı, incimə məndən.

Ürəyim ağrının süslər içində,
Arama könlümü pislər içində,
Mən səni seçmişəm, kəslər içində,
Ömrün məsləkdaşı, incimə məndən.

18.10.1987

NƏ MÜDDƏTDİ DÖZMÜRƏM

Səndən ayrı günümə,
Hicran düşüb, çözmürəm.
Qəm çevrilib günümə,
Nə müddətdi dözmürəm.

Dağılan diləklərə,
Ayrılan ürəklərə,
Arada küləklərə,
Nə müddətdi dözmürəm.

Hər dərdə əlac oldu,
Eşqə ehtiyac oldu,
Qəlb qəlbə möhtac oldu,
Nə müddətdi dözmürəm.

Sənsiz can niskilim bol,
Dumanım, çiskinim bol,
Dərdli, qəmli günüm bol,
Nə müddətdi dözmürəm.

Ağlamağım elə dərd,
Kim görübdü belə dərd,
Döndü qəlbdə selə dərd,
Nə müddətdi dözmürəm.

Ürəyim sənsiz ağlar,
Yolunu həsrət bağlar,
Qəlb beləmi əhd bağlar,
Nə müddətdi dözmürəm.

16.10.1987

YENƏ NƏ OLDU KÜSDÜN

Məndən sevgi umanım,
Küləklər təki əsdin.
Həyatda tək gümanım,
Yenə nə oldu küsdün?

Qaşqabağ bulud tökər,
Duman ormana çökər,
Ürəyim orda səkər,
Yenə nə oldu küsdün?

Gözlər qəlbə gur işıq,
Məhəbbətə yaraşıq,
Belə olmaz ki, aşiq,
Yenə nə oldu küsdün?

Pərvanə oda düşər,
Ürəyi ahdan şişər,
Həsrət aramızda şər,
Yenə nə oldu küsdün?

Xəyal atın çap da, gəl,
Eşqə əlac tap da, gəl.
Ayrılıqdan sap da, gəl,
Yenə nə oldu küsdün?

Ürək parakəndədi,
Qəm candan ürkəndədi,
Axı, sevgin məndədi,
Yenə nə oldu küsdün?

17.10.1987

GEN GƏZİRSƏN

Yenə qəlbdə bağa girib,
Gül-çiçəyi hey əzirsən.
Qəlb içindən qönçə dərib,
Niyə məndən gen gəzirsən?

Könlün için üzə-üzə,
Kəklik təki süzə-süzə,
İztiraba dözə-dözə,
Niyə məndən gen gəzirsən?

Həsrətə kül etmə məni,
Soluxan gül etmə məni,
Aləmə dil etmə məni,
Niyə məndən gen gəzirsən?

Hay salmışam dağa, daşa,
Güc vermişəm gözdə yaşa,
Kim qoydu o ağıl başa?
Niyə məndən gen gəzirsən?

Ürəyimi gözdən qoyma,
Onun için dərddən oyma,
Məni yaman günə qoyma,
Niyə məndən gen gəzirsən?

18.11.1987

YADLAR İÇİNDƏ

Ömrümü, günümü aldın əlinə,
Ürəyim qübara düşdü, gəlmədin.
Saldın həyatımı elin dilinə,
Saçımı ağ cığır eşdi, gəlmədin.

Bu hökmün amansız, qərarın çətin,
Aləmə can dedin, məni anmadın.
Atdın ayaqlara saf məhəbbəti,
Könlümə yan dedin, özün yanmadın.

Ələndi başıma hicranın qəmi,
Yandım için-için səndən uzaqda.
Yaş ötdü, çoxaldı gözümün nəmi,
Bilmədən eşqimi gəzdim sazaqda.

İndi pərakəndə ömür yolları,
Salıb cığırlara, izlərə məni.
Eşqimin uzana qalıb qolları,
Axtarır bugündə, sabahda səni.

Gözlərim nigaran, ürəyim dolu,
Adını axtarır adlar içində.
Çox çətin olsa da eşqimin yolu,
Yaxınnan yaxınsan yadlar içində.

26.04.1988

HARA GEDİRSƏN

Bu nə yeriş, bu nə gediş, sevgilim,
Üz çevirib söylə hara gedirsən?
Bu nə qərar, bu necə iş, sevgilim,
Könlün için edib yara, gedirsən.

Əsir yenə aramızda küləklər,
Bəs nə oldu o duyğulu diləklər,
Zaman baxmaz, günümüzü ələklər,
Qəfil salıb könlü tora, gedirsən.

Biz bir olsaq, neylər bizə hicran, qəm?
Ayrı düşsək yuva qurar gözdə nəm,
Pərdə-pərdə qalxır göyə ah-naləm.
Ağ günümü edib qara, gedirsən.

Bu ürəyim için-isin alışar,
Həsrətinlə söylə necə barışar?
Duman gələr, bəxt göylərim qarışar,
Sən də şimşək yara-yara, gedirsən.

26.04.1988

BAŞIMDAN GETMƏYİR

Haçandı mükəddər, qəmliyəm yenə,
Başımdan getməyir eşqin havası.
Köksümün içinə qəm enə-enə,
Dağılır sinəmin şadlıq yuvası.

Bilməm, nə etmişəm mən bu həsrətə?
Düşüb məni haqda çox pis niyyətə,
Salır bu ürəyi min əziyyətə,
Yaman rastda gedir onun duası.

Girib iki qəlbin arasına o,
Hey deyir könlümün qarasına o,
Ox vurur sinəmin yarasına o,
Niyə heç mənimlə bitməz davası?!

18.10.1987

GECİKDİ

Vəfadarım görən harda qalıbdı?
Həm axşama, həm sabaha gecikdi.
Göz üstündə kiprik yaşa batıbdı,
Səbəb olub hər günaha, gecikdi.

Qovğaları candan əskik olmayır,
Necə deyim bəbəklərim dolmayır?
Ürək canla bir odada qalmayır,
Qulaq vermir qopan aha, gecikdi.

Çiçəklərim qopdu könül bağında,
Gəldi xəzan, toz etdi gül bağında,
Can təşnəsi var imiş hər bağın da,
Bu halıma gəlməz daha, gecikdi.

Şadimanın yandı könlü fəraqda,
Duyğularım əhvalına maraqda,
Nəsə yazıb tale ömrə varaqda,
Qiyməti də cana baha, gecikdin.

10.08.1988

MƏHƏBBƏTİN ÇİÇƏK AÇDI

Məhəbbətin çiçək açdı sinəmdə,
Sənsizliklə dözə-dözə əzəldən.
Üz döndərib məndən qəmli sinəm də,
Dolub kədər gözlərimə əzəldən.

Yanır könül asta-asta oduna,
Yetməz oldun niyə onun dadına?
Çılğın ürək yaman getdi badına,
Vəfasızlıq çıxdı üzə əzəldən.

Saç ağardı, bel büküldü əlindən,
Eşq sarayı hey söküldü əlindən,
Bu dönüklük hardan bitdi dilində?
Baxdın yada, baxdın sözə əzəldən.

Ürək ki var, odu sönmüş ocaqdı,
Qapısına bulud enmiş ocaqdı,
Hiyləsində özü yanmış ocaqdı,
Son qoyulub oda, közə əzəldən.

24.08.1988

QAYIDACAQSAN

Ümidlə baxıram gələn sabaha,
Dönük sevdamızı oyadacaqsan.
Nə ola birləşə əllər bir daha,
Bilirəm, yenə də qayıdacaqsan.

İçimdə gəzəcək başsız küləklər,
Mənasız olacaq qəlbdə diləklər,
Mənsiz boş qalacaq yerlər, fələklər,
Bilirəm, yenə də qayıdacaqsan.

Durna qatarıtək uçacaq xəyal,
Ötən günlərimlə edib həbsi-hal,
Coşacaq içimdə bir qərib vüsal,
Bilirəm, yenə də qayıdacaqsan.

Səni ayaqların apardı getdi,
Könlümsə könlünlə xəyala yetdi,
Demə ki, arada uçrum var, bitdi,
Bilirəm, yenə də qayıdacaqsan.

Mənasız olacaq hər gündüz-gecə,
Xəyalın duracaq önündə incə,
Necə dözəcəksən, bu illər necə?
Bilirəm, yenə də qayıdacaqsan.

Ümidin qəlbimdə bir məskən salıb,
Özümdən xəbərsiz könlümü alıb,
Gözlərim yolunda intizar qalıb,
Bilirəm yenə də qayıdacaqsan.

11.11.1989

QOPARMAQ ÇƏTİN

Sevgini qəlbimdən qoparmaq çətin,
Özümlə sabaha aparmaq çətin,
Acılar verməkmiş mənə niyyətin,
Dəydi sevgim, eşqim vüsalım daşa,
Ürək neyləsin ki, unudulmuşa?!

07.08.1988

NECƏ QƏRİB BU GEN KAİNAT

Yoxsan, necə qərib bu gen kainat,
Necə mənasızdır, sənsiz bu həyat,
Ən zərif duyğular solğun, çox boyat,
Anım da, günüm də sinəmə dağdır,
Həyatım budaqdan qopan yarpaqdır.

Yoxsan, taleyimə çökübdü duman,
Ayrılıq sinəmi oxlayıb yaman,
Cırır köynəyini günlərim, aman.
Varlığın bəxtimdə yanan çıraqdır,
Könül kitabında bir ağ varağdır.

Gəl, titrək əllərin uzanıb yola,
Ürək intizarda, göz dola-dola,
İnsafsız, bircə yol gəlsənə yola,
Gəl, əbədi yığış könlümə, barı,
Dağıt aradakı uçulmaz barı.

Şadiman ülkərdir, yatmaz gecələr,
Könlümdə bir dünya həsrət gecələr,
Yoluna boylanır sənsiz küçələr,
Gecəli-gündüzlü səni haraylar,
Ümiddən qurular min-min saraylar.

2.10.1989

ÜŞÜDƏR KÖNLÜMÜ

Ünyetməyən dağlarından qopunca,
Soyuqluğun hey üşüdər könlümü.
Qismətimsə əzəl-axır yarımcan,
O buz qəlbin bir eşidər qəlbimi.

Həsrətinlə qəhər çəkmə yoluma,
Quş oluban, bağçanıza uçaram.
Gərdişinlə qandal vurma qoluma,
Ümidsizlik içindəyəm, naçaram.

Hiyləsinə məni qurban söyləyən,
Kələklərin niyə mənə şirindi?
Ürəyimi düz yolundan eyləyən,
Bir canım var, təkcə sənin dirindi.

12.10.1992

SALDI ƏCƏB DƏRDLƏRƏ

Qəmin məni saldı əcəb dərdlərə,
İki qəlbin körpüsündə daş oldu.
Həsrət ki var, eşqi udan bir dərə,
Eşq gözümdə qara-qanlı yaş oldu.

Sağalmazdır ürəyimin möhnəti,
Kimə deyim ağrı verən zilləti?
Məhəbbətin ayrılığın aləti,
Zindanında döyüldükcə teşt oldu.

Sinə olub para-para ağrıdan,
Dönüklükdü bağrım-başın ağrıdan,
Şüşə könlü çilik-çilik dağıdan,
Ayrılıqdan tüğyan edən qış oldu.

Payız aldı, soldu bağın yarpağı,
Xəzanınla naxışladı torpağı,
Üstbəüstdən köksə dəyən bu dağı
Gəzdirən qəlb, zərbə yeyən baş oldu.

Səadətim köçüb getdi illərlə,
Məhəbbətin dünyaya car dillərlə,
Qəm ağ xalı hördü qara tellərlə,
Həsrət ki var, zirvələrdə qaş oldu.

Dərd içimdə balaladı quzğuntək,
Çaynağında qaldı könlüm təkbətək,
Savaş etdi, parçalandı bu ürək,
Yaraları hər yaradan baş oldu.

Şirin xanım, ömür ki var, nağıldı,
Çəkdiyim qəm vərəqlərə dağıldı,
Yolun üstə qəsir tikən ağıldı,
Ölən sevgim, qocalansa yaş oldu.

07.01.1992

YETİŞMƏZ DADINA

Yoxluğun – ömrümün boran şaxtası,
Ötüşməz soyuğu, sazağı min il.
Keçər boğazına həsrət noxtası,
Yetişməz dadına nə ürək, nə dil.

Dəlicə sevgiylə yanar istəklər,
Vüsalın şəninə uyğular görər.
Varlığın özünü ayrılıq təklər,
Vücudu ah-vaylar hey yuyar, sərər.

Alışan ürəyim səni haraylar,
Yoxluğun eşqinlə üzbəüz durar,
Məcnun sevgisindən tikər saraylar,
Vüsal həsrətiylə toy-büsat qurar.

İçimdə pırtlaşıq ümidlər inlər,
Həsrət ürəyimlə eşqtək qol-boyun.
Aləmlər naləmi ah ilə dinlər,
Tək sənə bu halım məzəli oyun.

12.10.1992

DOLAŞ KÖNLÜM İÇİN

Dolaş könlün için küləklər təki,
Uçurt diləkləri, qov, incimərəm.
Gəz qəlb məkanımda səyyadlar təki,
Eylə ürəyimi ov, incimərəm.

Ağladıb ayımı, günümü yalqız,
De ki, lap divanə olubdu bu qız,
Min yol ürəyimə cızıban yol-iz,
Bağrımı şumlayıb, ov incimərəm.

Şadiman dünyadan uçarı quşdu,
Yalnız xəyallarda haqqa qovuşdu,
Neyləyim, ürəyim sənə yovuşdu,
Ya ucalt, ya süpür-sov, incimərəm.

12.10.1992

QƏLBİMİ AĞLADIR

Gedişin qəlbimi ağladır, ey yar,
Pozuldu əlinlə bu əhdi-ilqar,
Nə vaxt taleyimə gələr yaz-bahar,
Eyləmə qəminlə viranə könlü,
Bir gəlib salaydın səhmanə könlü.

Açılmaz mətləbi sən qandıraydın,
Ümidsiz qəlbimi inandıraydın,
Hicranın diləyin tez yandıraydın,
Salma dağa-daşa divanə könlü.
Bir gəlib salaydın səhmanə könlü.

Şad edəydin qəmə düçar olanı,
Rəftarından tamam naçar olanı,
Dərdin qapısına açar olanı...
Möhtac eləmisən dərmanə könlü,
Bir gəlib salaydın səhmanə könlü.

Ömrümü etmisən aha mübtəla,
Tək mənim başımda çatladı bəla,
Dözümüm qalmayıb daha bu hala,
Gətirdim eşqinə imanə könlü,
Bir gəlib salaydın səhmanə könlü.

02.11.1985

ALDIN ÜRƏYİMİ

Mən ki bir kimsəyə baxan deyildim,
Dəli şimşəklərtək çaxan deyildim.
Daşqın çaylar təki axan deyildim,
Səssizcə könlünü könlümə açan,
Aldın ürəyimi əlinə haçan?

Mən ki, dünənədək səndən çox uzaq,
Arada tufanlar, şaxtalar, sazaq,
Gəl bu günümüzü saf eşqə yazaq,
Nəğməli bülbültək könlümə uçan,
Aldın ürəyimi əlinə haçan?

Deyirdim bu könlüm kimsəni anmaz,
Eşqin alovuna bir daha yanmaz,
Gedəri yolundan heç vaxt dayanmaz,

Bağrımın evində güllərtək açan,
Aldın ürəyimi əlinə haçan?

Deyirdim, sinəmin həsrəti vardır,
Hər şirin duyğunu eşqi qovardı,
Dəli küləklərtək silib-sovardı,
Havalı qəlbimdə günəştək saçan,
Aldın ürəyimi əlinə haçan?

Gəl tutaq əl-ələ, çıxaq çəmənə,
Titrək əllərinlə çiçək dər mənə,
Bütün duyğularım çağlasın yenə,
Sənə olmamışdım heç vaxt əlaçan,
Aldın ürəyimi əlinə haçan?

05.05.1986

XƏYALLA SÖHBƏT

Niyə xəyalımdan getmir surətin?
Dərin kök salıbdı sinəm içində.
Söylə, sevdiciyim, nədir niyyətin?
Qoymusan gözümü yaş-nəm içində.

Bir yolluq ürəyi gəl al əlimdən,
Salma saçlarıma ağ cığır, ağ dən,
Düşmür xatirələr yenə dilimdən,
Qoyma bağrımı sən dərd, qəm içində.

Xəyallar bəbəyə qonan yaşmıdı?
Bu həsrət, bu hicran qarlı qışmıdı?
Söylə sinən altda ürək daşmıdı?
Gah zildə gedirsən, gah bəm içində.

İndi könlüm səndən uzaq qalsa da,
Min yol boşalsa da, min yol dolsa da,
Sənsiz xəyallara möhtac qalsa da,
Gur həyat eşqi var hər dəm içində.

20.12.1986

SALDI NAXIŞLAR

Həsrət taleyimə saldı naxışlar,
Çaldı bu bağrımı kədər, neyləyim?
İndi kimə baxır de o baxışlar?
Keçdi ömür-günüm hədər, neyləyim?

Payıztək saralıb, soluram sənsiz,
Buludtək boşalıb, doluram sənsiz,
Mən necə günlərlə qalıram sənsiz?
Yazdı bəxtimizi qədər, neyləyim?

Göylərdə parlayan tək ulduzam, gəl,
Tənha xəyallarla mən yalqızam, gəl,
Sənsiz bu ürəyi kimə qızam, gəl,
Ötər cavanlığım, gedər, neyləyim?

Necə qışa dönüb qəlbimin yazı,
Ağlayır, sızlayır könlümün sazı,
Əlinlə həsrətə gəl qəbir qazı,
Sevgimi canımdan edər, neyləyim?

Bilmirsən nə qədər sənsiz qəmim var,
Könlümə təsəlli bir qələmim var,
Sənsiz dünya tutmaz bir ələmim var,
Hicranın sinəmi didər, neyləyim?

13.01.1987

MƏHƏBBƏTLƏ SİNƏM DOLU

Məhəbbətlə sinəm dolu,
Nə çətinmiş eşqin yolu,
Qarşıda var çiskin, dolu,
Gəl qorxmayaq biz, sevgilim,
Həsrət çöksün diz, sevgilim.

Ömrümüzün neçə yazı,
Basıb köksə telli sazı,
Çox imiş bu eşqin nazı,
Birgə dözək, ay sevgilim,
Olsun sevgi çay, sevgilim.

Qəlbdə çoxdur sözüm, sovum,
Sənsiz qəmi necə qovum?

Necə dərdin yolun ovum?
Qəm gəlməsin heç sevgilim,
Eşq şərbətin iç, sevgilim.

Birgə gedək gündüzlərə,
Ormanlara, gen düzlərə,
Şehtək qonaq ay üzlərə,
Kəpənəktək uç, sevgilim,
Güldən-gülə qaç, sevgilim.

Biz həsrətin bağrın üzək,
Bu yollarda birgə gəzək,
Nə inciyək, nə də bezək,
Boynuma qol sal, sevgilim,
Gəl bağrımda qal, sevgilim.

Bu ürəyim sənə möhtac,
Qoy başıma bəzəkli tac,
Ey günəşim, daim nur saç,
Qəlbim kaman, çal sevgilim,
Bu könlümü al, sevgilim.

22.01.1987

ODA SALMISAN

Həsrətinə tuş olmuşam haçannan?
Məhəbbətin sinəmdə gül açannan,
Sevgimizin zirvəsində uçannan,
Gecə-gündüz qərarımı almısan,
Məni əcəb yaman oda salmısan.

Sinəm sənsiz yanar oda gecələr,
Sənsizlikdə ürək necə dincələr?
Qəm əlində məhəbbətim incələr,
Gəl çalışaq təmiz adla ucalaq,
Ömür sürüb səadətlə qocalaq.

Qoşa şamtək bir alışıb yanaq biz,
Keçən günü düz ilqarla anaq biz,
Dönük çıxsaq, soyuqluqda donaq biz,
Çinar təki uca eşqə biz çataq,
Məhəbbətə şəkər-şərbət gəl qataq.

22.01.1987

SAF MƏHƏBBƏTİN

Vüsalı borana düşən ürəyim,
Əzabı nə çoxmuş saf məhəbbətin,
Mənim arzum, hissim, eşqim, diləyim,
Vəfası heç yoxmuş saf məhəbbətin.

Çəkir çox sinəyə dağlar, düyünlər,
Əridir dərdiylə min bir beyinlər,
Dumana bürünər üzlər, eyinlər,
Hicranı bir oxmuş saf məhəbbətin.

Karvantək buludlar alar üstünü,
Hicran qəm, kədərdən qurar büstünü,
Heç eşq göylərində pozmaz şəstini,
Bəxt ulduzu axmış saf məhəbbətin.

Kədəri üstünə saldı kölgəsin,
Qaldırdı göylərə hicranın səsin,
Dumana bürüdü eşqin ölkəsin,
Şimşəkləri çaxmış saf məhəbbətin.

23.01.1987

SEVƏN SAVAŞMAZ

Könül eşqimi
Artır sinəndə.
Sevgi məşqimi
Dedin dinəndə.

Hər gün çoxaldı,
Sinə ağrısı.
Göz yolda qaldı,
Sözün doğrusu.

Gözümün nəmi,
Heç sorulmadı.
Dərdin bir gəmi,
Heç yorulmadı.

Sularda gəzdi,
Hey gündüz-gecə.
Canımı üzdü,
Mən dözüm necə?

O Ay sevgimiz,
Gecəyə çıraq.
Qonaq ikimiz,
Qəm bizdən iraq.

Sevən sevənə,
Niyə qovuşmaz?
Sənsiz eşq yenə,
Qəlbə yovuşmaz.

Sevən savaşmaz,
Ürəklər deyir.
Qəlbin ulaşmaz,
Eşq deyil seyir.

07.02.1987

EŞQ QƏHRƏMANI

Söylə, qartaldınmı qalxdın zirvəyə?
Uğursuz sevgini çırpdın daşlara.
Qulaq asmayaraq ürəyə niyə
Sonradan min ağrı verdin başlara?

Yuyundun hiyləylə, çirkabla bir gün,
Qurdun düşünmədən gözəl toy-düyün,
İndi etdiyinlə hələlik öyün.
Vaxt gələr tuş olar gözün yaşlara.

De, neçə ürəyə sən yol salmısan?
Eşqin adıyla çox qəlbi almısan,
Belə etibarla harda qalmısan?
Sən ki, bəla oldun qələm qaşlara.

Gözəllər içində gözəl gəzirsən,
Yalançı baxışla qəlbi üzürsən,
Sonalar gölündə indi üzürsən,
Dilin cavab tapmaz o sirdaşlara.

Axı, yaşlanırıq bu ömür qalmaz,
Gedəri sevgilər yurd-yuva salmaz,
Sən eşqə düşərsən, qəlbin sağalmaz,
Gəl həsrət gətirmə cavan yaşlara.

Kişi ol, qadın ol söz bütöv olsun,
Qoyma həsrətlərdə qalan göz dolsun,
Sevgilərimizlə ayrılıq solsun,
Çevrilək vəfalı can yoldaşlara.

07.02.1987

SİNƏMDƏKİ DUYĞULARIM

Sinəmdəki duyğularım
Sənin oldu niyə, gülüm?
Sənlə bağlı qayğılarım
Bu köksümə doldu, gülüm.

Narahatlıq aldı məni,
İlan təki çaldı məni,
Yoxuşlara saldı məni,
Necə çətin yoldu, gülüm?

Ümidimi üzməmişəm,
Hər gün səni gözləmişəm,
Yollarını izləmişəm,
Qəlbdə sevinc boldu, gülüm.

Gəl könlmün eşq düzünə,
Üzüm həsrət, o üzünə,
Niyə baxdım qəlb sözünə?
Gözüm yaşla doldu, gülüm.

22.02.1987

HƏZİN BİR KƏDƏR

Xəyallar qəlbimi yandırıb yaxır,
Dolaşır sinəmdə həzin bir kədər.
Yenə xatirələr şimşəktək çaxır,
Dolaşır küləktək könlümdə hədər.

Sən ürək yıxmaqda mahir bir ustad,
Mənsə bəxtim ilə beş-daş oynadım.
Eyləyə bilmədin ömrümü abad,
Ötənlər bu günə parlaq aynadı.

22.02.1987

DƏRİN MƏNALAR YATIB

Gözlərində dərin mənalar yatıb,
Nə gözəl xəlq edib səni Yaradan.
Sənsiz sevincimin günəşi batıb,
Götür bu möhnəti, qəmi aradan.

De qəlbin gözəlmi, yoxsa üzünmü?
Əqlimi çaşdıran qara gözünmü?
Sinəmə tökdüyün odun, közünmü?
Gəl qurtar könlümü bir yol qaradan.

Üşüyür həsrətli günlərim yenə,
Sənli taleyimə qoyma çən enə,
Vüsalla çırpınır bu qəlb, bu sinə,
Qurtarmır ürəkdən niyə dərd, qadan?

Hicranda üşütmə sən əllərini,
Darasın səadət bəxt tellərini,
Qoru eşqimizin sahillərini,
Tufanlar içində batmasın adan.

02.04.1987

BAŞINA DÖNDÜYÜM

Yenə pozulubdu o əhd, o ilqar,
Başına döndüyüm ala gözlü yar.
Söylə, tutuldumu könül göyləri?
Verdiyin əhd hanı, illərdən bəri?
Başına döndüyüm ala gözlü yar.

Mən ki, səndən ayrı gəzə bilmirəm,
Dəli hicranlara dözə bilmirəm,
Baxışın səyyadtək könlümü ovar,
Didib parçaladı qəlbi söz-sovlar,
Dəli hicranlara dözə bilmirəm.

Gəl gedək dolaşaq bütün cahanı,
Mənimtək sevəcək səni de, hanı?
Sənsiz solar eşqin çiçəkli yazı,
Bağrımda lal olar eşqimin sazı,
Mənimtək sevəcək səni de hanı?

Yaralı şahinəm, dağlar hardadı?
Çöldə azmış güləm, bağlar hardadı?
Qanadları sınmış qərib bir quşam,
Sənsiz cani-dildən, qəlbdən naxoşam,
Çöldə azmış güləm, bağlar hardadı?

Sənsiz başım üstün aldı qayğılar,
Sinəmdə alışdı, yandı duyğular,
Sənsiz yuxularım qaçdı gecədən,
Gözüm yığılmayır yenə küçədən,
Sinəmdə alışdı, yandı duyğular.

21.04.1987

SƏNİNLƏ GÖZƏLDİR

Gözlərim yenə də tökdü qanlı yaş,
Yenə həsrətindən ağırlaşdı baş,
Sinəndə ürəkmi, yoxsa qara daş?!
Ovlayıb könlümü hara apardın?
İçimdə fırtına, tufan qopartdın.

İndi özüm sənə görürsən diləm,
İnsafsız, ömründə çiçəyəm, güləm,
Vaxtsız yellərinlə qoyma tköküləm,
Çiçəksiz baharın ətri olarmı?
Bağları, dağları güllə dolarmı?

Mən könül bağçanda bitən fidanam,
Dalğalı dənizsən, mənsə adanam,
Gəl isit qəlbini, yanar odanam,
Odumla isinir bütün kainat,
Bax necə gözəldir, gözəldir həyat.

21.04.1987

TAPMAQ İSTƏRƏM

Ala gözlərinin dərinliyində,
Mən vüsal atını çapmaq istərəm.
Qəlbinin ünyetməz zirvələrində,
Bəxtimin günü tapmaq istərəm.

Tələsən illərim tutub əlindən,
İmdad istəyərəm şirin dilindən,
Arayıb, axtarıb eşqin elindən,
Könlünün evində çapmaq istərəm.

O ulu sevgini, pak məhəbbəti,
Sənlə zirvə tapan əbədiyyəti,
Sinəndə döyünən odlu niyyəti,
Ömrün qalasına yapmaq istərəm.

Məndən uzaq olan sənli ay-ili,
Nəğməkar bülbülün çağlasın dili,
Kol üstə köməksiz qalan tək gülü,
Tikanın əlindən qapmaq istərəm.

22.04.1987

ÇATAN OLMUŞAM

Sənin saf eşqinin məmləkətində,
Arzuya, amala çatan olmuşam.
Gündüzü günəşlə birgə çalışıb,
Ayın, ulduzunla batan olmuşam.

Şirin xəyallarla qol-boyun olub
Sənli röyalarla boşalıb dolub,
Hərdən sənsizlikdə saralıb solub,
Hicranın köksündə yatan olmuşam.

Körpə quşcağaztək çox qanad çalıb,
Yerlərə, göylərə hay-haray salıb,
O ürkək sevginin qadasın alıb,
Çılğın sellərində batan olmuşam.

03.05.1987 Nasosnu

HİCRANINDAYAM

Sənin gözlərinin hicranındayam,
Bu hicran sitəmə salıbdı məni.
Sənsiz, ay sevgilim, buludlu göyəm,
Çəkilməz başımın dumanı, çəni.

Həsrət küləkləri əsib keçsə də,
Ürək fəraqınla kədər içsə də,
Bu əzablı yolu könlüm seçsə də,
Unuda bilmərəm dünyada səni.

Dəryalar içində qalmışam tənha,
Ümidim qalmayıb gələn sabaha,
Batırıb könlümü naləyə, aha,
Üzür həyatımın xəyal yelkəni.

Mən də cəfalarda üzülüb qaldım,
Qolumu həsrətin boynuna saldım,
Könül tellərində ağrımı çaldım,
Gəzirəm acımla eli, ölkəni.

03.05.1987 Nasosnu

YAR EYLƏYƏN GÖZLƏRİM

Səni mənə yar eyləyən gözlərim,
Kor olaydı görməyəydi bu günü.
Gen dünyamı dar eyləyən gözlərim,
Salmayaydı sinəmdəki düyünü.

Çatdı ahım, çatdı naləm aləmə,
Bircə sənə yetməz oldu fəğanım.
Mən nə qədər dözüm söylə bu qəmə,
Nə vaxtacan qəmlə keçər bəs anım?

Sevənlərin üzü gülməz dünyada,
Çatmaz əllər, niyə bilməm, əllərə.
Ömür çökər ürək üzən fəryada,
Bir damla eşq yetməz heç könüllərə.

06.09.1989

BU SEVGİ HARDAN GƏLDİ?

Aləmdə sevinc gəzir,
Nazı bahardan gəldi.
Fərəh kədəri üzür
Bu sevgi hardan gəldi?

Ay göylər, ay fələklər.
Qanadlanan diləklər,
Eşqə düşüb ürəklər,
Bu sevgi hardan gəldi?

Salıb sinəni oda,
Baxmır aha, fəryada,
Şaha dönüb dünyada,
Bu sevgi hardan gəldi?

Bağrın için yandırır,
Duyğunu oyandırır,
Zamanı dayandırır,
Bu sevgi hardan gəldi?

Qurub yolumda tələ,
Qaçır belədən-belə,
Dönüb açmış tər gülə,
Bu sevgi hardan gəldi?

27.07.1988

AY OĞLAN

Pünhan-pünhan gəzmə könül bağında,
Qoyma ürək getsin tova, ay oğlan.
Ömür günün bu yetkinlik çağında,
Qəlb axtarır isti yuva, ay oğlan.

Ovçusanmı tələ qurdun yolumda?
Əllərinlə bağlandımı yolum da?
Bir gücsüzlük hiss edirəm qolumda,
Haçan çıxdın qəfil ova, ay oğlan?

Heç bilmirəm hardan çıxdın qarşıma?
Buludsanmı tökdün leysan başıma?
Sadəlövhlük yaraşmayır yaşıma,
Sehirbazsan, etdin dua, ay oğlan.

Qəmim çoxdur dərya tutmur çəkimi,
Oxu atdın, alıb nişan bəs kimi?
Taleyimin, ey sehirbaz həkimi,
Dərdlərimi eşqin qova, ay oğlan.

Gözlərimin yuxusunu almısan,
Ürəyimə lap qələbə çalmısan,
Alıb onu əcəb günə salmısan,
Gələr başa eşqdən hava, ay oğlan.

10.08.1988

GETMƏK İSTƏYİRSƏN

Getmək istəyirsən, daha qayıtma,
Ömürlük qəlbimdən çıxardım səni.
Yanan ürəyimin odun soyutma,
Tufana düşməsin ömür yelkəni.

Qəlbimdə hicranın niskili çapar,
Yar etmə ağrılı könlümü mənə,
Yar etsən içimdə bir tufan qopar,
Böylə əzab vermə kədər çəkənə.

Ürəklə oynamaq sənə asanmış,
Divanə eşqimi ucuz tutma gəl.
Zülmündən vücudum daha usanmış,
Ölmüş sevdamızın hüzuruna gəl.

Getmək istəyirsən qəlblə oynama,
Ürəyim kimsədən imdad diləməz.
Hər kiçik eyhamdan coşma, qaynama,
Şimşək leysan tökər, çiskin ələməz.

10.08.1988

SƏN ALIB ƏLƏ

Ömrümü, günümü sən alıb ələ,
Salmısan bəxtimi çox dildən-dilə,
Yandırıb sinəmi döndərdin külə,
Sönən ocağıma kim həyan olar?
Gözlərim nə qədər yollarda qalar?

Elə razısan ki, özü-özündən,
Gözüm su içməyir daha gözündən,
Əbədi dincliyim getdi üzündən,
Ürək qapı açdı həsrətdən aha,
Ümidim bağlandı açan sabaha.

Dərdindən könül də zinhara gəldi,
Ruhum qanadlanıb göydə yüksəldi,
Kədərin, ələmin köksümü dəldi,
O dəli hicranla nəfəs-nəfəsə,
Ömürlük könlümü saldın qəfəsə.

Ürəyim alışan gur ocaq oldu,
Həyatım əlində oyuncaq oldu,
Ayrılıq ömrümə boş qucaq oldu,
Ötən günlərimlə qayıtmaz eşqim,
Həsrətlə bitmədi heç ömür məşqim.

09.10.1989

KÖNLÜMÜ OVLAR

Şirin xəyalların könlümü ovlar,
Qəlbimdən çiskini, dumanı qovlar,
Gəl yetiş aradan itsin söz-sovlar,
Ol soyuq ürəyə bir ovuc atəş,
Sənsən taleyimdə ən parlaq günəş.

Fəqət, uyğularım könlünü arar,
Hər gecə bağrımın evinə varar,
Yaxından, uzaqdan halını sorar,
Sarılar köksünə bir sevgilitək,
Tökər şadlıq başa can ətək-ətək.

Özün də bilirsən, vallah, gün gödək,
Ömrümüz zamanın əlində yedək,
Hicranın evini dərbədər edək,
Eşqimiz, sevgimiz qoy elan olsun,
Həsrət aralıqda lap nalan olsun.

09.10.1989

QINAMA MƏHƏBBƏTİ

Əgər o sinəndəki yanan oldlu ürəksə,
İçindən bulaq təki qaynayan pak diləksə,
Sevgi dilsiz, ağızsız ilahi bir mələksə,
Nə bu mətin sınaqdı, sınama məhəbbəti,
Sərhədsiz sellər təki qınama məhəbbəti.

Fəqət, saf mirvaritək dolananda boynuna,
Yatarkən pak vüsalın əsrarəngiz qoynuna,
Dilbilməyən çocuqtək tuş gəldinsə oynuna,
Nə bu mətin sınaqdı, sınama məhəbbəti,
Sərhədsiz sellər təki qınama məhəbbəti.

Qəfil gələr, qapını döyəcləyər bir zaman,
Çəkilməzdir başından nə çiskin, nə çən, duman,
Bəlalı yazısından kimlər dadmıb ah-aman,
Nə bu mətin sınaqdı, sınama məhəbbəti,
Sərhədsiz sellər təki qınama məhəbbəti.

10.10.1989

GÖZLƏDİM YOLLARINI

Gözlədim yollarını həsrətinlə, gəlmədin,
Sənə aşiq könlümün heç qədrini bilmədin.
Gözümdən keçdi getdi, xəyal təki surətin,
Bəlkə xəyallar olub sənin saf həqiqətin.
İntizarın içində möhnət bağı əkmişəm,
Güllərinin dibinə hicran yaşı tökmüşəm.
Sən bilmədin nə etdin köksümü dağlamaqla,
Ümid cığırlarını tikanla bağlamaqla.
Bəlkə səhv imiş mənə möhnət əzabı çəkmək,
Ürəyimdə məhəbbət fidanlarını əkmək.
Ver acı küləklərə, o lal yalvarışları,
Gətir ömrün içinə boranları, qışları.
Vədinə xilaf çıxan dil dustağı olum mən,
Ömürlük kədərinlə dilbir olum qalım mən.

11.10.1989

GET DAHA

Gülüb baxışlarla yalandan üzə,
Oyatma içimdə yatan kədəri.
Bax indi könlüm də baxmayır sözə,
Eşitmək istəmir haqqı, qədəri.

Sən yüngül hisslərlə qol-boyun oldun,
Girib ürəklərə yıxıb taladın.
Əziz duyğularla sinəyə doldun,
Üstbəüst qəlblərdə tonqal qaladın.

Fəqət, yanılmadı ağlım heç mənim,
Uçruma atmadı ləyaqətimi.
Sevda dəryasında sevgi yelkəni,
Tilsimə salmadı həqiqətimi.

Get daha könlümdən uzaq ol, uzaq,
Ayıltma yuxuya getmiş hissimi.
Üşüdür sinəmi bu boran, sazaq,
Qırılıb nə vaxtdı ruhumun simi.

İndi yazıq ürək döyüş meydanı,
Gəzir xəyallarda bəlalı sevgin.
Hanı anlatdığın vədələr, hanı?
Kəsilir çarpışan nöqtələr gərgin.

Həyatım gözündən leysanlar tökər,
Unutmaz qərarsız keçən günləri.
Üstümə gündüz də qaranlıq çökər,
Açılmaz bəxtimin heç düyünləri.

26.10.1989

İNANDIM NİYƏ?

Ürək vuruldu sənə,
Mənə yox deyə-deyə.
Saldı ömürü çənə.
Niyə inandım, niyə?

Aldadan baxışına,
Yalançı gülüşünə,
İşvəkar yerişinə,
Niyə inandım, niyə?

Sinəmdən kədər qopar,
Könlümə hicran yapar,
Ürəkdən fəryad qopar,
Niyə inandım, niyə?

04.11.1989

SƏNİ GÖRÜRƏM

Bəxtimin aynasında yalnız səni görürəm,
Alışar sinəm içi gizli keşməkeşlərdə.
O sevda güllərindən eşqə çələng hörürəm,
Gəzirəm həsrətinin verdiyi gedişlərdə.

Amansız oldunsa da səmimi eşq önündə,
Mən onu yad baxışdan saldım hər gün qəfəsə.
Axdı illər su təki, zaman iti yönündə,
Ömür-gün keçdi, fəqət qəmlə nəfəs-nəfəsə.

Qolu bağlı əsirtək sevgi qarşımda naçar,
Qəlb ağlar gecə-gündüz, səndəsə iltifat yox.
Bəxtimin qollarını yenə ayrılıq açar,
Sənsizlik sinəm için yaralayan qəfil ox!

Bəbəklərin göz yaşın neçə dərya tutmayır,
Batmışam sularında döyür dalğalar məni.
Ürək yol alıb gedir, gecə gözüm yatmayır,
Ağıl qavramayır heç, daha könül biləni.

06.11.1989

CIRIR YAXASINI

Cırır yaxasını yenə də həsrət,
Oynadır hissimi vüsalım kimi.
Vuracaq könlümə yeni xəsarət,
Görən bir hal varmı bu halım kimi?

Yolur saçlarımı tale küləyi,
Üşüdür qəlbimi xəzanlar təki.
Odur yerin, göyün sevda mələyi,
Gəzişir yolunu azanlar təki.

Mən hicran yolçusu, o küskün dildar,
Görünür gözümə suallar sayaq.
Gələn cığırına düşüb çovğun, qar,
Yəqin ki, yollarda donub əl-ayaq.

Bir vəfa heykəli yona biləydim,
Onu həsr edəydim vəfasızlara.
O gələn yollarda dona biləydim,
Bu da son olaydı könül sızlara.

06.11.1989

NƏ DEYİM SƏNƏ

Yollarında düşüb qaldım,
Həyan yox mənə.
Ümidlərə mehr saldım,
Nə deyim sənə?

Bu dağlardan keçməz oldun,
Sularından içməz oldun,
Məni gəlib seçməz oldun,
Düz deyim sənə.

Bu qəm yükü çox ağırdı,
Düşdü könlə, can ağrıdı,
Xəyalın məni çağırdı,
Buz deyim sənə?

Göz yaşımdan çeşmə oldu,
Çeşmə üstən düşən yoldu,
Qəm ortada saçın yoldu,
Döz deyim sənə?

Bir gəlmisən, bir də dön gəl,
Enişlərdən düzə en gəl,
Heç yerə yox, bizə en gəl,
Söz deyim sənə...

07.11.1989

OLAN İSTƏYİ

Həsrət aramızda olan istəyi,
Aldı əlimizdən, qaçdı, neyləyim?
O vusal pərisi, sevgili günlər,
Uçdu bülbül təki, uçdu, neyləyim?

Xəyallar oynaşdı ilğımlar təki,
Eylədi könlümə hər zaman ərki,
Etdi ağrılarla ahıma sərki,
Günəştək havada saçdı, neyləyim?

Mən də qanadları sınmış tərlanam,
Vaxtın caynağından asılmış anam,
Künclərə, bucağa qısılmış canam,
Qapımı hicranlar açdı, neyləyim?

07.11.1989

BULUDTƏK QƏZƏB ETMƏ

Buludtək qəzəb etmə,
Verdiyin həsrətindən.
Ömrümü əzab etmə,
Halıyam niyyətindən.

İkimiz də üzgünük,
Qəmin təntənəsindən.
Bir dərddən çıxan ünük,
Eşq gəlir nəfəsindən.

Ümid yolu haçalı,
Qar düşüb, sazaq düşüb.
İtirmişəm açarı,
Can-candan uzaq düşüb.

07.11.1989

GETMƏYİNƏ NƏ VAR Kİ

İntizarına dözüb, qala bilsəydim əgər,
Ayrılıq dünyasına yetməyinə nə var ki.
Bu narahat ürəyim bir oyuncaqmı məgər?
Uşaq kimi sındırıb, getməyinə nə var ki?

Mən günəş, sən al səma, qara bulud arada,
Bu narahat həyatım qərar tutar harada?
Sağalarmı bağırım sən vurduğun yaradan?
Ruhumu usandırım, getməyinə nə var ki?

Çılğın xəyallarımla qalmışam mən qol-boyun,
Kəşf olunmaz ürəklə olmaz bu qədər oyun,
Müddətdir ki, yolunda qalıb bükülü boyun,
Ayrılığı qandırıb, getməyinə nə var ki?

Şadiman bu həyatla əbədi çarpışmada,
Mənalı günlərimi sovurma, vermə bada,
Onsuz da həmdəmimdir gecə-gündüz dərd-qada,
Dübarə qəlb yandırıb, getməyinə nə var ki?

15.11.1989 Nasosnu

İNCİMƏRƏM

Möhnətin qəmindən qalmayıb halım,
Gəl incik könlümü al, incimərəm.
Qapımdan girməyir niyə vüsalım?
Qolunu boynuma sal, incimərəm.

Dərdindən gözlərim doldu, boşaldı,
Amansız ayrılıq yenə baş aldı,
Aləmə şadlıq yar, mənə qəm qaldı,
Gəl könlü kamantək çal, incimərəm.

Allah, daha məndə dözüm qalmayıb,
Bir günüm xəyalən sənsiz olmayıb,
Hələ ki, taleyim saçın yolmayıb,
Bu xəstə canımı al, incimərəm.

Ürəyim yolunda saralan güldü,
Yarı-vəfadardan əlim üzüldü,
Hardasan, üstümə ayrılıq güldü,
Ömürlük mənimlə qal, incimərəm.

17.11.1989

QURBANAM

Səni mənə bağlayan,
Fələyinə qurbanam.
Eşqinlə şux çağlayan,
Diləyinə qurbanam.

Sənsiz mənasız həyat,
Bu dövran, bu zaman yad,
Qəlbdə qoparan fəryad,
Küləyinə qurbanam.

Bağrın içi od-ocaq,
Səadət qucaq-qucaq,
Qəlbdə yandıran ocaq,
Fələyinə qurbanam.

Şadimana can olan,
Sınıq könlünü alan,
Ürəyimə yol salan,
Ürəyinə qurbanam.

17.11.1989

DƏRDLİYƏM

Sənsiz yenə havalıyam, havalı,
Bilməm nədən könlüm dərdə dəvalı?
Daha yoxdur sağalmağa zavalı,
Aləm bilir, sinə ağlar dərdliyəm,
Həsrət-hicran qapım bağlar, dərdliyəm.

Saralıbdı qəlb bağımda güllərim,
Miskin-miskin nalə çəkir illərim,
Sızıldayır qəmdən könül tellərim,
Açılmayır al sabahım, dərdliyəm,
Xəyallardır tək pənahım, dərdliyəm.

Təkcə mənim əhvalıma dəva yox,
Sığınmağa diləyimə yuva yox,
Gen dünyada sənsiz mənə hava yox,
Sovuşmayır ağrı-acım, dərdliyəm,
Uçulubdu taxtı-tacım, dərdliyəm.

18.11.1989

AĞLADIB GÜLDÜRMƏ YAR

Bu günahsız mələyi
Qəminlə öldürmə yar.
Eşqə sadiq ürəyi
Ağladıb güldürmə yar.

Taleyim sənə bağlı,
Almısan məndən ağlı,
Qoyma qapımı bağlı.
Ağladıb güldürmə yar.

Bir sevdam var, heç bitməz.
Bir sənə dadım yetməz,
Tanrıya da xoş getməz,
Ağladıb güldürmə yar.

Uzaqda belə durma,
Qəmlə boynunu burma,
Bəxtimə kilid vurma,
Ağladıb güldürmə yar.

O sevgili baxışla,
Ayrılığı qarqışla,
Günahım var baxışla,
Ağladıb güldürmə yar.

19.11.1989

QURBAN OLUM

Nədir aradakı şaxta, boran, qar,
Gəl bu soyuqluğu öt, qurban olum.
Kimdir bu sevdaya söylə tor quran?
Bu fikri başından at, qurban olum.

Kəsildi könüldə taqətim, heyim,
Sənsiz qəmli keçən ömrə nə deyim?
Sinəm haray çəkən, kamanım, neyim,
Onun fəryadına çat, qurban olum.

Ummaz bir kimsədən könlüm sevgini,
Sənsən taleyimin xoş doğan günü,
Aç bu bəxtimizə düşən düyünü,
Eşqimin köksündə yat, qurban olum.
Sənsən, ey loğmanım, dərdimə əlac,
Bu çılğın ürəyim tək sənə möhtac,
Sevgimin başına qoy şərəfli tac,
Dərdimi dərdinə çat, qurban olum.

Sən mahir ovçusan, ürəyim kəklik,
Sıxır məngənədə məni bu təklik,
Gəl ümid sarayın əllərinlə tik,
Hicranı vüsala çat, qurban olum.

20.11.1989

KÖNÜL OYUNCAQMI?

Könül oyuncaqmı istədiyin vaxt
Çocuqtək oynadıb atasan küncə?
Qismətin olubdu bir tufanlı baxt,
Sonsuz duyğuları incədən incə.

Sındırdın arada əhdü-peymanı,
Qəlbimə içirtdin hicran dərmanı,
Sən özün çıxartdın hökmü-fərmanı,
Könlümün sarayın dağıtdın necə?

Enişdə, yoxuşda çatmadın dada,
Bircə yol yetmədin niyə imdada?
Ürək qəm içində çırpınan ada,
Hicranın gündüzü eylədi gecə.

Bir kimsə yetmədi can harayıma,
Hicranlar yol saldı qəlb sarayıma,
Aləm nalə çəkir könül vayıma,
Yolunda çəkdiyim əzablar becə.

20.11.1989

SEVGİ BAŞA BƏLADI

Baharıma sən niyə qəsd edirsən?
Axı könlüm gül-çiçəkli taladı.
Neçin belə arxayınca gedirsən?
Dönüklüyün ürəyimi taladı.

Hər kimsəyə könül ki var, qovuşmaz,
Dərdli ürək sənsizliyə yovuşmaz,
Bir dağam ki, duman, çiskin sovuşmaz,
Qəlbim ki var, yad görməyən taladı.

Ormanımın buludları çaxnaşdı,
Dağ selitək qəlbimə dərd axnaşdı,
Sinəndəki o ürəkdi, ya daşdı?
Sınmış könlü ümidlərim caladı.

A bəxtəvər, nə gəzirsən havalı,
Dərd götürüb çalır bizə qavalı,
Möhlətinin ömrə dəyir zavalı,
Ocağımı yenə həsrət qaladı.

Dolanıram nə müddətdi gümansız,
Mən biqərar, sən binadan amansız,
Heç bir sevgi keçmir ahsız, amansız,
Əzəl gündən sevgi başa bəladı.

20.11.1989

HƏMİŞƏ BAHARIM

Həmişə baharım, yenə nə doldun,
Niyə payız təki sazaqlaşırsan?
Hamıdan əzizim, nə tez yad oldun?
Ürəklər yaxınkən uzaqlaşırsan.

Bizə bu taleyi qədər yazıbdı,
Tanrının yazdığın niyə pozursan?
Yenə yol-irizdə dillər azıbdı,
Mən bəmə, sən də ki, zilə yozursan.

Sevənə mənəmlik, heç vaxt, yaraşmaz,
Tufan ki, deyilsən könlü talama.
Əgər ürək küssə, daha barışmaz,
Bu vulkan könlümə ocaq qalama.

Sənsiz dünya, aləm mənə qəfəsdi,
Bülbültək çağlayır könül avazı.
Hicrində bu canım quru qəfəsdi,
Ya dirilt, ya da ki qəbrimi qazı.

22.11.1989

GÜNAHKARAM

Dolub sinəm içi dərdinlə yenə,
Narahat ürəyim tapmayır aram.
Niyə incik-iqncik baxırsan mənə?
Özüm bilirəm ki, mən günahkaram.

Bu siri tək sənə açıram, gülüm,
Çox çəksə bu həsrət, qalacaq külüm,
Bağışla, bağımda soldu tər gülüm,
Özüm bilirəm ki, mən günahkaram.

Dinib danışmaqdan susmaq yaxşıdır,
Sükut bir xalıtək eşqin naxşıdır,
Hicranın dünyanın soyuq qışıdır,
Özüm bilirəm ki, mən günahkaram.

Dərdimin üstünə min dərd gətirmə,
Sevginin göyünə şimşək ötürmə,
Unut incikliyi, əhdi itirmə,
Özüm bilirəm ki, mən günahkaram.

Ürəyim göylərdə çaxnaşan bulud,
Qəlbimin harayı batqın səsli ud,
Dağın balı təki incikliyi ud,
Özüm bilirəm ki, mən günahkaram.

23.11.1989

QAYIT GƏL YENƏ

Qayıt, haradasan? Qayıt gəl yenə,
Ayrılıq köç salıb ürəkdə qışlar.
Bu qədər əzabı gəl vermə mənə.
Gözümü həsrətin çiskini yaşlar.

Bilirsən, çox dərdə əlac var, əlac,
Bu dəli ürəyim tək sənə möhtac,
Həsrətə, hicrana gəl verməyək bac,
Tanrı da bu qərib eşqi alqışlar.

Sən orda qubarlı, mən burda dərdli,
Sevdanın yolları keçilməz sədli,
Tikanlı tellərlə olub sərhədli,
Sevgi sarayını elə hey daşlar.

Yenə ayrı düşüb hər istək, məram,
Halal diləkləri eyləmə haram,
Ürəyim heç yerdə tapmayır aram,
Gəlişin könlümə həyat bağışlar.

Qəlbimə heç kimi yaxın qoymaram,
Həsrət də bir yükdü, ona uymaram,
Beşgünlük ömürü ömür saymaram,
Boğdu gözün için hüzünlü yaşlar.

Ürəyim hələ də sənindədi yar,
Oyar bu əzablar, könlümü oyar,
Səni də, məni də möhnətdə qoyar,
Gəl, ömrüm təzədən həyata başlar.

23.11.1989

ƏYLƏN, SƏNƏ SÖZÜM VAR

Ağlatsan da, sızlatsan da sinəmi,
Bilməm hardan məndə belə dözüm var?
Eşqin dəniz, sinəm qərib bir gəmi,
Əylən gedən, əylən, sənə sözüm var.

Nə müddətdi tükənibdi qərarım,
Sənsiz necə səadətə mən varım?
Xəzan ömrə niyə gəlməz baharım?
Əylən gedən, əylən, sənə sözüm var.

Meydan vermə bu qüssəyə, bu qəmə,
Sevgimizi faş eləmə aləmə,
Aç qapını, gəlişimə söz demə,
Əylən gedən, əylən, sənə sözüm var.

Eşq bağında könlə inci arayır,
İztirabın ürək telin darayır,
Göz yaşlarım çəmənlərə yarayır,
Əylən gedən, əylən, sənə sözüm var.

Ürəyimə sən əlçatmaz asiman,
Kim olacaq bəs könlümə pasiban,
Hislərimə eyləyirsən, eylə man,
Əylən gedən, əylən, sənə sözüm var.

23.11.1989

ƏGƏR SEVMƏYİRSƏN

Əgər sevməyirsən, get bircə yolluq,
Etdiyin xətaya öyrəşmə daha.
Vəfasız kəslərdən dünyada bolluq,
Ağlını hissinə dəyişmə daha.

Vəfalı, vəfasız sınanar gedər,
Əhdinə dönüklər qınanar gedər,
Ürəyi hər addım dərbədər edər,
Ağlını hissinə dəyişmə daha.

Bir ömür yaşayıb gedəsiyik biz,
Yarısı gecədir, yarısı gündüz,
Ürəyin salıbsa harasa bir iz,
Ağlını hissinə dəyişmə daha.

Təmiz məhəbbətlə ömür sürənlər,
Hicranın üzünü qara görənlər...
Dönük çıxmayıbdı ərlər, ərənlər,
Ağlını hissinə dəyişmə daha.

Hər bir gördüyünü sınağa çəkmə,
Hər kiçik xətanı qınağa çəkmə,
Ayrılıq bağına sevdalar əkmə,
Ağlını hissinə dəyişmə daha.

Heç vaxt ürəyini ucuz tutma, gəl,
Verdiyin vədləri heç unutma, gəl,
Yaram köz bağlayıb sən qanatma, gəl,
Ağlını hissinə dəyişmə daha.

24.11.1989

GÖZLƏRİN

Nədir belə pünhan-pünhan süzülüb,
Salır məni oda-közə gözlərin.
Yolundaca cavan canım üzülüb,
Alov tökür qəfil gözə, gözlərin.

Səhər-səhər qərib dastan söyləyir,
Ürəyimi candan küsər eyləyir,
Vallah, billah özü bilmir neyləyir,
Məlul-məlul durar üzə gözlərin.

Dilsiz baxıb, dilsiz qəlblə oynadı,
Bulaq təki puçur-puçur qaynadı,
Yenə gülüb, ürəyimlə oynadı,
Baxmır dilə, baxmır sözə gözlərin.

Yaralayır sinəm için qəfildən,
Əl götürməz mən ürəyi səfildən,
Üz çevirə bu binəva tifildən,
Həsrətimə daha dözə gözlərin.

Ürəyimin arxasınca düşübdü,
Alovundan bağrın içi bişibdi,
Möhnətindən qəlbim daha şişibdi,
Bəxt yolunda düşüb izə gözlərin.

24.11.1989

HİCRAN NEYLƏSİN

Ovçu sipər etmiş, könlüm yaralı,
Ürək bu möhnəti kimə söyləsin?
Müddətdi gəzirsən məndən aralı,
De, həsrət neyləsin, hicran neyləsin?

Nə səndə bir insaf, nə məndə dözüm,
Nə vaxtı yollardan yığışmır gözüm,
Ah, bu sənin üzün, bu mənim üzüm,
De, həsrət neyləsin, hicran neyləsin?

Kədərim içimdə tufan qoparır,
Məndən dərya-dərya sevinc qoparır,
Məni qəm qatarın hara aparır?
De, həsrət neyləsin, hicran neyləsin?

Çarpışır, döyüşür kədərlə şadlıq,
De, hardan araya giribdi yadlıq?
Arada səd qurub yenə inadlıq,
De, həsrət neyləsin, hicran neyləsin?

Daha, ey ürəyim, qəmin ötüşməz,
Bivəfa dadına heç vaxt yetişməz,
Xülyasız, xəyalsız günüm ötüşməz,
De, həsrət neyləsin, hicran neyləsin?

26.11.1989

GƏLİŞİNƏ QURBAN OLUM

Gəlişinə qurban olum,
Gəlişin nə uzun çəkdi?
Yollarına baxar yolum,
Könül solğun bir çiçəkdi.

İntizardan qurtar məni,
Ay bəxtimin dan ulduzu.
Qov içindən duman, çəni,
Könlüm, tənha mələr quzu.

Açılmamış soldu gülüm.
Fəna etdi diləkləri.
Bulbul təki çağlar dilim,
Çapar hicran küləkləri.

Ürək dolu gur çeşmələr,
Hey qaynayar gecə-gündüz.
Aya həsrət sərçeşmələr,
Çıxar yoxuş, adlayar düz.

25.11.1989

KÖNLÜMÜN GÖYÜNDƏ

Könlümün göyündə buludlar təki,
Leysana, doluya dönər sənsizlik.
Dibindən vurulan palıdlar təki,
Bağrımın üstünə enər sənsizlik.

Köksümü yandıran od-ocaq olar,
Körpələrə həsrət oyuncaq olar.
Dürlü xəyallarla saçını yolar,
Başına qılınctək enər sənsizlik.

Müddətdi əl-qolu bağlı əsirəm,
Tufana dözməyən şehtək əsirəm,
Tilsimli, qıfıllı, sirli qəsirəm.
Sükutun içində dinər sənsizlik.

Ürək üstəyinə niyə qovuşmaz?
Alqışmı, qarqışmı bilməm sovuşmaz?
Könül otağına heç vaxt yovuşmaz,
Batar al günəştək, sönər sənsizlik.

Dolaşar içimdə soyuq küləklər,
Sınıq ümidimi səssiz ələklər.
Qurar ürəyimə min bir kələklər,
Qapıma Məcnuntək dönər sənsizlik.

25.11.1989

BİLMƏZDİM SƏNİ

Qoymusan həsrətdə neçə müddətdi,
Bahardım, payıztək soldurdun məni.
Deyirlər sevənlər eşqində mərddi,
Mən belə vəfasız bilməzdim səni.

Oxunmaz kitabdır ürək həyatda,
Min-min sirlər yatır ən dərin qatda,
Yaxındın könlümə eldə, elatda,
Mən belə vəfasız bilməzdim səni.

Ömrümün suları bulanıq axır,
Həsrətin şimşəktək başımda çaxır,
Bu da bir məhəbbət oynuna axır,
Mən belə vəfasız bilməzdim səni.

Ürəyim bir şamdır, yandırdın, getdin,
İçimdə palıdtək min illik bitdin,
Qəlbimi yıxmaqla mərama yetdin,
Mən belə vəfasız bilməzdim səni.

08.05.1990

YETMƏDİ SƏSİM

Oduyla yandırdı dünyanı ahım,
Qara çadra geydi gələn sabahım,
Səni sevmək imiş, demə, günahım,
Könlünün göyündə ötmədi səsim,
Tək sənə yetmədi, yetmədi səsim.

Beşgünlük eşqini Məcnunum sandım,
Gecə uyğumda da mən səni andım,
Gecəli-gündüzlü şam təki yandım,
Qırıldı bağrımdan neçə köklü sim,
Tək sənə yetmədi, yetmədi səsim.

Elə oğrun-oğrun boylandım yola,
Özümü danladım göz dola-dola,
Nə könlün, nə könlüm gəlmədi yola,
Yer-göy qulağında itmədi səsim,
Tək sənə yetmədi, yetmədi səsim.

Əridi mum sayaq ömür həsrətdə,
Keçdi nakam sevgim sərhəddə, səddə,
Bir sevən tapılmaz səntək xislətdə,
Əsdi ümidlərim hey əsim-əsim,
Tək sənə yetmədi, yetmədi səsim.

Oldum sən salalı dərdə mübtəla,
Sənin eşqin ki var, əlçatmaz qala,
Kim dözər? Mən dözdüm bu qeylü-qala.
Bəs necə həsrətin yolunu kəsim?
Tək sənə yetmədi, yetmədi səsim.

20.08.1992

İTİRDİM SƏNİ

Dayanıb ömrümün zamanı, anı,
Yağır taleyimə həsrətin çəni.
Doydurdu həyatdan ayrılıq canı,
İtirdim ömürlük, itirdim səni.

Gözümün yaşları qəhərə dönüb,
Ömrün saatları zəhərə dönüb,
Xəyalın ərköyün kəhərə dönüb,
İtirdim ömürlük, itirdim səni.

Ürəyim eşqini unutsun daha,
Gözüm yollarından qayıtsın daha,
Yatmış taleyimi ayıltsın daha,
İtirdim ömürlük, itirdim səni.

Məhəbbət də bitdi, sevgi də bitdi,
O xoş səadətim bir anda itdi,
Əlim əbədilik hicrana yetdi,
İtirdim ömürlük, itirdim səni.

Gözlərim yolunda töksə yaşları,
Gətirsə ömrümə qarlı qışları,
Töküldü üstümə qəm qarqışları,
İtirdim ömürlük, itirdim səni.

20.10.1992

FEİLİNƏ DÜŞMÜŞƏM

Məftun edib baxışların könlümü,
Ürəyimə sığmayır bu əndişəm.
Açıqlayım qəlbdən keçən ünümü,
Gözlərinin feilinə düşmüşəm.

Hər baxışın qapısından keçməz mən,
Hər sevdanın güllərini biçməz mən,
Hər sevginin qədəhindən içməz mən,
Gözlərinin feilinə düşmüşəm.

Yoxluğunda günü gördüm il təki,
Qəlb içinə qan-yaş axır sel təki,
Xəyalların əsib keçir yel təki,
Gözlərinin feilinə düşmüşəm.

Yollarında düşüb qalan qəlb əsir,
Duyğum, eşqim görüşünə tələsir,
Baxışların ürək üzür, can kəsir,
Gözlərinin feilinə düşmüşəm.

Ürəyimi qəm içinə çəkibdi,
Duyğuları öz yanına çəkibdi,
Könlü sənin ünvanına çəkibdi,
Gözlərinin feilinə düşmüşəm.

26.10.1992

ÜRƏYİMİ AĞRIDIR

Dərd könlümü çalıb-çapan oğrudur,
İntizarın ürəyimi ağrıdır,
Əfsuslar ki, bu ayrılıq doğrudur,
Əlim çatmaz, ünüm yetməz, hardasan?
Bu ayrılıq niyə bitməz, hardasan?

Ürək yandı xəyalların odundan,
Yəqin çıxdım birdəfəlik yadından,
Söyləyirəm məhəbbətin adından,
Bir sevda var, qəlbdən itməz, hardasan?
Bu ayrılıq niyə bitməz, hardasan?

Çox çalışdım ayrılığı adlayım,
Birdəfəlik bu əzaba yadlayım,
Amma artdı ürəyimdə ah-vayım,
İstəyimə dəva etməz, hardasan?
Bu ayrılıq niyə bitməz, hardasan?

Şadimanın hər sözünə yox dedim,
Üəryimi eşitmədi, çox dedim,
Dur qəlbimi uçurt tamam, yıx dedim,
Məramları başdan ötməz, hardasan?
Bu ayrılıq niyə bitməz, hardasan?

26.04.1992

QORUYACAĞAM

Səni bu könlümdə pünhan saxlayıb,
Yaxşıdan, yamandan qoruyacağam.
Şirin xəyalınla gecə yuxlayıb,
Hər çətin anından qoruyacağam.

Təsəlli olacaq xatirələrin,
Sığınıb köksünə sənli illərin.
Bizim eşqimizə yağı dillərin,
Gələn tufanından qoruyacağam.

Tirək kipriyimi yaş bürüsə də,
Üstümə qoşunla qəm yerisə də,
Tutub ümidləri dərd sürüsə də,
Düşən sis, dumandan qoruyacağam.

21.05.1990

YANDIRDI MÖHNƏT

Ötən günü acı möhnət yandırdı,
Səndən ayrı intizarda qalmışam.
Baxışların yenə məndən yan durdu,
Xəyalınla lap məzarda qalmışam.

Arar səni yerdə, göydə ürəyim,
Sızıldayır hər telində gileyim,
İstəyirəm ürəyimə bəs deyim,
Onunla mən bir azarda qalmışam.

Fələk niyə apardığın gətirmir?
Ayrı düşmüş əli-ələ yetirmir,
Ayrılığı yaxşılıqla bitirmir,
Səndən ayrı ahu-zarda qalmışam.

Şadimanın qəm qəminə çatarmı?
Qəlbin köçü çəkib gedən qatarmı?
Məcnun könül hər könülə yatarmı?
Boynu büküb, tək gülzarda qalmışam.

26.09.1988

SALIB VƏLVƏLƏ

Baxışın könlümə salıb vəlvələ,
Alıbdı əlimdən ağlı, ay oğlan.
Divanə duyğular tutub əl-ələ,
Başlanıb sevginin nağlı, ay oğlan.

Budur könlümdəkin deyirəm sənə,
Salma taleyimi dumana, çənə,
Çılğın amalları coşdurub yenə,
Qoyma bəxt qapısın bağlı, ay oğlan.

Bağlama ürəyin ucun əzaba,
Birgə yoldaş edək sevdanı taba,
Ləkəni salmayaq bu könül qaba,
Etmə sən sinəmi dağlı, ay oğlan.

Hər kəsin taleyi yanan çıraqdır,
Həyatı dillərdə varaq-varaqdır,
Demə ki, nəzərim səndən uzaqdır,
Ürək ürəyinə bağlı, ay oğlan.

07.09.1988 Nasosnu

SİNƏMİ PARALAYAN

Sinəmi paralayan qüssə, qəmini dağıt,
Köksümü yaralayan həsrətin odun sovut,
İçin-için ağlayan dəli könlümü ovut,
Sənsizlik necə çətin, necə ağırdır, ağır,
Budur sakit ömrümə, taleyimə qəm yağır.

Hicran küləklərini gəl başımdan atginən,
Xəyallarda qurduğum həqiqətə çatginən,
Coşğun duyğularımı öz duyğuna qatginən,
Könül qatarı getdi sənin getdiyin yerə,
Yuxularda bulduğum səadətimi görə.

01.11.1989 Nasosnu

NECƏ ÜRƏK ETDİN

Necə ürək etdin bu ayrılığa?
Sinəmə çəkdiyin sağalmaz dağa,
Başına dərd, ələm leysantək yağa,
Gəl yerinə qaytar yazıq ürəyi,
Uçurma yurdundan dilsiz mələyi.

Yurd salıb könlümdə bir tufan sazaq,
Can necə qalar ki, canından uzaq,
Həsrətə, hicrana gəl qəbir qazaq,
Uzalı əllərim birləşsin sənə,
Salma həyatımı dumana, çənə.

Ürəyim qəfəsdə çırpınan bülbül,
Ömrüm xəzanlarla yetişən bir gül,
Səni haraylayır bu yanıqlı dil,
Ötən xəyallara mən özüm tacam,
Tək sənə, tək sənə, sənə möhtacam.

06.11.1989

İZTİRABLAR İÇİNDƏ

Yoxluğunu hədiyyə eyləyərək sən mənə,
İztirablar sızlatdı necə can tellərimi.
Ömür yolun salaraq qatı dumana, çənə,
Bada verdin gərəkli, ötüşən illərimi.

Bir zaman bəxşiş etdim sənə öz ürəyimi,
Alıb xəzan yelitək ayaqlar altda atdın.
Yandırdı neçə kərə qəfil köz ürəyimi,
Göynədən qəlb yaramın qaysaqını qopartdın.

Mən sənə qurban verdim bolluca diləyimi,
Diləklərin fövqündə zamanım dövran etdi.
Saldın qəfəs içinə mənim can mələyimi,
Guya ki, bu məhəbbət könlü firavan etdi.

Əlinlə dağıtdığın sonsuz duyğularımı,
Mən qaytara bilmirəm indi ruhun evinə.
Gecələr mürgülərkən rəngli uyğularımı,
Qəlbimə buraxmıram, qəlbim bir an sevinə.

İndi min bir gümanlar sinədə baş-başadır,
Öz imkanım önündə sızlayır gecə-gündüz.
Bu divanə ağlımı yalnız ümid yaşadır,
Hiylə əyri əlində, başıqapazlıdır düz!

Çoxları bu bəladan nə qədər çəkdi cəfa,
Yazılmamış qalıbdı hələ tale varağı.
Haralardadır görən saf sevgi, əhdə vəfa?
Girsə qapımdan əgər, yandırar eşq çırağı.

09.11.1989

ÜRƏK FƏĞAN EYLƏDİ

Gecə-gündüz ürək fəğan eylədi,
Yollarında cəfa çəkdi, bilmədin.
Pünhan dərdin daş-divara söylədi,
Gözlərindən qan-yaş tökdü, bilmədin.

Qərarsızam, ömür-günüm qaradır,
Qəlb göynəyir, düyüm-düyüm yaradır,
Vəfasızlıq inamsızlıq yaradır,
Bəxt göyünə duman çökdü, bilmədin.

Bu bəladan qurtarmadı taleyim,
Taqət yoxdu, kəsilibdi can heyim,
Buludlartək üz-üzədir gileyim,
Ürəyimə hicran çökdü, bilmədin.

Ürək yenə didərgindi əlindən,
Nə nalədi qalxır qəlbin telindən,
Dönüklüyü eşidəydim dilindən,
Həyat gülüm xəzan tökdü, bilmədin.

10.11.1989

GETMƏ AMANDI

Açılmaz düyünə düşüb taleyim,
Bəxtimin göyləri çiskin, dumandı.
Kəsilib taqətim, qalmayıb heyim,
Qəmlər qoşun çəkib gəlir, ümmandı.

Nə məndə can qaldı, nə səndə insaf,
Ürəyi də gərək öyrədəsən saf,
Zülmü bu qədər də etmə nainsaf,
İnsana ayrılıq dərdi yamandı.

Ömrüm ağrılara bulmaz əlacı,
Ömrümün, günümün, ey taxtı-tacı,
Sənsiz lap binadan həyatım acı,
Bu da bəxtimizə düşən zamandı.

Kəsildi iqtidar, tükəndi səbir,
Yoxluğun könlümə qazıdı qəbir,
İçimdə dolaşır bu möhnət, bu sirr,
Həyatım yolunda sızlar kamandı.

Bəbəkdə göllənib bax acı yaşlar,
Ayrılıq sinəmə salar naxışlar,
Varlığım könlümə həyat baxışlar,
Başına döndüyüm, getmə amandı.

10.11.1989

SƏN DƏ MƏNDƏN XƏBƏRSİZ

Həyatımız keçirdi sakit axınla hər gün,
Ömrü başa vururduq necə də dərdi-sərsiz.
Baxışlar qarşılaşdı, ürəklərdən qopdu ün,
Sən də məndən xəbərsiz, mən də səndən xəbərsiz.

Yalnız yuxularda biz vüsal sevinci daddıq,
Yatmış xatirələri uyğularda oyatdıq,
Kədərin xurcununu çiyindən birgə atdıq,
Sən də məndən xəbərsiz, mən də səndən xəbərsiz.

Yenə də səhər oldu, ürək düşdü qəfəsə,
Bu yolda çox qatıldıq neçə yabançı hissə,
Görüşməyin eşqiylə qəlblər gəldi həvəsə,
Sən də məndən xəbərsiz, mən də səndən xəbərsiz.

Çox alışıb, çox yandıq sevginin ocağında,
İsindik xəyalların pakanə qucağında,
Keçdi ömrün yarısı hicranın bucağında,
Sən də məndən xəbərsiz, mən də səndən xəbərsiz.

Qarşıdan ötüb keçdin dünən elə yel təki,
Susub durub dayandım, edə bilmədim ərki,
Sonra da öz-özümə eylədim xeyli təpki,
Sən də məndən xəbərsiz, mən də səndən xəbərsiz.

Şadiman şahid özü bir ömür getdi bada,
Divanə həyatımız illərlə yandı oda.
Ürəyimiz ağladı canı üzən fəryada,
Sən də məndən xəbərsiz, mən də səndən xəbərsiz.

07.03.1990

UNUTDUN

Unutdun mirvari dənələritək
Sədəfdə gizlənən o saf eşqimi,
Yad baxışlarla izlənən eşqimi.
Sən məni aldatdın, mənsə özümü,
İndisə döyürəm dizimi...
Yorğun baxışlarla gözlədim səni,
Gecələr sabahı gözləyən təki.
Hər gün həsrətinə eylədim ərki,
Əllərim uzana qaldı yollara,
Rəhm eyləmədin dilsiz qollara.
Unutdun günahsız, yazıq ürəyi,
Bir qəlb sındırmaqla qazandın nəyi?!

04.04.1990

QORTƏK YANMAYAYDI

Nə səni görəydim, nə də ürəyim
Qortək yanmayaydı oduna sənin.
Getdi hər istəyim, arzu-diləyim,
Həyatım, ömürüm badına sənin.

Ocağam, odumla belə oynama,
Çılğın çeşmələrtək xam-xam qaynama,
Heç vaxt boş söz-sovçın yerdən oynama,
Yaraşmır istəkli adına sənin.

Zirvələr pərisi şəlalə təki,
Çöllərin gözəli şux lalə təki,
Sınıb dağılaram piyalə təki,
Yetmərəm bir daha dadına sənin.

Gəl könül qapımı belə bağlama,
Mən xonça deyiləm, sevgi bağlama.
Gedəcəm, indidən coşub çağlama,
Onsuz da düşəcəm yadına sənin.

04.04.1990

DÖZƏ BİLMƏZSƏN

Batarsan günahlarda,
Gəzə bilməzsən mənsiz.
Fəğanlarda, ahlarda
Dözə bilməzsən mənsiz.

Yuxun çəkilər ərşə,
Yad olar sənə nəş'ə,
Düşərsən dilə-dişə,
Dözə bilməzsən mənsiz.

Ürəyin qara geyər,
Fikir içini yeyər,
Qapını həsrət döyər,
Dözə bilməzsən mənsiz.

Şadimandan uzaqda,
Ömrün keçər sazaqda,
Könlündə qalmaz yağ da,
Dözə bilməzsən mənsiz.

04.04.1990

ÇIRAĞINA DÜŞƏRƏM

Səhər-səhər bir mirvari şeh təki,
Üz-gözünə, ayağına düşərəm.
Ərzi gəzən həzin-həzin meh təki,
Yurd-yuvana, torpağına düşərəm.

Sarılaram qollarına küləktək,
Dolaşaram başın üstə fələktək,
Döyünərəm ürəyində ürəktək,
İşıq olub çırağına düşərəm.

Bu imkansız eşqin mənə qəfəsdi,
Hicran ilə canım nəfəs-nəfəsdi,
Demə mənə yoldan ötən bir kəsdi,
Leyli kimi sorağına düşərəm.

Taleyimdə çox dolaşdı buludlar,
Nahayətsiz könlüm sənsiz buludlar,
Səhər, erkən pəncərəndən gözəl yar,
Al günəştək otağına düşərəm.

Nə özünü, nə də məni qınama,
Ömrümüzü hər diləklə sınama,
İnsafa gəl, qəlbimlə sən oynama,
Bəxtinin ağ varağına düşərəm.

04.04.1990

ƏLİNİN HƏRARƏTİ

Nə edim əlinin hərarətini
Qoruya bilmədin gələn sabaha.
Bağışla, məhəbbət hekayətini,
Bələdim qovrulan acı günaha.

O günəş eşqini soyuq buz etdim,
Özümü, səni də mən yalqız etdim,
Əlçatmaz xəyallar dalınca getdim,
Bağışla, sən mənə inanma daha.

Ürəyim içindən seltək çağlayır,
Onu sənsizliyin dərdi çuğlayır,
Nə qədər ömrüm var, gözlər ağlayır,
Bağışla, bağlandım həsrətə, aha.

07.04.1990

SİRDAŞ GÖRÜRƏM MƏN

Niyə sənsiz dünyanı
Belə boş görürəm mən?
Sənli dəqiqə, anı
Bir sirdaş görürəm mən.

Bu tənha günlərimi,
Sirli düyünlərimi,
Ah dolu ünlərimi
Gözü yaş görürəm mən.

Bu həyatı qərarsız,
Hər əməldə ilqarsız,
Sənsiz ürəyi arsız,
Qəlbi daş görürəm mən.

Ürəyimə ən əziz,
Eşqi dalğalı dəniz,
Səni özümdən təmiz,
Məsləkdaş görürəm mən.

Hər arzudan, diləkdən,
Mənə yaxın ürəkdən,
Hər işdə bilərəkdən
Səni baş görürəm mən.

04.04.1990

HƏSRƏTİNƏ DÖZMÜRƏM

Sənsizliyin əlində saralıram müddətdi,
Mübtəla olduğum da ya bəladı, ya dərddi.
Sevdiyini ağlatmaq sevənlərdə adətdi,
Məhəbbətim didərgin, həsrətinə dözmürəm.

Xəyalınla yaşamaq mənə ölümdən betər,
Hicran yalquzaq təki könlün içini didər,
Demə sən bu eşqimə, sən allah, gəldi-gedər,
Olub günlərim gərgin, həsrətinə dözmürəm.

Bilirsən, göz yaşımı min-min dərya tutmayır,
Gözüm bir başqasını heç dünyada tutmayır,
Bil, bəlalı ürəyim tək səni unutmayır,
Gözlər yollarda hər gün, həsrətinə dözmürəm.

08.04.1990

YIXILAN KÖNLÜMÜ

Yıxılan könlümü tikə bilmirsən,
Eyləyib viranə, talan, dağıtma.
Eşqimin yükünü çəkə bilmirsən,
Satıb üstbəüstdən yalan, dağıtma.

Göydə qanad çalan bir dilsiz quşam,
Mən özüm-özümə sənsiz qarqışam,
Düşmənə nifrətəm, dosta alqışam,
Et könlü ucalan qalan, dağıtma.

Qəlb qəmə düşəndə qəmdən soyumaz,
Xəyallar güc gəlsə gözlər uyumaz,
Özünü duymayan, özgəni duymaz,
Yolunda taleyim nalan, dağıtma.

Qəlbimə gətirmə şaxtalı ayaz,
Sənsiz qışa dönər hər ətirli yaz,
Ürəyim gah kaman, gah yaralı saz,
Ey onun tellərini çalan, dağıtma.

04.04.1990

RUHUM ÇEŞMƏTƏK QAYNAYAR

LEYLİ KİMİ RUHUM

Salıb Leyli kimi ruhum çol-biyabanə məni,
Alışan bu ürəyim gətiribdir canə məni.

Hara dönsəm üzümün gülməsi bir müşkül olub,
Çəkir həsrəti dağı, qoyub yanə-yanə məni.

Çatmayır gülüzlüyə bir dəm niyə fəryadım heç?
Edib hicranı yaman bu qədər divanə məni.

Sevda aşiqlərinin axırı qəm-qüssə olur,
Aparır dərdü-bəla qəm adlı seyranə məni.

Gecə-gündüz dikəlib Rəbbimə ahu-fəğanım,
Edə urcah bir hovur haqqıma peymənə məni.

Sadəlikdir ki, salan insanı min bir xətaya,
Ah, o üzdən ürəyim eyləyir zəbanə məni.

Şadiman bəxti kəmi ağladır öz halı yaman,
Sanır cümlə-camaat halıma divanə məni.

19.11.1987

BİR XƏTA YAPMIŞAM

Bir xəta yapmışam, ey dil, tək sənin üzündən,
Ayıra bilməyirəm canımı heç özündən.

Çox cəfalar çəkəcəm düşdüyüm bu sevdadan,
Oxunur ayrılığın hər səfası üzündən.

Bizdən əvvəl də gələn düşdü dərdü-möhnətə,
Alovu şölə saçıb aləmə öz közündən.

Səhra sevdalıları yetməyibdi izzətə,
Necə Leyla-əsiri alışdı pak sözündən.

Şadiman biçarəni saldı dərdü-cəfaya,
Çıxara bilməyirəm ürəyi qəm düzündən.

09.11.1987

SEVGİNİN GÜLZARI İLƏ

Alışar al sabahım sevginin gülzarı ilə,
Həsrətim vurur başa ömrümü ah-zarı ilə.

Məni Leyla eləyən o qara gözlüdü, aman,
Qovuşdurub ürəyi həsrət adlı yarı ilə.

Düşürüb dillərə canı elə bil seyri-xuda,
Salıbdı aləmə səs carçı təki carı ilə.

Ağlayıb-sızlamağı qoymaram könlümə yaxın,
Bağçanın gülləritək bir güləm baharı ilə.

Hər adam bir çiçəyin ətrinə mehman kimidir,
Gəlib getməyi tamam bir ömür naharı ilə.

Şadiman dəli təki dağ-daşa vursa özünü,
Düşəcək dil-ağıza indi də qübarı ilə.

20.11.1987

OLMUŞAM DİVANƏ

Olmuşam, gül üzlü yar, həsrətinə divanə,
Düşmüşəm gecəbəgündüz dəlitək fəğanə.

Yandı ahım oduna şəm-çıraqlar biləsən.
Çəkirəm şəmi təki mən də elə zəbanə.

Yumuram gözlərimi hicrinə hər an doluram,
Düşə bilmir ürəyim heç cürə bəs səhmanə.

Sənə çatsın deyirəm eşqimizin harayı,
Dəva bulmazdı canım yetişə bir dərmanə.

Şadimanı arayan varmı özündən başqa?
Yetəni yoxdu hələ bir gələ bu əfğanə.

20.11.1987

YAR BİLMƏ

Özgənin köməyini ürəyinə yar bilmə,
Öz canından gələnə hər nə varsa zar bilmə.

Dad çəkib aləmi salma harayın üstünə,
Harayı içinə sal kimsələrə car bilmə.

Çox «mənəm» deyənlərin qanını uddu dünya,
Özü udduğu qanı taleyə vüqar bilmə.

Bizdən əvvəl də hələ ahı çəkənlər tapılıb,
Ahını hissinə yox, ağlına qübar bilmə.

Demə, bəxtin düşürüb min bəlaya qəlbini,
Tutub ətəkdən hələ ömrünə heç bar bilmə.

Şadimanın ağılı yatmadı heç kimsəyə,
Onu sən də, ürəyim, bir bu qədər dar bilmə.

20.11.1987

ÇARƏ ELƏ

Ya olum günü qara, ya da ki, bir çarə elə,
Ya dolaş ürəyimi, ya da onu yarə elə.

Həsrətindən gecə-gündüz gəzirəm çölləri mən,
Ya könlü səhmana sal, ya da ki, avarə elə.

Gözlərim yaşı tökür göydəki bulud sayağı,
Ya çevir üz bahara, ya ahı divarə elə.

Mən sabahın üzünə dolaşıram seyranı,
Ya gəlib üzümü gör, ya da bəxti qarə elə.

Şadiman hər gecənin sübhünə ümidlə baxır,
Ya gəlib könlümə yan, ya onu min parə elə.

23.11.1987

TANRI TUŞ ETDİ

Tanrı tuş etdi əcəb hər qəmi, ah-zarı mənə,
Elədi can qovğası sevdiyim gülzarı mənə.

Necə qəm olmasın, allah, bəs yazıq sinəm içi,
Rəva buldu qədərim çarəsiz azarı mənə.

Eşqi altun sayağı satdı bazar qiymətinə,
Üzü dönmüş, qaliba, bağladı bazarı mənə.

İllərlə möhlətini qəlb çəkəli yarə olub,
Tanrı qismət elədi könüldən bezarı mənə.

Nola kaş, ey Şadiman, bəxt dönə bir bizə sarı,
Göndərə həsrət ilə yandığım o yarı mənə.

05-06.07.1991

TUŞ OLDU EŞQ KAŞANƏSİ

Yandı, sinəm içinə tuş oldu eşq kaşanəsi,
Od saçan odlu günəş bu atəşin bir danəsi.

Mən pərilər içinə düşmüşəm illərdən bəri,
Əqlim olub könlümün bir dəlisov divanəsi.

Göylərin bağrına saldım yolumu yellər təki,
Bir şamın aşiqitək oldum günəş pərvanəsi.

Təkcə sən yanmamısan, dəli ürək, hər sitəmə,
Görünür hər sinədə ağrının qan nişanəsi.

Gözümün hər damlası bu üzümün büllurudur,
Bənzəyir fəvvarəyə ağrı verən hər şanəsi.

Şadiman biçarənin dərdi ilə tən bir olub.
Söz ilə dilbir olan qələm-kağız əfsanəsi.

08.02.1993

ÜRƏYİM PARTLADI, YA RƏBB

Ürəyim partladı, ya Rəbb, fələyin cəfasına,
Niyə bağladım ümid onun bunca vəfasına?

Bu zaman mən fağırı döydü gecə, sübhə qədər
Kim yetişdi görəsən bu həyatın səfasına.

Desələr, məntək zülüm görən olub bu dünyada,
Bunu bir kimsə durub sövq etməsin qafasına.

Sən ey yeri-göyü xəlq eləyən bir bizi eşit,
Çatdır könlüm evini bircə ləhzə şəfasına.

Şadiman şamu-nahar tutub göylərə üzünü,
Çəkə əncam Yaradan bir belə elin yasına.

04.04.1993

MÖHNƏTƏ DÜÇAR OLMUŞAM

Fələyin göndərdiyi möhnətə düçar olmuşam,
Bəxtimə düşən qəmin əlində açar olmuşam.

Tapmadım bir kimsəni dərdsiz vura dövran başa,
O baxımdan da elə möhnətə naçar olmuşam.

Dərdimə hali olanlar dərdimi sormaz mənim,
Sanki mələk təki mən dərdimlə uçar olmuşam.

Şadiman uymadı heç bu dünyanın vəfasına,
Onu söylədən bilir, hər ahımla car olmuşam.

22.04.1993

TÖKÜLÜB ÜSTÜMƏ QƏM

Tökülüb üstümə qəm, dərdimə heç dəva yox,
Başımın çəkdiyitək dünyada bir qovğa yox.

Üzülüb badi-səba, vəslinə çarə umma,
Mən kimi sitəmlərə bir bu qədər yovğa yox.

Şadimana, edilən dərdinə çarə hanı?
Aləmə əyan olub qəmlərindən lovğa yox.

21.06.1993

ŞAM ELƏDİ

Bu fələk könlüm evin qaranlığa şam elədi,
Bəxtəvər səhərimi döndərib axşam elədi.

Nə rəva gördü mənə ürək qıran sitəmləri,
Gətirib dərdü-bəlanı başıma dam elədi.

Aldı əlimdən qəfil o gül üzlü şadlığımı,
Vurdu yara sinəmə, kamı üstən kam elədi.

Hamının ağrısına bir qapı açdı kimsəna,
Məni bəlaya salıb, ömrümü nakam elədi.

Şadiman biçarənin yox qəminə çarə bulan,
Ümidim səcdə evi göz yaşımla şam elədi.

11.06.1993

TALEYƏ ETDİM GÜVƏN

Taleyə etdim güvən, yamanca ağlatdı məni,
Öz bəxtim, öz qismətim od içinə atdı məni.

Söylə kim var mənə tay, göz yaşı dəryaya axır,
Eşqinə mehr etdiyim hicranlara satdı məni.

Gecə-gündüz xəyalıyla şamu-nahar etdiyim,
Üzdə canım söyləyim, dalda da aldatdı məni.

Ayrılıq şövqü ilə parçaladı şadlığımı,
Salıb ağrı içinə dərdü-qəmə çatdı məni.

Şadiman binəvaya xəyalları etdi barat,
Dərd, ələm girdabına əcəb yuvarlatdı məni.

18.06.1993

TUŞ OLUB HƏR QOVĞAYA

İlahi, könlüm evi tuş olubdu hər qovğayə,
Bəs necə dözsün ürəyim, fələk götürməz vayə?

Sevgidən könlü dağ olmuşlar bilir eşqi nədir?
Kaş qismət etməyəydi Rəbbim məni bu sevdayə.

Hicranı saldı qapımdan içəri bəxtimə bax,
Dönübdü gözümdə yaşım həddini aşmış çayə.

Düşdü dillər içinə bəslədiyim eşq acısı,
Oldu illərə fəda əzizlədiyim bu qayə.

Mən bilmədim bu ömrümdə qəlbə nədəndir cəfa,
Düşmüşəm şamu-nahar ürəyimlə min bəlayə.

Ahımdan çeşməsi qan sən fələyin yaşına bax,
Dözümü ələmə bəlli, heç tabı yox naləyə.

Ya rəva görəməyəydi fələk çəkdiyim qəmə,
Ya da ki, verməyəydi bu Şadimanı dünyayə.

18.06.1993

AHİ-QƏLBİ-ZARI MƏNƏ

Tanrı tuş etdi əcəb ahi-qəlbi-zarı mənə,
Elə zənn etdim fələk verdi bir gülzarı mənə.

Necə qan olmasın, allah, bu yazıq sinəm içi,
Rəva buldu qədərim çarəsiz azarı mənə.

Könlümün gövhərini susdurub hicran havası,
Üzü dönmüş bağlayıb gül adlı bazarı mənə.

İllərlə möhlətini qəlb çəkəli yarə olub,
Taleyim ürcah edib könüldən bezarı mənə.

Bağrımın yaş çeşməsi gözlərimlə dəryadadı,
Hansı mələk qarğıyıb eşqidən bezarı mənə.

Nola ki, ey Şadiman, bəxt dönə bir bizə sarı,
Göndərə həsrət ilə yandığım o yarı mənə.

5-8.07.1993

ÜRƏYİMİN DUSTAĞIYAM

Mən ki, o dağdan uca ürəyimin dustağıyam,
Vüqarı eşqlə vuran diləyimin dustağıyam.

Bu hicran yellərini əsdirməyin faydası yox,
Tufanı sinə didən küləyimin dustağıyam.

Dilimi könlümə əsir etmişəm illərlə mən,
Ağlıma qurdum saray, dirəyimin dustağıyam.

Duymayırlar qəlbimin canda olan üsyanıyam,
Məni ahına salan mələyimin dustağıyam.

Şadiman binəvanın ruhu batıbdı ahlara,
Səcdəsində olduğum fələyimin dustağıyam.

20.02.1993

EŞQİDƏ VƏFASIZ MƏNƏM

Sanma, ey gül üzü ay, eşqidə bir varsız mənəm,
Əhdinə dönük çıxan, bu yolda ilqarsız mənəm.

Gecələr sübhə qədər gözlərimdən uyğu qaçar,
Baharı xəzan olmuş bunca novbaharsız mənəm.

Dözürəm min əzabla qan ağlayan günlərə mən,
Dərdi dəryaya dönən qəmdə üzən arsız mənəm.

Əyilib yağılara etmə qəlbi dərdə cünun,
Demə əl-ayağına savaşda vüqarsız mənəm.

Ey bilənlər, çatdırın ərzi-halın Şadimanın,
Əhdinə sadiq olan, yol gözləyən yarsız mənəm.

07.03.1993

MƏN BİNƏVA

Dünyanın qəm dəryasın üzmədəyəm, mən binəva,
Könlümə bu dərdləri düzmədəyəm, mən binəva.

Ram edib haqq gəmisin, bir səyyahi-Nuh kimiyəm,
Vəfa qılmaz zamana dözmədəyəm, mən binəva.

Elə məhbusu-qulam, cəzamı haqq bilməz nədən?
Gecələr uyğuları süzmədəyəm, mən binəva.

Şadiman əsiri-dərdə mübtəla, gülməz üzü,
Ona şadlıq anını gəzmədəyəm, mən binəva.

04.03.1993

AÇMA ÜRƏK QAPISIN

Açma ürək qapısın, hər kimsəni qoyma, könül,
Dərdə xoşhal olanla ürəyini oyma, könül.

Canı alır, canı didən şeytanı-iblisdən çox,
Hər kəsi canın bilib canı-dilə uyma, könül.

Hər ürək aşınasın buraxma qəlb sarayına,
Əğyarı yarın bilib yarın kimi sayma, könül.

Şadiman biçarənin onsuz dili yarə-yarə,
Sən onun dərdlərini çəkib nəzmə yayma, könül.

20.02.1993

EY BİVƏFA

Sənə öz canım kimi bel bağladım, ey biməfa,
Sübhi hicr ilə açıb qan ağladım, ey bifəva.

Bir gülüstanlıq saldım ki mən, bülbülləri əsir,
Bağrımı qəlb atəşinlə dağladın, ey biməfa.

Könlümün duyğuların nuş eylədin hissə nədən?
Xəzana düşmüş bağımda çağladın, ey biməfa.

Şadiman biçarəni günahınla faş etdirib,
Könlünü könlünə niyə bağladın, ey bivəfa?

20.02.1993

GÜLÜZLÜ SABAHI SANDIM

Səni bağı-könlümün gülüzlü sabahı sandım,
Hicranı sitəm anların bəxtimin günahı sandım.

Üzüldükcə hicr odunda ömrün həsrətli günləri,
Enmədikcə məkanına canlar içrə dahi sandım.

Fəğan etdi yollarında daima nalan ürəyim,
Günahını bular-bulmaz, səni bəxtin ahı sandım.

Rəvadırmı, Şirin xanım, cana salmaq eşq əhlini?
Mən səni bu dünya içrə, aşiqlər allahı sandım.

12.03.1993

DOLANIM MƏN BAŞINA

Dolanım mən başına, yar belə qurbanım olum,
Ürək də qövür edən, damarda al qanın olum.

Bürüyüb dövrü-bərim həsrəti-hicran yanıram,
Qoy gəlim hüzuruna xoş keçən hər anın olum.

İcazə ver gözünün qəmini zindana salım,
Həm sənə həmdəmi-qəlb, həm də ki, pak canın olum.

Tuş olub sevdaya can, ah eləyir şamu-nahar,
Dönüm ulduza gecə, zülmətə həyanın olum.

Dözərək eşqinə mən, çox çəkirəm dərdü-cəfa,
Əmiri-müntəzirəm, hər dərdi düyanın olum.

Ötdü ömür, yazımın açmasına yoxdu əlac,
Deyirəm dil edəsən, bir gəlim mehmanın olum.

Olmadı Şadimanın hicranına heç bir əlac,
Tik əzəl eşqə saray, qoy orda səhmanın olum.

08.05.1994

BİR BELƏ ZÜLÜM OLMAZ

Alışır yanır ürək, bir belə zülüm olmaz,
Bisutuntək sinəmi min yerə bölüm olmaz.

Ağlayır göydə fələk tək mənim fəryadıma,
Hansı bir bəndəyə, dilim təki dilim olmaz.

Mən biçarəni gör, qəmdə qovan yeldi deyən,
Doğur min çeşmə gözüm, demə ki, selim olmaz.

Yoxdu heç bir kimsə mən təki düşüb borana,
Bələnib bəmbəyaza, qapqara telim olmaz.

Ürəyi Məcnun edən salıbdı səhralara,
Bilə məni tanıyan məkanım, elim olmaz.

Əzrayıl ata minib, Şadiman da piyada,
Qaçmağa yoxdu güman, güya ki, ölüm olmaz.

10.05.1994

BAXIŞIN SƏYYAD OLUB

Baxışın səyyad olub, könlümü ovladı aman,
Alıb ürəyi ələ, gör necə tovladı aman.

Gül üzün ayparatək könlümə yaydı şəfəqin,
Hicranın vəsvəsəsi vüsalı qovladı aman.

Çatmısan könlə ocaq, o ki özü oddu, hənuz,
Vallahı od-ocağı tamam alovladı aman.

Əridi şam kimi qəlb, qalmadı könlümün yağı,
Tutdu Şadimanı qəm, dərdlə cilovladı aman.

12.05.1994

BƏXTİMƏ BAX

Tökülüb qəlb evinə arizi-qəm, bəxtimə bax,
Tutub gözümü yenə dəryayi-nəm, bəxtimə bax.

Tuş olub müşkülə can, heç də onun çarəsi yox,
Etmədi əsla xudam atəşi kəm, bəxtimə bax.

Niyə zülm etdi mənə, gülmədi üzü fələyin?
Saldı oda sinəmi, bulmadı çəm, bəxtimə bax.

Ram atıb, zikr edirəm taleyimin qəzasına,
Sanki röyası şərab, ovqatı dəm, bəxtimə bax.

Şadiman da tuş olub bu fələyin gərdişinə,
Verdiyi zəhər dadır ağızda təm, bəxtimə bax.

23.05.1994

QURBANIM OLUM

Aldı könlüm içini dərd yenə, qurbanım olum,
Düşdü araya niyə səd yenə, qurbanım olum?

Çarpışır canla dözümüm, gələndən dünyaya mən,
Bilir aləm də işim bəd yenə, qurbanım olum.

Düşüb bəxtim düyünə, yox təbimim, çarə bulam,
Həsrətindən əyilib qədd, sənə qurbanım olum.

Bu Şadiman ki, dözür acıların fərağına,
Leylitək eşqinə bax, pak sənə qurbanın olum.

23.05.1994

MEYDAN SULAYIR

Yenə meydan sulayır aləmdə hicranın, müdam,
Keçəydi mənim ilə nola bircə anın, müdam.

Səni bəlkə Yaradan yazıb tale kitabıma,
Damarda qövr eləyir canı-dili-qanın, müdam.

Kaş ki, bir təzə yaza yazan alın yazımızı,
Birləşə bəxtə düşən mənlə adın-sanın, müdam.

Dikəlib ərşi-ələya, tutuşur qəlbdə ocaq,
Canımdan od alaraq alışa o canın, müdam.

Şadiman dərdlərə tuş olmaya kaş, yar eşqinə,
Gətirə baharı ömrə, qura dövranın, müdam.

23.05.1994

BİR KƏS HANI

Cahanda məntək bəxti qarə olan bir kəs hanı,
Vermişəm fənalara ömrə əziz, şirin canı.

Naləmdən fələk özü gözdən yaşı tökməkdədir,
İsladır göz yaşıyla bəxtim bəlalı dövranı.

Qəmimdən nalə edir, yer-göy, bütün ərşi-əla,
Bağrımdan ahım qopur, əsir edir vaxtı, anı.

Şadimana, nədir ki, etdiyimiz böylə günah,
Ki fələk qismət edibdi, bu dəhşətli dünyanı.

26.06.1993. Pirallahı

BİQƏRAR OLDU

Alışdı könlüm içi, billah biqərar oldu,
Nə bəlalar çəkirəm, dərdim buna yar oldu.

Verdi ömürü bada, həsrətə etdi məni,
Çəkdiyim ağrı-acı, hər tərəfə car oldu.

Yandı içdə diləyim, vermədi heç gün fələk,
Etdiyi müsibəti özünə də ar oldu.

Nə yazıq Şadimanı eylədi divanəsi,
Edəli zülmü mənə, dərd özü də xar oldu.

08.08.1994

KÖNLÜM EVİN

Acılar könlüm evin parçaladı gilə-gilə,
Fələk qəm yolladı hey mən yazığa bilə-bilə.

Dağıdıb dərd evimi, yox halıma çarə bulan,
Qalmışam göz yaşımı öz əlimlə silə-silə.

Əcabə tuş olmuşam taleyimin qınağına,
Baxarkən yan-yörədən şeytan, iblis gülə-gülə.

Üzü dönmüş əzrayıl öz hökmünü verər haçan,
Şadiman ki, can verir öz xoşuna ölə-ölə.

20.08.1993

DƏRD MƏNİ ÇƏKDİ SINAĞA

İçimi qovurdu qəm, dərd məni çəkdi sınağa,
Gözümü zindan edib, yaş yenə axdı yanağa.

Bəndəyi-adəm özü görməyibdi böylə zülüm,
Ayrılıq cəllad olub çox görür əti dırnağa.

Qara bəxtin yazısı, ya da ki, bu tərsi-zaman?
Keçib ömrün yaxası qəmin atdığı qarmağa.

Könül istəyini heç fələk rəva bulmur mənə,
O səbəbdəndir olub dəli könül hər qınağa.

Zilə qalxır kədərim, yoxdu ona tə'nə edən,
Biçarə Şadiman da evində dönüb qonağa.

25.09.1994

TUTUŞUB HİCRANINA

Tutuşub hicranına yanır ələmlərə ürək,
Necə dözün bu qədər min ahu-qəmlərə ürək?

Göz baxır, qəlb usanır yad təki dönüklüyünə,
Bulud olsa tükənər, batıbdı nəmlərə ürək.

Bəxtimin kəsirləri baharımı qış elədi,
Qaliba, hələ durur bu qədər kəmlərə ürək.

Hər ömür qədəhinə tökür zəhəri bu zaman,
Sevdası tuş acıya, dözməkdə nəmlərə ürək.

Şadimanı öldürür yar əzrayıldan da betər,
Necə hələ də vurur bu acı dəmlərə, ürək.

25.09.1994

AYRILIĞIN QORDU

Alışan ürəyimə ayrılığın qordu hələ,
Eşqimizə atılan dəryadakı tordu hələ.

Ürəyi yıxıb-sökən acı mənə sitəm edir,
Sanki tutulub gözü bu eşqimiz kordu hələ.

Gəlsənə, birgə çəkək hər intizar ağrısını,
Tükənib taqəti-güc, ayrılığın yordu hələ.

Bəllidir, eşq əhlinə hicran-həsrət acıları,
Dözmək can cəfasına hər bəladan zordu hələ.

Olarsa hər kimsə tuş, hicranın qəm fitvasına,
Qurtara bilməz onu ən güclü bir ordu hələ.

Şadiman səadətin eşqinə açdı qapını,
Şax durub, astanada hicran onu sordu hələ.

25.09.1994

ŞAMI SÜBH EYLƏYİRƏM

Şamı sübh eyləyirəm, yoxdu amanım gecələr,
Yanır başdan ayağa, şamdı gümanım gecələr.

Dərd çəkir üstə qoşun, bitməyir müşkül-fəğanı,
Tutmayır könül qərar, ahdı zamanım gecələr.

Getmir məndən uzağa, yörəmə fırlanır kədər,
Uyğumun bağrına ox, ahu-amanım gecələr.

Bulmadım bir kimsəna qəmimə etsin fərağın,
Simləri saldı haray, ürək kamanım gecələr.

Şadiman eyləmədi hicrinə hicran acısı,
Eləmək səcdə qəmə, oldu imanım gecələr.

20.07.1995

ALƏMƏ YENƏ

Tökülür qəlb evimin qəmləri aləmə yenə,
Nə deyim mən fələyin yazdığı qələmə yenə.

Duymayır kimsə müdam, ahımı bir dəm gecələr.
Əriyir şəm də, hənuz, qan dolu naləmə yenə.

Niyə çərxində fələk tərsinə fırlatdı məni?
Gözlərim tuş fələyin yolladığı nəmə yenə.

Etmədi mənə rəva bircə yol nəş'əni zaman,
Dözürəm mən bu qədər sinə üzən dəmə yenə.

Şadimanın ürəyi çıxmadı şərin üzünə,
Zili ahda dolaşır, yoldaş olub bəmə yenə.

02.03.1991

MƏCNUNLUQ İSTEDADI VAR

Məhəmməd Füzuliyə nəzirə

Mən də ki, bu eşqidən məcnunluq istedadı var,
Sevgi sultanı mənəm, aşiqlərin də adı var.

Sən zülüm etməkdə ol, nəş'ədir bu cismi-cana,
Eşqidə Şirin mənəm, Şirinin öz Fərhadı var.

Təmkinin son həddini bənzətmə, ey yar, fələyə,
Hər səbrin naləsi çox, hər ahda min fəryadı var.

Öylə hali-xəstəyəm, əhvalımı bir sorsana,
Dövrani-cövrü zülüm, ağızda zəhər dadı var.

Gəzmə, ey sevgili yar, bu eşqi fəzada qəfil,
Səhranın məntək əcəb, bir biçarə səyyadı var.

Saymasınlar könlümü hər ağrıya, dərdə cünun,
Dərdin can aşiqləri, onların öz imdadı var.

Şadiman, gəl bu eşqi cani-könüldən qəbul et,
Öyün ki, Füzulitək ustadının pak adı var.

20.07.1995

AH EYLƏDİYİM

Ah eylədiyim qanıma dərmanın üçündür,
Can söylədiyim bu eşqə fərmanın üçündür.

Sərməstəliyim atdığın oxların ucundan,
Hər səcdələrim vüsala bir anın üçündür.

Könül ocağım tutuşdu qəmlərin odundan,
Eşq cövürlərim təkcə sənin şanın üçündür.

Şəmtək atəşimə od qaladım mən gecələr,
Vüsala yoxdu güman can hicranın üçündür.

Gəlsənə, həsrətinə dözməyə bir tabım yox,
Əsiri-eşqinə qul, qəm ad-sanın üçündür.

Can verdiyim ol canıma hicranları saldı,
Çəkdiyim hər nə ki var, bir tək canın üçündür.

Ustad deyənin hər sözü pak, dillər əzbəri,
Şadimana, dediyin xoş dövranın üçündür.

20.07.1995

ƏSDİ RÜZGARIM QARA

Əsdi rüzgarım qara, gülmədi heç can da mənə,
Oldu cigərim para, baxmadı hicran da mənə.

Bağlanıb bəndi-bərəm, açmasını bulmaz halım,
Olmadı dərdə əlac, nədə ki fərman da mənə.

Əcayib dövrə cida etməyə qalmaz fürsətim,
Vicdana hakim para, zülm edir dövran da mənə.

Gözlərim yaş yerinə qan tökür yanaqlarıma,
Çəkilir ömür dara, yağıdı zaman da mənə.

Şadiman biçarənin dözməyə yoxdu heç tabı,
Gələ əzrayıl kara, verməyə aman da mənə.

27.07.1995

BATDI ÜRƏYİM QƏMƏ

Batdı ürəyim qəmə, bu dərdə çarə istərəm,
Qəmimin sinəsini min yerdən yarə istərəm.

Verə fələk ələmi, gündə min yol şər əhlinə,
Naqisin bəxtim kimi, zülmünü qarə istərəm.

Düşəli dərdə könül, yoxdu ona əlac edən,
Dərdi də ömrüm təki elə biçarə istərəm.

Hər keçən etmədədi, hiyləsini dünyaya vay,
Onu etdiklərinə ola avarə, istərəm.

Şadiman, zülmə batıb, eyləmə kədərə maraq,
Zülümün bənnasını çəkilə dara, istərəm.

06.07.1995

BİR BELƏ MÖHNƏTİN QƏMİ

Getməz başımdan, Xuda, bir belə möhnətin qəmi,
Gedibdi ömrüm bada, basıbdı riya aləmi.

Heç gələn yoxdu, müdam, can evinin sevdasına,
Asi verdi yaradan yəqin ki, mənə qələmi.

Hər ürək ağrıları, arzunu fəryadda boğar,
Dövranı salan qəmə, gətirir cana ələmi.

Gözlərin acısı basdı bağrımı dərya ilə,
Bilmədim qəlbdə necə məzar edim mən naləmi?

Şadiman bulmadı heç könlünə həyat xanəsi,
Göz yaşından su içir hər fəsildə min bir zəmi.

15.10.1995

NƏ DEYİM

Səni mən canım evi sandığım günə nə deyim,
Həsrətindən alışıb yandığım günə nə deyim?

Düşə o anlar ələ tez calayıb səni mənə,
Zənn edim sevgili can sandığım günə nə deyim?

Sanmışam həsrətini könlümə yağı bilirsən,
Munisi qəlbim evin dandığın günə nə deyim?

Şadiman heç bir kəsi eşqinə bulmazdı yaxın,
Səni öz canı kimi qandığım günə nə deyim?

21.06.1993

QOYMA QƏMLƏRİ YAXIN

Qoyma qəmləri yaxın, qəmlər səni ram eləsin,
Çəkib ürəyi şişə, ağzında xoş tam eləsin.

Ağlayıb didələri əsir etmə gecələrə,
Vermə yol, həsrət gəlib ocağında şam eləsin.

Agah olsan gərçi sən qanını bulmaz ahilər,
Qüssənin cövrü nədir, könlü belə xam eləsin?

Pəyandaz etsin ayağa eşqində mərd ürəyi,
Beşgünlük can mülkünü dərdlərinə dam eləsin.

Şadiman, çəkmə məni qəm evinin kəndarına,
Atıb dərdə ürəyi, qüssə-filan kam eləsin.

12.12.1995 Pirallahı

QAN DOLU SABAHLARA BAX

Allah, Allah, açılan qan dolu sabahlara bax,
Sinələrdən ucalan nalələrə, ahlara bax.

Niyə çirkinliyi memar elədi könlə bəşər?
Yerdə işgəncələrə, qəlb dolu günahlara bax.

Allah, Allah, yerə də, göylərə də sən varikən,
Hey sərəncam eləyən yerdəki allahlara bax.

Allah, Allah, dikilib dərgahına haqqın əli,
Titrədən dunyanı bu allahı-pənahlara bax.

Allah, Allah, yeni dəvrişliyə alüdə olub,
Şadimana qan deyən, cangüdən səyyahlara bax.

02.03.1991

DİLDƏN-DİLƏ DÜŞDÜ

Dildən-dilə düşdü ürəyim qəmin əlindən,
İldən-ilə keçdi əzabım nəmin əlindən.

Tab etmədi ağrımı çəkə günlərim, eyvah,
Heç tapmadı yer qaça bu ələmin əlindən.

Saat kimi işlədi zaman ömrün əksinə,
Canım cana duydu bunca naləmin əlindən.

Hicran gecəsi mən sözün xəyalına qaçdım,
Etdi misralarım ah-vay qələmin əlindən.

Ey Şadiman, ömrünə eylə min şükür-səna,
Ağlı itirib çoxları zəm-zəmin əlindən.

28.09.1988

GÖZÜM GÖZÜNDƏN UZAQ

Gözüm gözündən uzaq, yetməyə gümanım yox,
Tükənib səbrü-qərar dözməyə amanım yox.

Xəstəyəm, gəl ey təbib, könlümə əlac eylə,
Düşmüşəm can üstəyəm, bu dərdə dərmanım yox.

Əlim Rəbb ətəyində, mən göyün qatındayam,
İman əhli olanam, yetənə imanım yox.

Gözdən axan yaşlarım ağladır fələkləri,
Şahiddir Yaradanım heç bir rahət anım yox.

Sitəmi sinə didənlər dustağı dünyaya,
Zülümü darə çəkir, guya ki, divanım yox.

Acı göz yaşları tikandı, çöhrəmi didir,
Boğulub içimdə ah, ərşə heç fəğanım yox.

Mən ki, ilğımlarda karvanı itmiş sarvanam,
Oldum əsiri, Şirin, mənzili-ünvanım yox.

20.12.1990

DUSTAQ EYLƏDİN

Ağlayan gözlərimi yolunda dustaq elədin,
Gülməyi gül üzümə ömürlük yasaq elədin.

Mən səni öz könlümün yarı sanmışam bilsənə,
Tutmuşkən qəlb qəlbini sən onu uzaq elədin.

Qönçənin rahiyəsi məst edibən rüzgarı,
Əcaba, növbaharı döndərib sazaq elədin.

Fələyin hökmünə möhtac olalı ağlamışıq,
Həsrəti ömrə salıb, onla qəmi çağ elədin.

Görməyibdi kimsəna bir belə sitəmi çəkə,
Sən onu ruha salıb yaxşıca növrağ elədin.

Bunu təkcə Şadiman yox, bütün eşq əhli deyir,
Çəkib həsrəti başa, sonra da sorağ elədin.

12.08.1992

ZÜLFÜ-PƏRİŞAN OLMUŞAM

Yolunda çöhrəsi qəm, zülfü-pərişan olmuşam,
Ömürlük gözləri nəm, ürəyi şan-şan olmuşam.

Bir bilən yoxmu, Xudaya, yarımın vəsfi-halın?
Düşmüşəm cəfasına mən ki, yarımcan olmuşam.

Gecələr zikr eləyib uyğuları tutdu könül,
Uyğuda görüb onu, öylə anbaan olmuşam.

Yandırıb can evimi, bəxti qara etdi məni,
O gündən bu günəcən, yaman bağrı qan olmuşam.

Baxın bu Şadimana tale əlindən yaralı,
Öz odumda alışıb, əlində büryan olmuşam.

12.08.1992

GÖR NECƏ SEL ETDİ YARIM

Gözümün yaş evini gör necə sel etdi yarım,
Mərhaba, acıları dünyalıq el etdi yarım.

Ömrümün xoş gününü tuş eylədi ayrılığa,
Sevgimi, istəyimi gözümə mil etdi yarım.

Gecə-gündüz çəkirəm uğrunda cəfaları mən,
Yandırıb bağrın için yamanca kül etdi yarım.

Acılar sinəm için çalın-çarpaz dağladılar,
İllərin sevgisini, bir anlıq yel etdi yarım.

Mən sevda pərisi, etmədəyəm eşqə cida,
Ki mənim lal sevgimi, aləmə dil etdi yarım.

Gözümün yaşına sulandı çəmənzarda çiçək,
Açılan qönçələri bağına gül etdi yarım.

Şadiman o ağaran zülflərini dəstələyib,
Hər könül mizrabına sızlayan tel etdi yarım.

03.12.1992

CANIMDAN AYRI BİLMƏDİM

Mən səni canım sayıb, canımdan ayrı bilmədim,
Qanımı damardakı qanımdan ayrı bilmədim.

Həsrətin bağra girib özünə yer etdi onu,
Ötüşən ömrümü heç anımdan ayrı bilmədim.

Çox cəfalar çəkirəm, eyləyirəm ahı çıraq,
Heç zaman ağrımı nöqsanımdan ayrı bilmədim.

Edirəm duaları könlümə salmasın fəraq,
Yara gələn xeyiri şanımdan ayrı bilmədim.

Şadimanın ürəyi ahına hicran toxuyur,
Dost bilib qəmini mən yanımdan ayrı bilmədim.

03.12.1992

YOX BÖYLƏ HALIM GƏLMƏYƏ

Kəsilib iqtidarım, yox böylə halım gəlməyə,
Verdiyin zülümlərin sonsuzdur, zalım, gəlməyə.

Mənə öz sevdiyini izhar eyləyən bəyim,
Taqətim heç qalmayıb bu dərdi sənlə bölməyə.

Gözümün yaşları həbs eylədi kipriklərimi,
Bir yaxın yoxdu mənə bu qan-yaşı silməyə.

Ürəyim vermədədi haqqına yer sübh-gecələr,
Etməsin cəhdi qərar, həsrəti canı dəlməyə.

Şadimanı yandırır çəkdiyi hicran yarası,
Dəvanı səndə bulur, gəl qoyma onu ölməyə.

03.12.1992

TƏKCƏ VƏTƏN

Canını canımdan artıq sandığım, təkcə Vətən,
Doğulandan hər kəlməsin qandığım, təkcə Vətən.

Bu elə məhəbbətdir, önündə sevgilər yalan,
Dərdini dərdim bilib usandığım, təkcə Vətən.

Bütün altunlar, paralar yığıla onsuz nədir?
Gecə-gündüz hər cəfasın andığım, təkcə Vətən.

Səpilib torpağına bitərəm bir çəmənzartək,
Gecəni sübh eləyib oyandığım, təkcə Vətən.

Atılıb savaşlara yolunda min qan edərəm,
Düşməninə qisasla çox yandığım, təkcə Vətən.

Uçacaq, Şirin xanım, ruhun fələklər evinə,
Məzarınla eşqinə boyandığım, təkcə Vətən.

03.12.1992

FƏLƏK SALDI MƏNİ

Bu fələk saldı məni dildən-dilə, neylim?
Atdı könlümü qəmə ildən-ilə, neylim?

Yandırdı qəlbi dünyanın hər gün əzabı,
Gəlmədi ondan azıcıq can ələ, neylim?

Öz əlimlə bağımda güldən tikan əkdim.
Tikanı batdı zəhər təki dilə, neylim?

Kimsə həmdəm olmadı viranə könlümə,
Verdim istəklərimi tezkən selə, neylim?

Dərdimə şərik olan da dedi divanə,
Çatdı ocaq külünü, verdi yelə, neylim?

Ey Şadiman, düşdü əcəb ziyanə sinə,
Keçdi günün ah-ufla, onda ilə neylim?

28.09.1988

KÖNLÜM YAMAN QAN EYLƏYİR

Bil, sitəmdən usanan könlüm yaman qan eyləyir,
Bağrımın için didib, sinəmi al qan eyləyir.

Səndən insaf ummağı özümə mən ar bilirəm,
Verdiyin işgəncələr canı yarımcan eyləyir.

Ahımdan fələyin də sinəsi para-paradır,
Göyün yeddi qatını oduyla büryan eyləyir.

Aləmdən sorsaz əgər, görməyib heç müşkülü-dərd,
Güya ki, ağrıları könlümü səhman eyləyir.

Bir kimsə dadıma yetməz, bilirəm özüm bunu,
Şirin xanım bimara yamanlığı, can eyləyir.

04.12.1992

GÜNÜM XOŞ OLUR

O gül üzlü yarımı görəndə günüm xoş olur,
Görməyəndə gözümə minlərlə qanlı yaş olur.

Açılır bəhri-bağım, ətrindən mən məst oluram,
Şövqə gəlir fərəhim, qəlbin evində baş olur.

Bir sevda yolçusuyam halımı sorsanız əgər,
Sevgisiz könlün evində qəlb yerinə daş olur.

İllərlə həsrətini çəkdiyinə özgə baxır,
Ürəyim cuşa gəlir ağrısına çaşbaş olur.

Şirin xanım binəva basandan ayaq dünyaya,
Onunla eşq əhli yox, hicran özü sirdaş olur.

04.12.1992

BAĞRIMI QAN ELƏYƏN

Bağrımı qan eləyən vəfadarım gəlməz imiş,
Qana dönmüş ürəyin heç məlalın bilməz imiş.

Günü ağlar, gecəsi uyğusu uçmuş kimiyəm.
Dünya tutmaz acımı, yarım gəlib bölməz imiş.

Axan göz yaşlarıma dəryalar aman eləyir,
Yetib imdadıma yar, göz yaşımı silməz imiş.

Dil açıb lal baxışı hamıdan aman istəyir,
Bəxtimə düşənə bax, gör necə dilbilməz imiş.

Qəlbə sığmaz kədərim, aləmi candan eylər,
Əcaba, Şirin xanım bu bəladan ölməz imiş.

6-9.12.1992

GÜLÜZLÜ SABAHIM GEDİB

Bu canımın əlindən gülüzlü sabahım gedib,
Gözümün yaş çeşməsi, min naleyi-ahım gedib.

Ağlayır bu binəva ürəyim, yox dada yetən,
Könlümün pərvanəsi, tacı-səcdagahım gedib

Bir deyən olmadı ki, bunca zülüm olmaz, müdam,
Ürəyimin danəsi Xosrovu-pənahım gedib.

Şahidim, tək olan Yaradan bilir, dərd əhliyəm,
Sevincim, səadətim o sevgi allahım gedib.

Kimə üz tutdumsa mən, tez kor etdi istəyimi,
Qəlb könül pərvanəsi, bunca qibləgahım gedib.

Acılar bağra düşüb, eyləyir ağrı ağıla,
Gecə-gündüz fikiri dönən dil gah-gahım gedib.

Şadimanın dərdinə yanmadadı öz ürəyi,
Ondan da ruha yaxın, qəm verən günahım gedib.

08.12.1992

DİLDƏ BƏYAN EYLƏMİŞƏM

Səni çox sevdiyimi dildə bəyan eyləmişəm,
Bilsin qoy cümlə-cahan mən ki, əyan eyləmişəm.

Baxışın sevda dolu od qalayır qəlb evinə,
Sənsiz öz gözlərimi qana giryan eyləmişəm.

Bil ki, hər gəlişinə müntəzirəm, sahibi-mərd,
Ey pasibanım, könlü eşqi duyan eyləmisən.

Niyə Tanrım məni daş qəlbli edib öz işidir?
Ciddi-cəhdiylə onu eşqə uyan eyləmişəm.

Sən də ey Şirin xanım, ərz elə, öz ərzi-halı,
Bircə canım var idi, mən sənə can eyləmişəm.

08.12.1992

QƏMİNƏ SİLDİRDİ YARIM

Ağlayan gözlərimi qəminə sildirdi yarım,
Nainsaf olduğunu aləmə bildirdi yarım.

Dildə bəyan elədi, əhdinə sadiqliyini,
Bir ürəyi ikiyə gör necə böldürdü yarım.

Sübhü ağlar, gecəsi karvanı köçmüş kimiyəm,
Eşqini faş eləyib, özünü güldürdü yarım.

Hər bəla gələsə gələr bircə onun üzündən,
Girdi qəmin bağına, qəmimə gül dərdi yarım.

Şadiman bir kəsə heç, dünyada baş əyməz idi,
Çağlayan ürəyimi dirikən öldürdü yarım.

09.12.1992

BELƏ DAD EYLƏMƏ

Ey dil, əhdə vəfasızdan indən belə dad eyləmə,
Sən hər könül oğrusunu öz qəlbinə ad eyləmə.

Sədaqətdən, məhəbbətdən xəbərsizlər nə çoxdur ki,
Ürəyinə yovuq bilib, sonra da imdad eyləmə.

Dinlət könül duyğuların, Allahına tut üzünü,
Şükürlər et hər saata, naqisdən fəryad eyləmə.

Qəm keçər bir buluddur ki, durduğu yerdə dayanmaz,
Sən onu sinənə salıb, addımbaşı yad eyləmə.

Şirin xanım, hər gecənin açılan bir səhəri var,
Al gündüzün Məcnunutək könlünü səyyad eyləmə.

09.12.1992

YOLUMDA YANDIRDIN ANA

Ağrıyan ürəyini yolumda yandırdın, ana,
Canı canın eşqinə candan usandırdın, ana.

O tuti ləblərindən axdıqca haqq laylaları,
Mənə öz qibləmi, pak Tanrımı qandırdın, ana.

Bu çılğın ürəyimə tökdükcə atəş qovunu,
Çocuqkən gözlərimi odla oyandırdın, ana.

Acılar taleyimi yolladıqca yoxuşlara,
Kəsibən yollarını zorla dayandırdın, ana.

İlahi sevgilərin qor salıb könlün içinə,
Qəlbimi öz dilimə eşqlə boyandırdın, ana.

Sənə qurban dediyim canım yolunda amadə,
Mərhəmət çırağını bağrımda yandırdın, ana.

İlahi nuru sənin qəlbinə verdi saflığı,
Dözümünlə lap mənə mələyi andırdın, ana.

Sinən üstdə bəslədin canından əziz balanı,
Dəyəcək hər bəlanı, hər hökmü dondurdun, ana.

Bu Tanrı vergisini İlahi göndərdi sənə,
Onu simurq quşutək köksümə qondurdun, ana.

Şahid oldun buna ki, böylə ürək kimsədə yox,
Eşqinin heykəlini cismimdə yondurdun, ana.

Sən bütün varlığıyla hər zaman qulun Şirinə,
Canından can bəxş edib aləmə sandırdın, ana.

09.12.1992

KÖNLÜMƏ YAR BİLMİŞ İDİM

Dadıma yetməyəni könlümə yar bilmiş idim,
Əcayib sevgisini sərvəti-var bilmiş idim.

Onsuz ağlar gecəmi gündüzümə car elədim,
Eləyib könül qubar, naleyi-zar bilmiş idim.

Qeyrisinə qəlbimin qapısına vurdum kilid,
Var ikən sevgili yar, özümə ar bilmiş idim.

Sübhün üzütək şəbnəm gətirib qəmli gözlərim,
Həsrətin gəlişini qışdakı qar bilmiş idim.

Şadimana, sızlamaq bir kimsəyə vermib xeyir,
Eşqin könlümə gələn, yolunu dar bilmiş idim.

16.12.1992

BƏSLƏDİM KÖNLÜM EVİNDƏ

Bəslədim qəlb evində pünhan eşqin vüsalını,
Nəsibim çəkmək oldu, çox acı qeylü-qalını.

Dolandım pərvanətək xəyalların yörəsinə,
Qismətim uyğularda sormaq oldu əhvalını.

Gecəm ağlar, gündüzüm pərişanlıq röyasında,
Bir yol olmaz qismətim üzbəüz soram halını.

Ağrıdır ruhumu, candan çıxmayır heç ayrılıq,
Bilməm mən necə silim, ürəkdən getməz xalını?

Şadiman biçarənin dərdini bulan kimsə yox,
Yetirə yolum üstə, bu eşqin Rüstəm-zalını.

19.09.1992

GÜNÜ QARƏ MƏMLƏKƏTİM

Dolaşır içində qəm günüqarə, məmləkətim,
Çəkdi kamına səni dərd dübarə, məmləkətim.

İblis donlu yağılar evində meydan suladı,
Daşındı yad ellərə altun, parə, məmləkətim.

Tükənməz sərvətinlə nə çox xəzinələr doldu,
Can dedin, canına yağı əğyarə, məmləkətim.

Yenə də mərd igidlər gavurla savaş içində,
Güllələr ürəyində açıb yarə, məmləkətim.

Tanrı da zülümlərdən vəcdə gəlib nalə çəkir,
Əcabə ahın, fəğanın catıb harə məmləkətim?

Elə bil yerin, göyün görən gözləri tutulub,
Göstərməz qüdrətini bir yol xarə, məmləkətim.

Hayla Boz Qurdlarını, sıyır qından qılıncını,
Tülkü xislətliləri gətir zarə, məmləkətim.

Gündüzünün necə də qaranlığa bənzəri var,
Tükənib səbir evim, dözmür tarə, məmləkətim.

Müddətdi qara geyib, bəmin, zilin nalə çəkir,
Ağlamaq nəsib olub kaman, tarə məmləkətim.

Titrəsən zəlzələtək, lap düşər ayağa gəda,
Qanını tök girdiyi dər-divara, məmləkətim.

Çatar imdadına tez nərəsiylə qurd savaşı,
Oğullar meydanlarda gələr karə məmləkətim.

Əlbət, ey Şirin xanım, hər gecənin gündüzü var,
O əsir yurdlarıma tapar çarə məmləkətim.

16.12.1992

GÜNÜM XOŞ OLUR

Yarım o gül üzünü gördükcə günüm xoş olur,
Baxışın könlə girir qəlb evimlə sirdaş olur.

Bəxtiyarlıq çuğlayır xəyal evimi, ey qafil,
Yoxluğundan usanan gözümdə qanlı yaş olur.

Əhli-cahan da mənə qərib olur, sanki bu dəm,
Qəlb usanır həyatdan vuran ürək lal daş olur.

Dözürəm hər cəfaya, sən ki, onu düz bilirsən,
Qəmin ömrü çevirir, hər gün özü çaş-baş olur.

Bu Şadiman tifilin inamın ovlayan zalım.
Yanan qəlbim sadəlövh, ağrıyan yazıq baş olur.

19.09.1992

TƏK SƏNDƏN İMDAD UMMARAM

Yanaram həsrət odunda, səndən imdad ummaram,
Sanaram əhli-könlə bir qafili yad ummaram.

Ahımdan yansa sinə öz içimdə buludlannam,
Bu büryan ürəyimə o eşqidən dad ummaram.

Könlü alan vəfasız, əqlim sənə peşkəş deyil,
Qopsa sinəmdən min ah, min belə fəryad ummaram.

Gəlsə öz vəfasını söyləsə bülbül sayağı,
Guya bəxtin sarayın edəcək abad, ummaram.

Gələ əfvə, düşə bir ayağına sevgim mənim,
Sən olsan Şadimana eşqidə Fərhad ummaram.

19.09.1992

KEÇDİ ÖMÜR AH-VAYLARDA

Ömür keçdi ah-vaylarda niyə ona həyanım yox?
Nə halımdan xəbər tutan, nə bir onu duyanım yox.

Ey dil, şərəf saydın niyə əğyarınla ötən günü?
Ömür keçdi qəm içində, bəxtəvər dövranım yox.

Güman eylə, min illərlə əcəl bizə aman verər,
Sən zülüm et nəkarəyəm, nə höküm, nə fərmanım yox.

Sitəmindən gül bağrımda od qalayır hicran yenə,
Bu xəstəhal vücudumda, ya Rəbb, tabı-təvanım yox.

Qaliba, mən binəva Tanrıdan haqq diləməkdə,
Qırılıbdı ömür sapım, bundan ağır zamanım yox.

Böylə xəyal eyləmə ki, bəşərə övladam, eyvah,
Diri ikən məzardayam nə dünyam, nə cahanım yox.

Şirin xanım, əzrayıl da məndən uzaq dolanmaqda,
Öylə bəxti qarayəm ki, canım var, canalanım yox.

20.12.1992

POZULDU İTTİFAQIMIZ

Hansı mürvətsiz əliylə pozulub ittifaqımız,
Düşdü araya, müşkila, qana dönmüş nifaqımız.

Həmdəm bilib bu könlümə yar eylədim, ey gül səni,
Dağıldı öz əlimizlə nədən böylə tifaqımız?

Aldı səhranın yelləri, soldurdu qönçə gülləri,
Yaman yerdə xəzan oldu, çiçəyi açmış bağımız.

Həyat coşan bir dəryadır, sahilləri atar səni,
Odur ki, can bədəndəykən, heç vaxt bitməz fərağımız.

Şirin xanım, bəxtəvərlər sırasına qatma məni,
Ömür keçər bir karvantək, getməz könüldən dağımız.

22.12.1992

EY GÜLÜZLÜM, CANINDADIR

Könlümü ram etməyin, ey gülüzlüm, canındadır,
Ayrıla bilməz ürək hər saat o anındadır.

Təmizlik bir güzgüdür, bilir bunu sevgililər,
O da şükür Xudaya, doğulandan qanındadır.

Can qopar, məhvə gedər, billah, sənsiz badi-səba,
İnan şöhrətim, şanım tək sənin ad-sanındadır.

Gecəni mehman edib yollaşıram uyğuya mən,
O da alıb ruhumu nə vaxtı ünvanındadı.

Müddətdi Şirin xanım səndən ayrı dolanmaqda,
Hali ol, ancaq ki sən, canım sənin yanındadır.

22.12.1992

YAMANCA ABAD EYLƏDİN

Ey dil, könül mülkümü yamanca abad eylədin,
Dərdə girmiş başımı, sən də əcəb şad eylədin.

Bir əyilməz dağ təki tufana dözmüşdü sinə,
Qoydun gözdə kamımı, könlümü bərbad eylədin.

Bir biləydin, qaliba, nə bəslədim ürəkdə mən,
Salıb onu ahlara, sən yamanca ad eylədin.

Ağladıb gözdə yaşı, güldürməyə cəhd etmədin,
Ancaq cəhdin oldu ki, sinəmdə fəryad eylədin.

Yar, girib qılığına, de kimlər öyrətdi səni?
Bəxti qarə Şirindən belə tezkən dad eylədin.

24.12.1992

YARIM BƏXŞİŞ EYLƏDİ

Yarım bəxşiş eylədi, qəlbdəki dağları mənə,
Çox gördü keçirdiyim bu acı çağları mənə.

Saldı dillərə, müdam, eşqinə munisliyimi,
Tuşladı gündən-günə min bir maraqları mənə.

O könül qönçələri düşdü tufanlar içinə,
Eylədi, yaman barat xəzanlı bağları mənə.

Döndü eşqindən, hənuz, o getsin əğyarə tərəf,
Yetirdi vəfasızdan, yadlar soraqları mənə.

Sorsanız əhvalımı, oxuyun ərzi-halımı,
Yazdırdı, biməfalar qəmli varaqları mənə.

Şadiman, böyləcə zülüm etdi, əziz sandığın,
Özündən nişanə qoydu, könül ağları mənə.

24.12.1992

BƏNİ-BƏŞƏR GƏLDİ-GEDƏR

Bəni-bəşər gəldi-gedər, əcəllə yaşı tükənər,
Ömürlər dörd fəsildir ki, sonunda qışı tükənər.

Dərdlini də, dərdsizi də üyüdər fələyin qəmi,
Ölənینə ağlayanın gözündə yaşı tükənər.

Ağılsızı öz əliylə salar şər taxtı-tacından,
Xainlərlə hər ölkənin torpağı, daşı tükənər.

Tanrı axır zaman üçün parayla imtahan edər,
Fərmanından çıxanların ağıllı başı tükənər.

Həyat keçər qanunlarla, zaman günü biçər keçər,
Bacaranlar zirvə tutar, bacarmaz naşı tükənər.

Bulud vurmuş göylər təki, hönkürər hər can yiyəsi,
Donar gözlərdə qan-yaşlar, könül tələşı tükənər.

Şirin xanım, səyyarələr İlahinin əlindədir,
Bu dünya bir üzükdür ki, ləl olsa qaşı tükənər.

25.12.1992

FANİ DÜNYANIN ƏHLİYƏM

Sorma məndən, Rəbilla, fani dünyanın əhliyəm,
Haqqı şamu-qəriban Yezid əlində Əliyəm.

Usanıb müşkülü-cananın badından ürəyim,
Məcnunun haqqı səda, səhraya düşmüş dəliyəm.

İslanır göz yaşımın xərabəsində bağırım,
Qanə dönmüş xan Araztək naləsindən bəlliyəm.

Gülməsinlər, ağzıgöyçəklər mənim fəraqıma,
Haqq məni doğub bətindən, mən onun sağ əliyəm.

Haqqın əsiri olub, çox düşmüşəm girdabına,
O zamandan, müşküla, bülbülü-tuti diliyəm.

Yolundan azmış, müdam, bu ərzi nəhir eləyən,
Gözü qızmış baharın yumşalmayan dağ seliyəm.

Qınamasın Şadimanı könlə arif olmayan,
Cismi-canım sağ ikən, mən bu dünyada ölüyəm.

11.09.1993 Pirallahı

GÖYLƏRƏ TUŞ OLDU FƏLƏK

Yenə sinəmin ahı göylərə tuş oldu, fələk,
Mənim kor bəxtimə bu əcəbcə nuş oldu, fələk.

Ruhun uçub getməyi ərzidə bir səba yeli,
Qanadlı pak mələyim gör necə quş oldu, fələk.

Unutdum yazdığını alnıma yazı yazanın,
Bunun da müqəssiri əqlimdə huş oldu, fələk.

Dedim, o gül üzünü sevəli bəxtim açılar,
Hicranın gətirdiyi yamanca qış oldu, fələk.

Sevəli Şadimanın bəxtinə bulud axışır,
Düşəli pis nəfəsə, ahı qarqış oldu fələk.

07.06.1994

UDDU MƏNİ EHTİYAC

Ürəyim partladı, ya Rəbb, uddu məni ehtiyac,
O üzü qara paraya, satdı məni ehtiyac.

Çarə bulan bəs hanı, bu kəmfürsət zamanədə?
Şeytanın od-ocağına atdı, məni ehtiyac.

Bir duyan yox halımı, izhar edim bir dəm ona,
Dərdimlə, dərdin belinə çatdı məni ehtiyac.

Eyləyib dost-düşmənin içində bağrımı xəcil,
Canımı qana salıb, ağlatdı məni ehtiyac.

Fəryadım donub içimdə şimalın buzlarıtək,
Çalğısız, sazəndəsiz oynatdı məni ehtiyac.

Edirəm gecəmi ah, gündüzüm fəryada dönüb,
Bir qəfəs bülbülütək çağlatdı məni ehtiyac.

Diriyəm, deyib qürrələnmə bağrı parə Şirin,
Min ilin ölüsünə nə çatdı məni ehtiyac?!

11.09.1993 Pirallahı

İMDAD EYLƏ

Allahım, and verirəm eşqimə imdad eylə,
Viran olmuş könlümü bircə yol abad eylə.

Bəndənəm yaratmısan, ey Xudam, öz hökmünlə,
Bu bəxti qaranı da bircə kərə yad eylə.

Zülm etdikcə mənə ahımdan aləm dağılır,
Çarə bulmursan əgər, nəş'əmi fəryad eylə.

Mən ki, qoyduğun yola müntəzirəm, yox sual,
Çıxsam izindən, hənuz, haqqıma min dad eylə.

Şadiman biçarəni, ya ucalt ərşinə sən,
Ya uçurt qəlb sarayın, ömürlük bərbad eylə.

07.06.1994

ŞÖVKƏTİNƏ QURBAN OLUM

Baxışının oduna, şövkətinə qurban olum,
Üzünün həyasına, hörmətinə qurban olum.

Gözlərin qaranlığa sübhətək almaz çiləyir,
Mərhəba, Yaradanın qüdrətinə qurban olum.

Eşqinin çeşməsinə mələklər qanadın salır.
Tanrının cənnət-məkan nemətinə qurban olum.

Gecələr baş qoyursan hicranımın yatağına,
Çəkdiyin eşq yolunda zəhmətinə qurban olum.

Qoy olsun duz-çörəyim, bir də ürək təmiziyim,
Deyim mən, məmləkətim, dövlətinə qurban olum.

Hicrindən gecələri ah çəkirəm, sübhə qədər,
Eşqimin fərağına, zillətinə qurban olum.

Şadiman biçarəni salmısan atəşə, müdam,
Ey Vətən, səni sevən millətinə qurban olum.

07.06.1994

ALƏMƏ XAR ETDİ MƏNİ

İlahi, sevgili yar aləmə xar etdi məni,
Salıb oduna, müdam, əcəbcə yar etdi məni.

Gülüşü özgələrin canına məlhəm, dəvadı,
Ününə təşnə qulaq, qaliba, kar etdi məni.

Edib eşqin cununu, biyabani-naçar ürək,
Salıb dilə-ağıza yamanca car etdi məni.

Gözümün qan yaşları aləmləri əsir edib,
Gözü kor çeşmələrə, ömürlük bar etdi məni.

Şadimanı qınama, könlünə arif olmayan,
Küllü-dünya qəmiylə dəmbədəm, zar etdi məni.

25.07.1994

GƏL EŞQİMİN ÇARASI

Gəl eşqimin çarası, başımın min bəlası yar,
İçimdə zindanı qəm, ürəyimin nalası yar.

Çox müşküllər çəkirəm, üzündən müddətdi aman,
Adamı zülmə salan Adəmin şux balası yar.

Mən sənin dərdinlə çox qəm sarayın ram etmişəm,
Mən də ki, Leylayi-eşq, cünunların əlası yar.

Olub könlüm görəli, həsrəti-hicrana düçar,
Şahı-sultanı-əmir, tilsimlərin qalası yar.

Göndər ol gülüzlünü bir görüm röyada, müdam,
Məkanı cənnəti-gül, uyğuların talası yar.

Şadimanın eşqini qınama, ey əhli bəşər,
Ölsəm də, ruhum ilə canbir olub qalası yar.

25.07.1994

TÖKÜLÜB QƏLB İÇİNƏ

Tökülüb qəlb içinə yenə də ayrılıq qəmi,
Rəhmə gəl sən də, fələk, niskilimə tutma dəmi.

Yazan bəs necə rəva gördü, bu taleyi mənə?
Dönmədi, yaxşılığa bir mənə sarı qələmi.

Qapılıb öz içinə, ağı deyib ağlar ürək,
Baxmadı, üzümə bir yol Yaradanın kərəmi.

Qapı açan, qapımı salıb min yerdən qıfıla,
Yağdırır, qəlb evinə bir dünya ahu-ələmi.

Doldurur, buludunun bəbəklərin qanla fələk,
Hər gözü min dəryadı, udacaq dünyanı nəmi.

Şadimanın dərdini sorma, ey müşkila, məndən,
O ki, bülbül sübh-səhər, inlədər ünü aləmi.

26.07.1994

YANDIM ODA

Mən səni sevgimə sadiq bilərək, yandım oda,
Sanıb bir dəfnə onu sübhə, alovlandım oda.

Demə, bu fənayi-eşq atacaq məni zillətə,
Vüsalın xəyalını, gecələr qısqandım oda.

Hicranın ürəyimi yaman parça-parça edib,
Mən onu könlümə atəş bilərək, sandım oda.

Ocağım ərşə büləND, fələk bilən dəvası yox,
Acısından tükənib, qaliba, usandım oda.

Şadimanın alovunu üfürən tufanı eşq,
Köksü ilğımlı fəza tutuşdu, qovlandım oda.

26.07.1994

ALƏMƏ BƏYAN ELƏMƏ

Çəkib sinəmə dağı, aləmə bəyan eləmə,
Gəl haqqa qail könlə, zülmünü əyan eləmə.

Həsrətə tuş bəbəyim, sübhə qədər yaş axıdır,
Salıb uyğumu gözə, köksünə həyan eləmə.

Səni dost bildi ürək, yağıya döndün necə sən?
Girib sinə içinə, qəminlə cəryan eləmə.

Məni yandırıb yaxır, od təki hicran gecəsi,
Yanıram eşqimə mən, sən onu büryan eləmə.

Həsrət munis olalı, göz də yaşa aşiq olub,
Dübarə sən də onu, sellərə giryan eləmə.

Şadimanın könlünə, onsuz da çıxdın bivəfa,
Düşüb araya, müdam, ortada tüğyan eləmə.

20.10.1994

FƏLƏK İMTAHANA ÇƏKİR

Dərdə çara bulanı fələk imtahana çəkir,
Dünyadan doyanları, dübarə cahana çəkir.

Bu həyat zamanənin qovğasına yananları,
Üzünə tutub ələk, bir gündə min dara çəkir.

İnsan dəryada qayıq, rüzgarlara sinə gərir,
Alıb ələ avarı, sularda hər yana çəkir.

Eşqə mübtəlaların elçisidir fələk özü,
Hicranı şah eyləyir, bir canı min canə çəkir.

Şadiman vaxtın qaçır, hər anını bük ürəyə,
Dünyanın vəfası yox, ömrü zaman sona çəkir.

20.10.1994

QƏMƏ ƏSİR ÜRƏYİM

Qəmə əsir ürəyim tuşdu, cəfalara nədən?
Öylə həsrətdə qalıb, zövqü-səfalara nədən?

Hicran girib yatağa boğur məni sübhə qədər,
Gecə də sitəm edir əhdə vəfalara nədən?

Fələyin gərdişinin əsiri-mübtəlasıyam,
Əlac etmir bəxtimə dünyada, bir çara nədən?

Mənim eşq əməyimi bilmədi munis nə edim?
Onun da zərbəsini can eylədi yara nədən?

Şadiman, sən də açıb könlünün sevda qapısın,
Orada yer verirsən o bivəfalara nədən?

20.10.1994

ƏHLİ-HALI İSTƏRƏM

Ağladıb güldürəcək bir əhli-halı istərəm,
Savaşı qəlb ovudan, ol qeylü-qalı istərəm.

Cilvələtsin könlümün duyğuların şamu-səhər,
Demərəm, mən bir daha dövləti-malı istərəm.

Müşkü-ənbər qoxuyan, can ovlayan sevgilərin,
Dildə şəkkəri-nabat, dodaqda balı istərəm.

O sevgi xanəsini zülfüm təki qara edən,
Ağ üzə kölgə salan bir mərcan xalı istərəm.

Şadiman gecəm sayaq tökmə gözün şehlərini,
Əsiri olduğum, o şirin vüsalı istərəm.

20.10.1994

ÇƏKMƏ İMTAHANƏ MƏNİ

Qıyma eşqə, Xaliqim, çəkmə imtahanə məni,
Onsuz da çox sınağdan keçirtdi, zamanə məni.

Ömrümün qəm çeşməsi həyatımı boğdu yaman,
Dübarə cana qıyıb, yığmagınan canə məni.

Bu qara bəxtin üzündən çox bəlalar çəkmişəm,
Edib rüsvayı-cahan, sən də salma qanə məni.

O Leyli üzlüləri dünya verdi yola, müdam,
Tutub tay könlü ona, söylətmə divanə məni.

Sənin etibarına çoxları çəkdi qələmin,
Eşqimin özünü yox, eyləmə bahanə məni.

Gərçi, isbat etmək istərsən əgər sevdiyini,
Qalx könül zirvəsinə, tut orda şahanə məni.

Şadiman, şam kimi yan, hər gecə başdan ayağa,
Elə eşqlə gətirib Yaradan cahanə məni.

22.10.1994

SƏDAQƏT EYLƏ

Ey dil, dildarə sədaqət eylə,
Uyma əğyarə, məhəbbət eylə.

Burax yetənlə aşinalığı,
Mehmanımıza ülfət eylə.

Sən könlünü ver sevgili yarə,
Demirəm, bu yolda xiffət eylə.

Çox gözlər dikilər eşqinə bil,
Gəl hərcayilərə nifrət eylə.

Vəfasızlardan qəlbə fəraq çox,
Əhdə-vəfalara hörmət eylə.

Döz eşqin yolunda hər cəfaya,
Bu yolda əzm qıl, mətanət eylə.

Şadimanın könlün oynatma sən,
Əhdə yetməkçin dəyanət eylə.

09.12.1996

ÜRƏYİM VURMADADI EŞQ İLƏ

Yenə candan ürəyim vurmadadı eşq ilə,
Yenə yolunda yarın durmadadı eşq ilə.

Yenə röyaları yatmayaraq sübhə qədər,
Yenə zəka huşunu yormadadı eşq ilə.

Yenə yar sevgisinə coşmada divanə can,
Yenə sevdaya saray qurmadadı eşq ilə.

Yenə könlümə yar qıymayaraq rəhm, filan,
Yenə biganələri sormadadı eşq ilə.

Yenə əğyara uyub ol canı-dildən yarım,
Şadimanla aranı vurmadadı eşq ilə.

30.12.1996

CAN AĞLAYAR

Ya İlahi, fərağından, için-için can ağlayar,
Təbib könlə əlac bulmaz, dərdlərə dərman ağlayar.

Ürəkdəki ağrılardan, üsyan edər gözdə yaşlar,
Elə nalə çəkər könül, göz təki əfğan ağlayar.

Qəlb içində yaralar da bitişməzdir, zülümlərdən,
Məlhəm eylər, dəmadəm puç, tələşdan loğman ağlayar.

Hər tərəfdən ələmlərin ünü ərşə məzar olar,
Dağ üstündə gələr dağ da, bu dağdan fəğan ağlayar.

Yalanlar ram edər yeri, zirvələrdən enər dünya,
Əsir olar harama can, bu candan dövran ağlayar.

Qanadlanar ömürlər də təzə uçan quşlar təki,
Haray çəkər qocalıq da, haraydan zaman ağlayar.

Yenə gözdən axar yaşlar, bəbəklərdən üzə sarı,
Bu yaşlardan qəhərlənən bulud nə, leysan ağlayar.

Dünya özü qan içində, hey qanlardan savaş doğar,
Bir-birini yağı sanan cahan yox, insan ağlayar.

Deməsinlər, Şirin xanım özünə şadiman söylər,
Şadimanlıq sevdasıyla, o da yarımcan ağlayar.

29.12.1996

CANDAN ƏZİZ

Candan əziz canıma can, yar, yar,
Dövür edən damarda qan, yar, yar.

Gecələr dönmüsən pərvanəyə,
Şövqün edir gün firavan, yar, yar.

Ömrümüz ötmədədi yel təki,
Məhəbbətlə sürək dövran, yar, yar.

Qoyma məni həsrətlə fəraqda,
Qismət olmaz bir də zaman, yar, yar.

Bu Şadiman qəlbinin sultanı,
Əbədi sevdaya inan, yar, yar.

30.12.1996

ÖMÜR ÖTƏR BULUDLARTƏK

Ömür ötər buludlartək, hər günü bir yelə bənzər,
Könül nalə çəkən kaman, hər nidası dilə bənzər.

Vəfa qılar, bağa bağban bülbüllərin şövqi ilə,
Bağıban da payızında, boynubükük gülə bənzər.

Yenə bəxtin göylərində, cövlan edər dumanları,
Örtüyü şux həmailtək, bəmbəyaz bir tülə bənzər.

Xəfif-xəfif rüzgar əsər, yerlə-göyün arasında,
Axar yaşlar buludlardan, dəryalarda selə bənzər.

Həzin-həzin yanar könül, qalxan segah naləsinə,
Pərdə-pərdə qopar haray, harayları zilə bənzər.

Ya İlahi, qəlbim elə sərgərdandı müşküllərdən,
Savaşlarda məğlub olmuş, yurd itirmiş elə bənzər.

Şadiman can edər fəda, yarına heç eyləməz fərq,
Hicranlara alışar can, bədən yanmış külə bənzər.

29.12.1996

EYLƏDİ ZİYAN KÖNLÜMƏ

Dara çəkdi qəlbi yar, eylədi ziyan könlümə,
Tapmadım dünyada heç, bir kərə həyan könlümə.

Çarə bulduqca, ürək sinəmin can yarəsinə,
Dəmadəm yarə vuran, olmadı əyan könlümə.

Mən ki, başdan ayağa yanmada şəmtək gecələr,
Etdi yar qəlbi hədəf, etmədi bəyan könlümə.

Niyə bəxtimə nicat aramayır, Tanrı, hənuz?
Qismət edə qəlbimi, eşqimi duyan könlümə.

Şadimana, eləmə ötüb gedən ömrə tə'nə,
Çıxmadı püşkünə heç, eşq ilə uyan könlümə.

15.01.1997

ŞİKAR ELƏDİ

Yar yenə ovçu kimi, könlümü şikar elədi,
Sonra eşqi-filanı, büsbütün inkar elədi.

Etdi ömrü uzunu eşqimə biganəliyi,
Nə zülüm eylədisə, hamsını bekar elədi.

Getdi öz şövqüylə o, əğyarla aşinalığa,
Yetdi eşq mənzilinə, həsrətə ah-zar elədi.

Güya səcdə qılaraq, qəlbə cəfa min kərə yar,
Saldı hicran oduna haqq qulağın kar elədi.

Yayaraq aləmə bu sevgimizi hər vəch ilə,
Salıb dilə-ağıza, hər obaya car elədi.

Niyə yar verdi rəvac eşqə saray yapmaq üçün?
Məni də, qəlb sarayı tikməyə memar elədi.

Gərçi heç əhdimizə olmayacaqdır sadiq, o,
Niyə həm qəlbimi, həm könlümü qübar elədi?!

Şadiman nə qazanıb, ayrılığın faydası yox,
Könlə həsrət fəraqın, hər zaman o yar elədi.

02.01.1997

AŞİKARƏ SÖYLƏYİRSƏN

Niyə o eşqimi, yar, aşikara söyləyirsən?
Eyləyib məntək əsir, hər şikarə söyləyirsən.

Edərək ömrü fəna, sən də pərizadələrə,
Bunu bir sevgi sanıb, çox nigarə söyləyirsən.

Mən ki, bir loğmana bənzətmədəyəm sevgimizi,
Etməyib eşqə inam, sən bekarə söyləyirsən.

Yenə mən könlə qəfəs tutmadayam can evimi,
Sən də bu möhnətimi de nəkarə söyləyirsən?!

Şadimana, niyə bəs hər gecə pərvanəliyi,
Səni hicrana atan zülümkara söyləyirsən?!

15.01.1997

GƏL, GÖZÜM GÖRSÜN SƏNİ

Gəl, gözüm görsün səni, çəmənzarda lalə kimi,
Yıxma gəl can evimi könlümdəki nalə kimi.

Həyat dodaqlarından məsti-şərab dadı verir,
Vurma qəlbimi daşa, bir də sən piyalə kimi.

Məni candan eləyib, at gecənin qucağına,
Yenə qov ruhumu o, röyadan xəyala kimi.

Hələ də sevgimizin oduna yanmada könül,
Neçə hicran uçurub həsrətdən vüsala kimi.

Şadimana, oyanaq yenə də eşq həvəsinə,
Bəzəyək yar yolunu, ipəklərdən şala kimi.

16.01.1997

VERMƏDİ QİYMƏTİMİ

Vermədi qiymətimi, yar yenə peymanəliyin,
Dedi: O, Məcnuna tay eşqidə divanəliyin.

Söylədim: Mən gecələr şam təki yanmada hələ,
Dedi: Xələl gətirər bir belə pərvanəliyin.

Söylədim: Kəbə anır, eşqinə səcdəni könül,
Dedi: Bu səcdəni mən sanmıram imanəliyin.

Söylədim: Dəryalara bənzəri var, sevgimizin,
Dedi: O vəhmi belə eşqidə ümmanəliyin?

Söylədim: Eylə təbib, Şadimana vüsalı tez,
Dedi: Əbəsdi, hələ eşqidə loğmanəliyin.

17.01.1997

MƏNİ CANDAN ELƏYƏN

Məni candan eləyən yar mənə candı gecələr,
Eləyib eşqə həvəs, zülmətə yandı gecələr.

Allah, Allah yenə də idraka vardıqca könül,
Məni atəşə yaxan dünya divandı gecələr.

Yenə əqlim, şüurum qapmada göyləri, hənuz,
Əsir sükuta bəşər, əcəb zamandı gecələr.

Haqqa allahlıq edən bəndələr röyada hələ,
Uyuyan gözlərə də sisdi, dumandı gecələr.

Kimi tənha ağaca könlünü mehman eləyir,
Könlü möhnətə salan ahdı, amandı gecələr.

Çoxu yar həsrətinə yanmadadı sübhə qədər,
Çəkir sinəyə dağı, öylə yamandı gecələr.

Şadimana, edə qəsd könlünə pərvanə kimi,
Eləməz dərdə dəva, çünki, fəğandı gecələr.

17.01.1997

ƏFĞAN ELƏDİ

Allah, Allah, yenə də yar necə əfğan elədi?
Qana düşmüş ürəyi, bir də yenə qan elədi.

Verərək qəlbə fəraq, od qaladı könlümüzə,
Niyə yar ahı ilə bir belə fəğan elədi?

Biqəfil gəldi bəla, əhd ilə peymanımıza,
Edərək eşqə cəfa, könlü yarımcan elədi.

Etmədi lütfünü heç, mən təki divanəyə, o,
Verdi həsrətə qərar, hökmünü fərman elədi.

Şadimana, alaraq qəlbini loğman sayağı,
Yenə yar dərdə düşən könlünə loğman elədi.

01.02.1997

SƏN QİDA VERDİN ANA

Sən qida verdin, ana, damarda al qanımıza,
Elədin canı fəda, yaxşıca xoş canımıza.

Ağlayan gözümüzün yaşına əncam çəkərək,
Gecəni sübh elədin, hər zaman əfqanımıza.

Verərək gəncliyini eşqlə çocuq könlümüzə,
Ömrü bəxşiş elədin, sabahkı dövranımıza.

O tifil çöhrəmizə hər zaman etdin tamaşa,
Biqərar yetdin, ana, ah ilə amanımıza.

Sən beşik başına çox ömrünü çıraq elədin,
Hey şərəf verdin elə körpəcə məkanımıza.

Ağ saçın gör necə də, bənzəri var sübhümüzə,
O mübarək baxışın aynadır hər anımıza.

Şadimana, anamız köçsə də dünyadan özü,
Yetəcək ruhuyla o, hər zaman fəğanımıza.

01.02.1997

YOXDU SƏNDƏN SAVAYI

Yoxdu səndən savayı dərdimə dərman, ey dil,
Eylə bir çarə cana, ol mənə loğman, ey dil.

Amanı kəsdi fələk, varmı sözün deyilə?
Məni çərxinə salıb fırladır zaman, ey dil.

Necə sevgidə keçir, günüm munis olalı,
Acı möhlətləri yıx, vermə heç aman, ey dil.

Bağlanıb bəxt qapısı, yenə bu sevgimizin,
Gəl tələs açmağa sən, yaz belə fərman, ey dil.

Hanı Şadimana hicridə bir zərrə büsat?
Ağlayan könlümü gəl eyləmə kaman, ey dil.

13.02.1997

MƏNİ CANDAN ELƏYİR

Məni candan eləyir sevgili yarım, nə üçün?
Aparır əqli-huşu, nazlı nigarım, nə üçün?

Canı qəmlərə salan eyləməz heç yaxşılığı,
Gedib əldən səbirim, yoxdu qərarım, nə üçün?

Elədim, canı əbəs hicrinə qurban, o gülün,
Dadıma yetmədi heç fəsli-baharım, nə üçün?

Gecələr ahım odu şəmi də dustaq elədi,
Əridi tən də bütün, çıxdı aharım, nə üçün?

Şadiman, düşdü könül bu eşqə Leyli sayağı,
Etmədi kimsə əlac, yandı cigarım, nə üçün?

15.02.1997

RUSVAY ELƏDİN

Niyə candan sevəni, sən belə rusvay etdin,
Gözümün yaşını qan, sonra onu çay etdin.

Niyə ağ günlərimi bəxş edərək hicrana?
Şad olan ömrün özün, uf demədən vay etdin.

Sənə candan uyanın, canına qəsd elədin,
Çəkdiyim zəhmətimin hər anını zay etdin.

Niyə həsrəti salıb könlə yağı sayağı?
Yığıb bir-bir ürəyə, hər birini say etdin.

Niyə saldın oduna, verdin qəmi ürəyə?
Yığıb çiyinlərimə, sən üst-üstə tay etdin.

Niyə hicrə əsir eyləyərək sinəm için?
Şadimanı dönüklük niyyətinə tay etdin.

22.12.1997

DEDİLƏR ALDATDI SƏNİ

Halını sorduqca mən dedilər, aldatdı səni,
Başqa bir cana uyub, hicr oduna atdı səni.

Gecə-gündüz inanıb könlümü mən vermiş idim,
Dedilər, min illərin həsrətinə qatdı səni.

Satıb canı bazara düşdü can sevdasına,
Dedilər, para alıb qəm evinə satdı səni.

Ey könül, yadımdadı qurmuşdu yar can çadırı,
Sonra da aha girib min dəfə oyatdı səni.

Daha, ey Şirin xanım, bir kəsə gəl uymagınan,
Sevgi alverçiləri, gör necə alçatdı səni.

04.12.1992

QƏLBİMİZİ YARƏ EDƏ

«Füzuli ədəbi məclis»inin rəhbəri,
haqq dünyasına qovuşmuş qəzəl
ustadı Hacı Mailə ithaf

Nə biləydim bu fələk qəlbimizi yarə edə,
Belə tezkən can ala, tən evini qarə edə.

Bir gözəl insanı bula, üz qoya ünvanına,
Ala candan bədəni, qəbir evə çarə edə.

Aramızdan apara pak Füzuli Mailini,
Dönə əğyarımıza, könlümüzü xarə edə.

Qoydu həsrətdə bizi o «Füzuli məclis»inə,
Çalışdı rəğbətini candakı ah-zarə edə.

Mailin yoxluğuna sinə didən dostları çox,
Necə qıydı Yaradan ürəkləri parə edə?

Sözə ustad olanı apardı dünyadan fələk,
Ayrılıq acısını çalışdı dübarə edə.

Şadimana, sevəcək xəlqi Hacı Mailini,
Bizi ondan ayıran, özünü avarə edə.

11.11.1999

DÖRDLÜKLƏR

Gecəm könlümə dayaq,
Vərəqlər qəlbə mayak,
Bir kimsə odum təki,
Od görməyib bu sayaq.

Ey mənim acı həyatımın etibar və vəfa, zövq və dəyanət, həqiqət və sədaqət, səadət və əbədiyyət dəftəri. Sən könül səmamın Dan ulduzu, Zöhrəsisən! Sənin sayəndəcə nəfəs alır, dünyanı qiyabi olaraq görürəm. Ey mənim tələtümlü taleyimin çılğın və altun şəlaləsi. Gurla, çağla, ömrün sərsəm, sərsəri küləklərinin yolunu bağla! Mənimlə gül, mənimlə ağla. Sevincimlə qol-boyun ol, dərdimlə qucaqlaş. Könül asimanımdan süzülən dördlüklərim, bu həyatdan gördüklərim... Sərsəm həyatımda əsən xəzri küləklərin yolunu bağla, namərd düşüncələrin gözünü dağla! Bütün varlığınla çağla və çağla! Müəllifdən.

28.08.1972 Tağay

1. Düzlük simfonyatək xoş səslənəydi,
İnsan dühasında çox bəslənəydi,
Kamillik cahanda taxtı quraydı,
Əsil həqiqətlə can süslənəydi

***

2 . Ey din evim, ey allahım şeriyyət,
Ey haqq işim, ey günahım şeriyyət,
Ürəyimin dini, imanı sənsən,
Hər açılan al sabahım şeriyyət.

***

3. Tale saldı məni gözdən, ey təbib,
Dərman istəyirəm sizdən, ey təbib,
Bir yolluq məhv eylə, ya da ki, dirilt,
Tale nə istəyir bizdən, ey təbib.

***

4. Ey məni böyüdüb gənc edən ana,
Uşaqkən canımı niyə almadın?
Bivəfa həyatın əlindən, ana,
Zillət çəkmək üçün övlad yaratdın.

***

5. Zaman keçicidir, ömür fanidir,
Qaşla göz arası ömür anidir,
Ey Şirin, boşaldan doldurur yeri,
İnsan ki, dünyanın tükü sanıdır.

***

6. Zamanın içində qaynayan qəməm,
Dərdə ürcah olmuş müşkül aləməm,
Hey dolur, boşalır könül piyaləm,
Donuq baxışlarda dolaşan nəməm.

***

7. Könlümün ahından diz çökür fələk,
Əsir taleyimdə hər acı külək,
Bu Şirin ayağa düşüb, yalvarır,
Bir dinə-imana gəlməyir ürək.

***

8. Başıma döydükcə acı bir zaman,
Könlümün evinə qonaq ah-aman.
Əzrayıl qapıdan girər qəfildən,
Kimsədən diləyə bilməzsən aman.

***

9. Niyə taleyimin atəşi sönmüş?
Ömrümün çarxı da yolundan dönmüş.
Əridir, ey könül, səni bu zaman,
Bu nə bəxt yazısı, nə iriz, yönmüş?

***

10. Məni isindirə bilmədi cahan,
Üşüdü dünyanın ayazında can.
Üzüldü cahan da taleyim kimi,
Qırıldı sap təki ömrümdən hər an.

***

11. Dünyada şirin də, acı da varmış,
Birlikdə vicdanın pilləsi armış.
Ey dar çərçivədə əl-qol atan baş,
Sevinmə, çox vaxtı idrakın darmış.

***

12. Günlər keçir sevinc-şadlıq içində,
Ya şagirdlik, ya ustadlıq içində,
Ömür axır bir su kimi əlimdən,
Ya doğmalıq, ya da yadlıq içində.

***

13. Həyat dolub, bulud təki dayanıb,
İnsan onun yağışına boyanıb.
Duyanlar və duymayanlar dünyası,
Bu leysanın gur suyunda islanıb.

***

14. Həyat odu yandıranda, yanmışam,
Şadlığımı, sevincimi danmışam.
Soyuqluqdan üşüyərək ömürlük,
Sakit-səssiz dinməzlikdə donmuşam.

***

15. Sakitliyə boyanıbdır günlərim,
Hər sədadan oyanıbdır günlərim.
Qəlbimə, könlümə rahatlıq vermir,
Hər çılğın soraqlı, sirli ünlərim.

***

16. Tarix neçə qərinədən yarandı,
Əsrlərin sərt əliylə darandı.
Əskiləri qoca dunya evində,
Bircə-bircə, o, həyatdan sorandı.

***

17. Günlər bir su təki axır əlimdən,
Qara saçlarıma həyat salır dən.
Bir ömür bağında açır çiçəklər,
Digərində isə saralır dən-dən.

***

18. Fikirlərim, xəyallarım qarışıq,
Gah qaranlıq, gah da parlaq gur işıq.
Fəqət, ürək bir çılğınlıq içində,
Sazlı-sözlü qəlbi dolu bir aşıq.

***

19. Unudun insanlar, unudun qəmi,
Şadlıqdır, sevincdir həyat aləmi.
Ömür ötüb keçər, gün gəlib gedər,
Bir də qismət olmaz yaşamaq dəmi.

***

20. Zəhərli danışıq dilə yaraşmır,
Kədərlə şadlığın heç işi aşmır.
Ey təbimin, zəhər dərman olsa da,
Ürək bulandırır, qaynayıb daşmır.

***

21. Tale qara saça səpir ağ çiçək,
Gəl indi bu tezkən ağlıq dərdi çək.
Fikirdən, xəyaldan nədənsə, sanki
Ömür saça deyir: «Vaxtsız cığır çək.»

***

22. Yuxudan həzz almaq zirəklik deyil,
Yatmağı sevməyir nə zəhmət, nə il.
Bu gün gecəmizin həmdəmi yuxu,
Torpaqda gündüzə salacaq meyil.

***

23. Ey müqəddəs sevgi, vəfan hardadır?
Sənindəmi gözün şanda, vardadır.
Mən sənin dünyana qədəm qoyandan,
Eşqim, məhəbbətim, qəlbim dardadır.

***

24. Varlığın ömrümə qənim kəsildi,
Məqsədi bəlli et, tabım kəsildi.
Yolunda həsrətli, bəlalı ömrüm,
Gediş-gəliş yolu neçin kəsildi?!

***

25. Səndə acılığın şərbətin daddım,
Özüm bilə-bilə şadlığı atdım.
Bəlalı eşqinə sadiq qalmaqçın,
Şirini acıya heç niyə satdım.

***

26. Sadiqlik bağına getmişdim pünhan,
Xəyalən amala yetmişdim pünhan,
Birdən bu dünyanın eşq ilhaməsi,
Dedi: Pak sevgidir, bu eşqi-cahan.

***

27. Səndən olmadı heç könlümə həyan,
Gözlər çılğınlıqla eşq etdi bəyan.
Bir bunu bilmədim, müqəddəs aşiq,
Ürək neyləyirdi, sənintək həyan?!

***

28. Torpaqda min qüssə, min şadlıq yatır,
Neçə igid yurdun ad-sanı batır.
Bu hikmətli həyat bilmirəm nədən?
Bir şirin adına, min acı satır.

***

29. Kədər al-qırmızı geyinib, aman,
Oturur taxtında hey zaman-zaman.
Sənin, mənim, onun, bunun adından,
Qan töküb, ev yıxan üzündən, aman.

***

30. Bircə dəfə gül üzünü görəydim,
Gül bağçandan ətirli gül dərəydim.
Sənlə mənim aramızda o yola,
Dərdiyimi bir minnətçi sərəydim.

***

31. Xatirə yazıram sərin bir gecə,
Sözlərim gəncliktək altun və incə.
Yadigar yazdığım söz dəryasından
Saxla, əmanətdir günlər keçincə.

***

32. Könlümdə intizar, gözlərimdə nəm,
Məni ovsunladı yenə çılğın qəm.
Qəlbimdən, gözümdən uzağa getmir,
Könlə sadiq olan o müqəddəs dəm.

***

33. Xatirəmi oldu o keçən günlər,
Qəlbimdə niskilli qalan düyünlər ?
Siz mənə istəkli olduz, hakimsə
Ah, o qəmdən qopan nəğməli ünlər.

***

34. İntizar könlümün qənimi oldu,
Soldu bircə-bircə, günlərim soldu.
O dilsiz sevdaya düşəndən ürək,
Bir yığın üstümə qüssə, qəm doldu.

***

35. Gəlişintək oldu, gedişin birdən,
Baş açа bilmədim bu gizli sirdən.
Torpağa dəfn etdim acı sevdanı,
İndi də od çıxır küskün qəbirdən.

***

36. Dünyalıq sevinci verdin sən mənə,
Qəlbimi şad etdin, hey dönə-dönə.
Sevgilim, surətin xəyalın təki,
Bu küskün könlümə ömürlük dönə.

***

37. Həyatda çarpışma, bir canlanma var,
Biri məşhur olur, biri isə xar.
Dünyada, şadlıqdan savayı, köksü,
Bəxtəvər etməyib nə dövlət, nə var.

***

38. Vacib buyurmayıb heç nəyi həyat,
Nə də deməyib ki, arxayın ol yat.
Çılğın düşüncələr, sönük ədalar,
Kiminə heç olub, kiminə səyyad.

***

39. Yabançı olmadı könlüm heç nəyə,
Nə qəmə qəlb verdi, nə küskün səyə.
Qoymadı bir damla hicran zərrəsi,
Toxuna köksümə, qəddimi əyə.

***

40. Şirindir, acıdır, zəhərdir, baldır,
Min bir hava çalan qəlb özü valdır.
Sanki, coşğun dəniz içərisində,
Qayıqda tək qalmış köməksiz saldır.

***

41. Zahiri çirkin ol, batili təmiz,
Özündən sona qoy bir cığır, bir iz.
Son mənzil başında etdiklərinçin,
Həyat qarşısında çökməyəsən diz.

***

42. Ey dərdimənd, fərağınla gecələr,
Söylə, necə yazıq könlüm dincələr?
Bir qəm verdin əzəl başdan sinəmə,
Neçə milyon sağlam ürək incələr.

***

43. Təmizi zibilə neçin atırsan,
Mərd kəsi namərdə niyə satırsan?
Ey ağıl sahibi, axı sən nədən,
Günah işlədəni xeyirə qatırsan?!

***

44. Sevgilim, bu qəlbimdə günəş təki incisən,
Sən mənim ürəyimdə ən qiymətli incisən.
Neylərəm mən dünyada quru varı, dövləti,
Sən mənim var-dövlətim, qəlbimin incisisən.

***

45. Bu dünyanın hökmündən nə umanlar küsəydi,
Nə bəşər aləmində qəm küləyi əsəydi.
Coşaydı könüllərdə arzular ümman-ümman,
Çəkiləydi həyatdan bu çiskin, bu çən-duman.

***

46. Bu gün könlüm yenə qəm içindədir.
Gözlərim ağlayıb nəm içindədir.
Qəlbimə qaranlıq çökübdür, fəqət
Kimsə bilmir dərd sinəm içindədir.

***

47. Müdhiş, qorxunc şeydir qorxaqlıq, aman,
İnsanı çirkaba aparır yaman.
Dünyada mərd olsun insan olan kəs,
Qorxaqlıq məhv edər adamı yaman.

***

48. Zəkalı düşüncəm qarşısında mən,
Dərin düşünürəm günlərlə hərdən.
Mən xəyal atımı sürüb çapıram,
Fələk aman vermir, salır yəhərdən.

***

49. Arzum bir sabaha qovuşan zaman,
Düşünüb-daşındım gecəni, aman.
Sordum mən gecədən, diləyin nədir?
Dedi: Qaranlıqda yaşasın insan.

***

50. Bütün yaranmışı düşündüyüm an,
Açılmışdı hava, ağarmışdı dan.
Sordum, mən sabahdan: Gecə nə lazım?
Dedi: Quş görmüsən qanadsız uçan?

***

51. Dünyanın şirinin, acısın daddım,
Kədəri bir anlıq sevincə qatdım.
Həyata dedim ki, sən kədəri at.
Dedi: Mənasızdır kədərsiz addım.

***

52. Min qərinə belə ötüb keçəcək,
Keçdikcə dünyanı xoşbəxt edəcək.
Əsrlər, tarixlər qoynunda yalnız,
Dünyam bir ölümçin qüssələnəcək.

***

53. Dünya bir beşikdir, bizsə körpəsi,
Qoymaz dəysin ona bəla qəlpəsi.
Beşik yırğalanır, biz qocalırıq,
Bizə layla çalır həyatın səsi.

***

54. Daldada danışma, ey qorxağ yağı,
Nakəslər sinəmə çəkib el dağı.
Od yurdum bölünüb iki hissəyə,
Məmləkət yadların olub tapdağı.

***

55. Haqsız əməllərdən həyat sevinməz,
Namərdin nalayıq işinə dinməz.
Pislik eyləyən kəs özü bilsin ki,
Onun bu işiylə heç kəs öyünməz.

***

56. Ellər bilir, dərd əlindən küskünəm,
Mən kiməm ki, bir dinənə min dinəm.
Haqsız işin, haqsız sözün acısın,
Güllə təki sipər eyləmiş sinəm.

***

57. Mərdlər ki var, insanların düzüdür,
Yaxşılıq da yaxşıların sözüdür.
Namərd quran tələ qalmıb hələ boş,
Naxələflik pis adamın özüdür.

***

58. Enişdə, yoxuşda büdrəyənlər var,
Yıxılana balta çalan çox olar.
Əgər sən mərdsənsə əl uzat, qaldır,
İnsandan yadigar bir düzlük qalar.

***

59. Xəstə ürəyimin qəmi böyükdür,
Varlığım viranə evtək sökükdür.
Bilmirəm, həyata dərdli nə lazım,
O da bu dövrana adicə yükdür.

***

60. Gəl zövq alaq, könül, bu seyrangahdan,
Uzaqlaş, bir anlıq qüssədən, ahdan.
Göz yumub dünyadan köç etdiyin vaxt,
Köməyinə gəlməz ah-qüssə bir an.

***

61. İllərlə yoluna gözümü dikdim,
Fikirdən özümə bir saray tikdim.
Saray bərbad oldu, ömrüm isə puç,
Bolluca gözümün yaşını tökdüm.

***

62. Bu nurani dünyam deyildir qoca,
Mən ona vurğunam könül durduqca.
Kaş bu dünyam təki olaydı hamı,
Vicdanı ləkəsiz, başısa uca.

***

63. Yaddaşdan silməkçin olub keçəni,
Bilmirəm, mən necə unudum səni?
Tufanlar qopartdın odlu sinəmdə,
Belə xoşbəxt edər sevən sevəni?

***

64. Ey tale, dərbədər salmısan məni,
Haqlıyam, qınayım bununçın səni.
Yellər tufanına verdin ömrümü,
Gəmini məhv etdin, qaldı yelkəni.

***

65. Biçarə ürəyim ağrı içində,
Gecəli-gündüzlü niyə-neçində?
İllər üyütdükcə acılarımı,
Ömür karvanı da köçə-köçündə.

***

66. Ömür, yel oluban heçliyə döndün,
Nə bir haqsızlığa, nə qəlbə dindin.
Daim od püskürən məşələm, dedin,
Alovlu məşəldin, bəs niyə söndün?!

***

67. Daim səni arıb, səni anardım,
Mən sənin oduna sənsiz yanardım.
Bu cür səcdəgağın bütü olsaydım,
Səntək ayaqlayıb, heç əhd danardım.

***

68. Laqeyd duymusan əzəldən məni,
Mən necə qəlbimdə oxşayım səni?
Bir ürək yanğısı olsaydı səndə,
Heç könlüm tək-tənha qalardı yəni?

***

69. Məndəki ah-qüssə olsaydı səndə.
Şadlığı salardın o dəm kəməndə.
Göz yaşın dəryaya dönərdi yəqin
Saz dilə gələndə, kaman dinəndə.

***

70. Tənhalıq məhv etdi məni, ey könül,
Necə xilas edim səni, ey könül?
Bir qəlbin əzablı bəlalarından
Ürək talan olmaz, yəni, ey könül?

***

71. Ömrümü tək sənə qurban etdim mən,
Sənsə heç eylədin qəlbimi, əhsən.
Fikir dənizinin burulğanına
Düşdüm, aldı könlü çiskin, duman, çən.

***

72. Bu geniş fəzada, böyük ümmanda,
Birindən yaxşılıq, düzlük umanda.
Ya qalib çıxırsan, ya da ki, məğlub,
Düzlük düzdə qalır, pislik yamanda.

***

73. Günlər gəlir keçir, ömür əmanət,
Lazımdır düşüncə, kamal, dəyanət.
Vaxtın boşca yerə axıb gedərkən,
Peşman olmayasan sonda nahayət.

***

74. Əzəldən vurğunam düz əməllərə,
Aşiq oldum daim təmiz dillərə.
Yamanlıq, xainlik, pislik könlə yad,
Nifrətlər demişəm namərd əllərə.

***

75. Yaşa, məğrur ürək sənə eşq olsun!
Sənə kəm baxanın varlığı solsun.
Sən hansı insanı yaşadırsansa,
De ki, sağlamlıqla gün başa vursun.

***

76. Ağılın, idrakın qarşısında mən,
Səni düşünürəm, ey özün öyən.
Dildən çıxan sözə sadiq qaldım ki,
Deməsinlər mənə, qəddləri əyən.

***

77. Ürək, pak, müqəddəs, həqiqət sənsən,
Ən ülvi, ən sadiq kainat sənsən.
Ancaq, namərdləri yaşatmasaydın,
Deyərdim, xilqətim, əqlinə əhsən.

***

78. Ey könül, dərd yemə, qəmli gün yetər,
Ürəkdə gah sevinc, gah dərd-qəm bitər.
Neyləyək, beləcə yaranıb həyat,
Ömür gah şadlıqla, gah qəmlə ötər.

***

79. Sadəlövhlüyümdən odlara yandım,
Boş, mənasız yerə qəmə boyandım.
Ey yöndəmsiz xəyal, sənin əlindən,
Yaxşı ki, qurtuldum, dərddən oyandım.

***

80. Sən oldun, ey bütüm, mənim ilk andım,
Qəlbimin ilk odu – oduna yandım.
Haqsız əməlindən, pis gərdişindən,
Cana yığılaraq candan usandım.

***

81. Ey tale, kəcrəftar oldun əzəldən,
Ömrü dərdə saldın, bax gedir əldən.
İndi mən nə edim, necə edim ki,
Bərbad bir könülü qoruyum yeldən.

***

82. Biri şad misalı, birisə kədər,
Biri düz yaşayır, birisə hədər.
Bilinmir kim haqlı, ya kimdir haqsız,
Haqsızın badına haqlı da gedər.

***

83. Könül, mən qəm, qüssə bilən deyildim,
Qəlbimdən şadlığı silən deyildim.
Bilməm, hardan çıxdı belə kəcrəftar,
Onun fərağından tamam əyildim.

***

84. Səni büt sanırdım, bir zaman ey mah,
Sənsiz ürəyimi aldı, qüssə, ah.
Bilmədim xainsən, mələk simalı,
Mən nifrət edərdim, bilsəydim, hərgah.

***

85. Ey naməlum xəyal, izləmə məni,
Mən könlümə layiq bilmirəm səni.
Çünki, hər qorxağa, rəzilə, ey kəs,
Heç tapşıra bilər kimsə kimsəni?

***

86. Torpaq, ana torpaq, isti nəfəslim,
İsindir qəlbləri möhtəşəm süslüm.
Müqəddəsliyinlə qəlbə fərəh ver,
Sayəndə ucalsın bu insan nəslim.

***

87. Müqəddəs torpağın, ey ailəsi,
Uzaq olsun sizdən qəmlər naləsi.
Sizi hər gecənin xoş sabahına,
Çağırır daima şadlığın səsi.

***

88. Bəsdir, hiylə qurdun, oyun qurtardı,
O hiylə, bilmirdin, səni satardı?
Tutaq ki, bununla gün keçirmisən,
Bir gün gedəsisən, bəs bunun ardı?!

***

89. Ey rəzil, yaşamaq deyil çox asan,
Ədabaz zalımsan, düşün bircə an.
Bəsdir pərdə altda hiylələr qurdun,
Yaşamağa qadir deyilsən, usan!

***

90. Ey ürək, qəm çəkmək hədərmiş, hədər,
Qoyma alsın səni o qorxunc kədər.
Sevinc mizrabının həyat simi ol,
Şadlıqla yaşayaq biz də bir qədər.

***

91. Eşitdim yenə də dərdli sədanı,
Söylə, mən nə qədər çəkim cəfanı?
Saysız müsibətə düçar, ay ürək,
Yaradan dəf etsin səndən qadanı.

***

92. Bir, iki binəsib sözlər öyrənib,
Qəlbi ovlamaqçın fərəhlə dinib.
Özünü o qədər sanır hiyləgər,
Guya ki, göylərdən bəladır enib.

***

93.Yan, yöndəmsiz ürək, odlan, alovlan,
Niyə bircə dəfə duymadın? Yan-yan.
Könlə yalan satan o biqəfil kəs,
Səni qəm-qüssəyə salar bir zaman.

***

94. Gözlərim önündə sübhədək əksin,
Çəkilmir, qulaqda əks edir səsin.
Röyalar içində alışan xəyal,
Məni atəşlərdə yandırır köksün.

***

95. Mənə zülm etməkçin xəlq oldun, nədən?
Qəmdən mükafatlar bəxş etdin ah, sən.
Sussuz səhra təki alışan köksə,
Daha da od qoyub, yandırdın, əhsən.

***

96.Yalandan riyakar sözlər uyduran,
Qulağı fitnəkar sözlə doyduran,
Vicdanın səsini eşitmirsənsə,
Gözlə bax, insandır qarşında duran.

***

97. Ey düzlük, yolunda qurban da getsəm,
Bir anın içində heç olub itsəm.
Sənə səcdə etmək mənə fəxirdir,
Ən uca səyyarə, zirvəsən hər dəm.

***

98. Namərdlik elləri yandırar, yaxar,
Günahsız qəlblərə qəm seli axar,
Heç nədən ürəklər qubarladar ki,
Deyərsən, bu hələ dünyanı yıxar.

***

99. Vicdan əmir verir, ürəklər yazır,
Bə'zən də büdrəyib yolundan azır.
Qanunlar çıxarıb hökm edən vicdan,
De neyçün, qəlb qəlbə quyular qazır?

***

100. O dalğın baxışlar məhv etdi məni,
Sükutlar içində gün keçər yəni?
Dilsiz, lal baxışlar alova dönüb,
Dedi: Heç edərəm bir anda səni.

***

101. Qopdun məhvərində de neyçün ürək?
Bolluca qəm verdin dözdüm ki, neylək.
Neyçün qəlbdən qəlbə gizli yol açıb,
Tufan qoparmaqçın tərpəndin zirək?

***

102. Ürək, hər oyuna dözdüm, neyləyim?
Mən istədim səni xoşbəxt eyləyim.
Günah səndə oldu inandın, ürək,
İndi bu dərdi de, kimə söyləyim?!

***

103. Ey ürək, allandın hökmü-əzəldən,
Hərcayi dillərin felinə nədən?
Sən oldun, ey ürək, sən oldun, ah sən,
Dəli misraları mənə istədən.

***

104. Ürək, hər cəfana dözdüm, yaşadım,
Qüssədən qəlbimi üzdüm, yaşadım.
Sən sözə inandın, mən isə sənə,
Ellərə yayıldı divanə adım.

***

105. Sən niyə inandın eşqə, ay ürək,
Bəslədin onunçın min arzu, dilək.
Onu görən gündən unutdun məni,
Özgəni sevməkdə tərpəndin zirək.

***

106. Eşqə arxalanıb ümid bəslərəm,
İmdada çatmaqçın qəlbi səslərəm.
Coşğun ürəklərdən qopan sədanı,
Salıb ürəyimə, hey əzizlərəm.

***

107. Hər kəsə aldanıb inandın, ürək,
Dedim, oda yanma, sən yandın ürək,
Mən sənin cəfanı çəkdim, sən isə...
Özgə fəraqına boyandın, ürək.

***

108. Ey könül sirdaşım, hardasan, harda?
Qəlbimi qoymusan gör necə darda.
Amandır, vəfasız, köməyimə gəl,
Bir an yaşamaram, səndən uzaqda.

***

109. Kainat olsa da sirli bir diyar,
Onun öz hökümü, öz qanunu var.
Bə'zən vaxt insana həmdəm olsa da,
Bə'zən də qəlbləri arzusuz qoyar.

***

110. Sevirəm həyatı dünyalar qədər,
Mən onu səcdəgah bilmədim hədər.
O qaynar çeşmədir, suyundan gələn,
Dadaraq, dünyada borcunu ödər.

***

111. Qəlbimin müqəddəs, saf ülviyyəti,
Zəkamın bu qalib əbədiyyəti,
Torpağı sevəcək həmişə, hər an,
Torpağa bağlıdır şair hikməti.

***

112. Bu gözəl həyatda yaşayırıq biz,
Arzularla coşur təmiz qəlbimiz.
Bizi düşündürmür nə qəm, nə kədər,
Dünyada qalacaq bizdən böyük iz.

***

113. Sevgilim, yolunda çəksəm əziyyət,
Heç zaman etmərəm səndən şikayət.
Sənsiz bircə günüm bir dastan olub
Yaradar qəlbimdə qəmli hekayət.

***

114. Mən sənin üstündə ölsəm də, inan,
Yaralı qəlbimdən çıxmazsan bir an.
Şirinin əlini üzsə də səndən,
Gözləri arayar səni hər zaman.

***

115. Hər anın bir hökmü, bir zamanı var,
Birini şad edər, o birini xar.
Şirin, bir andakı hökümə bir bax,
O da növbəsində qanunlar yazar.

***

116. Hər bir çətinlikdən gəl etmə ah-zar,
Demə, sən dövrana məni etdin xar.
Yaxşılıq, ya pislik öz əlindədir,
İnsan zəkasında bir müdriklik var.

***

117. Dünyada aldanma vara, dövlətə,
Çalış, çat daima sən bir hörmətə.
Düzlük, xeyirxahlıq, mərdlik qalacaq,
İnsandan yadigar bəşəriyyətə.

***

118. Çəkinmə, zirvələr fəth et, ey insan,
Əqlinlə, zəkanla sən qazan ad-san,
Hər sözündən bir iş həyata keçsin,
Baxan, əhsən desin, sənə ucadan.

***

119. Həyatda yaşamaq deyil çox asan,
Ömrün xoş günlərin gərək sanasan.
Bir də görürsən ki, dayanır ürək,
Sanki heçə dönür böyük bir insan.

***

120. Ey insan, nə qədər xoş olsa dilin,
Anlamaq olmayır hər kəsin dilin.
Namərd körpüsündən keçən bircə yol,
Ömründə bir gündə gedər bir ilin.

***

121. Dövran lap göylərə ucaltdı məni,
Şadlıqdan, sevincdən ağlatdı məni.
Bu həyat yamanca toy-büsat qurub,
Mən də ona baxıb atdım qüssəni.

***

122. Həyatda insanlar yetsin murada,
Ağ günlər keçirtsin qoy bu dünyada.
Fələk dodağından qopan alqışlar,
Çatsın hər addımda aha, fəryada.

***

123. Vaxtını şadlıqda keçir, ey insan,
Hər dərddən, qüssədən uzaq ol, aman.
Alimə, təbibə qalmamış dünya,
Çox çəkməz bizi də udacaq zaman.

***

124. Ürəyim qüssədən bağlamış yarə,
Arzularım olmuş lap parə-parə.
Elə bil deyirdi mənə bu dövran,
«Arifə lazımdır, bircə işarə».

***

125. Xəyala dalarkən ağarmışdı dan,
Çəkmişdi örtüyün gecə obadan.
Gördüm pıçıltıyla deyir ki, zaman,
Gömüldər torpağa səni də dövran.

***

126. Torpaq qənimidir hər bir namərdin,
Unutmur dünyanın kədərin, dərdin.
Həyatın mübariz, müdrik qoynunda,
Yoxsa namərdləri, yer, nə edərdin?!

***

127. Fələk, mənim dərdim dünyaya sığmaz,
Sən də mənim kimi qəmdən solasan,
Bəxtimin günləri niyə şad olmaz?
Səni də mənimtək günə qalasan.

***

128. Anlamaq çətindir insan ürəyin,
Bə'zən xatırladır tufan küləyin.
Bə'zən sərin mehtək mülayim olur,
Bir varlıq haqqında söylər xoş rəyin.

***

129. Şad yaşat ömrünü, xoş keçsin halın,
Gələn, gedər bir gün, arxayın olun.
Ömür sona yetər, gün gəlib keçər,
Gediblər, gedərik məzarın yolun.

***

130. Ey viranə quşu, çox çağlayırsan,
Bu bərbad könlümü nə dağlayırsan?
Bəlkə səhv edirəm abad bir yeri,
Xaraba görəndə, sən ağlayırsan.

***

131. Torpaq bir anadır, canlı beşikdir,
Məzarsa zahirdə duran eşikdir.
Ölən bir ürəyin fəryadlarından,
Dünyanın bağrı da dəlik-deşikdir.

***

132. Bu ana torpaqda mən də bir ərəm,
Vətən, sənə xoş gün, il diləyərəm.
Bil ki, səmalarda günəşə dönüb,
Bu ana torpağa nur çiləyərəm.

***

133. Ah, müsiqi, nəğmə bu həyatımdır,
Bu tar-kaman, ud-saz el varidatımdır.
Ağır xəstəliyə mübtəla olsam,
Dərmanım, nəğməli el bayatımdır.

***

134. Kainat fərəhdən, bax, nəş'ələnir,
Gün-gündən qəlblərə sevgi ələnir.
Qəm şadlıq əlindən, sevinc əlindən,
Çöllü-biyabana düşüb, dilənir.

***

135. Dünyada olsan da bir huri-mələk,
Lap tut gözəlliyi üzünə ələk,
Daxildə xainlik, xəbislik varsa,
De: «Belə gözəllik, bəs kimə gərək»?!

***

136. Sanma, tale səni tez xoşbəxt edər,
Sarvansız karvantək baş alıb gedər.
Onun da mənalı qanunları var,
İnsan qanunlarla kamala yetər.

***

137. Bil ki, bu torpaqda nə qul, ağasan,
Həyatda yaşamaq deyil çox asan.
Düşün, haqq işlərdən bir qala qur sən,
Ömür yağış deyil tez də yağasan.

***

138. Dövran zalımların qənimidir, bil,
Haqsız danışanı eyləyir zəlil.
Sözlərdən qızıltək istifadə et,
Sonda olmayasan dilindən əlil.

***

139. Diqqət et, ey könül, çox düşünmə sən,
Bir də görərsən ki, saça düşüb dən.
Əlin əsa tutub, yol gedən zaman,
Deyərsən, kaş yaxşı yaşayaydım mən.

***

140. Bir parça ürəyi gəzdirən insan,
Həmişə düzlüklə qoy olsun aran.
Vaxt gələr dünyadan köç edən zaman,
Tutduğun əmələ peşman olarsan.

***

141. Həyat gündən-günə dəyişir donu,
Qəlbi düşündürmür heç ömrün sonu.
Arzular qəlblərə həmdəm olduqca,
İnsandır, xoşbəxtlik yaşadır onu.

***

142. Ah, mənim müqəddəs, ulu torpağım,
Gəl ucalt yoxsulu, qulu, torpağım.
Nizami, Füzuli, Vaqif elinə,
Bəxş et bir uğurlu yolu, torpağım.

***

143. Bir də görürsən ki, olub divanə,
Torpaq bir ölümdən çəkir zəbanə.
Bu gün tikdiyini sabah uçurdur,
Bu amansız dövran, haqsız zamanə.

***

144. Ürəyin təmizi özü dəryadır,
Onun hər kəlməsi, sözü dəryadır.
Ürəklər hamısı olsaydı büllur,
Deyərdim, hər biri geniş dünyadır.

***

145. Həyat şərbətini içmişəm çoxdan,
Cahana alüdə olmuşam yoxdan.
Mənimçin bu aləm həmişə, hər dəm,
Daim pak, əlçatmaz zirvədir hər an.

***

146. Bu sirləri pünhan həyat bir səyyad,
Nizami, Füzuli könlündə fəryad.
Tarix qədirbilən olur çox zaman,
Saxlayır müdrikdən heç olmasa ad.

***

147. Bilmir nə etdiyin, bilmir bu həyat,
Birinə doğmadır, birinəsə yad.
Kiminin qəm, qüssə tökür ömrünə,
Kimini cahanda tez edir xoşbəxt.

***

148. Bə'zən düşünmədən bu haqsız dövran,
Baxıb hesablaşmır mərdlə heç zaman.
Zalıma, bədxaha qol-qanad verir,
Onları kamına, yetirir aman.

***

149. Görmədim ki, dövran gülsün üzümə,
Duyub, əhsən, desin bircə sözümə.
Mən cana doymuşam bu həyatımdan,
Lap nifrət edirəm özüm-özümə.

***

150. Deyirlər, başını aşağı tutar,
Adicə bir meynə gətirəndə bar.
Ay şana, şöhrətə qul olan ürək,
Səndə meynə qədər yoxmu azca ar.

***

151. Qanunlar çıxarıb hökm edən həyat,
Əzəl yaranışdan qurdun rahat taxt.
Hamıya bir gözlə baxmadın, əfsus,
Birini xar etdin, birini xoşbəxt.

***

152. Dünyada olsaydı əgər etibar,
Vicdanı yoxlara olardımı yar?
Ayağın düz yola qoymayanlara,
Onda namərdlik də ar olardı, ar.

***

153. Ömrümdə ürəkdən sevinmədim mən,
Həyatda bir gün də öyünmədim mən.
Bəxtimin əlindən zinhara gəldim,
Ürək parça-tikə, talesə dən-dən.

***

154. Həyatda, a dostlar, ölüm-itim var,
Namərd insanlara heç nə deyil ar.
Arzular qalmasın saf ürəklərdə,
Həyat hər addımda qəlbə olsun yar!

***

155. Sevgilim, həsrətin yandırdı məni,
Hicran acısıyla qandırdı məni.
Zərif pərvanətək yandım eşqinə,
Acısı cəhənnəm andırdı məni.

***

156. Həyatım boyunca çəksəm əziyyət,
Dərdli könlüm etməz səndən şikayət
Ömürlük yolunda görsəm cəfalar,
Silinməz eşqinlə bağlı hekayət.

***

157. Qəlbim yaralıdır bir neçə müddət,
Sənə qarşı olmaz könlümdə hiddət.
Ürəyim daima oxşayar, arar,
Sən ey həyatıma gələn səadət.

***

158. İçimdə alışan yanan bir odam,
Fələyin köksündə dəli fəryadam.
Milyon il keçsə də sönməz bu ocaq,
Onunçın alışır odumdan adam.

***

159. Şeirsiz bir gün də yaşaya bilməm,
Bu şair könlümə şeirdir məlhəm.
Fırtınalı qəlbim tufan qoparar,
Alar ürəyimi onsuz qüssə, qəm.

***

160. Sinəmə dağ çəkdin biməfa dünya,
Səndən mən görmədim bir vəfa, dünya.
Həyat dəftərimi vərəqlədikcə,
Hər gün dəyişirsən qiyafə, dünya.

***

161. Aman, ürəyimi yandırdı möhnət,
Heç cür varlığıma vermədin qiymət.
Qəlbi sığınacaq etdim mən sənə,
Sən ona eylədin hər gün xəyanət.

***

162. Sevgilim, vüsalın mübarək olsun,
Qəlbinsə hər zaman sevinclə dolsun.
Mənim bu atəşli, odlu könlümün,
Sənin sayəndəcə qəmləri solsun.

***

163. Ey dost, bu qəlbimdə əzizsən hər an,
Səni ömrüm boyu sevərəm inan.
Səninlə olduğum müqəddəs günlər,
Bu şair könlümdən çıxmaz heç zaman.

***

164. Bu uğursuz həyatım başıma nələr açdı,
Ülvi, saf ürəyimdə qorxunc üfüqlər saçdı.
Elə ki, müdhiş xəyal bu yerə ayaq qoydu,
Viran olmuş qəlbimdən bütün arzular qaçdı.

***

165. Qəlbim təravətlə çırpınır hər an,
Həyatım olmasın şeirsiz bir an.
Könlümü oxşayır daima şeir,
Hakimdir qəlbimə diləktək inan.

***

166. Sevgilim, yolunda çəksəm əziyyət,
Heç zaman etmərəm səndən şikayət.
Mən sənin üstündə ölsəm də onsuz,
Tufanlar qopsa da pozulmaz niyyət.

***

167. Şeirdir, sənətdir həyatım mənim,
Odur həqiqətim, büsatım mənim.
Mən onda tapmışam səadətimi,
Odur, arzu-kamım, muradım mənim.

***

168. Ey odlar diyarı, Azərbaycanım,
Ürəyim, həyatım, varlığım, canım.
Sərvətin, dövlətin torpağın üstə,
Mənimçin əzizdir, dəqiqəm, anım.

***

169. Hər gün sinəmizə min acı dolur.
Eniş-yoxuş döyür, talelər solur,
Zaman aman vermir dünyaya, müdam,
Qatıb qabağına saçını yolur.

***

170. Taleyin hökmündən qəlbim ağladı,
Könül dərd əlindən qubar bağladı.
İstədim qüssədən kənar olam mən,
Dərd, ələm könlümü lap çox dağladı.

***

171. Həyatım, varlığım kamandır, kaman,
Dinlədikcə qəlbim sızlayır, aman.
Bu gözəl elimin söz varidatı,
Yaralı könlümə məlhəmdir hər an.

***

172. Bu dərdli könlümün əhdi-ilqarı,
Daim böyük tutdu uca vüqarı,
Lakin ilk məhəbbət haray qopartdı,
Ürəyimdə qaldı hıçqırıqları.

***

173. Ey zaman, dünyanın ahu-naləsi,
Ruhumun hayqıran avazlı səsi,
Düşündürdü məni, ağlatdı məni,
Yandırmaya bilməz, çünki nəfəsi.

***

174. Qəlbim xəyallarda çırpındı nəsə,
Ürəyimi sıxdı bu zaman qüssə.
Bu dəm sordum: Ürək, nədir bu kədər?
Dedi: İnsan qızı, qapılma hissə.

***

175. Dedim ki, dünyaya kədəri silsin,
Həyatdan ah, nalə, fəryad kəsilsin.
Sanki üz tutaraq o insanlığa,
Dedi: Qoy xoş günün qədrini bilsin.

***

176. Ey tale, naxələf çıxmısan mənə,
Bununçın neyləyim, nə deyim sənə?
Fəraqın yolunda sübhədək yandım,
Sənsə qəm doldurdun bağrıma yenə.

***

177. Kamıma qoymadın çatam, ey fələk,
Elə mənə dedin: Arxayın ol, yat.
Bir zaman ayılıb, gördüm çox gecdir,
O gündən ürəyim eyləyir fəryad.

***

178. Gözəl təbiətə baxıb, sevindim,
Yenə xəyalların üstünə endim.
Gördüm xəyallarım düşüb çovğuna,
Mən tez həqiqətin üstünə döndüm.

***

179. Qəlbimə bir fərəh doldu bu axşam,
Şadlığım könlümdə boldu bu axşam.
Birdən sordum: Ürək, nədir bu sevinc?
Dedi: Qəm qüssəni məhv edibdi şam.

***

180. Torpağın altında çox varlıq yatmış,
Kədəri, qüssəni bizimçin atmış.
Bəs necə yer dözsün bu ağır dərdə?
Namərd də sümüyün torpağa qatmış.

***

181. Dünyanın işləri çətindir, çətin,
Hökmünə bağlıdır, o, qətiyyətin.
Mürəkkəb zamanda hər bir insana,
Köməyi olmuşdur ən xoş niyyətin.

***

182. Həyatda kölgəli dolanan gözlər,
Hər şeydən diksinib bulanan gözlər.
Deyin nə lazımdır, sizə dünyada,
Yalançı, riyakar boylanan gözlər.

***

183. Pislik uzun çəkməz dünyada heç vaxt,
Həyatda özünə qursa da bir taxt.
Hiyləylə yaşayan hörmət qazanmaz,
Mərdliklə çağlayan insandır xoşbəxt.

***

184. Dünyanın əvvəlin düşündüm bir an,
Gördüm qalmayacaq sona bir insan.
Birdən daxilimdən bir səs dedi ki,
Düşünmə, heç kəsə qalmayıb zaman.

***

185. Nə qədər şirinsən ana torpağım,
Dərəsi mirvari, altundur dağım.
Mən uzaq düşmərəm öz oylağımdan,
Bu diyardan gələr hər an sorağım.

***

186. Mənim vüqarımsan, ey sevgili can,
Odur ki, damarda qövr eləyir qan.
Sayəndə Şadiman çatmış kamına,
Mübarək zirvədə şah libaslı an.

***

187. Dünən mən bağçada gəzdiyim zaman,
Bir bülbül edirdi aramsız tüğyan.
Sordum: «Nədir belə bu qəmli səda»?
Dedi: Gələcəyi düşündüm yaman.

***

188. Ey mərdlik, müqəddəs yolumsan hər an,
Həyatda şüarım sən oldun hər an.
Görsəm sənə görə can verirəm mən,
Yenə də dönmərəm, əsla pak yoldan.

***

189. Xəyala dalarkən ağarmışdı dan,
Çəkmişdi örtüyün gecə obadan.
Gördüm pıçıltıyla deyir ki, sabah,
Yan, ey ocaq çatmış, dərdli ürək, yan!

***

190. Oturub, ətrafa nəzər salırdım,
Çiçəkli ormandan çox zövq alırdım.
Bu zaman, hardansa, gəldi qəfil səs,
Bu yerdə sevincə mən də dalırdım.

***

191. Deyirdim, həp zaman mənim ol, gülüm,
Bu vaxtsız kədəri ömrümdən silim.
Əfsus, mən inandım gülün eşqinə,
Axırda o gül də oldu qatilim.

***

192. Dünyada sevincə mehman ürəkdir,
Bütün yaranmışa canlı dirəkdir,
Bə'zən mülayimdir, bəzən isə o,
Tufanlar qoparan acı küləkdir.

***

193. Bu gün sevincindən gülürdü hər yan,
Al-yaşıl geymişdi bütün gülüstan.
Gördüm kol dibindən körpə bənövşə
Deyir: Bahar gəldi, sevin, ey insan.

***

194. Qəmlər oylağıdır mənim batilim,
Dedim: Kədər bilər, tez onu silim.
Osa, dilə gəlib dedi ki, qafil,
Qəmləri sevəndir – mənim qatilim.

***

195. Sanki, xoşbəxtlikdən aşıb-daşırdım,
Canlı təbiətlə pıçıldaşırdım.
Birdən orman için duman bürüdü,
Bütün varlığımla mən çox şaşırdım.

***

196. Ey təbib, mən səndən aman istərəm,
Bu xəstə könlümə dərman istərəm.
Düşünmə, dünyadan tez köçəcəyəm,
Hələ bu həyatdan dövran istərəm.

***

197. Bu həyat fanidir, ey insan, düşün,
Torpaq bir loğmandır, ey ümman, düşün,
Canını qurtarmış dərdli xəstənin,
Ona minnətdar ol, yaranan, düşün.

***

198. Fərəhlən, ey könül, bir həyata bax,
Bu dərdli qəlbimə sən sevinclə ax.
Mərdlərin gözüylə dünyanı seyr et,
Ana torpağımda bu büsata bax.

***

199. Qəlbimlə göylərdə cövlan edirdim,
Qəribə həyatda dövran edirdim.
Dünyanın nə yaman oyundur işi,
Elə bil sevincə iman edirdim.

***

200. Ey insan, heç kimə qalmayıb zaman,
Əlimizdən alıb canları yaman,
Dahilər, şairlər yaşadan bu yer.
İtirir onları, ağlayır aman.

***

201. Zaman ayrılıqlar göstərdi bizə,
Gör necə qaranlıq çökmüşdür gözə.
Buna fikir vermir, ömründə insan,
Mərdliklə gecəni qatıb gündüzə.

***

202. Bəşərə azadlıq istəyirəm mən,
Xoşbəxt günlərinin eşqiylə dinən.
İnsanlar yaşasın qoy bu həyatda,
Cahan ilham alsın bu yüksəlişdən.

***

203. Dünyada hər oda yanasan gərək,
Yaxşıyla yamanı sanasan gərək.
Mənasız yaşamaq ömür-gün deyil,
Mənalı həyatı anasan gərək.

***

204. Həyata məhəbbət eşqiylə coşdum,
Ana torpağıma bir nəğmə qoşdum.
Riqqətlə dolmuşdu ürəyim mənim,
Bu an arzularla çağlayıb daşdım.

***

205. Nizami, Füzuli yetirən torpaq,
Dünyaya təbiblər gətirən torpaq,
Sən necə qıymısan belə canlara,
Hər ömür ağacdan qırılan yarpaq.

***

206. Qaynar təbiətli sən bu zamandan,
Büdrəmə, yaxşını ayır yamandan.
Ömrünü qüssəyə, kədərə tutma,
Təmiz dövranını qutar dumandan.

***

207. Həyata inamı heç vaxt itirmə.
Mənasız bir işi sona yetirmə.
Xeyirxah işlərlə gününü keçirt,
İnsanlıq adına xələl gətirmə.

***

208. Dünyanı ürəkdən sevməmək, olmaz.
Onun gözəlliyin duyandır çox az.
Yubanma, ləngimə, irəli get sən,
Həyat idrakına durma, qulaq as.

***

209. İnsanlıq eşqinə ey sadiq qalan,
Qəlbinə gah kədər, gah şadlıq dolan,
Bə'zən amalların məqsədi ürək,
Sanki həyat boyu büdrəyir bir an.

***

210. Mən qəlbin içindən alışan şamam,
Ocağı dumana düşmüş axşamam,
Ömür sarayının kərpici titrər,
Tufan ayağına çökməyən damam.

***

211. Ey dost, kobudluqdan çox-çox uzaq ol,
Gözəl sözlərinlə sən hər qəlbə dol.
Acı dil insana min əzab verər,
Dünyada pis sözlər olsa da lap bol.

***

212. Ey varlıq, bu qədər xəyala dalma,
Bu xoşbəxt günlərdən kənarda olma.
Sadə həyatından sevin və şadlan,
Acı sözlərinlə qəlblərə dolma.

***

213. Dünyada yamanlıq etmə, ey insan,
Yaxşılıqla keçir ömrünü hər an.
Bununla çatarsan, bəlkə murada,
Xeyirsiz işlərdən uzaq ol, aman.

***

214. Ey xoşbəxt günlərə, aylara yetən,
Qəlbində arzular, şadlıqlar bitən,
Sənin varlığınla ruh cilalanır,
Qovuş vüsalına, qovuş, ey Vətən!

***

215. Yaxşı adamların arxasınca get,
Mərd əməllərinlə bir kamalə yet.
Namərdlik hər kəsin əlindən gələr,
Çalış hər addımda bir yaxşılıq et.

***

216. Ey könül, çox düşün, bir ətrafa bax,
Gözəl sözlərinlə ürəklərə ax.
Ömrünü xoş keçirt, zövq al həyatdan,
Kədərin, qüssənin ürəyini yax.

***

217. Fərhad qüvvətli ol, çox çalış, ey dost,
Əməyə, zəhmətə tez alış, ey dost,
Halal duz-çörəklə yaşa dünyada,
İşində çoxalsın yüksəliş, ey dost.

***

218. Yaxşılıq etməkdən heç vaxt usanma,
Pislik nə lazımdıar, sən onu anma.
Quşdan da ayıq ol daim dünyada,
Gördüyün hər şirin dilə aldanma.

***

219. Könüllər oxşayan bir dastan yarat,
Oxşasın qəlbini bu gözəl həyat.
Sevinsin vətənin istedadınla,
El alqışı olsun qəlbinə barat.

***

220. Təmiz, pak sözlərlə qəlbləri oxşa,
Şərəflə, vicdanla, ədəblə yaşa.
Büdrəmə, alçatma özünü heç vaxt,
Daim rast gəlsən də enişə, yoxşa.

***

221. Mənim ürəyimsən, ey ana torpaq,
Eşqim, diləyimsən, ey ana torpaq,
Bir günüm olmasın sənsiz dünyada,
Sən namus, sən ismət, sən başda papaq!

***

222. Səmada sayrışan ulduzlara bax,
Yurdumda çarpışan mərd qızlara bax.
Zövq alaraq, ürək, bu gözəllikdən,
Həyatın camına gözəlliklə ax.

***

223. Köksümdə çırpınan müqəddəs ürək,
Mənə, heç olmasa, olsana dirək.
Hər vuran ürəkdən xoş söz gözləmə,
Bu xoşbəxt günlərə qarış, qalma tək.

***

224. Dondan-dona girən insanlardan qaç,
Müdrik işlərinlə daim işıq saç.
Hər yoldan ötəndən gözləmə imdad,
Özünə həyatda nurlu bir yol aç.

***

225. Bundan da xoş günə çalış çat, ey dost,
Özünü zəhmətə durma at, ey dost.
Ömründən mənalı keçən günləri,
Müqəddəs anlara vəcdlə qat, ey dost.

***

226. Zalıma, bədxaha yüyən vermə, gəl,
Onun bağçasından meyvə dərmə, gəl.
Dünyanın gözünə şişdir namərdlik,
Ona qapı açıb, süfrə sərmə, gəl.

***

227. Hər yoldan ötəndən gözləmə imdad,
Hər cürə yeməkdən ağız almaz dad.
O gündən ehtiyat eylə, ey ürək,
Deyəsən, inandım, sonra çəkdim dad.

***

228. Zahiri gözələ dost demək olmaz,
Müxənnətin ömrü heç vaxt tez solmaz.
Duz-çörək dostunu seç bu dövrandan,
Dost sözü ürəkdən heç vaxt pozulmaz.

***

229. Nakəs adamların oduna yanma,
Şirin dilli olsa, yenə aldanma.
Bu gün naxələflə çörək kəsəndə,
Sabah saymayacaq, sən bunu danma.

***

230. Dünyada duz-çörək itirən kəslər,
Pis əməllərini həyata səslər.
İnsanlıq adına layiq olmayan
İşləri qəlbində əbədi bəslər.

***

231. Həyatda arzuma çatmaq istərəm,
Ömrün pis gününü atmaq istərəm.
O keçən mənalı illər karvanın,
İndiki ömrümə qatmaq istərəm.

***

232. Günlər çox sürətlə keçir, durmadan,
Elə bil illəri biçir, durmadan.
Dünən dövran sürən canlı bir varlıq,
Məhv olur, ömrünü başa vurmadan.

***

233. Ey yazıb-yaradan, duyan insanlar,
Bu gözəl zamana uyan insanlar,
Ürəklər tapınır idrakınıza,
İnsanlıq adına hüququnuz var.

***

234. İnsana can sağlıq lazımdır əsas,
Sağlıqdan doğulur həyata həvəs,
Xəstə təfəkkürlə dünyada heç vaxt,
Arzuya qovuşmaz idrak, can, nəfəs.

***

235. Əfsus, bu ürəyim heç olmadı saz,
Xoş günün ömürü niyə olur az?
Neyləyim, görünür taleyin qəmi,
Könlümün evinə dolmasa, olmaz.

***

236. Heç zaman ömrünü sən bada vermə,
Öz ürək sirini tez yada vermə.
Özgələr evindən kömək gözləmə,
Vicdanı uca tut, pis işlər görmə.

***

237. Ümidlə, təmkinlə qəlbini yaşat,
Qəlbiqaralığı birdəfəlik at.
Həyatda mətin və iradəli ol,
Bəlkə bu işlərdən ürək ola şad.

***

238. Söz üstə durmayan nakəsdən min dad,
Onlardan heç zaman gözləmə imdad.
Nə edək, bu ürək dözməyir dərdə,
Haqsızlıq görəndə eyləyir fəryad.

***

239. Əqlin, düşüncənin qarşısında sən,
Daima şadlanıb, daim gülərsən.
Canlı təbiətin önündə bə'zən,
Zamanın hökmünü duya bilərsən.

***

240. Daha yox taqətim, qan-yaş tökəm mən,
Eşqimi qəlbimdən yıxıb-sökəm mən.
Deyəsən, mənimçün həyat imişsən,
Ki, ata bilmirəm səni qəlbimdən.

***

241. İllər öz hökmünü verdi, ey yarım,
Könlə fəraq etdin, xoşbəxt dildarım.
Hicrindən sübhədək göz yaşı tökdüm.
Həsrətdən çoxaldı, lap dərdü-zarım.

***

242. Öldürmə qəlbimi, vəfasız yarım,
Arzumu ürəkdə qoyma, dildarım,
Ürəyim eşqindən yanıb kül oldu,
Xəbərsiz yaşadın, artdı ah-zarım.

***

243. Mən dərdli pərvanə, sən lal şam oldun,
Dilsiz məhəbbətlə qəlbimə doldun.
Fırtınasız qəlbin coşdu elə bil,
Yandırdı qəlbimin atəşin, odun.

***

244. Sənsiz bir günümü gün saymıram mən,
Dadıma yetmədin bircə gün də sən.
Röyasan, xəyalsan, bilmirəm nəsən?
Anlaya bilmədim bunu əzəldən.

***

245. Sandı xəyalını öz andı, könlüm,
Odlu bir atəşlə qalandı könlüm.
Məhəbbət yaşadıb bəşəriyyəti,
Demə, eşq, məhəbbət yalandı, könlüm.

***

246. Sev, gözəl həyatı, ey könül, yaşa,
İlk arzun, diləyin dəysə də daşa.
Bu ulu torpağın qoynunda şadlan,
Çox çəkməz, dövranı vurarsan başa.

***

247. Ah, bir nələr olur, gör bu həyatda,
Çox vaxt unudulur uzaq da, yad da.
Rüzgar məhv etsə də vaxtsız insanı,
Bə'zən saxlamayır ondan bir ad da.

***

248. Nakam aşiqini sandı ürəyim,
Bu dərdə düşəli qandı ürəyim.
Biçarə gözlərim qan-yaş axıtdı,
Həsrətdən qovruldu yandı ürəyim.

***

249. Mən əsirin oldum, bunu duymadın,
Nakam ürəyimə sən heç uymadın.
Mən Leyli oluban səni səslədim,
Sən isə əğyarı gözdən qoymadın.

***

250. Səmimi ülviyyət, düzlük, məhəbbət,
Xoşbəxtlik, sadiqlik, dostluq və ülfət,
Daim simfoniyatək səslənəcəkdir,
Onların hakimi yalnız bir hörmət.

***

251. Çağırın, insanlar, dostu köməyə,
Qoymayın namərdlər qəddləri əyə.
Mərdlər məclisinin carçısı ol sən,
Bəlkə ürəyini kədər yeməyə.

***

252. Günlərim uğurlu keçsə də bir-bir,
Məni düşündürür hər zaman bir sirr.
Budurmu bu həyat, bu şan, bu şöhrət,
İnsanın qəlbisə bunlara əsir?

***

253. Ah müqəddəs dövran, müqəddəs həyat,
Mənim də qəlbimi sevinclə oynat.
Düşünmə mən sənə lap biganəyəm,
Yox mənə dadlıdır, bu gözəl büsat.

***

254. Əyil sən torpağa, diqqətlə bax bir,
Yatır yer altında gör nə qədər sirr.
Sanki, iniltilər gəlir dərindən,
İnsanın dəhşətdən bədəni əsir.

***

255. Ey təbib, sarsılma, dinlə bir məni,
Edim dərdlərimlə qoy tanış səni.
Bəlkə şəfa verdin sən bu cismimə,
Dərdlə ağlatmadım bir də kimsəni.

***

256. Ah-uf elməkdən ürək dağlanar,
Xoşbəxtlik qapısı ona bağlanar.
Yanıb külə dönər arzu, ilqarı,
Sanki, olmuşları elə bil danar.

***

257. Dostluq tərənəsi – saf, pak həqiqət,
Bir də əhdə vəfa, düzlük, sədaqət,
Yaşadır insanı, yaşadır, ancaq,
Heç ürək bunlardan edər şikayət?

***

258. Ey dil, acılığı götür üstündən,
Qoy biz kor olmayaq sənin tüstündən.
Ömrə zərər verir dili acılıq,
Şirinlik qurtarır bizi ölümdən.

***

259. Oduna yandığım günəşli ellər,
Sizdən söhbət açıb bal dadan dillər.
Həsrətdən qovrulub, yanan çox olub,
El deyib, can deyib neçə igid ər.

***

260. Bir sənin eşqinə alışdı könül,
Səninçin pozmadı ilk andı, könül.
Bu sirli aləmə biganə qalma,
Demə, ilk məhəbbət yalandı, könül.

***

261. Zalımlıq edənə ömür olub yar,
Zamanə həmişə onu edib xar.
Müqəddəs qəlbləri incitmə, nakəs,
Bədxahı, xaini torpaq tez udar.

***

262. Ey urək, özünü ağrıya salma,
Acı təbəssümlü, kədərli olma.
Bu qəribə həyat kimsəyə qalmıb,
Hər qəmdən, qüssədən saralıb solma.

***

263. Qaç, uzaqlaş, könül, pis əməllərdən,
Yaxşılıq görməzsən xain əllərdən.
Mərdanə ömrünü düzlüklə keçirt
Ki, heç düşməyəsən şirin dillərdən.

***

264. Səni bu könlümün həmdəmi sandım,
Gecəli-gündüzlü mən səni andım.
Əfsus ki, nahaqdan bu illər, ey yar,
Mən odsuz-alovsuz oduna yandım.

***

265. Ey təbib, zamanə gör nələr edir,
Bu divanə könlüm məhv olub gedir.
Xəzansız həyatım xəzana dönür,
Ömrüm karvan təki baş alıb gedir.

***

266. Könlüm, zaman səni nə günə qoydu?
Artıq bu zülümdən ürəyim doydu.
Kəcrəftar fələyin oyundur işi,
Sanki, Nəsimitək, dərimi soydu.

***

267. Divanə qəlbimin rübabı dindi,
Telinin sədası qüssəyə döndü.
Səma buludutək göz yaşı tökdüm,
Ürəyin içində simlər döyündü.

***

268. Həyatım zülmündən talandı, ey dost,
Məni bu dərdlərə salandı, ey dost.
Ürəyim, düzlüyün mehmanıdır, bil
Mərdliyi pay təki alandı, ey dost.

***

269. Ey könül, aldanma sən gəl əğyara,
Heç vaxt bel bağlama vəfasız yara.
Unuda bilmirəm ilk məhəbbəti,
Çəksələr boğazdan məni min dara.

***

270. Ürək, ahu-zarın qoyma yüksələ,
Ayıq ol, dərdlərim düşməsin dilə.
Sən çox da yar deyib, yar soraqlama,
Yarın vəfasızı düşməzmiş ələ.

***

271. Namərd, bu dövranı sanma çox asan,
Axmaq işlərindən bircə an usan.
Ətrafa diqqət et, düzlüyü ara,
Barı, az da olsa xeyirdən utan.

***

272. Danma həqiqəti, mərdanə ömür et,
Beşgünlük dünyada bir kamala yet.
Bil ki, bu dövranın bəd günün də var,
Bir gün deyər sənə: Bəsdir, daha get.

***

273. Bir an araşdırsan dünyanı, ürək,
Görərsən həyatda deyilsən heç tək.
Sənintək çox olmuş dərdə mübtəla,
Uzaqlaş qəmlərdən, eylə onu tərk.

***

274. Biinsaf işlərə olma mübtəla,
Bununçın insanı tez tutar bəla.
Çalış, yıxılana əl uzat, qaldır,
Onda heç mərdlərdən qalmarsan dala.

***

275. Düz söz, inan, səni ucaldar, ey dost,
Yaxşını yamandan tez arar, ey dost.
Dilini yalana öyrətsən, amma,
Səni göydən yerə tez vurar, ey dost.

***

276. Sənə dost, dost deyib yanaşan bir kəs,
Bə'zən dost adıyla tez olur nakəs.
Dostluq məhəbbətlə ekiz olsa da,
Nanə yarpağıtək onun üçün əs.

***

277. Çalış sadəliklə yaşa dünyada,
Vur gözəl dövranı başa dünyada.
Əgər sən düzlüklə günlər keçirtsən,
Qəlbin heç toxunmaz daşa dünyada.

***

278. Gəl odlar içində yanma, ey qəlbim,
Olub keçənləri anma, ey qəlbim.
Səfil ürəyimin dərdi böyükdür,
Sən onun dərdlərin danma, ey qəlbim.

***

279. Yazıq ürəyimin yoxdur sirdaşı,
Dərddən sızıldayır qəlbimin başı.
Bilməm, nə etmişəm mən taleyimə?
Ağladır könlümü hər qədəm başı.

***

280. Gözəllik insanın daxilindədir,
Bir də düz danışan xoş dilindədir.
Hər kənardan keçən gözələ uyma,
Qədirsiz, qiymətsiz – gözəllik nədir?

***

281. Bir şamın eşqindən pərvanə yandı,
Gül çəmənzarlıqda bülbülü andı.
Bir bülbülsüz güləm, şamsız pərvanə,
Alosuz yanıram gör necə andı.

***

282. Yanar od olmuşam sənincin, ey gül,
De, bir nə vaxtacan yanacaq bülbül?
Haqsız gül eşqinə yandım, ey könül,
Bir daha qəm yemə, dərd içində gül.

***

283. Solma, ey ömrümün baharı, solma,
Bu sınıq qəlbimə həsrətlə dolma.
Sənin hicranınla yanan Şirinə,
Bir daha qəlbinin həmdəmi olma.

***

284. Şirinəm, qəlbimə namərd söz dəyər,
Adicə haqsızlıq qəddimi əyər.
Dolmuş bulud təki lərzəyə gəlsəm,
Torpaq da, səma da bil gülmüsəyər.

***

285. İldırım gurlasa göy yerə dəyər,
Amansız torpağın qəddini əyər.
Təbiət bu işi igidlik saymaz,
Deyər: Bu haqsızlıq bəs niyə dəyər?

***

286. Şirinəm, cahana sədam yayılar,
Misramın səsinə aləm ayılar.
Kainat içindən düşən damlayam,
Mənim də harayım bir gün sayılar.

***

287. Beşikdən ətrafa baxan körpəyəm,
Sirli kainatdan bircə qəlpəyəm.
Daim harayımla el dolaşaram,
Şərə qul deyiləm, dünyanı əyəm.

***

288. Ürəyim həsrətdən, dərddən yaralı,
Könlüm necə gəzsin sözdən aralı?
Təbimin əlindən Məcnuna dönən,
Ömrü sona yetən şamam, saralı.

***

289. Məcnunsuz Leyliyəm, Xosrovsuz Şirin,
Ey könül, qəlbimin gəl açma sirin.
Od aşiqi olan pərvanələrtək,
Ürək ömrü boyu oldu əsirin.

***

290. Araz, niyə oldun dərdə mübtəla?
De, görüm hayandan gəldi bu bəla?
Kim saldı ayrılıq toxumun suya?
Hansı namərd saldı, səni bu hala?

***

291. Yaradan bu qəlbi kövrək yaradıb,
Könlüm zamanənin acısın dadıb.
Dilsiz baxışlara bel bağlamışam,
Öz qəlbim, öz könlüm məni aldadıb.

***

292. Sus, ölüm! Bircə an qulaq as, dayan,
Sənsən, bu dünyaya qəmginlik yayan.
Dünyadan doyunca kam almayanı,
Torpağa qatırsan, qana susayan!

***

293. Bir də görürsən ki, bir ürək solur,
Adicə bir insan torpağa dönür.
Ölüm öz taxtından salır ömürü,
Elə bil bu işlə, sanki öyünür.

***

294. Nolaydı, dünyada yalnız bu ölüm,
Deyəydi, həyatda şadlığa dönüm.
Bu matəm, bu çiskin, bu çən, bu duman,
Deyəydi, ölümlə əbədi sönüm.

***

295. Müdrik həyatımız qəm, kədər sevmir,
Bu dünyam bəd günü, bil, hədər sevmir.
Neyləyir bu həyat insan qəmini,
Onun da könlünə qəm gedər, sevmir.

***

296. Ömrünün gününü xoş keçir, aman,
Kədərdən, qüssədən kənar ol, aman.
İstər mərd olasan, istərsə namərd,
Baxmayır, məhv edir bu zalım zaman.

***

297. Ey yolçu, bir qədər xəyala dalsan,
Görərsən, yaşamaq deyil çox asan.
Bu ötən günləri kədərə tutma,
Əvvəlin, axırın torpaqdır, insan.

***

298. Xoş keçən gününü pis gündən gözlə,
İnsan neyləyəcək, insana sözlə.
Şirin, el dərdinin qayğısına qal,
Baxma insanlara, heç vaxt, pis gözlə!

***

299. Şirin, az fikirləş, az xəyala dal,
Beşgünlük ömrünün qayğısına qal.
Gözəl xəyallarla arzulara dön,
Təmiz adamların ürəyinə dol.

***

300. Aman, ey Yaradan, qulaq as mənə,
Qəlbimin dərdini mən deyim sənə.
Daha ürəyimin qəmə tabı yox,
Həyat aləmindən dərdi silsənə?

***

301. Duyan misralarla qəlbləri açar,
Sənətkar ilhamla işıqlar saçar.
Bu şeir sənət, musiqi, nəğmə,
Könlümə olubdu əbədi açar.

***

302. Toy-büsat, bu şənlik hamısı xoşdur,
Dərdlənmək, qəmlənmək bil ki, lap boşdur.
Şirinəm, badəylə sevinc içmişəm,
Şadlıqdan əbədi qəlbim sərxoşdur.

***

303. Bu dünya kuzədir, bizsə gülabı,
Şirinin coşmuşdur könül mizrabı.
İnsan, kuzədəki gülab kimidir,
Yerə tökülləntək susur rübabı.

***

304. Həyat gülüstandır, bizsə bağbanı,
Yaradan bəxş etmiş bizə xülyanı.
Son dəqiqəni də kədərsiz yaşa,
Sonradan görməzsən bir də dünyanı!

***

305. Atamız səmadır, anamız torpaq,
İnsandır ormana yalnız bir papaq.
Kəhkəşan sarayı bir dəm insanı,
Göndərir torpağa, torpağ olur dağ.

***

306. Küskün arzularım dustaq olubdu,
Mərdanə işlərlə qəlbim dolubdu.
İstədim sevinclə ömür keçirəm,
Bu mümkün olmadı, qəlbim solubdu.

***

307. Namərd, görüm səni gün görməyəsən,
De görüm bir kimsən, de görüm nəsən?
Mərdlər heç bir zaman zorluqdan qorxmur,
Hər bir çətinlikdən tək sənsən əsən.

***

308. Ey boş torpaq üçün dünya fəth edən,
Başqa bir məkana yürüşlə gedən.
Cahanın torpağı sənin deyildir,
Qismətsə, məzarın qalacaq səndən.

***

309. Ölüm, güllədən də sən sürətlisən,
Dünyada hər şeydən çox qüvvətlisən.
Beşikdə çağanı, ya bir cavanı,
Torpağa qatırsan, nə dəhşətlisən?!

***

310. Şan-şöhrət düşgünü olma, ey insan,
Çox uzağa getməz belə bir ad-san.
Hər an, hər dəqiqə ömürdən gedir,
Adam ol, həyatda sən də bir adsan.

***

311. Şadlıq müjdəsi ver, könüllər oxşa,
Həyat çəkir bizi eniş-yoxuşa.
Şirin, bu dünyanı inam yaşadıb,
Sən də inamlı ol, mərdlərə oxşa.

***

312. Ölüm qəm səpsə də bax bu həyata,
Kaş bədən torpaqda çox rahat yata.
Çünki aparsa da vaxtsız insanı,
Onsuz da qovuşur əbədiyyətə.

***

313. Ey həyat eşqindən gurlayan qəlbim,
Qəm, kədər əlindən ağlayan qəlbim.
Sızlayıb ömrünü gəl bada vermə,
Şadlığa, sevincə dur boyan qəlbim.

***

314. Həyatın növrağı Günəşəm, Ayam,
Ulduzlu baharam, nübarlı yayam.
Bu dünya ən böyük dərya olsa da,
Bu böyük dəryadan bircə damlayam.

***

315. Sevinclər içində yanan kül oldum,
Ya bədbəxt pərvanə, ya bülbül oldum.
Bilsəydim sevdiyim sevmişdi məni,
Deməzdim, eşqindən yanıb kül oldum.

***

316. Bilmədən, birinin oduna yandım,
Bilmədən, həmişə mən onu andım.
Könlümü büsbütün qəmlərə saldı,
Ah, bu haqsızlıqdan mən lap usandım.

***

317. Qəlbimi yandırdı insafsız ürək,
Dedi: Bu dövrandan, gəl əlini çək.
Yalvardım ürəyə: Sən təmiz, saf ol,
Gəl bu zamanədən pisliyi silək.

***

318. Nainsaf, bimürvət, ay haqsız ürək,
De, belə işlərə, de, nələr deyək?
Hər yoldan ötənə bel bağlayırsan,
Bəs belə ürəklə necə öyünək?

***

319. Dönərəm yurdumda ətirli yaya,
Coşğun şəlaləyə, gurlayan çaya.
Şirinəm, qəlbimi el məhəbbəti,
Günlərlə yaşadır, çatdırır aya.

***

320. Şirin, bu həyatın şöhrəti, şanı,
Ömürlər yaşadır hər keçən anı.
Mərhəmət diləməz heç kəsdən həyat,
O mərdə doğmadır, namərdəsə yad.

***

321. Gözəldir, torpağın hər bir guşəsi,
Onu saxlayacaq insan nəş'əsi.
Torpaq övladını qəhr edə bilməz,
Torpağa kök atıb onun rişəsi.

***

322. Alovlar içində yanıb, kül oldum,
Murada yetməmiş, gül kimi soldum.
Qaxınc oldu mənə öz arzu, kamım,
Mənsə, arzu olub, qəlblərə doldum.

***

323. Ah, bircə damlayıq ümmanda sən, mən,
Damlasız, ey ümman, bil ki, heç nəsən.
Vaxt olar damlalar dəryaya dönər,
Şirin, gəl damlanın qədrini bil sən.

***

324. Həyat ömürlərin simfonyasıdır,
İnsan dərd əlindən candan asidır.
Şirin bu dünyadan mərd nakam getsə,
Bil ki, bu onun yox, elin yasıdır.

***

325. Dünyadan cavan da, qoca da getmiş,
Kamına yetməmiş torpaqda itmiş.
Baxmayıb namərdə, mərdə bu dünya,
Bə'zən namərdləri bəxtəvər etmiş.

***

326. Bülbül gül aşiqi olsa da, inan,
Ömrün az yaradıb gülün bu zaman.
Həyatdan yığışıb gül köçdüyü an,
Bülbül qəm içində qalır, ay aman.

***

327. Qəlbim hicr odunda yandı, amandı,
Könlüm qəm içində çiskin-dumandı.
Şirin, dərdü-qəmi çıxart ürəkdən,
Dərdlə gün keçirtmək, bil ki, yamandı.

***

328. Tale göz yaşımı qəmlərə qatdı,
Sevinci kədərə heç nəyə satdı.
Həyat mehrabından cana doymamış,
Ömrüm dərd içində qüssəyə batdı.

***

329. Yerlərdə, göylərdə, bu kainatda,
Ədalət görmədim mən heç həyatda.
Şirin, bu dünyanı səyahət etsən,
Görərsən, narazı yaxın da, yad da!

***

330. Böyük hürriyyətin carçısı, Vətən,
Hansı torpaq gələr de, sənlə tən?
Sənin varlığına, istedadına
Necə heyran olur, bu yerdən ötən.

***

331. Bir gün sevinclərlə şadlanar ellər,
Gözəl sözlər deyər, xoş azad dillər.
Gələr torpağımdan bahar şənliyi,
Keçdikcə fəsillər, ötdükcə illər.

***

332. Ey köçəri quşlar, tez gəlin bizə,
Baharın gəlişin mən deyim sizə.
Səmalar, torpaqlar, çəmində güllər,
Xoş sözlər deyəcək gəlişinizə.

***

333. Günəş şəfəqlərin yaydı ellərə,
Azacıq qalan qar döndü sellərə.
Hər yerdən baharın xoş ətri gəlir,
Bahar nəğmə olub, düşüb dillərə.

***

334. Günəşin üzünə baxdım bircə an,
Gördüm, gülmüsəyir günəş bu zaman.
Birdən qara bulud dəhşətlə gəlib,
Günəşi qaraya boyadı, aman.

***

335. Səmada buludlar hikkəylə coşdu,
Göylərə bir matəm nəğməsi qoşdu.
Çalxalanmış bulud qan-yaş tökərək,
Elə bil deyirdi, bu matəm xoşdu.

***

336. İldırım çaxaraq göylər alışdı,
Səma tutularaq bir an qarışdı.
Boylanaraq, günəş kədərlə dedi:
Elə bildim bulud mənlə barışdı.

***

337. Könlümdən getməyir hicranın qəmi,
Unuda bilmirəm o keçən dəmi.
Bilməm, nə etmişəm mən sənə, zalım,
Düyünlü sirr etdin sən bu sinəmi.

***

338. Zalım zamanənin oduna yandım,
Səni ürəymin baharı sandım.
Öz qəlbim yalançı çıxıbmış mənə,
Axırda qəlbimi, könlümü dandım

***

339. Ey rəzil zamanə, nələr yaratdın?
Bu xoşbəxt könlümü qəmlərə atdın.
De görüm, nə idi günahım mənim?
Günahsız qəlbimi günaha satdın.

***

340. Zamanə qəhr etdi, məhv etdi məni,
Məntək incitməyib heç bir kimsəni.
Qəm içində üzən həyat nə lazım,
Həyatın mənası budurmu yəni?!

***

341. Torpağım, könlümün od təranəsi,
Mənə qanad verir qəlbimin səsi.
Od yurdum sevinclər içində üzür,
Güldürməyə bilməz bil bu hər kəsi.

***

342. İdrakdır varlığın anası, insan,
Yaşamaq gəlməsin sənə çox asan.
Axı bu dünyanın övladıyıq biz,
Onun övladına zülümdən usan.

***

343. Şənlik içindədir Odlar ölkəsi,
Göylərə ucalır şərqinin səsi.
Bahar şərəfinə, Novruz eşqinə,
Şirin, sevinclərlə güldür hər kəsi.

***

344. Ey müqəddəs varlıq, qarşında bə'zən,
Sükuta dalıram xəyallarla mən.
Dünyaya bəzəkdir insanlıq adın,
Cismini ölümdür torpaqda əzən.

***

345. İnsan əməyinə hörmət et, könül,
Kamil ol, müqəddəs işə yet, könül.
Müdrik insan yolu bizə öyrədib,
Əməklə, zəhmətlə birgə get, könül.

***

346. Bu yol bax möhtəşəm həyat yoludur,
Şadlıqla, sevinclə bax bir doludur.
Şadiman, vurğunam haqq qurtuluşa,
Qurtuluş, hürriyyət, çünki uludur.

***

347. Bu yerlər, azadlıq yerləridir bax,
Şirin, sellərə dön, bu yerlərə ax.
Bu torpaq, bu səma, bu şan, bu şöhrət,
Hamısı insanındır, insandır xoşbaxt.

***

348. Ey müqəddəs torpaq, sən nə alisən,
Dərdli insanlartək dərddən halisən.
Sənə qurban gedir müqəddəs ömür,
Anatək qucursan, əqlinə əhsən.

***

349. Könlüm sərxoş olub dərd, qəm əlindən,
Gözəl söz çıxmadı bircə dilindən.
Dad sənin əlindən möhtərəm insan,
Şirin küskün oldu hər əməlindən.

***

350. Könlümə bir munis yoxdu burada,
Deyin, gülüm qaldı, deyin harada?
Biz sevib sevilən deyildik, ey yar,
Rüsvay cahan oldu könlüm arada.

***

351. Ey yar, könlüm evi yenə virandır,
Qəlbim dərd əlindən inan ki, qandır.
Şirin ömrü boyu sorağındadır,
Sənsiz bu həyatım tufan, borandır.

***

352. Könlüm səhər-səhər eli dolanar,
Ayrılıq odundan alışıb yanar.
Bu gözəl kainat, bu yer, bu səma,
Mənə ilham verər ürək odlanar.

***

353. Şirinəm, eşqindən odlara yannam
Həyatım durduqca mən səni annam.
Əslisi əlindən Kərəm kül oldu,
Əslinəm, yansam da mən səni annam.

***

354. Dünən xarabada bir bayquş durub,
Ətrafa baxırdı, boynunu burub.
Xarabalar sevən viranə quşu,
Axtarırdı yenə bir uçulmuşu.

***

355. Ey yırtıcı cahangir, ətrafa bax sən bir an,
Zənn edirsən sənindir gördüyün torpaq, hər yan.
Ədalətli olsan sən, xoşbəxtlik görəcəksən,
Yoxsa pis əməllərlə yaşamaq olmaz, inan.

***

356. Ədalətli olarsa, bizim bu gözəl həyat,
Bu dünyaya heç bir şey edə bilməz xain, yad.
Bir yerdə çalınıbsa ədalət simfonyası,
Haqqsız haqqa nə edə bilər cahanda, heyhat?!

***

357. Zamanənin əlində döyülür bu el, oba,
Baş alıb qaçan zaman nə amansız, nə qaba?
Qurğuşuna dönəcək sinələrin fəqanı,
Alışacaq məşəltək söndürülən hər ocaq.

***

358. Xoşbəxt bir zamanda, dünyaya gəldik,
Tale hökm verdi biz yaşa dolduq.
Ədalət yoludur, bizim yolumuz,
Haqsızlıq olanda həmişə solduq.

***

359. Kim deyir ki, dünya bir quru yoldu?
O ki, namərdlərlə, mərdlə doludu.
Hünər göstərənlər qəlblərdə yaşar,
Tarixin özündən hünər uludu.

***

360. Ürəyim dərdlərə mübtəla oldu,
Qəlbim dərd əlindən fəryadla doldu.
Nə olaydı dünyam qəmsiz olaydı,
Bu qəmlər əlindən ürəyim soldu.

***

361. Yatmış yuxusundan ayılır torpaq,
Ağaclar geyinir yamyaşıl yarpaq.
Yaşıla bürünür bağçalar, bağlar,
Sanki deyir, bahar, üzün olsun ağ.

***

362. Könlüm də, gözüm də cahandan doydu,
Varlığım, xilqətim təkcə bir oydu.
Uydu zamanənin şöhrətinə gül,
Əğyar da bülbülün ürəyin oydu.

***

363. Bir könül evində nə faciə var?
Dövran hər kəsə də heç olmayır yar.
Əğyar fitnəsinə düçar olanlar,
Hər ağrı içində bir fırtına var.

***

364. Ah, yaşa dolduqca ömür, bu zaman,
İnsanı torpağa ötürür, aman.
Orada cavan da, qoca da yatır,
Xilqətin qanunu budurmu, insan?!

***

365. Mən qəm dəryasıyam, ömür durduqca,
Xoşbəxtliyin başı ucadan uca.
Həyat başdan-başa toy, büsat olsun,
İnsanlar özünə dövran qurduqca.

***

366. Dünən bir sərçeşmə yanından keçdim,
Yanırdı ürəyim, suyundan içdim.
Sərçeşmə qaynayıb dilə gələrək,
Dedi: Xeyirxahlıq yolunu seçdim.

***

367. Bihudə ürəyim qəmlərə batdı,
Elə bil qəlbimin şadlığı yatdı.
Biri qəm içində, biri fərəhdə,
Ah, amansız dövran, bu nə büsatdı?!

***

368. Dürlü sərçeşmələr gözüdü həyat,
Əsil insanlığın özüdür həyat.
Cahandan əbədi köçən hər kəsə,
O da, qəmlə deyir: Gedib rahat yat.

***

369. Bu müdrik qələmin sayəsi ilə,
Ağlın, istedadın qayəsi ilə,
Dünyaya dahilər gəlib yetişmiş,
Qonub yaddaşlara, düşübdü dilə.

***

370. Həyat bir müdriklik rəmzidir, Allah,
Bütün kainatın nəbzidir Allah.
Gəlib-gedənlərin sayı bilinmir,
Məzar köçənlərin izidir, Allah.

***

371. Ömür hər insanın məhək daşıdır,
Dünya haqq işiylə onu yaşadır.
Düşünən, qavrayan adamlar ali,
Düşünməyənlərə həyat naşıdır.

***

372. Xoşbəxt əsrlərə, illərə dönnəm,
Şirin ləhçələrə, dillərə dönnəm.
Vətən torpağının hər qarışıyçın,
Qüvvətli qollara, əllərə dönnəm.

***

373. Qəlbimin hökmüylə gurlasam bir an,
Buludlar ağlayar, tökülər leysan.
Həyat, qəhr eyləyə bilməzsən məni,
Kükrəsəm, göz yaşım olacaq ehsan.

***

374. «Mənəm, mənəm» deyən insanlardan qaç,
Bu gözəl həyatda özünə yol aç.
Şirin, hər dəqiqə ömürdən gedir,
Çalış, sən şadlığın başına qoy tac.

***

375. Alovlan, məş'əltək gurla yan, könül,
Xəyal aləmində bir oyan, könül.
Bu real həyatda sən də yaz, yarat,
Haqdan, ədalətdən keçmə yan, könül.

***

376. Nazənin biləklər, şirmayi əllər,
Neçə ər oğullar, çox şirin dillər,
Torpağa qarışıb, torpağa dönüb,
Sən tarixi dindir, qoy desin əzbər.

***

377. Cavan, nakam bir ömür, sanki torpağa dönür,
Həyatdan kam almamış, həyat çırağı sönür.
Başqa bir qəlb torpaqda ömür sürür, öyünür,
Biri qüssəyə batır, biri şadlıqla dinir.

***

378. Bu qəribə həyatda birisi şadlıq edir,
Biri isə ələmlə, qəmlə məzara gedir.
Elə-belə çarpışma gedir çılğın həyatda,
Sanki şadlıq kədəri, sevincsə qəmi didir.

***

379. Bu həyat aləmi bir imtahandır,
Qəmlənən, sevinən yalnız cahandır.
Biri imtahandan üzüağ çıxsa,
Onu xoşbəxt edən, bax, bu zamandır.

***

380. Sən gəl bu yerlərdən asta keç, insan,
Torpağın bağrını incitmə, usan,
Ayağın altında qalan gülüstan,
Çox çəkməz məzarın olacaq, aman.

***

381. Ağlama, sızlama gedən hər cana,
Ölüm karvanına düşən bir ana.
O ölür, qovuşur əbədiyyətə,
Yalnız qəmlər qalır yazıq insana.

***

382. Düzdür, varlıq ölür borcun ödəyir,
Lakin, qalanların qəddini əyir.
Dünyadan bir cavan nakam gedirsə,
O bu torpağın qəlbinə dəyir.

***

383. Bu dünya mülkündə yalnız igid ər,
Torpağın yolunda zəhər də içər.
Şirinəm, deyirəm şirin canından
Ellərçin ərənlər, igidlər keçər.

***

384. Şadiman, bu yolda candan keçmişəm,
Bu yolu özümə qayə seçmişəm.
Mən də dünyamızın şeir camından,
Dolu qədəhlərlə ilham içmişəm.

***

385. Ey nakam qəlbimin xoşbəxt sirdaşı,
İncitmə könlümü hər qədəm başı.
Alovlar püskürür dərdli canımdan,
Axır gözlərimin qanlı göz yaşı.

***

386. Dünyada hamısı olaydı qardaş,
Arzular insana səmimi sirdaş.
Fəqət, bu dünyada bir fitnəkarlıq,
Adamın qəlbinə girməyəydi kaş!

***

487. İndi əhrimanlar dünyada çoxdur,
Haqqa qiymət verən azalıb, yoxdur,
Böyük insanlığın mərd ərənləri,
Səfil xainlərə zəhərli oxdur.

***

488. İstədi badəylə çox şərab içə,
Bu qəmli yolları kədərsiz keçə.
Lakin sərxoşluğun rəzil qanunu,
Onu məcbur etdi canından keçə.

***

489. Ey vəfasız gülüm, sənə olsun ar,
Ovladın qəlbimi, gülüzlü nigar.
Sonra da qəmlərə atıb-getdin, ah,
Dünyanın qəribə oyunları var.

***

390. Bilməm, hardan əsdi acı rüzigar?
Zamanın əlində olmuşam ögar.
Bəslədim könlümdə dünyanın eşqin,
O da, ürəyimə heç olmadı yar.

***

391. Rəqib fitnəsiylə zar etdi məni,
Yalançı eşqinə yar etdi məni.
İnandım vəfasız gülün eşqinə,
Gül də öz eşqiylə xar etdi məni.

***

392. Hər ömrə verilib azacıq möhlət,
Qazanma ömründə adına lənət.
Götürmə üstünə ellər töhmətin,
Ər oğul eyləməz elə xəyanət!

***

393. Baharın dühalı bu xoş ahəngi,
Ətirli gülzarın hər cürə rəngi,
Göylərə də qeyri-gözəllik verir,
Yeni rövnəq verir səmanın əngi.

***

394. Ey məchul taleyimin xəyanətkar baxışı,
Qəribə ömrə salma sən rəngarəng naxışı.
Bilmək olmur bugündür, sabahdır ömrün sonu,
Bir gün tökəcək göydən ölüm qanlı yağışı.

***

395. Sənə xoş gəlməsin qəlbin ahəngi,
Sənə zövq verməsin hər gülün rəngi.
Qürrələnmə, könül, həyat sürürsən,
Elə suda sınır suyun səhəngi.

***

396. Ümidin şöləsiylə parlayır zəka, ağıl,
Hər ömrün özü dastan, ötən günləri nağıl.
Qəlbiylə, vüqarıyla zirvə fəth edən insan,
Qazandığı zəfərin bəhrəsi nabat, noğul.

***

397. Dəhşətli kabus kimi ölüm geyir donunu,
Tələsdirir insanın həyatının sonunu.
Ya ömrün şad çağında, ya da cavan yaşında,
Gözləmədən kəsdirir yatağının yanını.

***

398. Demirəm ki, bu həyat bədbəxt yaratmış məni,
Fırtınalı həyatım tamam saraltmış məni.
Şirinəm, dərd əlindən pənahım çöllər oldu,
Ürəkdən yapışmağın mənası budur yəni?

***

399. Xoşdur bu həyatın qeydinə qalmaq,
Sevinci, şadlığı pay təki almaq.
Mənim çəkdiyimi ürəyim bilir,
Boş şeydir dərdlini, dərdlərə salmaq.

***

400. Vəfasız bir könlün əqli, zəkası,
Sənə bağışlamaz ellər dühası.
Müdrik ol, ey könül, ətrafa bax, gör,
Mütinin, qorxağın yoxdur vəfası.

***

401. Ellər ər oğluna saxlayar yası,
Ər oğlu yaşadar igid dühası.
Qırılmaz, tellərlə yurda bağlıyam,
El qızı olarmı elindən asi?!

***

402. Əvvəlin, axırın torpaqdır, insan,
Demə ki, həyatda çox yaşayırsan.
Vaxt gələr torpağa dönər bu cismin,
Yaddaşdan silinər ismin həmin an.

***

403. İncitmə torpağı, incitmə insan,
Yaranmış yaranıb torpaqdan, inan.
Mehriban anatək basıb qoynuna,
Torpaq qucaqlayar səni bir zaman.

***

404. Vaxt olar bu torpaq qucaqlar səni,
O soyuq qoynuna tez salar səni.
Torpağa namərdin gözüylə baxma,
O, dala qaytarmıb heç bir kimsəni.

***

405. Yadlar məclisinə düşsən bircə an,
Coşdurma özünü, mərd ol, ey insan.
Əqlin, düşüncənin qarşısında, bil,
Ən qəddar bir cani yumşalar, inan.

***

406. Hikmətli əqlin sayəsində sən,
Zəkanın, şüurun mayəsində sən
Yaz, yarat, ey könül, yaşat ömrümü,
Ana torpağımın qayəsində sən.

***

407. Şirin, bu aylara, illərə dön sən,
Canisən dediyin, bu yoldan dönsən.
Dünyada yararsız əşya olarsan,
Yaratmaq eşqiylə bircə an solsan.

***

408. Çal sazım, çal sazım, sənin səsində,
«Yanıq Kərəmi»nin hər kəlməsində,
Müdrik el ozanın dinləyirəm mən,
Dünya var telinin titrəməsində.

***

409. Tar, kaman Od yurdun öz vüqarıdır,
Sazı, udu elin eşqli yarıdır.
Musiqi, bəşərin canlı guşəsi,
Həyatın dövləti, könül varıdır.

***

410. Həyat sərçeşmədir, biz onun gözü,
Həyatı qurandır varlığın özü.
Elə bil ilahi gözəlliyi də,
Rəssam fırçasıyla yaranıb düzü.

***

411. Şirinəm, qəlbimlə elə bağlıyam,
Ellərin dərdindən mən ki, halıyam,
Həyat daim sevinc oylağı deyil,
Onun dərdləri var, mən də dağlıyam.

***

412. İnsan mərd olduqca, həyat şən olar,
Bu gözəl torpaqda bir gülşən olar.
Ey Şirin, deyirəm varlıq mərd olsun,
Onda bu kainat sevinclə dolar.

***

413. Həyatın sirrlərin öyrənmək üçün,
Yolum xiyabandan keçirdi bir gün.
Xiyaban yolunun üstündə bir gül,
Dil açaraq dedi: Qəmlisən neyçin?

***

414. Dahisən, müdriksən, alisən insan,
Torpağın dərdinə loğmansan inan.
Şirin deyər: Sənsiz, əbədi varlıq,
Dünyanın mənası olmaz bircə an.

***

415. Ey könül, bəd günü gördün, amandı,
Qəmlə gün keçirtmək, bil ki, yamandı.
Şirin, neyləsin ki, bu həyat sənə?
Varlığın ömürlük çiskin dumandır.

***

416. Bu dünya mülkünün qəm xəzinəsi,
İnan, ağratmayıb məntək heç kəsi.
Şirini yaşadıb, yaşadır ancaq,
Müdrik od yurdunun mərdanə səsi.

***

417. İstiqlal qanından yoğrulmuşuq biz,
Mərdlik qarşısında baş əymişik biz,
Vətən sevərlərin əməllərindən
Qəlbimizdə qalıb müqəddəs bir iz.

***

418. Odlara tutuşan pərvanələrtək,
Bir gül həsrətiylə yandı bu ürək.
Şirin, kədər kökü dərin olsa da,
Şadlıqdır dünyaya sütunlu dirək.

***

419. Bu haqsız zamanə, bu haqsız dövran,
Mərdsən, ya namərdsən bilməz heç zaman.
Pisləri çox zaman bəxtəvər edər,
Yaxşıya bədbəxtlik gətirər, aman.

***

420. Milyon qəlbin dəhşətli naləsindən yanmışam,
Haqsız qəmlər əlindən, sanki lap usanmışam.
Kədər tacı-taxtından qanlı hökümlər vermiş,
Mən xoşbəxt günlərimi qəm əlindən danmışam.

***

421. Beləmi demişdin, beləmi, ey yar?
Həsrətdən bu cahan mənə gəldi dar.
Ah-uf etməyimə inanmırsansa,
Dərdli ürəyimi birdəfəlik yar.

***

422. Gözəldir Vətənin, elin qüdrəti,
Qəlbim sevəcəkdir şe'ri, sənəti.
Həyatın müdriklik simfonyasıyla
Bağlıdır könlümün şeiriyyəti.

***

423. Nakam aşiqini qandı ürəyim,
Bu dərdə düşəli qandı ürəyim.
Biçarə gözlərim qan-yaş axıtdı,
Həsrətdən qovruldu, yandı ürəyim.

***

424. Şeir yollarında mən çox azmışam,
Mən pərvanə oldum şeir isə şam.
Min dəfə fırlanıb, ölçüb-biçərək,
Çox götür-qoy edib, sonra yazmışam.

***

425. Sevin ki, Vətənin süfrəsində sən,
Böyüyüb elinə gərək olursan.
Bu od torpağında saça düşür dən,
Öz doğma elində bir gün solursan.

***

426. Yolunda nə qədər çəkdimsə zillət,
Hamsı boş, yöndəmsiz, xəyal, xəyalət.
Mənimçin əlçatmaz, o pak məhəbbət,
Sənincinsə oldu oyuncaq, alət.

***

427. Nə olsun ki, oldun məniçin alət,
Xəyaldan dönərək oldun həqiqət.
Həqiqət xəyala çevrilsə əgər,
Bəşərdən necə öc alar təbiət?!

***

428. Zəkadır əxlaqın anası, insan,
Qazanılır, yalnız, onunla ad-san.
Şüursuz hərəkət etdisə bir kəs,
Ondan heç mərifət gözləmə asan.

***

429. Məhəbbətsiz dünya eşqlə qurulmaz,
Məhəbbət insana, cana sarılmaz.
Duyğular içində coşan ürəyin,
Heç həyat aləmi, könlü durulmaz.

***

430. Belə şirin günün acısı da var,
Acı səfalətdir, şirin isə var.
Şirin, bunun üçün qəlbi incitmə,
Gün keçər, sənə də həyat yar olar.

***

431. Yenə də dilləndi o dərdli kaman,
Asta çal, qəlbimi inlədir, aman.
Ey ustad, asta keç sən bəmdən zilə,
Yoxsa bu qəlbimi yandırar yaman.

***

432. Sənsiz dərdim artar, ey mahıtaban,
Qəmlər güc aparar məndən anbaan.
Ayrılıq dərd çəkir, dərdli sinəmə
Həsrət dolu gözlər yaş tökür hər an.

***

433. Heyranam ləkəsiz, vicdan eşqinə,
Kaş qəlblər həmişə vicdanla dinə.
İnsanlar, çalışın yalnız və yalnız,
Xələl gətirməyin vicdana, dinə.

***

434. Yanmışam oduna mən də bir zaman,
Heç kəsdən diləyə bilmədim aman.
Əbədiləşmisən, ey ilk məhəbbət,
Sevənin könlünə olsan da yaman.

***

435. İllər höküm verdi, biz yaşa dolduq,
Bə'zən açılaraq, bə'zən də solduq.
Bə'zən qəmə batdıq, bə'zən sevincə,
Ancaq heç bilmədik hansından olduq?

***

436. Sanki qəm içində sevincə daldım,
Məcbur oldum, qəmi sevincə qatdım.
Şadlıq pərvanəsi, dərd nişanəsi,
Heç bilmədim hansın könlümə satdım.

***

437. Qəm gələ bilərmi sevinc ilə tən?
Şirin, qəm gördünmü şadlıqda bitən?
Kaş qəmlər mülkünün iqamətgahın
Görəydim, uçulub torpaqda itən.

***

438. Xoşbəxtəm deyərək, dəmlənmə, ey kəs,
Bu məqamda birdən olarsan nakəs.
Şadlıqla, kədərlə hesablaşmayan,
Demək, lovğalanır mənasız, əbəs.

***

439. Hər şeyin qədrini biləsən gərək,
Əşya lazımsızdır, atırıq zirək.
Nahayət üstündən keçsə qərinə,
Atdığımız əşya olacaq gərək.

***

440. Hər kəsə inanıb duz-çörək kəsmə,
Xəyanətkar üçün boş yerə əsmə.
Duz-çörək adlayan bir kəs görmüşəm,
O gündən qəlbimə düşübdü əsmə.

***

441. Naxaləf iş tutsan dünyada əgər,
Fırlanıb zərbəsi özünə dəyər.
Yuxardan aşığı baxma ətrafa,
Adam deyilsənmi özün də məgər?

***

442. Başı uca edir əməlpərvər iş,
Çalış, yaranışdan xeyir işdə biş.
Əlini harama öyrətsən əgər,
Səndən aslı olmub, edəcək vərdiş.

***

443. Köməksiz qəlbimi yandıran ürək,
Tutduğun işlərdən baş açmaz fələk.
Niyə inandım ki, sənə, axırda
Aramızda qopdu dəhşətli külək.

***

444. Eşitdim bu yerdən sən köç edirsən,
Könlümü sərgərdan qoyub gedirsən.
Bu sızlayan qəlbim bircə bilmədi,
Hansı sərvinaza uyub, gedirsən?

***

445. Mən səni könlümə bilmişdim həyat,
Əfsus, oldun mənə yadlardan da yad,
Bütün arzuları borana saldın,
Mənə dar göründü bu geniş həyat.

***

446. Ey ümid, qarşında diz çökürəm mən,
Sənsiz gözlərimdən qan tökürəm mən.
Hər addımda kömək əlini uzat,
Onda qüssələri tez sökərəm mən.

***

447. Yandı könlüm sənsizlikdən oduna,
Dilim varmır, tənə deyəm adına.
Gecə-gündüz düşündükcə mən səni,
Bu günahsız ürək getdi badına.

***

448. Ürəyim odunda büryan olubdu,
Atəşli könlümə tufan dolubdu.
Əhdimizi hicran pozub nə vaxdır,
Arada könlümüz qəmdən solubdu.

***

449. Sirdir başdan-başa bütün kainat,
Qərarı qanunla çıxarır, heyhat.
Təbiət bəndədən dönüklük görür,
Ürəyindən keçir neçə qalın çat.

***

450. Harama dadanan müftəxorlar çox,
Ədəbaz zalım da kim deyir ki, yox.
Mərdə, xeyirə də xələl gətirir,
Görüm bu dünyadan haram olsun yox.

***

451. Əməkdir insana əvvəl imtahan,
Üzü ağ çıxmaqçın çalış hər bir an,
Bə'zən, üzdən iraq, bəd adamlara,
Şirinin sözləri gəlməsin heç man.

***

452. Bu eldən kəsilməyib vicdanın gur nəfəsi,
Onun odu-alovu isindirir hər kəsi.
Xeyirxah işlər görən ölkə vicdanlısının,
Əlbəttə ki, həmişə ucalacaqdır səsi.

***

453. Gecə örtüyünü çəkir obaya,
Baxıram səmada ulduza, aya.
Elə bil insanın azadlığını,
Ay-ulduz istəyir aləmə yaya.

***

454. Min hikmət oxunur Ayın üzündə,
Zülmətə işığı parlar gözündə.
Danışır o səssiz, pıçıltılarla,
Günəşin şəfəqin duyur özündə.

***

455. Şeir dünyasının alt qatındayam,
Əl çatmaz, ün yetməz dağ fəthindəyəm.
Eşqinə uyduğum şeir elinin,
Enişli-yoxuşlu bir səthindəyəm.

***

456. Naxələf işlərə çalışma, könül,
Ürək sındırmağa alışma, könül.
Çünki namərdlərdən el xeyir almıb,
Gen gəz, bu işlərə qarışma, könül.

***

457. Kim deyir ki, həyat sirin göstərdi,
Çox zəhər dilləri şirin göstərdi.
Xosrovun eşqiylə yanıb-yaxılan,
Şirini Fərhada şirin göstərdi.

***

458. Dil var, tamamilə, lap acı-zəhər,
Amma baxan deyər bu dürdür, gövhər.
Acı şirin ilə, şirin acıyla,
Heç bilmək olmur ki, hansına bənzər.

***

459. Könlüm haqq işllərin vicdan səsidir,
Ağılın, zəkanın divanəsidir.
Ellər bilir bunu, taki əzəldən,
Yurdum ər oğullar nişanəsidir.

***

460. Nizami, Nəsimi, Füzuli, Xəyyam,
Qəlblərdə yaşayır gör neçə əyyam.
Getdisə torpağa bir vaxt müdriklər,
Onları unuda bilməyir dünyam.

***

461. Anamız Məhsəti elindənik biz,
Doğma Nətavanın yerindənik biz.
Heyranı, Pərini yaşadan torpaq,
Doğmaca dillərin dilindənik biz.

***

462. Səba yeli əsir, bağrımı kəsir,
Bu qərarsız könlüm yolunda əsir.
Fikirlər uzanır dilsiz-soraqsız,
Ürək gah sevincə, gah qəmə əsir.

***

463. Dünyanı fırladır eşq ilə zaman,
Sonsuzluq içində yarandıq bir an.
Ölüm kölgə təki izləyir bizi,
Qəfil qəlbi alır, o qatı duman.

***

464. Bu dövran yaradıb gör neçə Xaqan,
Sonra da ölümlə məhv edir bir an.
Ölümün əliylə qansız cəlladlar,
İgidlər məhv edib, eyləyiblər qan.

***

465. Dinlədin kamanı, qopdun, ey ürək,
Elə bil sinəmdə əsdi bərk külək.
Bu kaman səsindən yanmaqdansa sən,
Acı həyatımçın söylə xoş dilək.

***

466. Qonaq kimi gəzsən aləmistanı,
Pisləri qəhr edib, yaxşını tanı.
Yaxşılıq ucaldıb başları, inan,
Söylə, bir pisliklə ucalan hanı?

***

467. Ey insan axını, ey geniş ümman,
Xeyirə daima etmiyəsən man.
Ayaqlar altında heç olan pislik,
Səndən de kimlərdir yaxşılıq uman.

***

468. Bahar yerə gəldi, gurlayır zaman,
Ah, hissim heyrətdən dolaşır yaman.
Hansı qadir əlin istedadıyla
Yaranmış bu boya, bu çalar, aman?

***

469. Dünyanı vicdanla tərtəmiz yumaq,
Qəlblərin çirkinin, təmizin duymaq.
Onda naxələf qəlb, vicdansız ürək,
Dönəcək, olacaq adicə yumaq.

***

470. Bahar sevincimi həddən aşdırır,
Könlümün evini cavanlaşdırır.
İnan ki, təbii çalarlarıyla,
Bu gözəl laləzar əqli çaşdırır.

***

471. Niyə qadir deyil, niyə bu insan?
Ən ağır işləri eyləyir asan.
İnsanlıq adını korlayan kəslər,
Xələl gətirməkdən bu ada usan.

***

472. Yaşıllıq, gözəllik yerin nəhəngi,
Gətirib özüylə hesabsız rəngi.
Bu an yerlər-göylər toy-büsat qurub,
Yurdun hər yerində çalınır «Cəngi».

***

473. Xilqətim bəxş etmiş mənə zamanı,
Könüllər ovlayan Azəristanı,
Rəssam fırçasının yaradan əli,
Eli gözəlliyə nəqş edib, tanı.

***

474. Pislikikdən dəm vuran, zövq alan bir kəs,
Qalxsa da zirvəyə, çox gedə bilməz.
Düzlüyü qulağa bir sırğa edin,
Onun yeri zirvə – heç enə bilməz.

***

475. Pisliklə dünyanı titrədən hanı?
Lənətə layiqdir o çirkin canı.
Yaxşılıq pisliyi oda qalayıb,
Gəzsən addım-addım bütün cahanı.

***

476. Acı dil özünü şirin göstərdi,
Bilmirdi, acını bəs kim istərdi?
O xəcil olduqca el arasında,
Götürür yazığı şirin dil dərdi.

***

477. Könlümün, demirəm yox deyil dərdi,
Sevinc ürəyimdə qönçətək tərdi.
Dad, kədər əlindən kədərə nifrət,
Çünki, o, qəlbimin şadlığın dərdi.

***

478. Ömrümü qüssəyə çevirdin, zalım,
Rahatlıq mülkümü devirdin, zalım.
Kələkbaz eşqinin qiyafəsində,
Guya aşiqlərtək sevirdin, zalım.

***

479. Həyat laləzarlıq gülüstandır,
Bə'zən davranışı tamamən qandır.
Elə dağlar çəkir, özü də birdən,
Sanki etdiyindən çox peşimandır.

***

480. Pislik edənlərə, yaxşılıq qandır,
Çalış, sən onlara xeyiri qandır.
Şər adam yamanı buraxmayırsa,
Sən də insanlıqdan əl çəkmə, yandır!

***

481. Qəlbi dağ görənə, xoş gün dərmandır,
Xoş günə can atmaq özü imandır.
İnsan varlığına ağrı verənlər,
Bəs bu İlahiyə necə peymandır?!

***

482. Yandırdın qəlbimi nakam eşqinlə,
Almadım doyunca heç kam, eşqinlə.
Büsbütün xar etdin əzəldən məni,
Yalan oldu necə ehkam, eşqinlə.

***

483. Qəlbim lal baxışla necə coşaydı?
Mükəddər nəzərlə sayıqlaşaydı.
Eşqim lal deyildi, o lal eşqinlə,
Bircə an, bircə yol ayaqlaşaydı.

***

484. Qalmadı eşqindən bircə hal məndə,
Nə bir can, nə taqət, nə də hal məndə.
İki kəlmə ilə izahını et,
Günah kimdə oldu səndə, ya mənədə?!

***

485. Eşqimin yolunda kəsmədin kəlmə,
Oldun bu sevgimdə daim yox, gəlmə.
Nakam eyləyirsən eşqi zarları,
Könül aləminə bir də sən gəlmə.

***

486. Günorta üstüdü, fikrə dalmışam,
Olub keçənləri qəlbə salmışam.
Peşiman ürəyim kədər içində,
Dedi: Əzablarda düşüb qalmışam.

***

487. Tale, varlığımla kam etdi mənim,
Azca dərdlərimi dam etdi mənim.
Sanki cadugərlər qiyafəsində,
Ömrümü büsbütün ram etdi mənim.

***

488. Şadlığım, sevincim bitdi, İlahi,
Dərd, ələm könlümü diddi, İlahi.
Nəş'əm səhralara düşərək dünən,
Rast gəldi çovğuna, itdi, İlahi.

***

489. Göydən karvan-karvan bulud keçirdi,
Səmanın şadlığın tamam biçirdi.
Kəhkəşan qəflətən kədərlə dedi:
«Nəş'əmi göz yaşla bulud içirdi».

***

490. Dünən şər mənzildən qovdu düzlüyü,
O dərd-qəm içində ovdu düzlüyü.
Əvvəl mat-mat baxıb, sonrasa dedi:
Məgər insanların ovdu düzlüyü?!

***

491. Pislik dərd içində çəkirdi min ah,
Sanırdı özünü bir vaxt qibləgah.
Dözmədim, sordum: Pis, səndə qəm? Dedi:
Ağılın gücündən xəbərsən, hərgah.

***

492. İnsanın azadlıq naləsindənəm,
O dünya evinin gur səsindənəm.
Duyanlar dünyası yaratmış Vətən,
Mən də o dunyanın ailəsindənəm.

***

493. Bulud topaları qəzəblə, aman,
Göylərə çaxnaşma saldı bircə an.
Füsnükar təbiət qan-yaş içində,
Deyirdi, torpağım, ey yerlərim, can.

***

494. Ağ topa buludlar min rəng teliylə,
Torpağa zinətlər verdi seliylə.
Birdən asimanım şadlıqla yerə
Nəğmələr söylədi şirin diliylə!

***

495. Naxaləf deyirdi, düzlükdən iraq,
Uzaq, min qərinə düzlükdən uzaq.
O günəşdən qorxan yarasalartək,
Düzlükdən eləcə əsirdi zağ-zağ.

***

496. Tutmuşdum sevincdən əlimdə badə,
Deyirdim, dərdim yox daha dünyada.
Dedi: Ey eşqində uğursuz, eşqi
Verdin xəyal təki fənayi-bada.

***

497. Yaxşılıq vicdandan bir nişanədir,
Bax, pisliyin bağrı şanə-şanədir.
Bütün anlayışlar içərisində,
Vicdan, yalnız vicdan, bircə dənədir.

***

498. Sonsuz asimana baxırdım dalğın,
Ulduz karvanına axırdım dalğın.
Səma köks ötürüb dilləndi, dedi:
Nə məni süzürsən, heyrətlə, çılğın.

***

499. Göylər şahənşahı, parladı al dan,
Mən baxarkən ona alışdı lapdan.
Dedim: Ey şahpərim od almaq nədən?
Dedi: Can atəşə yaxmaqçın bir an.

***

500. Göydən ay, ulduzlar baxırdı, şəstlə,
İlhamıma ilham taxırdı, şəstlə.
O göylər pərisi, qürub ulduzu,
Məni heyrətlərə yaxırdı, şəstlə.

***

501. Həyat bu bəşərin canı, nəfəsi,
Şah damardan axan qanı, nəfəsi.
Yüksəlir, alçalır illər uzunu,
Əsrlər üstündən sədalı səsi.

***

502. Haqq olmasa, insan biçilər dən-dən,
Pisliyin əliylə düz gedər əldən.
İnsana su təki lazımdır xeyir,
Şər xain çıxıbdır, çünki əzəldən.

***

503. Ey insan, mərdliyi sən vermə əldən,
Çünki şəfa yoxdur pisliyə eldən.
Həyat mərdə arxa, namərdə qənim,
Allah belə yazıb hökmü-əzəldən.

***

504. Kəhkəşan göylərin bağrı qan idi,
Səma buludunun gözü nəm idi.
Dedim ki, ey səma nədir bu kədər?
Dedi: Bulud pozub arada əhdi.

***

505. Dedim: Ey qəm, buyur gəl çəmənzara,
Dedi: Dəvət etmə, gətirrəm zara.
Gəldiyi yerdəcə sevinc görən qəm,
Elə bil min yerdən çəkildi dara.

***

506. Baş götürüb getdin, bilmirəm hara,
Rəhim eyləmədin mən dərdü-zara.
Sən məni qəmlərə düstaq eylədin,
Qəmlər də könlümü çəkibdi dara.

***

507. Ömrümü, günümü puç eylədim mən,
Ey ürək, günləri, de neylədim mən?
Belə dövran bir də ələ düşməzdi,
Əfsus, bu ömrümə qəm ələdim mən.

***

508. Ey aşıq, gəl dinlət telləri bir an,
Sədan nur gətirsin ağaranda dan.
Çaldığın o hava hansıdır elə,
«Yanıq Kərəmi»dən, ya «Koroğlu»dan?!

***

509. Min bir rəngə girib, min dəblə bəzən,
Ad qoyuldu sənə ədayla gəzən.
Əməksiz, zəhmətsiz günlər keçirtmək,
Bu yaşamaq deyil, düşün, eylə zənn.

***

510. Qəlbləri ağrıdan pislik etdin sən,
Beyinlər çalxadan yolla getdin sən.
Kim deyər, alqışlar o idrakına?
Kim deyər, əqlinə, duyumuna əhsən?

***

511. Yaxşını, ya pisi, gözlər, görürsən,
Niyə yaxşılıqçın əsməyirsən sən?
Düz əməkdən yapış, şərəflə yaşa,
Bax onda deyərəm, həyat sürürsən.

***

512. Madam ki, görürük, pis yaramazdır,
Pislər bu həyatda varsa da, azdır.
Bil, çoxluq azlığı məhv edib hər an,
Pis olsan da, demək, ağlın dayazdır.

***

513. Pislik, yaramazlıq, xainlik, əbəs,
Yaxşılıqçın ömrü sərf eləyib, əs.
Düzlük ucalıqsa, ilk yaranışdan,
Məhz neyçün düzlükdən uzaq olaq bəs?

***

514. Xain oldun, demək, yaşamadın sən,
Dünyada qalacaq, xain adın, sən
Töhmətlə yaşayıb, gün keçirtməkdən,
Yalnız bu dünyada ölmək olar şən.

***

515. Taleyin dözdüm mən hər acısına,
Qoymadım qəlbimi heç nədən sına.
Sənin hər cəfana dözsəm də, fəqət,
Sənə demədim ki, gəl məni qına.

***

516. Ürəyim fələyin hökmündən küsdü,
Varlığımdan çıxır dəhşətli tüstü.
Necə göstərdin sən hər dərdi mənə,
Etdiyn dərdlərin açıldı üstü.

***

517. Yollara baxmaqdan qəlbim yorulmur,
Sirrim o yollardan, sanki sorulmur.
Yollardan soruşdum, təqsirim, dedi:
Heç üzün açılıb qəlbim durulmur.

***

518. Eşqim, amalımsan, Vətən torpağı,
Mənə fərəh verən könlümün dağı.
Xoşbəxtlik açarın aldın əlinə,
Silindi qəlblərdən neçə qəm dağı.

***

519. Gör kimə uydun sən, ah, yazıq könül,
Sevin ki, həyatda biz azıq, könül.
Bizimtək olsaydı büsbütün cahan,
İnsanlar deyərdi dayazıq, könül.

***

520. Mənə həyat verən sənsən, ey ürək,
Hələ bir aman ver, etmə məni tərk.
Başqasına heç vaxt deməzdim bunu,
Həmdəm olduğunçın eyləyirəm ərk.

***

521. Min rəngdən, min rəngə girmə sən, ey kəs,
Nahaq danışırsa, o dilini kəs.
Həyat çox böhtanlar məhv edib, cahil,
Onlar mənliyinə toxunmayır bəs?

***

522. Qulağıma gəldi pıçıltılı səs,
Dedi: Qəmə dalma, ürəyinçin əs.
Söylədim, ey qafil, bu niyə lazım?
Dedi: Varlıq tacı ürək deyil bəs?

***

523. Hörmürçək torutək torlar toxuyur,
Bir gündə bir ilə min qəm oxuyur.
Şadlığa paxıllıq edən bir ölüm,
Onunçın özünü qəlbə toxuyur.

***

524. Yad eylə bu könlü uzaqda olsan,
Şaxtada, boranda, sazaqda olsan.
Düzdür, ayrı düşdük nədən oldusa,
Eybi yox, mən səni, sən də məni an.

***

525. Günahkar özünsən, özündən usan,
Olub keçmişləri bir də izlə, san.
Üzündən görünən xudpəsəndliyi,
Bimürvət olarsan, sən məndən duysan.

***

526. Fitnə-fəsadına uydum, ey könül,
Sadəlövhlüyündən doydum, ey könül.
Məni heç edərək, qəmlərə atdın,
Hiss edərək bunu duydum, ey könül.

***

527. Özümə hər yandan axtardım həyan,
Taparkən, ürəyə eylədim bəyan.
Dedi: Çörəyi yox, ürək dostun tap,
Sonradan ömrünə gəlməsin ziyan.

***

528. Əzəldən duysaydım, yar yox, əğyarsan,
Özün kimisinə özüntək yarsan.
Şirini xəbərdar eyləyərdim, ah,
Açıb-ağartmazdım bunu heç zaman.

***

529. Ey fələk, zülm etdin, baxdın mənə kəm,
Bununçın neyləyim mən taleyi kəm?
Yəqin tənhalığım sənə xoş gəlib,
Sənə gücüm çatmaz, bilirsən təkəm.

***

530. Çalış, sən şöhrətdən, mənsəbdən yan keç,
Şöhrətə, mənsəbə qapandınsa, heç.
Mənsəbin, şöhrətin qulu olunca,
Ölüm şərbətindən birdəfəlik iç!

***

531. Tutaq ki, vəzifə başına keçdin,
Lakin, xudpəsəndlik məramın seçdin.
Bunu necə etdin, düşünmədin ki,
Bu gün var idinsə, sabahsa heçdin.

***

532. Sən mənim könlümü oxşadın bir an,
Onunçın özümə dost etdim haman.
Çox biganə oldun qəlbimə, əfsus,
Dad könlüm evindən, dad səndən, aman.

***

533. İnandım namərdə, əğyara, əfsus,
Qəlbimi eylədi dərd para, əfsus.
Könlümə dedim ki, sadəlövh, dedi:
Qəddarmı olacam? Sən danışma, sus!

***

534. Dərd aman verməyir, tərpənir zirək,
Başımın üstünü kəsdirir, ürək.
Bilməm, nə ortağlı malımız var ki,
Ah, bu dərd-qəm ilə birlikdə bölək.

***

535. Əzimlə, mərdliklə çalışdım, aman,
Əməyə, zəhmətə alışdım, aman.
Ürək qürrələnib dedi: Həmkarım,
Bəxtəvər yaradıb səni bu zaman.

***

536. Ürək qubarlanıb, aldandı birdən,
Fikirdən, qüssədən saça düşdü dən.
Cahan təəccüblə dilləndi, dedi:
Ey insan, agah et məni bu sirdən.

***

537. Fürsət düşdü ələ, yaxşılıq elə,
Ver o kəsafəti, pisliyi yelə.
Demə, necə tutsan dünyanın işin,
Elə də baş alıb gedəcək hələ.

***

538. Qapılma hərcayi fitnə, fəsada,
İnan ki, heç nədən gedərsən bada.
Həyat imtahandır, elə yaşa ki,
Uzaq olsun səndən, hər qorxunc qada.

***

539. Yetiş hər dəqiqə dada, fəryada,
Sənə kömək olar canlı dərya da.
Elə məğrurluqla gün keçirt ki, sən,
Yetişə biləsən kama, murada.

***

540. Dəyanət gözləyir hər addım həyat,
Xəyala dalsan da özünü oyat.
Bil ki, hakim təki qanunlar verir,
Onunçın baş tutur hər əməliyyat.

***

541. Hər bir gördüyünə aparma həsəd,
Xeyirxahlığınla sən çıxar bir ad.
Apardığın həsəd fitnəyə dönər,
Niyə lazım böylə bu fitnə-fəsad?!

***

542. Kədərli olsan da qəlbə sevinc qat,
Ömür daim deyil, acılığı at.
Ziyankar olarkən acılıq, Şirin,
Niyə nahaq yerə təlx olsun ovqat?

***

543. Ağılla ürəyim çarpışmadadı,
Onlar qan-qırğında, vuruşmadadı.
Kim haqsız, kim haqlı anlamadım ah,
Hər gün bir-biriylə yarışmadadı.

***

544. Bir də ayılaraq, olmuşam sərvaxt,
Görmüşəm boş yerə ötüb keçib vaxt.
Madam ki, belədir, indi, ey könül,
Ehtiyatlı olaq gərək ki, hər vaxt.

***

545. Sən məni zillətə saldın, ürəyim,
Kəsilib taqətim, qalmayıb heyim.
Əlində köməksiz qalan idrakı,
Mən necə həyatın eşqiylə öyüm?

***

546. Öz ürəyim mənə pislik etdi, ah,
Mənə bəla verdi dərdi hər sabah.
Biləsən, ey başı bəlalı ömür,
Qəlbimi dərmanlar etdi qərargah.

***

547. Təqsirkar bilməsin kimsə zamanı,
Özü cəhd etməyən bir qalib hanı?
Şadiman əzəldən bilsəydi, hərgah,
Candan hifz edərdi ahı, amanı.

***

548. Qəm burulğanına düşmüşəm, aman,
Hansı yolla çıxım düşündüm yaman.
Sevinc haray çəkib, dedi: Ey insan,
Özünü şad göstər, qəm solar haman.

***

549. Torpaq – ürək açan gülüstan, gülzar,
Bə'zən aman vermir ona rüzigar.
Bundan bədbinləşir təbiət hərdən,
Torpağın halına ağlayır zar-zar.

***

550. Bədbəxtlik insana ah-zarmış, aman,
Məkanı, zamanı çox darmış, aman,
Bəşər torpaq üstə ömür sürsə də,
Bir gün qara torpaq udarmış, aman.

***

551. İnsan ələmlərə düçar olanda,
Qəmlər üstün alıb naçar olanda,
Özünə bir həmdəm, kömək arayar,
Mərdliklə arxa ol, ona o anda.

***

552. Gözəl arzulara edirdim, gəl-gəl,
Bilməm, taleyimdə gəzdi hansı əl?
Qəmlər qoşun çəkdi, gəldi, gələrkən,
Yolumun üstündə çox oldu əngəl.

***

553. Səmaları seyrə tez getdi könlüm,
Qoşulub buluda lap itdi könlüm.
Dərhəl köks ötürüb, göylər dilləndi:
Şimşək asimanı eylədi dilim.

***

554. Çoxları dünyanı qəmə boyadı,
Al qana qərq etdi yaxını, yadı.
Nə olsun, onsuz da pislik edəni,
Qəlblərə həkk oldu, o nakəs adı.

***

555. Əyilmə xainə, namərdə heç an,
Əyilmə, çirkaba düşərsən yaman.
Başını dik saxla, dik nəzərlərlə,
Xeyirxahlıq eylə, pisliyisə dan.

***

556. Xeyir nəzərlərlə dünyanı seyr et,
Müdrik ol, daima kamilliyə yet.
Alicənablığa məftun olub sən,
Alicənab kimi ölümə də get.

***

557. Qədirsiz, qiymətsiz gün keçirtdin, heç,
Çalış bədxahlığı ürəyindən biç.
Həyata ilk addım atandan bəri,
Ləkəsiz vicdanın gur suyundan iç.

***

558. Dünən bir insana məftun oldum mən,
Dedim: Nə yaxşısan, ey xilqətim sən.
Ağzını açanda zəhər töküldü,
Fikrimdə dolaşdı, əcəbcə gül sən.

***

559. Dilimdən dodağa sözlər töküldü,
Ona söz deməkçin gözlərim güldü.
Amma elə kökə saldı özünü,
Dilləndi, inan ki, bağrım söküldü.

***

560. Ürəyim fərəhdən təzəcə güldü,
Elə bil açılan ətirli güldü.
Amma, çox çəkmədi, tutuldu könlüm,
Hər yandan üstümə qəmlər töküldü.

***

561. Fikirdən, qüssədən belim büküldü,
Hənuz, bərbad könlüm tamam söküldü.
Elə bil varlığım, kuzədə suydu,
Əlimdən düşərək yerə töküldü.

***

562. Əcəbcə, ey könül, şad oldu qəlbim,
Sanki varlığıma yad oldu qəlbim.
Min cür fırtınalı küləklərimlə,
Uydu tufanlara, bad oldu qəlbim.

***

563. İşim düz gətirmir bircə an mənim,
Ey ömür, dərdimə bir yol yan mənim.
Yatmısansa, ayıl, axına qarış,
Arzumdan, əhdimdən keçmə yan mənim.

***

564. Mənsubam dözümlü bir sədaqətə,
İnan, hörmətim var haqqa, izzətə.
Zəfərlə gedərkən mən bu yolları,
Adlayıb çatıram düz ləyaqətə.

***

565. Könlümdən həqiqət sel kimi axır,
Namərdin, alçağın varlığın yaxır.
Məni simfonyatək səslədən budur,
Mənim yaranışım bu cürdür axı.

***

566. Məni dərdlərinə qatmısan, cahil,
Bilikdə nə vaxtdan olmusan ahıl.
Şirinin ürəyi coşğun da olsa,
Elə dəryadır ki, yoxdur bir sahil.

***

567. Sanki təmiz vicdan qəlbin bəsidir,
Böyük amalların odlu səsidir,
Kiçicik təbəssüm qopsa qəlbindən,
Bil ki, o vicdanın tərənəsidir!

***

568. Ürəklərin təbəssümü dodaqlarda səslənir,
Böyük amal, böyük duyğu sinələrdə bəslənir.
Şirin, bircə səhv addımdan qopan acı nalələr,
Dərdli könlün, dərdli qəlbin sədasıyla səslənir.

***

569. İlhamımı bu ellərin təmasından almışam,
Bir sətirçin günlər ilə xəyallara dalmışam.
Şirin bilir, söz cəbhəsi çox bəlalı cəbhədir,
Bu cəbhənin hər mələlın ürəyimə salmışam.

***

570. Ürəklərin cığır daşı, vicdandır,
Davranışın əzəl başı, vicdandır.
Bunu məndən yaxşı bilirsən, Şirin,
İnsanların can sirdaşı, vicdandır.

***

571. Həyatım dillərdə dastana döndü,
O odlu varlığım heç nədən söndü.
Şirinəm, bilmədən odlara yandım,
Könlüm dilə gəlib, qüssədən dindi.

***

572. Ey ürək, varlığım qüssəyə döndü,
Qəlbimə üstəlik qəm tozu qondu.
Şirin, ayırd edə bilmədim, könül
Təəccübdən, ya da həsrətdən dondu.

***

573. Axı, qəm yaraşmır cavan yaşına,
Bilməm, hardan çıxdı kədər qarşına?
Sənin ah-ufunla deyil ki, Şirin,
Gərək hər bəlalar gəlsin başına.

***

574. Könlüm şər işlərə heç qapılmadı,
Pisliyin əlacı tam tapılmadı.
Hər kəs bulandırır dunyanın suyun,
Onun qarşısına səd yapılmadı.

***

575. Qüvvətimi səndən aldım, ey Vətən,
Qəmli könlə sevinc saldım, ey Vətən.
Bu zəhmətdən, bu hünərdən, əməkdən,
Kim deyər ki, dala qaldım, ey Vətən.

***

576. Ürəyimin sevincləri yəhərli,
Qəm mülkünün hər kəlamı zərərli.
Sevinclərim, kədərlərim mənimçin,
Koroğlunun Qıratıtək yəhərli.

***

577. Ömrümüzdə neçə bahar sevinci,
Duyan qəlbdə vardır saysız dürr, inci,
Zəkaların axıb gələn kəlamı,
Qəlbdən qovar yorğunluğu birinci.

***

578. Ey Vətənim, çox əzaba dözmüsən,
Xainləri, düşmənləri üzmüsən.
Aşiqinəm, sənə vurğun Şadiman,
Əzəl başdan bağrıma dürr düzmüsən.

***

579. Haqqın əzəl laylası bu ellərdə çalınıb,
Peymanilər dünyası bu torpaqda salınıb.
Yaranıbdı xalqımın pozulmaz təməlindən,
Könüllərin içinə, çeşmə şadlıq calanıb.

***

580. Ey Vətənim, torpağın sən əzəl laylasısan,
Səndən ilham alıbdı xoşbəxt könüllər hər an.
Milyon ahlar, nalələr varlığınla heç olub,
Ən mürəkkəb anlayış əlinlə olub asan.

***

581. Həmişəlik firavan, şüurlu dünyam ola,
Hər amalı işıqlı, qürurlu dünyam ola.
Hər neməti, bolluğu ömürləri uzada,
Süfrəsi duz-çörəkli bir nurlu dünyam ola.

***

582. Bəsdirin, dunyaya xainlik yetər,
İnsan mərd ağılla arzuya yetər.
Hər nə pislik varsa hislərdən gəlir,
Ağıl işləməsə, insanlıq bitər.

***

583. Ah, əgər varsansa, bədgövhər insan,
Göstərsən özünü ləl, gövhər, insan.
O hiylən nə qədər olsa yəhərli,
Bir gün yıxar səni o yəhər, insan.

***

584. Könül istəyinə aldanan ürək
Heç niyə, hər şeyi tez danan ürək.
Şirin sənin üçün nə idi, məgər?
Ona dərd verməkçin tərpəndin zirək.

***

585. Sutək axıb gedir bu coşğun günlər,
Qocaldır, baxmayır cavan, igid, ər.
Bu sirli təbiət vurğunun, Şirin,
Hər bir harayına züy tutub inlər.

***

586. Mərdliklə günəştək işıq saç, ürək,
Şadlığa, sevincə qapı aç, ürək.
Xoşbəxt həyat dolu, səadət dolu,
Bir gözəl sabahdan söhbət aç, ürək.

***

587. Yamyaşıl ormanlar gülə boyanır,
Anamız təbiət yenə oyanır.
Gül-çiçək beşiyi olub torpağım,
Bir-birindən gözəl günləri anır.

***

588. Çox pisliklər edib, pisliyə yetdi,
Qansız əməllərlə bağrı qan etdi.
Zalımlıq oduyla yanan o ürək,
Günlərin bir günün torpağa yetdi.

***

589. Əməli ucalıq səni xar etməz,
Ömrün uzundursa, heç vaxt dar etməz.
Çətinliyə düşsən bircə yol əgər,
De, hansı bir insan dadına yetməz?!

***

590. Sən naümid olma, ümidlə yaşa,
İnan, ümid baxmır heç zaman yaşa.
Buna fikir vermə nə olsun ki, ah,
Ümid naümidlə yaranıb qoşa.

***

591. Şöhrətə aldanma, aldanma, könül,
Ziyankardır şöhrət, heç anma, könül.
Sən yalnız və yalnız xeyirxahlığı,
Üstün tut hər zaman, bax, danma, könül.

***

592. Sən sevdasıyla yan xeyirxahlığın,
Qoy uğurla keçsin ömür sağlığın.
Çox götür-qoy edib, çox düşün-daşın,
Duru su yaxşıdır, yoxsa ki lığın.

***

593. Tutaq ki, bəd əməl hökmüylə bir an,
Tam günahsız qəlbə hiylə qurmusan.
Bunu sən yaxşıca bilməlisən ki,
Aydın qaranlıqdan seçilir, inan.

***

594. Sevincim, kədərim, şadlığım oldun,
Hissinlə əbədi hissimə doldun.
Hər əzaba dözən deyilmişsən ki,
Lap tezcə açılıb, tezcə də soldun.

***

595. Həqiqət xəyalı qul edib hər an,
Onun sözü ötüb hey zaman-zaman.
Xəyal boş düşüncə, həqiqət amal,
Bunu danmaq olmaz, ey Şirin, inan.

***

596. Sən mənə xoşbəxtlik bəxş etdin yaman,
Ey tale, heç mənə vermədin aman.
Qanlı döyüşlərdən çıxana bənzər,
Oldum fərariyə oxşar bir zaman.

***

597. Pəncərə önündə durdum bir səhər,
Gördüm şadlıqdadır yurdum, yox qəhər.
Sordum: Bu nə bayram, ay elim, dedi:
Bu gün biz zəhmətdən görmüşük bəhər.

***

598. Dedim: Hünərinlə ucal, ey Vətən,
Dedi: Ey övladım, ağlına əhsən.
Dedim: «Vətən, alqış». Bəs niyə dedi?
«Şadlıq diləmədin məgər mənə sən»?

***

599. Doğuldun, ömrə olma heç vaxt yad,
Çalış günlərini edəsən abad.
Xoşbəxtlik açarın tapanlar bilir,
Zülmətdən işığa yol gedir həyat.

***

600. Musiqi, necə də vəcdə gəldim mən?
Acı xəyalları tamam dəldim mən.
Ürəkdə bircə sən qərar tutmusan,
Səndən ilham alan saça düşməz dən.

***

601. Ey dəli könlümün gözəl ustadı,
Qəlbimin ilk ovu, ey əzəl adı
Sən oldun, musiqi, nə üçün? dedi:
«Düşünən beyinin budur təzadı.»

***

602. Azadlıq xaini çox odlar, yurdum,
Səni uca edib vicdan, ar, yurdum.
Layiqli süfrənin bərəkətindən,
Neçələri dadmış, ey Odlar Yurdum.

***

603. Nigarançılığım həsrətə döndü,
Həyatım dillərdə qeybətə döndü.
Qopdu bu könlümdən dərdli sədalar,
Çılğın həyatımda heyrətə döndü.

***

604. Könül, ustadına kəm baxma heç vaxt,
Onun həyatıyçın ol daim sərvaxt.
Şirin, şagird hesab eylə özünü,
Ustad gözlərində uca ol, hər vaxt.

***

605. Bu qəmli ürəyi şad eylə, könül,
Gəl şəri at, xeyri yad eylə, könül.
Şirinə həmdəm ol, xeyir-dua ver,
Hər cəfasına döz, sən böylə, könül.

***

606. Gəlişin qəlbimdə bayrama döndü,
Tüğyan edən qəmlər bir anlıq söndü.
Sanki bu həyatım sevinc içində,
Sorağını alıb tezcə öyündü.

***

607. Yaman qəmlər oylağına düşmüşəm,
Gah sevincdə, gah da qəmdə bişmişəm.
Görəcəyim sən olmuşdun əzəldən,
Sən gedəli heç olubdu bu nəş'əm.

***

608. Dünya mürəkkəbdir hökmü-əzəldən,
Zamanın günləri tez gedir əldən.
Deyəsən, ey Şirin, yalnız taledir,
Qəlbi qəm mülkünə işə düzəldən.

***

609. Namümkündür səni bircə an danmaq,
Olmuşlar önündə necə dayanmaq?
Qulağıma deyir bir naqəfil səs,
Sənin, bircə sənin oduna yanmaq.

***

610. Mənim sultanımsan, can xaqanımsan,
Ürəyimdən axan isti qanımsan.
Zaman şahid olub buna, ey yarım,
Ömrümdən həsrətlə keçən anımsan.

***

611. Gətirmə evinə məlalı, könül,
Yad elə yaxşını, pis halı, könül.
Sən at bir tərəfə, unut, tez unut,
Sənə ziyan verən xəyalı, könül.

***

612. Mən sənin kölgənə səcdə etmişəm,
Pak sevinci qoyub qəmdə itmişəm.
Özüm də bilmədim, nədən oldu ki,
Məhəbbət gülzarlı kolda bitmişəm.

***

613. Pəjmürdə könlümə yaxın gəl, barı,
Vəfasız olsan da unutma yarı.
Sən bir məsləhət ver, qəlbim unutsun,
Sinəmdə kükrəyən dərdi, ah-zarı.

***

614. Könlümü tar, kaman nəş'əsi aldı,
Qəlbimin ilhamın sevincə saldı.
Od yurdumun sazı, tarı, kamanı,
Dadlı duyğuların hayına qaldı.

***

615. Bir zaman mən səndən ümid dilədim,
Sənsizlik içində sənlə inlədim.
Bir deyən olmadı, ey Şirin, belə
Sükutla xəyalı necə dinlədin?!

***

616. Bir könüldən min könülə aşiqəm,
Mən söhbətli, sazlı-sözlü aşiqəm.
Qəmlə şadlıq çarpışmada, neyləyim?
Keçirtdiyim ömrə düşüb acı qəm.

***

617. Nəğmələr səslənir, ellər oyanır,
Dostum kamın alır, düşmənim yanır.
Bu vətən torpağı laləzar olub,
Hər yeri ətirli gülə boyanır.

***

618. Həyat özü baxışlara xilaskar,
Düşüncəsi xeyir əməl, qəlbə yar.
Ağlar elin, ağlar dilin imdadı,
Ürəklərə əvvəl-axır ümidkar.

***

619. Qalibiyyət canda olsa, ucalır,
Düşünənlər ondan başa tac alır.
Şirin, əgər idrakını isitsən,
Deməzsən ki, boş keçən gün qocalır.

***

620. Köksümə əzəldən hakim olmusan,
Bilməm, bu ürəyə necə dolmusan?
Axtarır bu sınıq könlüm səni, hey,
Həsrətə cığırı açan yolmusan?!

***

621. Sovrulsun göylərə xain yuvası,
Odur qanı tökən, artıran yası.
Çünki, məhv eyləyir bəşəri fitnə,
Canlar bədənindən kəsilir asi.

***

622. Yenə ilhama gəl, ey könül, çağla,
Namərdin, əğyarın qəlbini dağla.
Bu həyatda çirkin ürəklər üçün,
Daima, daima qapını bağla.

***

623. Qeyrəti, vicdanı əldə silah et,
Çalış ömrün boyu, təmiz yolla get.
Düzlüyü heç zaman vermə ayağa,
Onun məqamından ucalığa yet.

***

624. Könül xoşluğuna allandım, heyif,
Uyub, qılığına bulandım, heyif.
Demə, riyakarsan, bunu bilsəydim,
Deməzdim oduna: «Çox yandım», heyif.

***

625. Təmiz, pak vicdanlı bildim mən səni,
Aldada bilmədin, məntək kimsəni.
De hansı qeyrətə sığınmışdın ki,
Riyakarlığına yem etdin məni.

***

626. Şirin və'dələrin acıya döndü,
Odlanan varlığa bu necə yöndü?
Neyləmişdim sənə, sadəlövh ürək?
Həyatım qüssələr içində söndü.

***

627. Dərdimin üstünə dərd gətirdin sən,
Mənə bir yol göstər, de neyləyim mən?
Düzlükdən qaçma sən, düzünü söylə,
Yoxsa, bu qüssəylə gedərəm əldən.

***

628. Fikirləş, ey könül, müsbət yolu seç,
Alınmaz yollardan məğrurluqla keç.
Addımı elə at, axır zamanda
Ayağın büdrəyib, olmayasan heç.

***

629. Bir zaman zirvətək kəşf etdim səni,
Dedim: «Qüdrətlisən, sevindir məni.»
Qüdrət arxasında sirlər yatırmış,
Bunu kim arayır, kim bilir yəni?

***

630. Ey mənim sevincim, sənsiz bircə an,
Yaşaya bilmərəm, bil ki, heç zaman.
Həyatım, varlığım olandan bəri,
Olmuşam əbədi oduna yanan.

***

631. Çalış, qoy günlərin keçməsin hədər,
Hər bir dəqiqənə qoy daim qədər.
Xeyirxahlıq üçün bircə bunu bil,
Bir xeyir min dənə pisliyi ödər.

***

632. Torpağa gedəcək bütün yaranmış,
Çünki bu yaranmış, ondan yaranmış.
Torpaq mehrabıdır bu təbiətin,
Kim deyir ki, bunu təbiət danmış?

***

633. Basma həqiqəti, yan keçmə ondan,
Uzaqlaş geyilmiş pis, çirkin dondan.
Həqiqət yolunda ayaqlansan da,
Döz, adlama onu, keçsən də candan.

***

634. Özünün rəzalət donunu geyib,
Qəlbi bütövlərin qəddini əyib.
Min cür fitnələrə əl atandan qaç,
Bunu sən özünə heç sanma eyib.

***

635. Özündən böyükdən yara alsan da,
Onun tə'nəsinə məruz qalsan da.
Böyüklüyü üçün keç günahından,
Bu dərdi ürəyə, qəlbə salsan da.

***

636. Bu səhər gözümə göründün, ey mah,
Ürəyimdən qopdu dəhşətli bir ah.
Ah-uflar içində itib batmazdım,
Ürəklər əhd ilə vursaydı hərgah.

***

637. Sübhədək eşqindən qan-yaş tökdüm mən,
O bərbad könlümü tamam sökdüm mən.
Bir deyən olmadı, ey yazıq könül,
Niyə bu qəlbini yıxıb sökdün sən?!

***

638. Bəxti qaralıqda məşhur oldum mən,
Ömrü, cavan ikən, tamam soldum mən.
Şirinin göz yaşı dəryaya döndü,
Fərqinə varmadın, heç sormadın sən.

***

639. Səhər yellərinə oxşatdım səni,
Yellərtək sevincə qərq etdin məni.
Səhər yelləritək məhəbbətin də,
Tezcə əsib, tezcə yox oldu yəni?!

***

640. Məni dərd içində atıb getsən də,
Qəlbimə nə qədər pislik etsən də,
Unuda bilmirəm, ey bütgahım, bil
Yadların qəlbində gültək bitsən də.

***

641. O gül camalını görərkən dünən,
Sordum, bircə anda min rəngə dönən,
De, xoşbəxt qəlbimi qəmlərə atan,
Nakam eşqi necə gəzdirir sinən?

***

642. Ey mahım, çöhrəni görərkən, inan,
Qəlbimdən alovlar çıxdı bircə an.
Ürəyim od alıb, yanarkən dedi:
Ey bədbəxt, qalmadı səndə daha can.

***

643. Yandı atəşlərə, odlara qəlbim,
Gəldi dərd əlindən lap zara qəlbim.
Unutma acını, yadında saxla,
Taledən almısan dərd, yara, qəlbim.

***

644. Zaman sərxoşuna döndü bu ömrüm,
Çilçıraqlı idi, söndü, bu ömrüm.
Nədən, necə oldu? Özüm bilmədim,
Elə bil dərdlərə öndü, bu ömrüm.

***

645. Yetiş köməyimə, yanıram, aman,
Sən məni bəxtəvər eylədin yaman.
Necə unudum ki, o gül çöhrəni,
Bir də düşünməyim səni bircə an.

***

646. Hansı bəxtəvərə uymusan, ey yar?
De, kimin qəlbinə, neçin oldun yar?
Süni zinətlərə alüdə olub,
Məni el içində tamam etdin xar.

***

647. Odlara yansam da, səni səslədim,
İllərlə köksümdə könül bəslədim.
Ürək qəmə batdı, ömür isə puç,
Mən özüm özümü bədbəxt eylədim.

***

648. Kim haqsız qəmlərə gətirər davam?
Sən özünü sevən, mən isə avam.
Əzəldən xəbərdar olsaydım, hərgah
Kiçicik qüssəni eyləməzdim dam.

***

649. Günümü dərd-qəmlə, ahla keçirtdim,
Çünki şadlığımı özüm biçirdim.
Elə bil, nə isə, şeytan əliylə,
Kədər badəsindən zəhər içirdim.

***

650. Ah, fikir, iztirab üzdü ömrümü,
Kədər xainliklə süzdü ömrümü.
Açıldım gül təki yaşamaq üçün,
Tikanlar, qanqallar əzdi ömrümü.

***

651. Bir əl çirki təki kirdi ayrılıq,
Sadiqlik bağına girdi ayrılıq.
Gülü heç eylədi, bülbülüsə puç,
Bilməm, nə ünyetməz sirdi ayrılıq.

***

652. Əğyar ağlatmadı mən tək kimsəni,
Bu da bəd taleyin hökmüdür yəni?
İllərlə bir könlün sən cəfasın çək,
O da rəzilliklə heç etsin səni.

***

653. Deyəsən, üzümə gülür taleyim,
Bilmədən kədəri silir taleyim.
Gurlayır bulaqtək, qaynayır könlüm,
Onun sevincini bilir taleyim.

***

654. Ah, bəlalı könül, sevin və şadlan,
Bəxtəvər şahinsən, daha qanadlan.
Ancaq nə pisləri, nə də yaxşını,
Özün bilən kimi xatırla hər an.

***

655. Könlüm lal xəyalın aşiqi oldu,
Onun qüssəsindən varlığım soldu.
Bilməm, necə oldu xəyal sandığım,
Sevdalı diləktək qəlbimə doldu?!

***

656. Qəlbimə hökmran oldun sən yəni?
Nə olsun, köksümdə yaşatdım səni.
Bu sevən varlığım qaldı biqərar,
O xudpəsənd qəlbin tutdu özgəni.

***

657. Ey əğyar, o yuvan tarı-mar olsun,
El-oba içində qəlbin xar olsun.
Necə ki, xar etdin əzəldən məni,
Sənin də varlığın mənimtək solsun.

***

658. De, neçin allandın fitnəyə, ey yar,
Görüm fitnəkara dünya olsun dar.
Məhv olmuş taleyin hıçqırığına,
Söylə necə dözüm? Oldum dərdə yar.

***

659. Arzudan doğuldum mən bu dünyaya,
Ürəyim od aldı, can düşdü vaya.
Lal-dinməz olaraq hər sözə baxdım,
Gözdəki yaşlarım bənzədi çaya.

***

660. Kim yolu göstərdi sənə, vəfasız,
Qəmləri doldurdu bağrıma saysız.
Sən könül mülkümə adlamasaydın,
Mən ömür sürərdim dərdsiz, cəfasız.

***

661. Vaxtsız qəm atəşin tökdün üstümə,
Yandım, gülə-gülə baxdın tüstümə.
Sən bəxtiyar oldun, mən isə bədbəxt,
Bilməm, bəs nə üçün durdun qəsdimə?

***

662. Atəşlər içində məhv oluram mən,
Mənə, bir damcı da, rəhm etmədin sən.
Mən sənin vəfanı anladım, əfsus,
Elə qəlbimi də, bax budur didən.

***

663. Sən oldun, ey xəyal, mənim ilk andım,
Qəlbimin ilk odu, oduna yandım.
Haqsız əməlindən, pis gərdişindən,
Cana yığılaraq, tamam usandım.

***

664. Mənliyi, qüruru yüksək tut hər an,
Onun kölgəsində dolan hər zaman.
Şan-şöhrət sahibi olsan da bir gün,
Unutma sən onu, adlama, aman.

***

665. Yöndəmsiz bəxtimin vəfasız yarı,
Qoymadın, bir ağ gün görəm mən, barı.
Dəhşətlər içində göz yaşı tökdüm,
Görüm heç olmasın vəfasızları.

***

666. Taleyin heç həmdəm olmadı mənə,
Əzab, dərd doldurdu qəlbimə yenə.
Bir zaman sevincə qərq olduğum an,
Dedi: Hər sitəmi eylərəm sənə.

***

667. Tale saldı məni gözdən, ey təbib,
Dərman istəyirəm, sizdən, ey təbib.
Bir yolluq nicat et, ya da ki öldür,
De, o nə istəyir bizdən, ey təbib?!

***

668. Aldanma fitnəyə, uyma hiyləyə,
Kim tapşırdı sənə qəddimi əyə.
Neyləyə puç olmuş saf məhəbbətim?
Bu qəlbim, bu könlüm sənə neyləyə?

***

669. Yandım, şölələndim, od aldım, ürək,
Cismimdə qəmlərlə yurd saldın, ürək.
İnsafsız olduğun bəs eyləmədi,
Məni məhv etməkçin tərpəndin zirək.

***

670. Könlüm dərd içində oduna yanır,
Hər an, bil ki, hər an o səni anır.
Dərdim təzələnir, qövr edir yaram,
Düşündükcə qəlbim, bağrım odlanır.

***

671. Tale zəhər qatdı keçən hər ana,
Artıq bu zülümdən gəlmişəm cana.
Bir deyən olmadı, ey acı tale,
Niyə dərd verirsən, dərdsiz insana?!

***

672. Gərdişi yamandır vəfasızların,
Dilinə tez uydum niyə əğyarın?
De, hiylə donuna girən kələkbaz,
Bir söylə hanı bəs namusun, arın?

***

673. Bağrımdan tufanlar qopdu yenə də,
Qüssələ gün vermir, neylim, mənə də.
Bircə an fikirləş, ey yazıq könül,
Nə qədər dərd-ələm olar sinədə?

***

674. Bir zaman göz yaşım dəryaya döndü,
Ömrüm tez gurlayıb, tezcə də söndü.
Bütün ümidlərim solub gedərkən,
Ürəyim yenə də eşqlə döyündü.

***

675. Təkcə ümidgahım sən idin, ey gül,
Sənə bel bağladı bu yazıq könül.
Sonsuz baxışların pıçıltıları,
Mənə ümidlərlə demədimi, gül?

***

676. Ananın fəğanın eşitdim bir gün,
Qəlbimi bürüdü nalə dolu ün.
Sordum dünyamızdan, dedi ki, ölüm
«Bala dağlı etdi qadının köksün».

***

677. Ürəkdə ah, qüssə, sonsuz iztirab,
Qoymadı könlümdə qalsın azca tab,
Məni məhv elədi vəfasız dərdi,
Bunu səsləndirə bilərmi mizrab?

***

678. Pislik, müxənnətlik qəlbləri əyər,
Onların qurbanı olsan da əgər,
Qaç qurtar, uzaq ol onlardan, çünki,
İnsanlar bununçın yaranıb məgər?

***

679. Yaman bel bükürsən bəd gələn günüm,
Qəlbimin içində sızlayır ünüm.
Bəxtəvər ürəklər bərbad olur, ah
Nə ölüm olaydı, nə də ki, dönüm.

***

680. Dərdimi ümmanlar götürməz belə,
Bilən ürək edib, gətirməz dilə.
Məni heç eyləyir rəqib tə'nəsi,
Kaş fitnə, kaş tə'nə uçaydı yelə.

***

681. Ey səhər, dərdimi gəl sən ver yelə,
Pislik edən edib, sən xeyir elə.
Günah vəfasızın gərdişindədir,
Bu dərdi döndərib tükənməz selə.

***

682. Mən sənin yolunda, inan, nə qədər,
Sübhədək göz yaşı tökmüşəm hədər.
Əfsus, bir vaxt səni düşünən zaman,
Bilmədim ki, sonda qalacaq kədər.

***

683. Mən səni sevmişəm, ey dilibəstə,
Sən ey lal baxışlım, sözü ahəstə.
Niyə, nahaq yerə, mən bəd taleyi,
Ömürlük çevirdin dərdli şikəstə?

***

684. Günahım nə idi, mələk donlu mah,
Mənə qəm gətirdin, neçin bir sabah?
Necə rəva gördün həmişə dolsun
Ürəyimin başı saysız qüssə, ah.

***

685. Saysız hiylələrin fe'linə uydum,
Lakin, gec də olsa, mən bunu duydum.
O lal baxışların hiyləsiylə mən,
Özümü yamanca günlərə qoydum.

***

686. Məğrurluqla insan düzlüyə yetər,
O kamal bağında alilik bitər.
Kim öz qürurunu salsa ayağa,
Ayaqlar altında tapdanıb itər.

***

687. Ləyaqət hər şeydən ucadır, uca,
Bax qoru, səcdə et dünya durduqca.
Aldanma, baxmayır insan yaşına,
İstər çağa ol sən, istərsə qoca.

***

688. Bə'zən dilə gəlir, lal qərinələr,
Sanki pıçıltıyla söyləyir nələr.
Elə bil dil açır lal daşlar belə,
Sükutla nəql edir tarixi əzbər.

***

689. Könül fəryadından qopan ah-aman,
Həyatın bağrını çatladır yaman.
Hətta ah-naləni nə sonsuz səma,
Nə də torpaq uda bilmir heç zaman.

***

690. Köksümdə ah, nalə sonsuz iztirab,
Kim belə qüssəyə gətirər de, tab?
Məni heç eyləyir ayrılıq dərdi,
Mənə ömrüm boyu bu verir əzab.

***

691. Hər məkri, hiyləni quran ziyankar,
Salır tələsinə çox günahsız bar.
Sonra da rahatca nəfəs alıb, o,
Fitnəkarlığını tez edir inkar.

***

692. Sənə şirin dilli vəd verdi sabah,
Aldanma, gedərsən uçruma, hərgah.
Şirin dil məkrli hiyləylə, inan,
İlanı yuvadan çıxarır vallah.

***

693. Kələk quranların toruna düşsən,
Sadəlövhliyindən feilində bişsən.
Onda məğrurluğu seç həyat yolu,
Xilaskarın olsun, xoşbəxt yaşa sən.

***

694. Məni heç eyləyir qüssə, ey təbib,
Necə qapılmayım hissə, ey təbib?
Kimdən üz döndərə, allanan könül,
Kimin fəsadından küsə, ey könül.

***

695. Bilmədən əğyarın dilinə uydum,
Sadəlövhliyimi özüm də duydum.
Allandım hiylənin mələk donuna,
Mən özüm özümü pis günə qoydum.

***

696. Adla çətinliyi, məğrurluqla keç,
İdrakın vardırsa, cəsarəti seç.
Ürəyi ləkəsiz olsan əgər sən,
Kim məcbur edər ki, xəsarəti seç?

***

697. Dünənin fikrini çəkmə, ey insan,
Bü gün düşün-daşın sabahı hər an.
Halal pillələrlə sən çıx yuxarı,
Zirvəyə qalxanda yıxılmayasan.

***

698. Hər kəsə bir hiylə toru toxuna,
Qulağa riyakar sözlər oxuna.
Nə olsun, qurulan o torla sonra,
Özü toxunacaq bəla oxuna.

***

699. Öz dəli hisslərim məni heç etdi,
Biganə xəyallar içində itdi.
Uydum lal baxışın lal fitnəsinə,
Onunçın könlümdə qəm kolu bitdi.

***

700. Ananın yerini verməz bir kimsə,
Onsuz heç şadlanıb, gülməz bir kimsə.
Ana bu həyatın yaranışıdır,
Anasız dünyanı görməz bir kimsə.

***

701. Ah-nalə içində yandım, amandı,
Ömrüm dərdlə keçir xeyli zamandı.
Bir gözəl çöhrənin fe'linə uymaq,
İnsan həyatıyçın, bax, bu yamandı.

***

702. Səni düşünsəm də, sənsiz yaşadım,
Sənsizlik içində sənlə qoşadım.
Yurd-yuva içində məşhurlaşaraq,
Şirinlə, Leyliylə çəkildi adım.

***

703. Varlığın önündə bilmirəm nədən,
Saysız qəm yedikcə saça düşdü dən.
Sonsuz kainatda bir təkcə mənə,
Qüssə-kədər verən o əqlə əhsən.

***

704. Sonsuz iztirablar üzdü ömrümü,
Qəmlər namərdliklə süzdü ömrümü.
Qəlbimin fəryadlı ahından ümman,
Bircə an içində duydu ünümü.

***

705. Ömrün bir anının boş keçirtmə, gəl,
Bir gün gedəsiyik, biz axır-əzəl.
O sevinc qoşunun yoldaş et, yoxsa,
Ömrünün baharı tez olar xəzəl.

***

706. Allandım fe'linə, ey ilk məhəbbət,
Əfsus ki, sən mənə etmədin hörmət.
Qarşımda diz çökdün dilsiz səcdəylə,
Səninsə bəxşişin bir quru töhmət.

***

707. Mən kimə inanım, üz tutum, aman?
Kimi köməyimə çağırım pünhan?
Saldın bəlalara məni, ey ürək,
Üzdü həyatımı qüssə, ah-aman.

***

708. Mən munis bilmişdim səni bir zaman,
Sənsiz könlüm evin alırdı duman.
Ağlımla, qəlbimlə bağlandım bir vaxt,
Saldın ürəyimi ağrıya yaman.

***

709. Məndə qalmayıbdır taqət, bir düşün,
Hara gedib çıxar axrı bu işin?
Aləmə sevinclər bəxş etsən də sən,
Mənə qəm gətirdi, təkcə gəlişin.

***

710. Ağına-bozuna baxmayır zaman,
Gücü çatan qədər eyləyir divan.
Elə bil qoyduğu qanun-qaydayla,
Qurub qan ağladan qanlı bir divan.

***

711. Ağlat bu gözləri, ağlat, ey fələk,
Qoymadın dunyada bircə gün gülək.
Sən zülüm etdikcə, biz qubarladıq,
Səbəb nə? De bizə, qoy biz də bilək?

***

712. Min cür qanunları verirsən bizə,
Aman verməyərək düşürsən izə.
Tale, saysız-səssiz qüssələrin bax,
Göz açandan, inan, çıxıbdı düzə.

***

713. Gah ağladır, gah güldürür bu həyat,
Fərmanları gah təzədir, gah boyat.
Fikirlərin dünya qopsa, dəyişməz,
O, əzəldən ürəklərə bir səyyad.

***

714. Sirrini əzəldən eyləməz bəyan,
O geniş dünyanı deyildir sayan.
Hər anda bir cürə hökm edən həyat,
Ürək ağlatmaqdan əl götür, dayan.

***

715. Əməli ləkəsiz, vicdanı təmiz,
Özündə saxladı torpaq neçə iz.
Min cür fitnələri quran cahilə,
Torpaq qarşısında çox çökdürdü diz.

***

716. Sakit, səssiz hiylələrlə dünyada,
Şər bir vaxtlar səbəb oldu fəryada.
Mahirliklə, ustalıqla hər zaman,
Ürəkləri həsrət qoydu murada.

***

717. Ey sevgilim, həsrətindən aralı,
Bir ürək var min bir yerdən yaralı.
Özün uzaq, hicran yaxın, neyləyim?
Bir ömür var ayrılıqdan saralı.

***

718. Ey vəfalım, sən gələndən bu elə,
Sevinc-şadlıq uzaq olub bu dilə.
Ürək deyir, bağrı dağlı gülünün,
O əllərin gözlərindən yaş silə.

***

719. Ümidgahım, cəfakeşim, hardasan?
Bəlkə mənsiz oda düşüb, dardasan?
Ancaq bunu bil ki, əziz dildarım,
Harda olsam, sən mənimlə ordasan.

***

720. Ürəyimdə alovum var, közüm var,
Baxışım qan, həsrət adlı gözüm var.
Unutma ki, ey dərbədər sevdiyim,
Ömrüm boyu səndə mənim gözüm var.

***

721. Ürək dolu, qüssələrdən yaşı var,
Hər bədənin ah-uf edən başı var,
Eşqə yanan könüllərin, əfsus ki,
Bu dünyada qurusu var, yaşı var.

***

722. Ürəyimdə məhəbbətim – incidir,
Mirvaritək sədəfində incidir.
O gündən ki, itirmişəm səni mən,
O gündən də könlüm məni incidir.

***

723. Həsrətindən od almışam, yanmışam,
Mənə qalmaz nə od-alov, nə də şam.
O hicranın atəşində qalarkən,
Mən gecəmi, gündüzümü danmışam.

***

724. Ala gözlüm, baxışına vurğunam,
Göz yaşının yağışına vurğunam.
O gözlərin atəşindən yanandan,
Ey sevgilim, mən də sənin oğrunam.

***

725. Ülkər baxış, ülkər çöhrə, ülkər göz,
Bir baxmaqla ürəkləri sökər göz.
Nə danışmaz, nə ağlamaz, nə gülməz,
Sakit-səssiz qəlbə alov tökər göz.

***

726. Şam həsrətli pərvanətək dağlıyam,
Qüzeyliyəm, Güneyliyəm, dağlıyam,
Könlüm deyir, yurdumuzu tən bölən,
Yağıların sinəsini dağlıyam.

***

727. Ürəyim eşqini, fikrini tutar,
Oğrun baxışları gözlərim tutar.
O gündən könüllər hey qoşalaşdı,
Qalmadı canımda bir taqət, tutar.

***

728. Sonsuz məhəbbətim sevginlə qalar,
Könlə təbəssümün atəş, od qalar.
Sevda ocağının közü, alovu,
Qəlbimdə özünə bir məskən salar.

***

729. Mənim könlüm məhəbbətin başıdır,
Yaranlanmış ürəyimin başıdır.
Şirin, bil ki, bu dünyanın evində,
Yanan qəlbin, düşünən də başıdır.

***

730. Ürəyim coşğundur, dünya mənə dar,
Gərək qəlbin evi heç olmasın dar.
Arzular, amallar çağlasın, daşsın,
Nə sərhədlər qalsın, nə zindan, nə dar.

***

731. Arazımın həsrət dolu gözü var,
Könül varsa, düşüncəsi, gözü var.
Ey ürəyi parçalayan ikiyə,
Bu tayımın, o tayımda gözü var.

***

732. Fəsillərin payızı var, yazı var,
Hər ürəyin öz ömrüylə nazı var.
O əsrdən, bu əsrə yadigar,
Hər daş üstə pozulmayan yazı var.

***

733. Ova düşmüş tərlanam mən, vuruldum,
Ürəyimin lap başından vuruldum.
Şirin, bunu yadda saxla ki, məni
Əfsunlayan o gözlərə vuruldum.

***

734. O həyalı baxışına qurbanam,
Sən də mənə, mən də sənə qurbanam.
Ey sevgilim, Şirini et xəbərdar,
Mən sənincə kəsilməyə qurbanam.

***

735. Yaşamağın mənim üçün əzizdir,
Ürəyimdə xətrin böyük, əzizdir.
Məhəbbətin qopartdığı tufandan,
Ürək var ki, ürəyindən əzizdir.

***

736. Mən ki, məftun oldum xoş camalına,
Şərikəm arzuna, hər amalına.
O gün ki, baxışlar, hey qarşılaşdı,
Baxma o gözlərin qalmaqalına.

***

737. Coşğunluqda ürəyimin özüsən,
Hər cümləmin əzəl-axır sözüsən.
Lakin bunu unutma gəl, ilhamım,
Ürəyinə salmayasan sözü sən.

***

738. Hər cahilin yaşamağı acıdır,
Dadsız yemək mədəni tez acıdır.
Yara var ki, tez sağalıb, örtülər,
Yara var ki, zəhərdən də acıdır.

***

739. Bu baxışın, o baxışa yolu var,
Bir baxmağın həmi dövlət, həmi var,
Ürəklərin təməlidir əzəldən,
Məhəbbətin imzası var, qolu var.

***

740. Ürəyimdə sağalmayan bir yara,
Dad o gündən, gəlməyəydim tuş yara.
Bu ürəyin görmək üçün alovun,
O əllərin ürəyimi kaş yara.

***

741. Sənincə doğuldum, sanki dünyada,
Sanki yetişmişəm sonsuz murada.
Ey sevgilim, bircə təbəssümünü,
Ömrümdə vermərəm mən yüz min yada.

***

742. Gülün ətri üçün bülbül çox yandı,
Nalədən yuxudan torpaq oyandı.
Gülün həsrətindən dünya evində
O günahsız bülbül qana boyandı.

***

743. Yaşamaq eşqiylə çox yandı ürək,
Oda, atəşlərə qalandı ürək.
Sən mənə verdiyin o əzablardan,
Dərddən ömrü boyu talandı ürək.

***

744. Ey sevgilim, necə qıydın qəlb yana?
Kaş əğyar da, məntək, qəmə boyana.
Gecə-gündüz həsrətimin oduyla,
Fərağından üz tutmuşam hər yana.

***

745. Baxışın od-alov tökdü üstümə
Durdu hər addımda mənim qəsdimə.
Sən də elə bil ki, bundan zövq aldın,
Çəkildin kənara, baxdın tüstümə.

***

746. Çoxdan zalımlığın mənə əyandı,
Sənin ev yıxmağın elə əyandı.
Şərə xidmət edir ürəyin hər an,
Əlindən könüllər odlara yandı.

***

747. Ey fitnə sahibi, hiylənlə bir vaxt,
Aldanan özünü sanırdı xoşbaxt.
Lakin bəxtiyarlıq uzun sürmədi,
Qurdun ürəklərdə sən qanlı bir taxt.

***

748. Bu torpağın qanlı bir tarixi var,
Hər addımda yatır ölüm, qəm, ah-zar.
Ürək də bədəndə iki olarmı?!
Bəs niyə ikiyə bölünüb qalar?!

***

749. Zalımlara, bədxahlara yar oldun,
Özgələrin dövlətinə var oldun.
Azğınların at oynatdı sinəndə,
Bir ürəyi iki edən xar oldun.

***

750. Gərək saf əməllə ucalsın ürək,
Olsun yıxılana daima dirək.
Yalnız özün sevən məqsədsiz ömür,
Özün külək sanıb, əsməyirmi tək?

***

751. Sakit-səssiz ömür sürür bu həyat,
Hərdən güclü tufanları var, heyhat.
Gah ucaldır, gah alçaldır ürəyi,
Gah da birdən çox sındırır qol-qanad.

***

752. Sellər, sular təki çox coşub-daşır,
Gen düzlərdən keçir, keçilməz aşır.
Ürəklə məhəbbət son mənzilədək,
Hökümsüz-qanunsuz hey pıçıldaşır.

***

753. Dənizlər də, ümmanlar da gözəldir,
Küləklər də, dumanlar da gözəldir.
Başdan-başa bu həyat yaranışdan,
Ürək açan, qəlb oxşayan gözəldir.

***

754. Gəncliyim su təki axır əlimdən,
Yanıram, ah-qüssə düşmür dilimdən.
Ürək haraylayır ötən günləri,
Sanki peşman olur hər əməlindən.

***

755. Dalğın-dalğın, baxıb ötdün yanımdan,
Üşütmələr keçdi hər an canımdan.
Sanki elə hesab etdin, sən mənim,
Həsrət adlı kədər çıxdı qanımdan.

***

756. Niyə belə oldu həyat aləmi?
Birinə var verdi, birinə qəmi.
Yazını yazanda o haqsız qədər,
Niyə sınmamışdı onun qələmi?

***

757. Eşidən oldumu şadlıq səsini?
Boğdu həyat qəmi gur nəfəsini.
O gündən açılmır nəş'ənin eyni,
Ələm-qəm sındırıb piyaləsini.

***

758. Gözlər alov tökər, gözlər yandırar,
Gözlər həyatından can usandırar.
Çaxanda şimşəktək könül evində.
Gözlər şən büsatı qəlbə dandırar.

***

759. Alovundan od olmuşam, sənə mən,
Hər anınçın şad olmuşam, sənə mən.
Ey əfsunlu gəzən xəyal, söylə bir
İndi niyə yad olmuşam, sənə mən?

***

760. Həyat bir dənizdir, insanlar dalğa,
Başında sınanır min oyun, qovğa.
Çalxanan, kükrəyən, köpürən dəniz,
Dalğanı bir anda buraxmaz yovğa.

***

761. Dumana, xəyala dönən baxışlar,
Büdrərkən heç olub, sönən baxışlar.
Vüsalınla yanan ürəyim ki var,
Hicrandan könlünə salıb naxışlar.

***

762. Altun xəyallarla yaşadın, ürək,
Gah lal-dinməz oldun, gah şıltaq külək,
Min cür qovğaların qanlı gölündə,
Lazımmışmı, sən də üzəydin gərək?

***

763. Bir zaman torpaqda köç saldı həyat,
Karvantək dayanıb dincəldi həyat.
Sanki dərddən hali insan oğluna,
Fərəhlə, ağrıyla tən qaldı həyat.

***

764. Payızda, saralmış otların üstə,
Gördüm bir torağay gəzişir xəstə.
Sordum: «Ey quşcağaz, bu nə qəm»? Dedi:
«Neçə payız yığır ömür üst-üstə».

***

765. Dünyanı dolaşdı xəyal şahpərim,
Ğoxaldı, gəzdikcə, can dərdi-sərim.
Bu an yurdun sevinc bağından səyyah
Dedi: «Bir aman ver, qoy şadlıq dərim».

***

766. Şadlıqlar, sevinclər dönsün buluda,
Leysantək tökülsün hər kiçik yurda.
Qəmin sarayını sellər aparsın,
Qalsın dilənçitək qoy quru yurda.

***

767. Sarıldı köksünə insanlıq, həyat,
Sənsə qəlbin evin eyləmədin şad.
Könüllər sındıran çətinliklərlə,
Gözləri ağladıb, güldürdün, heyhat.

***

768. Əhriman köksünə sarılıb şərin,
Qızıla tutmuşdu onun yəhərin.
Hörmüzsə şadlığın evinə gəlib,
Səadət dastanın yazdı bəşərin.

***

769. Torpağın altından haqq çıxsa üzə,
Gələr nahaq olan, o çirkin, düzə.
Alıb, tapdalasa şər bayrağını,
O gündən xoşbəxtlik verilər bizə.

***

770. Qalib çıxdı vicdan həyat oynunda,
Düzlüyü paklığın sədəf qoynunda.
Azı milyon dəfə yuyuldu canı,
Bir günah qalmadı onun boynunda.

***

771. Qopur təbiətdən sehirli nida,
Bir nazənin xanım, gəlinmi səda?
Ey gözəl təbiət, ismət pərisi,
Qəlbləri oxşayan elinmi ada?

***

772. Enimmi aləmin qartal köksünə?
Sarılıb ürəyim odda isinə.
Ey ağsaçlı dünyam, od alıb səndən,
Yansın atəşlərə, boyansın sinə.

***

773. Hər vuran ürəyin öz dünyası var,
Qanından yoğrulmuş bir mayası var.
Yaşayır bir ömür qalib insanlıq,
Onun qazandığı taleyinə var.

***

774. Ömürdən qoparır həyat hər gün, gün,
Ürək haray çəkib, hey saldıqca ün.
Həyat o günləri yığır üst-üstə,
Hər aldığı gündə yatır sirr, düyün.

***

775. İnsan kamalından yaranır büsat,
Böyük yer üzündə yerləşən həyat.
O tikir-dağıdır, qurur-uçurur,
Bir canlanma salır dünyaya, heyhat.

***

776. Dünyada ad-sanı üstün tutaraq,
Vicdanı, qüruru ona sataraq,
Belə ömür edir bir qisimləri,
Gözəl günlərini heçə ataraq.

***

777. Sakit-səssiz ömür hey addımlayır,
Nə qədər yaşayır, onları sayır.
Qatır bir-birinə yaxşını, pisi,
Son gündə, indi gəl, bunları ayır.

***

778. Min cür qanunlarla insanlıq yaşar,
Arzular, amallar hey coşub-daşar,
Ürək var kədərdən qocaldır səni,
Ürək var sevincdən, hey cavanlaşar.

***

779. Sakit-səssiz gölə bənzər təbiət,
Paylar insanlığa pis, şirin niyyət.
O göldə qəlb oxşar min cür boyadan,
Min bir rəngə çalar bu bəşəriyyət.

***

780. Çarpışır, vuruşur meydanda xeyir,
Çalışır çökməsin nahaqqa xeyir.
Cırır haqq yolunda öz köynəyini,
Şərin günahını üzünə deyir.

***

781. Xeyir əməllərlə vuran ürəklər,
Sizə qalib gəlməz heç bir kələklər.
Şər qılınclasa da çox kölgənizi,
Sizə arxa olar yer, göy, fələklər.

***

782. Hey aşıb-daşdıqca həyat aləmi,
Qəlb suyundan içir, unudur qəmi.
Boranlı-şaxtalı keçsə də ömür,
Ürək unutmayır bəxtəvər dəmi.

***

783. Göylərdən yerlərə yağışlar yağır,
Yatır torpaq altda hey ağır-ağır.
Bu yerlə dostluğu pozmamaq üçün,
Göylər buludların məməsin sağır.

***

784. Həyatın eşqiylə ürək ucalır,
Hərdən zilə qalxır, hərdən alçalır.
Ürək əsrlərlə ömür sürərdi,
Bu mürəkkəblikdən, heyif qocalır.

***

785. Salıb karvanına həyat dünyanı,
Gəzdirir torpaqda, sanki hər yanı.
Hey, uzanıb-gedən karvan yolunda,
Ürək dayanırsa, qaralır qanı.

***

786. Hər kəsə xoş olmur eşqin sabahı,
Gah sevinc gətirir, gah isə ahı.
Fikirlər toqquşur, hislər çarpışır,
Ayrılıq vecinə almır günahı.

***

787. Xoşbəxtlik sevincdən salmışdı bir ün,
Gördüm, yol üstündə qurub toy-düyün.
Sordum: Ey bəxtəvər, bu niyə? Dedi:-
Bir piyalə şadlıq içmişəm bu gün.

***

788. Şadlıq qəmdən, qəm sevincdən qocalır,
Birləşəndə, qəlbi dərdə çox salır.
Bir bina var, göyü dəlir qüssəsi,
İki məfhum arasında ucalır.

***

789. Eşqin naləsindən ürək od alar,
Qəmdən qəlb mülkünü çapıb talayar.
Atəşindən könül bir mum olubdu,
İnsanı kədərin evinə salar.

***

790. Ürək, bir kürədir, ömürlük yanır,
Onun alovuna dünya boyanır.
Şirin, yanar odlar sona çatanda,
Ürək də əbədi sönür, dayanır.

***

791. Ürəyi yaşadır min arzu, dilək,
Onu pak, saf edən, həyat bir ələk.
Əvvəl insanlığın, sonda nahayət,
Torpağın köksünə sarılır ürək.

***

792. Ey gözəl vətənim, torpağın üstə,
Tapmazsan insanı qüssədən xəstə.
Şadlığı, sevinci bir nəğmə edib,
Sən laylay çalırsan, bizə ahəstə.

***

793. Göylər səhər-axşam dünyanı arır,
Eşqin alovunu köksünə sarır.
Fələyim, bu qəlbim bir qəlb itirib,
Kömək et, ürəyim ürək axtarır.

***

794. Yandı qəlbim alovunda, közündə,
Məhəbbətli dünya tapdı gözündə.
Bir gedərdi son mənzilə eşqimiz,
Mən neyləyim? Günah oldu özündə.

***

795. Qopdu bu könlümdən muğam, şikəstə,
Ürək haray saldı zildə və pəstə.
O gündən ki, səni tapdı ürəyim,
Şadlığı saxladım gözlərim üstə.

***

796. Mən sənin eşqində tonqal olmuşam,
İsinir çöl-bayır onda hər axşam.
Məhəbbət alovu alandan könül,
Eşqin özü təki qəlbə dolmuşam.

***

797. Gün gəldi ki, yollar, hey qoşalaşdı,
Eşqin girdabında arzular daşdı.
Sevginin qəlb uçdu can mənzilinə,
Sevdaya yetməkçin keçilməz aşdı.

***

798. Bulud təki qaş-qabağı tökübsən,
Könlüm evin hicranından sökübsən.
Yerli-yersiz atəşinlə, odunla,
Silinməyən möhür basan hökümsən.

***

799. Bəxtimizdə çox şəfəqlər saçıldı,
Gənclik həyat süfrəsində açıldı.
Yığışanda, getmək üçün dünyadan,
Ömrümüzün qəm qapısı açıldı.

***

800. Dünya evi bir saraya bənzəyir,
Hər daşını bir qərinə bəzəyir.
Mənzilinin özülündə çox dastan,
Oxunduqca milyon-milyon qədd əyir.

***

801. Kamil bağban, hardan əsdi küləklər?
Tökdü bağça bağın barın fələklər.
Qovğaların, fitnələrin tasında,
Baş apardı, dövran sürdü kələklər.

***

802. Yaşıllıq içində vardı bir ağac,
Qoymuşdu başına gül-çiçəkdən tac.
Ətrafı fırlanır sərsəri külək,
Burdaca bekara dolaşırdı ac.

***

803. Göydə topa-topa uçurdu bulud,
Sanki hər parçası çalırdı bir ud.
Matəm libasını geyərkən günəş,
Səma köks ötürüb dedi: Dərdi ud!

***

804. Möhtəşəmlik bürüyübdü düzünü,
Şadlıq yudu xoşbəxtlikdən üzünü.
Torpaq üstə nəş'ə içən ürəklər,
Səmalara yaydı haqqın sözünü.

***

805. Nə müddətdi gözlər fəğan eyləyir,
Pünhan eşqi gözlərinə söyləyir.
Müqəssir o, mən ittiham olunan,
Bəxtiyar göz dərdlənməyi neyləyir?

***

806. Ürək intizardan ah-nalə çəkir,
Hicran güllərindən saf gülab çəkir.
Sanki bir rəssamın rəng dünyasına,
Rəzil ayrılığın rəsmini çəkir.

***

807. Otağında canım yanır için-için,
Qüssələri mənə deyir hicran içim.
Qəlbim aha tez etiraz edib dedi:-
Nə vaxtacan qəm yeyəcək, söylə içim?

***

808. Ömrümə, günümə yaraşıq verdin,
Sönük taleyimə gur işıq verdin.
Mənim bəxt evimdə çağlayan köksə,
Könül adlı sazlı bir aşıq verdin.

***

809. Odlu ilhamımın elisənmi sən?
Susmayan, hayqıran dilisənmi sən?
Bir sevda yaratdı yaradan mənə,
Onun, ayı, günü ilisənmi sən?

***

810. Nə müddətdi qəlbə sevgi ələnir,
Meydan verin, ürək eşqə bələnir.
Şirin bilir, nə vaxtandır ürəkdə,
Güllər solub, sarı bülübül dilənir.

***

811. Həyat, sanki, sərçeşmədir, dumduru,
Qəmlər şadlıq tarlasında lap uru.
Bir tərəfi yaşıllığa bürünüb,
Bir tərəfi suzsuzluqdan qupquru.

***

812. Yer üzü olubdu yamyaşıl çəmən,
Baxdıqca şadlığa qərq oluram mən.
Əfsus, gülşənlərin biri sevincdən,
Biri qüssədəndir neçin süd əmən?

***

813. Obalar var qan içində boğulur,
Hər anına can karvandan qəm dolur.
Obalar var, xalı edib torpağı,
Körpələri üzərində doğulur.

***

814. Mən nə edim, ömür ki var, şüşədi,
Həyat boyu qəmlənmək də peşədi.
Hamı bilir, məhəbbətdə iki üz,
Biri kədər, biri cana nəş'ədi.

***

815. Mübarək baxışı, bir gəl tök üzə,
Onsuz da fəraqım çıxıbdı üzə.
Göygöltək parçala sal qayaları,
Məhəbbət gölü ol, barı, çıx üzə.

***

816. Dilim haraylayar, gözlərim arar,
Könlümü dumanlar, çiskinlər sarar.
Sənsiz, dünya bilir, yox iqtidarım,
Ürək şadlansa da, qəm könlü darar.

***

817. Eşqimdən bir çələng toxudum sənə,
Bülbültək pak nəğmə oxudum sənə.
Sən bəxşiş elədin eşqin düzündən,
Karvanla ələmi yolladın mənə.

***

818. Gül içrə bülbüllər fəğana gəldi,
Göylərə nalələr, ahlar yüksəldi.
Gül nə biləydi ki, bu ah-amanlar,
Onun hicranından qalxdı, dikəldi.

***

819. Qulaq ver, eşqimin şaqraq səsinə,
Qoy sədam qarışsın gül nəfəsinə.
Yubanma, sevgilim, gəl deyir könlüm,
Salma ürəyimi dərd qəfəsinə.

***

820. Qaranlıq özünü gülə toxuyur,
Ayın qulağına ulduz oxuyur.
Gözəl sehirlərə bürünən gecə,
Bu axşam gül təki ətir qoxuyur.

***

821. Nə xoşdur, gecənin Ayla vüsalı,
Axşamın, kədərtək, dəyişmir halı.
Şər qarışdı, basır gen sinəsinə,
Elə bil ki, dadır ən ləziz balı.

***

822. Eşqin bağçasında güllər açılıb,
Ətiri dünyaya həyat saçılıb.
Hər çiçək üstündə bir can yaşayır,
Geniş qapıları üzə açılıb.

***

823. Deyirəm ki, nə tez açdın, gül, təzə?
Yenə vüsalınla qəlbimi bəzə.
Deyirsən ki, dəli hicranın, Şirin,
Çöllü-biyabanda ömürlük gəzə.

***

824. Bu torpağı çox adlayıb, gəzmişik,
Şadlıq yığıb, qüssələri əzmişik.
Bir nadanın cahil, çirkin işindən,
Bə'zən olub canımızdan bezmişik.

***

825. Çəmənlikdə çox açıldı çiçəklər,
Bağlayıbdı güllü başa ləçəklər.
Bülbülciyəz gül aşiqi olandan,
Gülzarlıqlar hər baharda ləçəklər.

***

826. Şimşəklər oynadı, ildırım çaxdı,
Buludlar göylərə küskünca baxdı.
Bu zaman səmanın şad sinəsinə,
Çılğın sellər təki qüssələr axdı.

***

827. Od-alovsuz birləşdilər ürəklər,
Çətinliklə barışdılar ürəklər.
Fəth etdilər həyatda eşq yolunu,
Tək dözümlə yarışdılar ürəklər.

***

828. Ay şam olub, pərvanəsi – ulduzlar,
Hər ulduza bir pərişan dünya var.
Sayrışırlar göydə almazlar sayaq,
Gecə özün işıq selində nazlar.

***

829. Ey gözləri atəş içrə od saçan,
Baxışıyla, könlüm evin tez açan,
Nə müddətdi görünmürsən səmada,
Dan ulduzu, parlayarsan bəs haçan?

***

830. Qoy dinlənsin könül xoş sorağına,
Salma ürəyimi sən ayağına.
Səslə sevdamızı eşq bağçasına,
Cəlsin canımızın bahar çağına.

***

831. Ey ayrılıqların nakam qurbanı,
Ürəyimin dərdə tuş olub canı.
Üst-üstə yığsaydım çəkdiyim qəmi,
Saysaydım, olardı baş tükü sanı.

***

832. Nə vaxtdan hökm edən olubsan, könül,
İlkin baharında solubsan, könül.
Məndən icəzəsiz, məndən izinsiz,
Düşüb eşq cövrünə qalıbsan, könül.

***

833. Bəxtiyardır, qəmsiz düşünən başlar,
Yenə də könlümdə tufanlar başlar.
Görüm, ey qəm, sənin namərd dünyana,
Göylərdən yağıştək tökülsün daşlar.

***

834. Gözdə, bulaq təki, saf imiş yaşlar,
Pak yola bənzəyir hilaltək qaşlar,
Üzünün, dünyası bir xəzinədir,
Hey yağır üstünə gövhər, daş-qaşlar.

***

835. Sorağınla, çox gəzmişəm buranı,
Gəl qəlbimə, yandır ara vuranı.
Mən alovun ocağında bişirəm,
Kimdir görən qarışdıran aranı?

***

836. Mərdliyin dünyaya dastanlar söylər,
Paklığın, saflığın pisliyi əylər.
Ey ulu torpağım, bircə bilmirəm,
Hiyləyə bürünən libası neylər?

***

837. Biçilsin avara əğyarın bağı,
Çəkibdi sinəmə min həsrət dağı.
Hər günüm nalədən, qüssədən, ahdan,
Odlana-odlana deyəcək ağı.

***

838. Bu dünyanın nə yamandır hər işi,
Gah şirindir, gah acıdır gərdişi.
Gah şad edib, gah ağladıb bu minval,
Ömrü boyu eyləyibdi vərdişi.

***

839. Bə'zən şirin dünyasından asi var,
Hər sevincin qan ağladan yası var.
Könüllərin təməlində əbədi,
Şirin-acı, şəkər-zəhər dadı var.

***

840. Bu həyat ələmi insana bağlı,
Yandırır ürəyi, coşdurur ağlı.
Ələm də şadlıq da ömürdən keçir,
Gah açır qapını, gah qoyur bağlı.

***

841. Sadəlövhdir bu dünyanın binəsi,
Könlü dolu, söz-söhbətlə dinəsi.
Bir tarixdir, oxunmayıb hələ ki,
Çalın-çarpaz, sirlə dolu sinəsi.

***

842. Bağban bağı gözəlliyə bürüyər,
Gül bülbülü vüsalıyla dürlüyər.
Tikanları, qanqalları çıxarıb
Gülzarlıqda oyan-buyan sürüyər.

***

843. Bir ürək var, alovundan, hey yanar,
Məhəbbətin fəraqına boyanar.
Sərsəm eşqin harayından, elə bil,
Səhər-səhər yer-göy, su-od oyanar.

***

844. Çılğın eşq oduna əcəb düşmüşəm,
Gəmitək dəryada lap ilişmişəm.
Dünyanı suyuyla bəsləyən dərya,
Niyə sussuzluqdur bəs mənim peşəm?!

***

845. Ey dağlar, yaşıla düşüb yatırsan,
Yalçın qayalartək xumar atırsan.
Günahkar qurbanın olan Şirini,
Atlas yoxuşlara tutub atırsan.

***

846. Bu nə röya, bu nə atəş, bü nə dəm,
Çeşmə təki gözlərində altun nəm.
Bir zamanlar gül Həvvanın eşqiylə,
Gül cənnəti eyləyibdi tərk Adəm.

***

847. Hicrandan sovqatmı olar adama?
O bir çəpər olur fərəhə, kama.
Könül həsrətlərdən olsun aralı,
Qəlbdə çevrilməsin qəm ağır dama.

***

848. Bəxtiyardır fərəhdən gül dərənlər,
Sevinclərdən könlə şadlıq sərənlər.
Məhəbbətin dünyasına əzəldən,
Ey sevgilim, belə demib ərənlər.

***

849. Gül eşqinə əl uzatdı ayrılıq,
Qəmi bizim bağa atdı ayrılıq,
İki qəlbin parçaladı eşqini,
Vüsalımı dərdə çatdı ayrılıq.

***

850. Ürəyimə həyat verən qanımsan,
Saatımsan, dəqiqəmsən, anımsan.
Olmasaydın, neyləyərdi bu qəlbim?
Sən ki, mənim, əvvəl-axır, canımsan.

***

851. Sirin bəyan etməz həyat aləmi,
Nə şadlığı atmaz, nə də dərd-qəmi.
Hər iki məfhumun qarışığından,
İnsana bəxş edir yaşamaq dəmi.

***

852. Varlığım vüsala yetməyir sənsiz,
Çökür hicranının qarşısında diz.
Şirin neyləsin ki, bu uğursuzluq,
Hər anda tarixə yazacaq bir iz.

***

853. Fırtına, tufandır ömür əzəldən,
Nə şəri buraxar, nə xeyri əldən.
Payızı çatanda saralıb qalar,
Torpağa yadigar sarı xəzəldən.

***

854. Könül istəyinə çatmaz dünyada,
Sevgisiz qəmləri atmaz dünyada.
Təmiz məhəbbətin həyat evində,
O müqəddəs adı batmaz dünyada.

***

855. Dəli könlün divanəsi eşqə xoş,
Hicranından qəlbim evi, bir sərxoş.
Acılığın dünyalara bəllidi,
Bu könlümə ayaq açdın sən dilxoş.

***

856. Dəli könül, qəmi hardan almısan?
Şad qəlbimi qəm tasına salmısan.
Dərdi-bəlan həyatımı xar edib,
Sənsə şirin xəyallara dalmısan.

***

857. Sevgi yol axtarır çıxsın çətindən,
Hicran kabab çəkir gülün ətindən.
Alov şölələri qalxır səmaya,
Bülbül haray çəkir fəlakətindən.

***

858. Gözlərim yuxuda, mən səhər-səhər
Gördüm səba atda, altında yəhər.
Dedim: Hardan belə, yellər pərisi?
Dedi: Düşüb qəmə, içirdim zəhər.

***

859. Bir ağac üstündə min quş oturub,
Titrək budaqları qəmə batırıb.
Nəğmələr oxuyur hər bir yarpağı,
Sehirlənmiş ağac qəmi yatırıb.

***

860. Güllər bağbanını dilə tutubdu,
Onun ətrafını gülə tutubdu.
Bir azdan bülbüllər uçub gələcək,
Bağban bilməməkçin onu, yatırdı.

***

861. Ey gözəl, eşqindən bu dünya batır,
Fəraqın, göylərin ənginə çatır.
Sən bilirsənmi ki, sevgili oğul,
Sənincin varını, yoxunu satır.

***

862. Sanki sərçeşmədir bu ulu həyat,
Gözündə yuyunar neçə min səyyad.
Bir anda dünyanı xoşbəxt etsə də,
Ürəyə gah yaxın, gah da tamam yad.

***

863. Şadlan həyat, sevin həyat, gül həyat,
Xoş ləhcəylə çağlar könül, dil, həyat.
Bu ölkədə biri dərdli, biri şad,
Demə, əla keçir dövran, il, həyat.

***

864. Süründü torpaqda yoxsul – bu kədər,
Artırır qəlblərdə saysız dərdi-sər.
Şadlıq bu dünyada çox çağlasa da,
Kasıb olanlara etməyir əsər.

***

865. Xəyala mümkünmü, əfsus dalmamaq,
Şadlığın evində qonaq qalmamaq?
Röyayla arzular ekiz olublar,
Bəs necə onları qəlbə salmamaq?

***

866. Fürsət ki, var, düzlüyü bas bağrına,
Həmdəm olar sənin acı-ağrına.
Yalnız çalış, ucuz-cılız namərdlik,
Sən duymadan, çevrilməsin oğruna.

***

867. Dostsansa, xəyanət eyləmə mənə,
Könlümdə qüssədən salma yurd, binə.
Mənim ricam vardı sənə əzəldən,
Vicdanınla söhbət et dönə-dönə.

***

868. Əzəl başdan sadiqlik saf təmənli,
Qəlbə həmdəm düz, müqəddəs əməlli,
Aləm deyir, yurdumuzun övladı,
Könlümüzə hər nişandan sən bəlli.

***

869. Bu torpağın pak bağrında doğuldum,
Duman görsəm aydınlıqtək, boğuldum.
Qərinənin pünhanlığı içində,
Ömür adlı can suyuyla yoğruldum.

***

870. Sakit-səssiz alovuna boyandım,
Odlarının atəşindən oyandım.
Bilə-bilə həsrət verdin ürəyə,
Ağac təki quruyaraq, dayandım.

***

871. Gülüstandır torpağın hər qarışı,
Başlanıbdır gül-çiçəklər yarışı.
Hünərlidir təbiətin dünyası,
Qışla bahar edir şıltaq vuruşu.

***

872. Hardan gəlir bu şadlığın binəsi,
Bürüyəydi kaş dünyanı gur səsi.
Götürləydi bu həyatın üstündən,
İtginliyin, ölümün bəd tə'nəsi.

***

873. Baxma qarasına, nə də ağına,
Şadlıq-sevinc yağdır həyat bağına.
Azad ürəyimin saflıq nəğməsi,
Oxu bu dünyanın pak qulağına.

***

874. Şad vüsalla açılaydı sabahlar,
Uçrumlara töküləydi o ahlar.
Götürləydi dünyanın qəm pərdəsi,
Bir amalla birləşəydi gah-gahlar.

***

875. Çiçəklərdən don tikdirib pak bahar,
Qonağ gəldi otağıma bu nahar.
Söylədim ki, el gözəli, de hardan?
Dedi: Qəfil gəlişimdi, yaya bar.

***

876. Qarış, könül, günəşin gur oduna,
Bu torpaqçın çevirilmə oduna.
Əzəl başdan ucada tut Xilqəti,
Çalış xələl gətirmə pak adına.

***

877. Peşə deyil əzəl başdan yaxşılıq,
Gərək gəlsin özü başdan yaxşılıq.
Başlayarkən mərdlə namərd savaşı,
Gərək keçsin lap qart daşdan yaxşılıq.

***

878. Azaddır quşların pak zümzüməsi,
Gəlir qulağıma sehirli səsi.
Gözəl insanlığın seyrangahına,
Bəxşiş verilibdir quş nişanəsi.

***

879. Nazlı könül, gül sevgilin hardadır?
Bəlkə sənin lisanından dardadır.
Sənin eşqin daş-qaşlara bənzəyir,
Onun üçün rübabından var dadır.

***

880. Sanki yolu nurlu, eşqi bəxtiyar
Kəsilib ömrümə tamam ixtiyar.
Sənin fəraqına bəlkə yanmazdım,
Qəlb etdi özündən, eh biixtiyar.

***

881. Bağ yolunun kənarında gedirdim,
Dodaqaltı bir zümzümə edirdim.
Ah, qəfildən bir bülbülün xoş səsi,
Dedi: Oxu, qoy azalsın can dərdim.

***

882. Açıldı güllərin lalə yanağı,
Ətirə boyadı aləlvan bağı.
Əl atdım ki, dərim, bağban söylədi:
Toxunma, bülbüldür, bu gün qonağı.

***

883. Gözümü dikmişəm həsrətlə yola,
Könül otağına qəm dola-dola.
Nə gələn, nə gedən xəbər söyləmir,
Ürək tab eyləmir bu qalmaqala.

***

884. Bu sadə könlümün bəxti açıldı,
Arzu bağçasında şəfəq saçıldı.
Dərdlə, qüssələrlə çuğlanan könül,
Fəqət, qəlb evimin qəmi uçuldu.

***

885. Göylər pak, ətirli bir qıza oxşar,
Səmanın sevgisi yerləri oxşar.
Öz eşqindən dönməz sevgililərtək,
Məhəbbətlə yerlər, göylər baxışar.

***

886. Qurumaz, bir çılğın çaydır ürəyim,
Kükrəmək, çağlamaq, daşmaq gərəyim.
Qəlbi ovsunlayan bu atəşindən,
Tikilib ovsunlu, sirli dirəyim.

***

887. Ağlayır, şadlanır, çağlayır ürək,
Hər anda könüldə qoparır külək.
Sədası nəğməli bir bəstəkardır,
Notlara köçürür hər yeni dilək.

***

888. Şivən qoparırdı tufan göylərdə,
Səma dözməyirdi oyunbaz dərdə.
Küləyin naləsi yeri yandırır,
Artırdı könüldə min dərdi-sər də.

***

889. Biri dərd kəşf etdi, biri sevinci,
Qana həvəslilər sevmədi küncü.
Torpaq dilə gəlib köksün ötürdü,
Bu cah-calalıma azadlıq inci.

***

890. Sərxoş könül, aldanmısan əğyara,
Qan ağladıb, tökdürmüsən yaş yara.
Nə biləydin, rəqiblərin sultanı
Baxmayacaq nə vicdana, nə ara.

***

891. Oxu bülbül, oxu səsin çağlasın.
Məğrur gülün bu nalənə ağlasın.
Qoy susmayan tuti səsin kamanı,
Qəmin, dərdin əl-qolunu bağlasın.

***

892. Namümkündür, atəşinə yanmamaq,
Bircə anda gül çöhrəni anmamaq.
Baxışının, duruşunun vüs'əti,
Deyir mənə olmuşları danmamaq.

***

893. Ömrüm sənin qurbanındır, can gedir,
Ötən yaşdan ay-il qaçır, an gedir.
Bir ürək var neçə yerdən yaralı,
Bağırından yerbəyerdən qan gedir.

***

894. Güllər üstə incə gülüm qalıbdı,
Cavan çağı atəşinə salıbdı.
Əlim çatmır, ünüm yetmir, neyləyim?
Həyatımı çiskin-duman alıbdı.

***

895. Coşan sellər, axan sular çaxnaşır,
Qərib-qərib, qəmgin-qəmgin düz aşır.
Sakit-səssiz oylağlara yollanır,
Üstlərinə buludları axışır.

***

896. Dünya ocağına odlar qalanar,
Tüstüsü ormanı, düzü dolanar.
Tutduq ətəyindən biz od-atəşin,
O gündən könüllər od tutub yanır.

***

897. Ömürlərə illər arzu qalayır,
Günlə, ayla qüssə, sevinc qalayır.
Ürəklərin atəşinin odunu,
Öz tükənməz bulağıyla sulayır.

***

898. Qərib-qərib ötürsən can bağımda,
Bülbül təki edirsən qan bağımda.
Kimə deyim bu cəfanı bir söylə,
Düşdüm dərdə mən bu cavan çağımda.

***

899. İllər, aylar ötür, tərk edir bizi,
Vurur həyatınsa susmayan nəbzi.
Sanki son mənzilə ötürəndə o,
Hərarətlə sıxır pak əlimizi.

***

900. Bu nə bəla, getdin zalım badına,
Sən cəfa çək, o yetməyir dadına.
İnsan olan əyilməyib qüssəyə,
Ürək, ləkə götürmə gəl adına.

***

901. Ürək var ki, bir qəzəblə sovuşmaz,
Yerə-göyə o bu kinlə yovuşmaz.
Ürək də var saf arzular evində,
Eşqlə yaşar, qəlbi qəlbə qovuşmaz.

***

902. Aman bağçam, çöhrən güllü-çiçəkli,
Gül bağım da cana gəlmiş ləçəkli.
Al örtüklər, gözəl güllər sabahım,
Lalələrdən, nərgizlərdən ləçəkmi?

***

903. İllər keçdi, ürək yoldan sapıldı,
İntizardan min qalaça yapıldı.
O qalada dövran sürdü ayrılıq,
Kim deyər ki, eşqə əlac tapıldı?

***

904. İki dünya bir həyatda birləşib,
Biri haqda, biri şərdə sirləşib.
Qanlı-qansız qovğaların tasında,
Biri cılız, biri isə pirləşib.

***

905. İllər uzun, yaş gödəlir, qəlb yara,
Ömrü-günü həsr etmişəm qubara.
İnanmırsan, ey vəfalı kədərim,
Götür daraq, tellərimi gəl dara.

***

906. Həyat çəkməyibdir qəlb minnətini,
Duyar ürəklərin saf niyyətini.
Nizam-tərəzidə hesaba alıb,
Uca tutar insan sədaqətini.

***

907. Qərinələr köçdü tarixə gizli,
Ulu İsgəndərli, ulu Çingizli.
Hər torpaq dənəsi bir qan ağlayır,
Qanlardan yaranmış silinməz izli.

***

908. Kamil ovçu, ovun qəfil gəlibdi,
Sevin, şadlan bəxtin üzə gülübdü.
O gündən ki, maraq düşüb ovuna,
İntizarın zirvələri dəlibdi.

***

909. Nə mahirdir gül ovçuluq sənətin,
Bu yolları adlamısan çox çətin.
Təkcə ova bir yadigar qalıbdı,
O da sənin pozulmayan hörmətin.

***

910. Vəfadarım, haralarda qalmısan?
Bir zamanlar qəlbə şadlıq salmısan.
Necə olub bilməmişəm ülfəti,
Gözlərinlə gözlərimi çalmısan.

***

911. Yollarına dikilibdi gözlərim,
Üsyan edir, qəm söyləyir sözlərim.
İntizardan ev tikdirdin sən mənə,
Hər daşına hicran töküb izlərim.

***

912. Dünən bir bülbülün qaralıb qanı,
Suladı gözüylə, sanki cahanı.
Nakam sevgisinə çatmamış, fəqət,
Ölümün əlində çıxırdı canı.

***

913. Bahar, təbiətin nazəndə qızı,
Sənə nəğmə deyir göylər ulduzu.
Yağan leysanların gur sinəsində
Neçə yol yuyundun, pak oldun azı?

***

914. Qovğadır həyatın lap yaranışı,
Dincəlmir, çarpışır əzəldən başı.
Min cür oyunların fırtınasından,
İgidliklə çıxır, deyildir naşı.

***

915. Nə söyləyir gözlərinin qarası?
Yanır qəlbim, köz bağlayır yarası.
Daha bəsdir hicranına qalandım,
Könül asi, ürək asi, dil asi.

***

916. Yaşıllığa bürünübdü düzənlər,
Lalə, nərgiz, bənövşələr, süsənlər.
Pünhan seçən görüş yerin havalı,
Bülbüllərdir – eşq gölündə üzənlər.

***

917. Günahsız varlığı qəmiylə üzən,
Könül çeşməsində ömürlük üzən.
Bir ürək vermişəm ixtiyarına,
O çöl-biyabanda Məcnuntək gəzən.

***

918. Ümidlə yaşayır böyük təbiət,
Həmişə dərs alır ondan cəmiyyət.
Dünyanı aparır aydınlıqlara,
İnsanın yaşamı ondan xoş niyyət?

***

919. Bir ürək vermişəm, mükafatındır,
Duyğumun çeşməsi könül qatındır.
Şadlığın süfrəsin açdım çəməndə,
Göydə, yerdə gəzən hicran atındır.

***

920. Ələk-vələk eyləmişəm hər yeri,
Köməyimə çağırmışam mən yeri.
İmdadıma yetişərək torpağım,
Dedi: Çiçək bürüyübdü hər yeri.

***

921. Ey ürəyim, nəş'ələrə bürün sən,
Xoşbəxtliyin qalasında görün sən.
Səadəti axtararsan ömürdə,
Nə qədər ki, gül bağçada gəlinsən.

***

922. Sevda bir şərbətdir, içməyən olmaz.
Qalası yaqutdur, firuzə, almaz.
Sevgisiz, eşqisiz həyat, ey Şirin,
Özünün məhəbbət dünyasın salmaz.

***

923. Nəş'ədir, şadlıqdır həyatın dadı,
Onunçın əzəldən ucadır adı.
Tutdun ədalətin zərif əlindən,
Yalnız sədaqətdir əzəl ustadı.

***

924. Mənim munisimsən həyat nəğməsi,
Günümün, ilimin məhəbbət səsi.
Niyə iqtidarı aldın əlimdən?
Başladı könlümün qəm zümzüməsi.

***

925. Sular nəğmə çalır, meşələr oxur,
Dənizlər paklıqdan min çələnğ toxur.
Əngin səmaların dərinliyindən,
Dünyanın qəlbinə bir həyat axır.

***

926. Yer yenə açmışdı gen süfrəsini,
Ucaltmışdı haqqın qadir səsini.
Qəmin, niskil yayan dilindən, şadlıq
Boğurdu kədərin tərənəsini.

***

927. Baxışından məhəbbətə ev tikdim,
Duruşundan ədalətə bağ əkdim.
Gözlərinin atəşindən, odundan,
Diri-diri qəm yandırıb, dağ çəkdim.

***

928. Ey sevgilim, yürü pünhan bağıma,
Gül dərib, dəstələ, tök sol-sağıma,
Gül içində yatırt məhəbbətimi,
Ətir çək, gülab səp əl-ayağıma.

***

929. Qala tikdi eşqin gül bağçasında,
Yaşat ürəyimi gül arasında.
Könül dövran sürsün qala içində,
Həsrət dolanmasın can yarasında.

***

930. Ürəkdə əzabım tüğyan eyləyir,
Bu sirri bülbülə, gülə söyləyir.
Əzizim, qəlbimdir sevginlə qalan,
Bu ürək həyatı sənsiz neyləyir?

***

931. Atəşli, hicranlı çəkdin könlə dağ,
Tutmur ağrıların qəmini varağ.
Mənim fəraqıma səs vermir aləm,
Çəkilib getməyir ömrümdən bu çağ.

***

932. Oda düşüb könül nahaqdan, aman,
Bir soraq gəlmədi pak haqdan, aman.
Alaydı qoynuna eşqin səması,
Yaşadaydı məni, hey zaman-zaman.

***

933. Hicran oxun sərrast atmısan, ey dost,
Məni əğyarlara satmısan, ey dost.
Qanlı həsrətinin dolu camından,
Mənim də qanıma qatmısan, ey dost.

***

934. İntizar xəncərdi, qəlbimi oyar,
Qəfildən eşqimin dərisin soyar.
Bircə bilmirəm ki, İlahi, nədən?
Məni cəfalara salıbdı, o yar.

***

935. Şadlan ki, eşqimdə vəfalı çıxdım,
Əhdimlə həsrətin evini yıxdım.
Gəldim məhəbbətin pak diyarına,
Ölməz sevgimizin əlini sıxdım.

***

936. Yollar haçalandı, yollar uzandı,
Yollar əbədiyyət yolun qazandı.
Həyata mübarək dəsti-xəttiylə
Ədalət, sədaqət, şadlıq yazandı.

***

937. Ürəyim od üstə qaynar qazandı,
Gah kədər, gah sevinc, gah qəm qazandı.
Həsrət çalışdıqca sirli həyatda,
Sevdanın özünə quyu qazandı.

***

938. Çox çəkməz ki, batar qəmin obası,
Bir məclis qurular, tutular yası.
Ürək də əbədi həyat evində
Ucalar, şadlıqda yaşar dünyası.

***

939. Xilqətin çırağı daima yanıır,
Aləmlər nuruna hər gün boyanır.
Həyat qapısının ağzında zaman,
Sadiq əskər kimi əmrə dayanır.

***

940. Xeyir işlə qazan ad-san, ey ürək,
Yubanma, bu yolda daim ol zirək.
Qurub-yaratmağa yaranıb torpaq,
Onun cəfasını çəkəsən gərək.

***

941. Səma gözəl, torpaq gözəl, il gözəl,
Bülbül təki ötən tuti dil gözəl.
Hər keçən gün bir dünyadır desəm, az,
Hey yaradır, hey ucaldır qadir əl.

***

942. Ürək coşğun, çılğın, nəş'əli dərya,
Gah odlu-alovlu, gah dəli dərya.
Varlığı həyatın nizamın saxlar,
Bir əli göylərdi, bir əli dərya.

***

943. Sanki saf dünyadır əqlin binəsi,
Şüurda bərq vurur ləl xəzinəsi.
Ucalsa göylərə o müdrik kamal,
Cahanın deyilmi səadət bəsi?!

***

944. Susmaz qəlb həsrətdən, salırmı fəryad?
Gülün eşqin edir ahıyla abad.
Səyyad qayalıqda bir tələ qurub,
Toruna düşübdü o bəxti bərbad.

***

945. Ömür keçir, il dolanır başıma,
Oxun dəydi bağda sevda daşıma.
O günə mən milyon qurban kəsirəm,
Nə vaxtdan ki, sən çıxmısan qarşıma.

***

946. Bu nə hünər, bu nə qeyrət, bu nə ar,
Məni salıb ixtilafa zalım yar.
Nə eşqidən, nə sevgidən, nə əhddən,
Heç olmadı ürəyində vəfalar.

***

947. Aman fələk, od tökürsən başıma,
Qəm verirsən mənim cavan yaşıma.
Dadmaq üçün nəş'ə tökdüm qazana,
Əfsus, daddım, zəhər çıxdı aşıma.

***

948. Ürək, oyunların nə çoxdu sənin,
Ağlıma vurduğun nə oxdu sənin.
Şadlığın dünyaya sığmazdı, Şirin,
Qapısı bağlansın görüm qüssənin.

***

949. Od alıb varlığım alışdı yenə,
Eşqin həsrətinə boyandı sinə.
Heç imana, dinə baxmayır hicran,
Cavanın əndərir qəmi köksünə.

***

950. Ürəyim düşübdü qəm tilovuna,
Salıbdı dişinə, baxmır ovuna.
Qalıb ayrılıqda Şirin ömürlük,
İstər xəyalınla yalnız ovuna.

***

951. Valeh etdin məni yalçın təbiət,
Ruha mənzərədir, cana itaət.
Sənə baş əyməmək olarmı, söylə?
Coşdurur könlümü incə sədaqət.

***

952. Tükənməzdir söz-söhbətin, əziz yar,
Sənsiz necə sevda qəlbə baş qoyar?
Sənə bəxşiş eyləməkçin ömürlük,
Mən məhəbbət göndərmişəm bir diyar.

***

953. Əzablıdır bu dünyanın hər işi,
Gah ələmdir, gah nəş'ədir gərdişi.
Lap əzəldən bu dünyaya gələndən,
Kim bilir ki, nə edəcək gərdişi?!

***

954. Qapandı hisslərim, tutuldu əlim,
Əzab toxmağından qurtuldu əlim.
Qəm dedi: Geyinim bu axşam çağı,
Yatmaqdansa, dərdin bağına gəlim.

***

955. Ürəyimin intizarı göy dələr,
Varlığımın şadlıqları incələr.
Məhəbbətim səadətin axtarır,
Harda tapsa, oradaca dincələr.

***

956. Həsrətin könlümdə izinsiz gəzir,
O dilsiz eşqinlə qəlbimi əzir.
Sevgilim, sevdanın pak oylağında
Durmuşam, məhəbbət qəlbə müntəzir.

***

957. Ehtiyac dünyanı yasa batırır,
Ehtiyac beyini, əqli yatırır.
Xeyiri aparır dilənçiliyə,
Şəri yoldaş edib, başı qatırır.

***

958. Nadanlıq, dünyaya kaş gəlməyəydin,
Gör necə əqlimi, qəddimi əydin.
Qanunlar çıxaran qara evində,
Kaş ki, heç əzəldən, yüksəlməyəydin.

***

959. Haqsızlığın çoxdan qurulub yası,
Düzlükdə yox olur qara dünyası.
Ucalıb Xəzərin bağrına yaxın,
Tarixlər sultanı bu Qızqalası.

***

960. Azadlıq hamının qəlbinin şamı,
Nurlara boyayar qara axşamı.
Bayraq həvəsinə düşənlər bilsin,
Onun istiqlaldır yaşamaq kamı.

***

961. Qəhramanlıq dünyamıza od salar,
Qarşısında cahangirlər mat qalar.
Yer üzündə ləyaqəti, vicdanı,
Çalışaraq haqq evinə tez salar.

***

962. Sədaqət dünyanı eşqə səsləyir,
Sevgi notlarını ürək bəsləyir.
Bir anda etdiyi xeyirxahlıqdan,
Torpaq övladına min xeyir dəyir.

***

963. Geysə etibardan don bəşəriyyət,
Önündə diz çökər, sanki bəd niyyət.
Nəciblik, dəyanət, dözüm əbədi,
Qəlblərə bəxş edər böyük səadət.

***

964. Qeyrət qarşısında baş əyir həyat,
Əliylə murada yetir yaxın-yad.
Sanki ürəklərdən qopur sədası,
Tarixə bəxş edir bir şərəf, bir ad.

***

965. Ayrılıq – kimsəsiz soyuq biyaban,
Ölümün əliylə yoğrulan bir qan.
Əcəlin evinə gedər gizlicə,
Hökm verib qanun çıxaran bir an.

***

966. Gül, ey ürək, sevgi, qonağın gəlib,
Evinə çiçəkli eşq bağın gəlib.
Könlünə xəbər et, sevinsin, barı,
Qüdrətli, qalalı bir dağın gəlib.

***

967. Məhəbbət parlayan qövsə bənzər,
Qaçışan, uçuşan şux hissə bənzər.
Vicdan öz əliylə ona ev verib,
Qapı açıb-örtən bir nəfsə bənzər.

***

968. Mənəvi saflıqdan gözəl şey nədir?
Yaxşıya, yamana o qonaq gedir.
İyrənc əməlləri yağır bir yerə,
Ömürlük önündə səfil, qul edir.

***

969. Heyrət gözəlliksə, hissiyat uca,
Sanki bənzəyirlər qoca ağaca.
Xeyir heykəl yapıb onlara eşqdən,
Həyat oxşar düzdən yonulmuş tunca.

***

970. Dünya qeyrətlidir, insanlıq uca,
Qərinə keçsə də olmayır qoca.
Başına həyatdan bir tarix qoyub,
Bəşər izzət ilə baxır bu taca.

***

971. Edir dan yerində nur yenə tüğyan,
Yatmış kainata deyir dur, oyan.
Bu yandansa karvan tutmuşdu bulud,
Gəlirdi torpağa, yerlərə həyan.

***

972. Gül şərabı içib nəş'əli bağlar,
Oxuyur hüsnünə nəğmə dodaqlar.
Tikib incəlikdən libas əyninə,
Titrəşir ağaclar üstə yarpaqlar.

***

973. Deyirlər, səmalar pak, təmiz olar,
Buludlar səmalar eşqiylə dolar.
Yerin aşiqidir göylər əzəldən,
Siz deyin eşqidən heç paymı olar?!

***

974. Sübhün gözü açılıbdı aləmə,
Bu gözəllik sığmayır heç qələmə.
Ürəyimdən qopub qaçan ilhamım,
Qanad açıb, uçub gəlir naləmə.

***

975. Yaman əsdi dan yerindən küləklər,
Tufan qopdu, qan ağladı fələklər
Bu dünyanın yaxşısını, pisini,
Seçmələdi, ayrı yığdı ələklər.

***

976. Gülab tökdü gözlər yaşın yerinə,
Qaş oynatdı qaşlar qaşın yerinə.
Sorğu-sual məqamında elə bil,
Cavab verdi başlar başın yerinə.

***

977. Sevgilim, ürəyim susmaz bircə an,
Sənsiz damarımda donar axan qan.
Bircə gülüşünlə könlüm evində,
Çəkilər gecələr, açılar al dan.

***

978. Ürək, eşqimizin odu – həyatdı,
Ah, onsuz bəşərin varlığı yaddı.
Neyləyim ki, mənə qalan töhfəsi,
Sonsuz müsibətdi, ahdı, fəryaddı.

***

979. Gəl könül döz, bəlkə şadlıq acıya,
Bal şirinə zəhər oxşar acıya.
Kaş məhəbbət sədaqətdən pay alıb,
Onun-bunun pis halına acıya.

***

980. Ürək düşdü, elə bildim gəlmisən.
Qəmlərimin yer-yurdunu dəlmisən.
Nə biləydi o gəlişin boş xəyal,
Röyalarda vüsalıma gülmüsən.

***

981. Başım çıxmır alovundan, odundan,
Uzaq düşüb yaxınından, yadından.
Ömrü boyu ürəksiz qalsın görüm,
Söz deyənlər sənə mənim adımdan.

***

982. Bu nə söhbət, bu nə izzət, bu nə söz,
Bu nə alov, bu nə atəş, bu nə köz.
Neylək, Şirin, eşqin yolu çətindir,
Bu halətə, bu əzaba hələ döz.

***

983. Gözünün şöləsi gözümə düşdü,
Ürək yandı oda, fəraqa düşdü.
Burdan bir xoşbəxtlik tapmışdım dünən,
Əlimdən sürüşüb, dəryaya düşdü.

***

984. Səni gördüm, canım çıxdı yerindən,
Şadlığımı qəmin yıxdı yerindən.
Külək təki şığıdı qəlb bağına,
Pak ürəyi çölə saldı yerindən.

***

985. Gözlərim dörd oldu bu gəlişinə,
Özüm heyran oldum pünhan işinə.
Araya ixtilaf salana deyin,
Ara vurmaqdansa getsin işinə.

***

986. Ürək çıxıb pişvazına, sevgilim,
Ahımı ver söz sazına, sevgilim.
Bu minvalla keçsə əgər eşqimiz,
Dözər neçə qış-yazına, sevgilim.

***

987. Könül istəməyir dözsün fəraqa,
Ahın gətirdiyi neçə sorağa.
Onunçın həsrəti, yalqız göndərdin,
Vüsalçın əkdiyin o güllü bağa.

***

988. Yaradanım oddan edib xəlq səni,
İsinməkçin ocaq edib sinəni.
Bu canımı gətirəndə dünyaya,
Sənə görə eşqə atıb o məni.

***

989. Hardan axdı o süzgün baxışların?
Düşdü qəlbə lap üzgün baxışların.
Durub qəsdə bilirsən nə zamandı,
Vurur könlü, çox düzgün baxışların.

***

990. Ürək uçur eşqi məğrur elinə,
Hey yolunda şəkər qatır dilinə.
Dözür hələ, canında can var ikən,
Asta bəmin qan ağladan zilinə.

***

991. Sənin eşqin baldan, yağdan şirindi,
Pak Fərhada bada gedən Şirindi.
Sən özünə gün ağladın, ayrılıq,
Qəmdə qalan min bəlalı Şirindi.

***

992. Ürəklər içində ürək sevmişəm,
Daima çağlayan külək sevmişəm.
Odlu həyatımda solmaz yaraşıq,
Susmayan, çağlayan dilək sevmişəm.

***

993. Dəli küləklərtək əsir qəlbin çox,
Sanki sərrast ovçu, sərrasdı hər ox.
Sönük, lal baxışlar önündə neyçin?
Nə mənə hə dedin nə də ki, bir yox.

***

994. Ey sevginin alovuna boyanan,
Ürəyimin harayına oylanan.
O yolunda ürək qoydum hərraca,
Hicranına, həsrətinə dayanan.

***

995. Alovlar tökmüsən göz bulağına,
Həsrət nəğmə dedi hey qulağına.
Könül verdim sənə yadigar olsun,
Göndərdin hicranın qəm otağına.

***

996. Könlüm doydu sənin o gərdişindən,
Axır işə gəldi haqsız işindən.
Həyatın suyundan içib-içməmiş,
Vaxtsız saçlarına qəmin saldı dən.

***

997. Həsrət kəlmə-kəlmə nağılın deyir,
Qalib çıxan hicran özünü öyür.
Əğyar ayrı saldı gözləri məndən,
Bunu sormasam da, ağılım deyir.

***

998. Sərt qayalıq, yoxuşları, sıldırım,
Göylərində çaxdı şimşək, ildırım.
Səma, tökmə, od-alovlar başıma,
Eşqimizi zirvələrə qaldırım.

***

999. Dərdimin burnunu ova bilmirəm,
Karvannan qəm gəlir, qova bilmirəm.
Bir ürək itirdim vüsal bağından,
Sovuran torpaqdı, hava, bilmirəm.

***

1000. Vicdan – bir çeşmədir, qaynayır, daşır,
Həyata sehirli min nəğmə qoşur.
Hər könüldə qala tikdiribdi o,
Duyğulu qəlblərlə çox pıçıldaşır.

***

1001. Dillən, ey eşqimin könül rübabı,
Bilirsən, qəlbimin yox həyat tabı.
Bir cam şadlıq verdin Şirinə dünən,
Fələk çırpdı yerə, sındırdı qabı.

***

1002. Muradına çatmayan qəlb neyləsin?
Taleyindən nə şikayət eyləsin?
Kitabını açsın könül dastanı,
Göyə-yerə ərzi-halın söyləsin.

***

1003. Açıl, altun səma, dumduru görün,
Şad olsun hər səda, hər gülüş, hər ün.
Uçsun müjdə verən yaz qaranquşu,
Sevinsin cavanlar, qopsun toy-düyün.

***

1004. Eşqim bulaqlartək coşub-qaynayır,
Şadlıqdan bir məclis qurub oynayır.
Gah sevincə ortaq, gah qəmə düçar,
İndi bir-birindən onları ayır.

***

1005. Xiyaban içində bir gül açıbdı,
İyindən aləmə ətir saçıbdı.
Ətrafa rayihə verən xilqətin,
Məstindən xiyaban özü qaçıbdı.

***

1006. Əsirdi sabahın həzin yelləri,
Oyatmış yuxudan yatmış elləri.
Gül seyrinə çıxan şad bülbüllərin,
Ötüb çağlayırdı tuti dilləri.

***

1007. Bir daşlıq düzəndə gəzirdim bir gün,
Hər daşdan qalxırdı min nalə, min ün.
Birdən bu ünlərdən tarix doğulub,
Bir fəryad qopardı sədası ölgün.

***

1008. Oxurdu budaqlar üstə sığırçın,
Ağac yoxsul idi, ətəyi qırçın.
Bülbül gül üstünə qonaraq dedi:
Mən yayçın oxudum, sən isə qışçın.

***

1009. Qəmlər köç eyləyib, düşmüşdü yola,
Ucsuz düzənliyə hey dola-dola.
Dildəki hay-küyü bəs eyləmirdi,
Sanki güc gəlmişdi, o, ələ-qola.

***

1010. Uçurdu göylərin üstə həqiqət,
O seyrə çıxmağı eyləmişdi qət.
Hansı elə çatdı, obaya yetdi,
Görürdü yamanlıq hakimi-xilqət.

***

1011. Yarırdı səmanın köksünü şimşək,
Sanki varlığına eyləyirdi şəkk.
Gümanı gəldikcə çapırdı atın,
Döyüşə girmişdi göylə təkbətək.

***

1012. Hardansa göylərə bulud töküldü,
Dəhşətdən səmanın bağrı söküldü.
Bir çaxnaşma saldı bu ayrılığa,
Sonra da tülkütək qaçıb əkildi.

***

1013. Bir küyçü cəhd gəldi dilinə həmən,
Yalanın döşündən kirli süd əmən.
Haldan-hala saldı sir-sifətini,
Sanki bir bəladır zənn eylədim mən.

***

1014. Nə çox baxır sola-sağa gözləri,
Xəncər təki batır qəlbə sözləri.
Toxum təki tökülür saf torpağa,
Ağac sayaq irşə atır izləri.

***

1015. Heyranlıqdan yollar çəkib qəlbimə.
Bir bağ salıb, ağac əkib qəlbimə.
Sulayarkən bağçasını bağbanım,
Su yerinə alov töküb qəlbimə.

***

1016. Seçir seçmə seçilmişi seçərkən,
İçir içmə, içilmişi içərkən.
Sən hardasa yuxularda qalmısan,
Keçir keçmə, keçilmişi keçərkən.

***

1017. İllər ilin illərinə il oldu,
Dillər dilin dillərinə dil oldu.
Sən çatınca vüsalının bağına,
Güllər gülün güllərinə gül oldu.

***

1018. Sən eşqinin yuxusuna dalmısan.
Bir bazara könül qoydum, almısan.
Bülbül təki mən yuvamda yatmışdım,
İlanmısan? Yatmış qəlbi çalmısan.

***

1019. Bir bağçada cəh-cəh vurur bülbüllər,
Bir bağçada boyun büküb al güllər.
İki həsrət qovuşmağa can atır,
Yolun kəsib ələmlərə yar illər.

***

1020. Nə mən sənə, nə sən mənə yarıdıq,
Qəm bizi dar ağacına sarıdı.
İki könül yol axtardı qovuşsun,
Çəkdi hicran sevdaya sədd, qarıdıq.

***

1021.Torpaq dil açaraq hey üsyan edir.
Dərdin söyləməkçin tarixə gedir.
Tarix neçə boylu həyat söyləyir,
Qüssəsi, kədəri torpağı didir.

***

1022. Bu ellər tarixdən çox don geyinib,
Anları dastantək yaddaşa enib.
Tar təki köklənib, mizraba bənddir,
Hər ünü gah zildə, gah bəmdə dinib.

***

1023. Külək salıb ətrafına hay-küyü,
İlk baxışdan ətir saçır lap iyi.
Sanki düşüb dəyirmançı toruna,
Hökmən deyir, dayanmadan dən üyü.

***

1024. Qatıbdı şadlığı qəm qabağına,
Çıxardıb həsrətin dəli dağına.
Şadlığı etməkçin bir dost özünə,
Töküb yığın-yığın dərd ayağına.

***

1025. Qapını bağlayıb məhzun ayrılıq,
Tapmadı şadlığa min yolla qılıq.
Şadlıq yoxa çıxdı, qəm çox axtardı,
Sanki gen dəryaya qərq oldu balıq.

***

1026. Yapışıb ayrılıq məsum köksümə,
Hara ayaq qoydum, çıxdı əksimə.
Sanki o bir bulaq, mən isə kuzə,
Hey dolub çıxdıqca, güldü əksimə.

***

1027. Gün sərçeşmə idi, an isə gözü,
Suyun pıçıltısı məhəbbət sözü.
Gözdən su çıxdıqca sərçeşmə qaynar,
Çeşməyə atəşdən qalar od-közü.

***

1028. Fəqət, dözdü sükutuna bu ürək,
Qalib gəldi həsrətlərə təkbətək.
Oldu döyüş meydanı pak eşqimiz,
Cəbhə xətti, düşmənlər çox, ürək tək.

***

1029. Ey ana vətənim, hünərlə çağla,
Nadanın qorxağın qapısın bağla.
Hər kim xain gözlə baxsa yurduna.
Ona aman vermə, gözündən dağla.

***

1030. Eşqindən bir hünər qəsiri tikdim,
Hicrandan ətrafa gül-çiçək əkdim.
Qəmlər qoşun çəkdi üstünə, Şirin,
Tənha ağac təki səhrada təkdim.

***

1031. Güllərin telini daradı bülbül,
Gül eşqindən necə yarıdı bülbül.
Bağ içrə sevdalı peyda olubdu,
Güllərin qonağı arıdı, bülbül.

***

1032. Gəlişinə neçə qurban kəsərəm,
Lazım gəlsə, külək olub, əsərəm.
Bir məhəbbət itirmişəm, ey Şirin,
Əgər tapsam yolunda hey əsərəm.

***

1033. Külək uçur bir quşqonmaz dağ üstə,
Sıldırıma layla çalır ahəstə.
Dik qala var, başı dəyir göylərə,
Muğam üstə oxuyacaq can xəstə.

***

1034. Kim məndən bircə an, yurd nədir sora,
Deyərəm, ürəkdə dönübdü qora.
Dəyişməz donu var, onun əzəldən,
Haqqın tərəfində çalışır dura.

***

1035. Gözdən qətrə yaşım dolur dəryaya,
Hər damlası dönür çılğın bir çaya.
Naləsi bir qışdır, qəlb donur, Şirin,
Atəşi oxşayır bir odlu yaya.

***

1036. Bir quyu qazıdı şadlığa kədər.
Lakin bu hiyləsi getmədi hədər.
Qazıdığı quyu oldu məzarı,
Azaldı dünyadan acı dərdi-sər.

***

1037. Torpaq qucaqladı gen dünyasını,
Tutdu qüssələrin qara yasını.
Yer altda gömüldü gəlib gedənlər,
Xaliqə bağladı can təmasını.

***

1038. Çirkin əməl açdı qara sinəsin,
Qaldırdı göylərə ələmin səsin.
Birdən bir çaxnaşma düşdü araya,
Uçurtdu zəlzələ qədim binəsin.

***

1039. Hər bir ağrılara tapılar çara,
Nə qədər xəlvətdi, sakitdi ara.
Yığ tök ortalığa sirini, Şirin,
Çalış pünhan-pünhan, lap bir-bir ara.

***

1040. Min kələk qoparır bir çirkin əməl,
Günahsız qan tökür hər müxənnət əl.
Əzəldən dərinə gedəsən gərək,
Əlbəttə, boş olur yoxdusa təmməl.

***

1041. Hiyləyə qapılıb, getsən uzağa,
Düzü qoyub, çıxsan, çətin bir dağa.
Ey ürək, bircə bil, hədərə yerə,
Suda çığır-bağır salmaz qurbağa.

***

1042. Fikirlərim attək çapır həyata,
Şirinçin acısın hey ata-ata.
Bil ki, at istəkdir, inan, ey Şirin,
Hədər yerə murad demiblər ata!

1972-ci il Siyəzən-Tağay –
İyun 1978 Yasamal-Bakı

***

1043. Köksümə sığmayır arzular yenə,
Hey dolub boşalır bu çılğın sinə.
Şadiman, ürəkdən baş alan duyğu,
İncə xəyalların bağrına enə.

***

1044. Həsrətin sinəmdən baş alıb gedir,
Keçən günlərimin sinəsin didir.
Xəyalın gələndə gözüm evinə,
Bağrımı, köksümü can kədər edir.

***

1045. Ömrümü bənzətdin gülə, çiçəyə,
Gizli soyuqluğun döndü gerçəyə.
Bu bəxti, taleyi bir dükan bilib,
Söylə, günlərimi aldın neçəyə?!

***

1046. Yaxşı ağıl ömrü qəlbə satarmı?
Ötüb keçən hər kölgədə yatarmı?
Ey Şadiman, bir olmasa baş, ürək
Hər mərama, hər istəyə çatarmı?!

***

1047. Gözümdə qaralır sənsiz sabahlar,
Bağrımı bürüyür nalələr, ahlar.
Şadiman tək bunu anlamır, niyə
Yolunda ürəyim etdi günahlar?

***

1048. Sinəmdə arzular verib baş-başa,
Zirvədən-zirvəyə hey aşa-aşa,
Yandırır bir anda min duyğu qəlbi,
Şadiman baxmayır, ağılla yaşa.

***

1049. Hamımız dünyanın suyundan içdik,
Bir addım atdıqca, min ölçdük-biçdik.
Çətinə düşəndə sinə göynədi,
Hər gündən şüurla, ağılla keçdik.

***

1050. Ürəyin dediyin, ağıl anmayır.
Ağıl deyənə də, ürək yanmayır.
Hər gün bir mərəkə düşür araya,
Onlar bir-birinə heç aldanmayır.

***

1051. Gərilib əsəbdən duyğunun simi,
Odur ürəklərin loğman, həkimi.
Əlində naçardır neçə bəxt, tale,
Bəxtəvərdir kimi? Bədbəxdir kimi?

***

1052. Açan sabahlara diqqət et, ürək,
Yatır sinəsində min, milyon dilək.
Durmadan ələyir günləri untək,
Yorulmaq bilməyir əlində ələk.

***

1053. Çəkir örtüyünü gecə dünyaya,
Əriyir önündə neçə daş, qaya.
Alır əlimizdən dadlı günləri,
Baxmayır sinədən qalxan ah-vaya.

***

1054. Siyah tellərini tökərək, gecə
Kəsdi başımızın üstün indicə.
Tez ömrün əlindən günləri alıb,
Yaşı qocaltmağa bəs qıydı necə?!

***

1055. Sinəni dərd, qəmlə didəndi ürək,
Gah dəli, divanə edəndi ürək.
Gah anın əlində naçar qalaraq,
Ağılın evinə gedəndi ürək.

***

1056. Bu günlərin əlində mən naçaram,
Bir xəyalla milyon elə uçaram.
Önümdədi qədər-idrak ölçüsü,
Min qapını bircə anda açaram.

***

1057. Yersiz gülsən, başa sərki tökərlər,
Sinən üstə qartal təki çökərlər.
Bu gün bilmib səhv addığın addımın,
Sabahı gün hesabını çəkərlər.

***

1058. Dilin söylədiyin idrak ararmı?
Bir haqq aşiqitək qəlbdən sorarmı?
Ürək sındırmağa tələsmə, könül,
Söz yaran sinəni xəncər yararmı?!

***

1059. Açılıb ağılın bağda gülləri,
Çox təmkinlə vurur başa illəri.
Uçur səmasında milyon göyərçin,
Elə can deməyə səslər dilləri.

***

1060. Gözümdə qaralır sənsiz günəşim,
Qan ağlar, sızlayar hey dilim, dişim.
Dünyanın şəkili dəyişər bir an,
Göz yaşı axıtmaq olar vərdişim.

***

1061. Diqqət et. Gecədir. Ulduzlar yanır.
Onlar öz dəyərin, ölçüsün qanır.
Şadiman, Aya bax, şəfqətlə gülür,
Günəşin əliylə nura boyanır.

***

1062. Qəm boğar gülməyi, ağlamağı da,
Bülbültək sinədən çağlamağı da.
Şadiman, qövr edən bir yara görsən,
Orada sızlayar sinə dağı da.

***

1063. Dağıtsın saçımı qış küləkləri,
Çağlasın sinəmin pak diləkləri.
Alsın qanadına, aparsın məni,
Təbin əsrarəngiz xoş istəkləri.

***

1064. Xəyalım sübhədək izlədi səni,
Həsrətin yuxudan eylədi məni.
Sən isə, çox əfsus, ey bəxtiyar dost,
Göndərdin üstümə bir yığın çəni.

***

1065. Sinəmin içində min duyğu yaşar,
Arzular, diləklər hey qucaqlaşar.
Şadiman bir anda bir neçə milyon,
Sədləri fəth edib keçilməz aşar.

***

1066. O lal baxışların çox ustalıqla,
Giribdi könlümə min bir qılıqla.
Gör nə vaxtdan gəzir dərya sinədə,
Tufandan qorxmayan gücsüz qayıqla.

***

1067. Bəbəkdə bir şirin yuxu olaydım,
Dalğın gözlərində məskən salaydım.
Bu dadlı vüsala qovuşmaq üçün,
Gecənin evində mehman qalaydım.

***

1068. Əs yenə, güclü əs, ey sirli külək,
Çoxlasın sinəmdə yenə də dilək.
Gəl murad atımın tərkində qalaq,
O yatmış duyğular oyansın gərək.

***

1069. Yenə həsrətinlə yanır bu sinə,
Dönüb taleyimdə dumana, çənə.
Odunnan yaranan bu dəli eşqim,
Yenidən yanmağı söyləyir mənə.

***

1070. Ey sadəlövh könül, eşq ilə coşaq,
Min bir arzularla gəl qucaqlaşaq.
Qabaqda nə qədər günlərimiz var,
Tələsmə həyatla biz halallaşaq.

***

1071. Göylərin tərkində gəzir dumanlar,
Coşur bol nəhirlər, coşur ümmanlar.
İki cür yaşayır dünyada insan,
Biri can qoyanlar, biri umanlar.

***

1072. Tələs zülmətlərdə şam yandırmağa,
Tələs nadanları sən qandırmağa.
Dünyaya hərarət, istilik gətir,
Tələsmə, qış təki qəlb dondurmağa.

***

1073. Eşqindən yenə də dönmüşəm şama,
Yanıram, od-közüm dönübdü dama.
O dəli eşqinə tuş olan ürək,
Nə səhərə baxır, nə də axşama.

***

1074. Yuxusuz gecələrdə qalmışam yenə dustaq,
Bu həsrətə, bu qəmə nə düz dözər, nə də dağ.
Açılan sabahların sənsiz hərarəti yox,
Bağ deyə çağrılarmı, bağbanı olmayan bağ?!

***

1075. Bağrımda hay-haray qoparır ürək,
İçimdə bir anda minlərlə dilək,
Çoşğun dağ çayıtək yolun bilməyir,
Əlində acizdir asiman, fələk.

***

1076. Sənsiz ürəyimdə hərarət sönüb,
Bu bəxtim, taleyim yolundan dönüb.
Adicə bir mehə bənd olan dağtək,
Başıma yenə də çiskin, çən enib.

***

1077. Xeyirxahlıq eylə, anlayan qanar,
Yolunda daima şam, çıraq yanar.
Kobud dediyimiz qayalıqları,
Baharın əliylə daşqınlar yonar.

***

1078. Gəl yaxma sinəmi atəşə, oda,
Sınıq taleyimi vermə sən bada.
Şimşəyin əlində ağlayan fələk,
Göz yaşı axıtdı, ona nə fayda?!

***

1079. Alış gözlərinlə yenə manqaltək,
Üstümə od-alov tök, ətək-ətək.
Yandırsın köksümü bəlalı eşqin,
Sevgidən gül olub, torpaqda bitək.

***

1080. Nə keçən günlərdən hesab istəmə,
Nə də taleyinə yamandır demə.
Həyat çox zəngulə üstə qurulub,
Gah zilə qaldırır, gah da ki, bəmə.

***

1081. Toxunma heç kəsin qəlbinə, ürək,
Gərək bu dünyada olasan mələk.
Ömrü dəyirmanda üyüdür fələk,
Bu qısa gedişdə nə lazım kələk?

***

1082. Gəl, qoşa yol gedək tale atında,
Qartal ömrümüzün şux qanadında.
Dünyadan köçəndə, təmiz sevgimiz
Qoy el-obamızın qalsın yadında.

***

1083. Demə, nələr gəldi başıma, nələr,
Gözləmə səadət qapına gələr.
Eşq yeni doğulan körpə quzutək,
Bircə yol bəxtinin bağında mələr.

***

1084. Sən mənim bağımda açan çiçəksən,
Mən xəyal zənn etdim, sən ki, gerçəksən.
İstər zahirində, istər batildə,
Mənimçin hamıdan gözəl-göyçəksən.

***

1085. Arzular bizimlə doğulur əkiz,
Ürəyi çökdürür qarşısında diz.
İnsan kimi mərdi, namərdi olur,
Bu dünyada qoyur xeyir-şər bir iz.

***

1086. Gəl gözəl dünyanı birgə seyr edək,
Enişdə, yoxuşda biz birgə gedək.
Uçaq zirvələrin şiş tağlarında,
Qüssənin, kədərin sinəsin didək.

***

1087. Bircə yol gəlirik qoca dünyaya,
Ucaldıq deyirik, uca dünyaya.
Mənimdi deyərək, ümidlə baxır
Həm uşaq, həm cavan qoca dünyaya.

***

1088. Hamının qayğısın çəkdin, ey torpaq,
Bir pislik görəndə şişdin oldun dağ.
Söylə, gələnlərin doydumu səndən?
Ağzın nemətlərdi, sinənsə bulaq.

***

1089. Ağına-bozuna baxmayır ki, yaş,
Saçı-dişi tökür, ağrıdır çox baş.
Nə mənəm, nə sənəm, deyib dayanmır,
Günlərlə olubdu əbədi sirdaş.

***

1090. Baxma, bu yol hara aparır səni,
Başına əndərir dumanı, çəni.
Bilir, kimə necə laylasın çalır,
Şadiman, yorulmaq bilməyir nənni.

***

1091. Tale düz yol gedir bizimlə qoşa,
Qocasan, cavansan baxmayır yaşa.
Hardasa yoruldu nöqtəsin qoyur,
Çaşıb çatmasa da ömürlər başa.

***

1092. Ürək sinəmizin dərd, qəmin çəkər,
Hey səni enişə, yoxuşa çəkər.
Yorulmaq bilməyən idrakı ilə,
Varını, yoxunu üyüdər tökər.

***

1093. Yatmış duyğuları, ey könül, oyad,
Bu sirli dünyada özün ol səyyad.
Ömür köhlənini dörd nala çapır,
Əldə ki, qalası deyildir həyat.

***

1094. Hər gün çarpışmada ürəklə ağıl,
Hər günü bir dastan, bir boy, bir nağıl.
Onlar bir-birinə tabe olmayır,
Gəl bu qalmaqalda, ey sinə, dağıl!

31.07.1986 Müşfiq qəsəbəsi

***

1095. Döyüşür, çarpışır, çırpınır ürək,
İçində qaynayır minlərlə dilək.
Enişdən yoxuşa adlayır hər gün,
Zirvəyə qalxmaqçın həlakdır, həlak.

***

1096. Bu torpaq bir köhlən, mindin sağrına,
Üstündə yer verdi, dözdü ağrına.
Min bir əzabınla, möhnətlərinlə,
Sonda basacaqdır səni bağrına.

***

1097. Gözümüz doymayır dünya varından,
Onun gündüzündən, onun tarından.
Doğdu sinəsində əlçatmaz dağlar,
Gələnin-gedənin hər ah-zarından.

***

1098. Alışır atəşə, hər oda ürək,
Verir bu sinəyə dərd-qada ürək.
Yorulmaq bilmədən hərəkətdədi,
Son anına qədər dünyada ürək.

***

1099. İnsan bu cahanda bir parlaq günəş,
Ondan da güclüdür qəlbində atəş.
Odunda isinir bütün əsrlər,
O qaynar sinəsi bir alovlu teş.

***

1100. İdrak elmiylə dünyada başdır,
Ağrıyan ürəkdir, qocalan başdır.
Əyilir hökmündən ona təbiət,
O öz qanunuyla can bir sirdaşdır.

***

1101. Cırır, parçalayır ürək sinəsin,
Uca asimana qaldırır səsin.
Artıb çoxaldıqca köksündə dilək,
Tikir, hey artırır arzu binəsin.

***

1102. Bulaqtək qaynadı elə hey həyat,
Yaxşıyla fəxr etdi, pisiyləsə dad.
Gələnə sevindi, gedənə yandı,
Gah qəhqəhə çəkdi, gah da ki, fəryad.

***

1103. Ucadan ucadır insan ağılı,
Hər kəşfi, hər elmi – əsrin nağılı.
Hələ açılmamış kitabları var,
O sehir, möcüzə, qapısı bağlı.

***

1104. Fikir, nə sürətli yerişin vardır,
Keçidə, yoxuşa girişin vardır.
Müqəddəs ürəklə yarışlarında,
Hələ gör nə qədər yürüşün vardır.

***

1105. Arzunun ürəkdə qarası, ağı,
Görmədiyin alır həssas qulağı.
İnsan sinəsində dəryaya bənzər,
Hər kəşfi dünyanın hikmət qaynağı.

***

1106. İçimdə nə qədər qəmim yaşayır,
Bağrımın qəmləri dərdi qaşıyır.
Yorulmaq bilməyir ağır gedişdən,
Taleyin ən ağır yükün daşıyır.

***

1107. Min-min arzularla çırpınır ürək,
Bə'zən arzu qurur, arzuya kələk.
Qoparır içində dəhşətli ağrı,
İşindən baş açа bilməyir fələk.

***

1108. Ağıl hər döyüşdə qələbə çalar,
Onun qarşısında tamah alçalar.
Sadəlövh ürəyin hər addımına,
Cırar sinəsini, hər an parçalar.

***

1109. Tapa bilməyəndə ürək parasın,
Çırpınar, itiyin hardan arasın.
Göynəyər, sevgisi içində yanar,
Təbib də sağalda bilməz yarasın.

***

1110. Həyat, sən gözəlsən, doymaq olmayır,
Söylə, kim sinəndə, açır, solmayır?
Gözəl qəsirində ikicə qapı,
Gedən çox, gələn az, qəsir dolmayır.

***

1111. Şirindir, acıdır dünyanın tamı,
Hər kəs bildiyitək alıbdır kamı.
Halallar can qoydu, haramlar hiylə,
Tarixin evinə düşdü ehkamı.

***

1112. Zaman addımlayır, idrak çalışır,
Hər gün yeni arzu, məram alışır.
Zirvə həvəsində olan insanlar,
Əlçatmaz zirvəynən boş-boş yarışır.

***

1113. Doğuldun, dünyaya yük olma heç vaxt,
Elə dodaq büzüb demə ki, yox baxt.
Ətalət salmasın səni bağrına,
Zaman yol üstədir, gözləməyir vaxt.

***

1114. Özünə torpağın üstə yer tutdun,
Dolu xəzinəylə özünün tutdun.
Halal duz-çörəkdən üz çevirərək,
Bir gün gedəcəyin günü unutdun.

***

1115. Kölgədə dolandın, sərində yatdın,
Halal çörəyini harama qatdın.
Beşgünlük var-dövlət tutdu gözünü,
Əlinlə özünü quyuya atdın.

***

1116. Düzlük örtüyünə bürünüb yaşa.
Zaman hərəkətdə baxmayır yaşa.
Bil ki, hər el-oba, hər yurd, hər yuva,
Ümidlərlə baxır, düz vətəndaşa.

***

1117. Ocaqtək alışaq, parlayaq, yanaq,
Sübh gündüzlər ilə qalxıb oyanaq.
Şadiman, axında büdrəmə, çaşma,
Həyat leysan yağış, ömürsə sınaq.

***

1118. Bax yol boyundakı nəhəng ağaca,
Başına qoyduğu yamyaşıl taca.
Gəlib-gedənini sərinlətdikcə,
Olubdur necə də, ucadan uca.

***

1119. Sən necə gözəldən gözəlsən həyat,
Səndə duyğularım açır qol-qanad.
Qartal istəyinlə zirvəni tutdun,
Elə hey izlədin məni, ey səyyad.

***

1120. Yaşıl bir örpəyə bürünüb bahar.
Laləzar çəməndə eyləyir nahar.
Günü bəzəndirib min zövqlə günəş,
Bülbülün sinəsi odunda ahar.

***

1121. Başımdan getməyir eşqin havası,
Qurtarmaz sinəmlə onun davası.
Sənsən, ey sevgilim, ürəyim bilir,
Dəli istəyimin dərdi, dəvası.

***

1122. Gəlmisən dünyaya, yaxşılıq eylə,
Salma, bəd dillərə özünü böylə.
Zaman tələsdirir, yaşımız gedir,
Sən də, bu dövrana sözünü söylə.

***

1123. Uçdu, əlimizdən getdi cavanlıq,
Başqa bir taledə bitdi cavanlıq.
Qədir-qiymətini bil ki, vaxtında,
Təəssüflə demə, itdi cavanlıq.

***

1124. Baharın çəmənin payız soldurur,
Ora sarı xəzan, soyuq doldurur.
Nə gözələ baxır, nə gözəlliyə,
Öz qəsrin, sarayın orda saldırır.

***

1125. Sərçələr bülbültək səsin qaldırır,
Çiçəyin əliylə çəmən aldırır.
Gül-çiçək bağında bitən sarmaşıq,
Özgə kölgəsində boyun qaldırır.

***

1126. Göylər ağ sinəsin açır günəşə,
Eşq ilə bir-birin sevir həmişə.
Pünhani sevgini buludlar bilir,
Salır hər ikisin hey dilə-dişə.

***

1127. Sən qüvvət axtardın özgə qolunda,
Əsdi arxaların hey sağ-solunda.
Kürsüdə əyləşdin, fikirləşmədin,
Qəfil xəzri əsər bir gün yolunda.

***

1128. Bülbüllər oxuyur yenə ahəstə,
Gül-çiçək zümzümə eyləyir pəstə.
Muğamat üstündə zilə gedirlər,
Sanki pərdə-pərdə qalxır şikəstə.

***

1129. Gəl ey insanlıqdan, dəm vuran ürək.
Hiyləni özünə eyləmə dirək.
Bu hikmətli dünya bizdən halidir,
Çoxları özünə desə də zirək.

***

1130. Yaxşılıq, yamanlıq sudur, içirsən,
Onların uğrunda candan keçirsən.
Heç kəs səni buna təhrik etməyir,
Özün iki yoldan birin seçirsən.

***

1131. Köksümdə iztirablar,
Yığın-yığın qalıbdı.
Məni ki, sənin eşqin
Bəlalara salıbdı.

29.01.1987 Neft Daşları

***

1132. Xəyalın könlümü uyutmayacaq,
Bir daha geriyə qayıtmayacaq.
Hicran girdabına düşən bəxtimi,
Ölüm gününədək ayıltmayacaq.

***

1133. Həsrəti sinəmdən tökə bilmirəm,
Onun qəm yükünü çəkə bilmirəm.
Zaman axıb gedir səssiz sulartək,
Qanadım qırılıb, səkə bilmirəm.

***

1134. Bu sirli dünyanı dolaşır külək,
Zamanın kirinə bulaşır külək.
Vüsala yetdikcə yer-göy arası,
Oxşayır tellərin həm yer, həm fələk.

***

1135.Gedişin sinəmdə yandı şam təki,
Qaraldı ürəyim bir axşam təki.
Dolaşdı qəlbimdə hicran mehləri,
Bürüdü könlümü ehtişam təki.

***

1136.Çoxları dünyada atını çapdı,
Çoxları dünyada üzünü tapdı.
Şadiman, tək sənin dəli könlünü,
Bu dəli zamanə aslantək çapdı.

***

1137.Dünyaya gələnə can satır həyat,
Belinə ən ağır yük çatır həyat.
Şadiman, ayırmaz varlı, varsızdı,
Hamını torpağa, hey qatır həyat.

***

1138.Hərəyə verilir yalnız bircə can,
Səhvlər içindədir, hər dəqiqə, an,
Şadiman, çarpışır həyatla ölüm,
Gələn də peşmandır, gedən də peşman.

***

1139.Hiyləndən baş açа bilməyirəm mən,
Vaxtsız saçlarıma salırsan ağ dən.
Şadiman diləklə çarpışmadaykən,
Onun gəncliyini alırsan əldən.

***

1140.Zinhara gəlmişəm pis üzlülərdən,
Diləyi, amalı min sözlülərdən.
Şadiman, gəl gedək dünya evindən,
Cahan xeyir görmüb pis gözlülərdən.

***

1141.Dünya mənim deyib, qamarlayırsan,
Sərvətdən yük tutub, tumarlayırsan.
Şadiman, ayıq ol, deməsin fələk,
Varını üst-üstə hamarlayırsan.

***

1142.Dərd deyib bu qədər ağlama, dünya,
Belə yol-irizi bağlama, dünya,
Gəl sən Şadimanın dərdlərinə bax,
Min yerdən düyünlü bağlama, dünya.

***

1143.Ağılı ürəyə qurban etmə, gəl,
Onun hər sözünə bada getmə, gəl.
Dünyanın yaşamı ağıl, Şadiman,
Onu yora bilməz nə ayaq, nə əl.

***

1144.Açıb sinəsini dünən pak fələk,
Yolurdu saçını o incik mələk.
Dedim: İnciməyin, nədəndir? Dedi:
Dünyanın yolundan azdırır kələk.

***

1145.Çırpınıb, çarpışdın mənlə dünyada,
Gah endin, gah qalxdın aha, fəryada,
Ey ürək, sinədə calal qurmusan,
Sənsiz həmdəm varmı könlü abada?!

06.08.1988

***

1146.Taleyin qəribə oyunları var,
Oldum gah sevincə, gah da qəmə yar.
Bu qədər dərd verib, ağlatmaqdansa,
Bir kərə parçala, bu könlümü yar.

***

1147.Sənin eşqinlə mən kükrədim, daşdım,
Neçə min sıldırım keçilməz aşdım,
Nə oldu axırı, bir boranlı qış,
Sanki çeşmələnən gözlərdə yaşdım.

***

1148.Qədər nə pis yazdı yazımı mənim,
Artır bu könlümdə dumanım, çənim,
Eşqə yağı olan biganələrtək,
Öz bəxtim özümə olubdu qənim.

***

1149.Mənim taleyimə acıma, ürək,
Bax qəmdən, qüssədən tacıma, ürək.
Hər çatan gülməsin uğursuz bəxtə,
Nə də verməsinlər heç ürək-dirək.

***

1150.Yenə yaşla doldu gözlərim, fələk,
QururSan ömrümdə gündə min kələk.
Mənim insanlığım aləmə lazım,
Sənsə haq-hesabı bilməyən ələk.

***

1151.Mənim ürəyimdə divanə eşqim,
Sənin ürəyində nə insaf, nə din.
Ey yanan qəlbimin lal məhəbbəti,
Nə olar, bircə yol bir danış, bir din.

***

1152.Ömrümün yolları viranə qalıb,
Könlümün içini dumanlar alıb,
Yenə qəm, qüssəylə dolub bu sinə,
Məni öz taleyim bəlaya salıb.

***

1153.Gözlərim yoluna həsrətlə baxır,
Qəlbimi iztirab, intizar yaxır,
Qəfil tufanlara tuş olub ürək,
Könlümün göyündə şimşəklər çaxır.

***

1154.O ötən günlərim hara gedibdi?
Vurub həyatıma yara, gedibdi.
Zamanda günah yox, bunu bilirəm,
Mənə öz ürəyim pislik edibdi.

***

1155.Həsrətin əlindən tutub gedirəm,
Bütün fərəhimi atıb gedirəm.
Həyat bir üzü qəm, bir üzü şadlıq,
Yükünü kürəyə çatıb gedirəm.

***

1156.Gül-çiçəyin bəxti yoxdur deyirlər,
Bülbülləri yaman çoxdu deyirlər.
Yaz qoxulu gülüstana diqqət et,
Bülbüllərlə onlar özün öyürlər.

***

1157.Arzuya diləyə qovuşmaq üçün,
Kədərdən, ələmdən sovuşmaq üçün,
Əymə enişlərdə ömür yolunu,
Düz varkən, yoxuşa dırmaşmaq neçin?!

***

1158.Ümidsiz yaşamaq çətindir, çətin,
Ümid balasıdır bəşəriyyətin.
O hökmü verdikcə, qanunlarıyla
Canına can verir böyük xilqətin.

***

1159.Ölüm, nə güclüdür səndəki qüdrət,
Çəkirsən ömürün qarşısına səd.
Çəkinmək nədir ki, bilməzsən heç vaxt
Hər bir hərəkətin saniyədən cəld.

***

1160.Deyirlər fənadır şamın taleyi,
Yandıqca gecədən artır gileyi.
Onun fəğanların pərvanə duyur,
Odur şam eşqinin yanan mələyi.

***

1161.Həsrətin bağrıma od basa-basa,
Batırdı könlümü ələmə, yasa.
Kim açar könlünün qapılarını,
Belə etibara, belə təmasa.

***

1162.Gözümdə göz yaşı, köksümdə hicran,
Ağrının içində ürək verir can.
Kəsilib taqətim, kəsilib səbrim,
Mən başdan, binadan oldum yarımcan.

***

1163.Ey şam, tanrı sənə veribdi xoş baxt,
Sınaqçın nəsibin olmadı çox vaxt.
Həm sən, həm aşiqin zərif pərvanə,
İkiniz bir yerdə necə də xoşbaxt!

***

1164.Varın var cahanda adamsan, adam,
Ömrün olan qədər alacaqsan kam.
Pul ki, əl çirkidir deyən babalar,
Arzusu gözündə, getdilər nakam.

***

1165.Alışır ağrıdan, yanır bu sinəm,
Bir an gözlərimdən qurumayır nəm.
Ahımdan ağlayır göydə buludlar,
İnsafsız fələyə yetməyir naləm.

***

1166.Gözümdən leysantək axdıqca yaşlar,
Fələk üstbəüstdən hey məni daşlar.
Əyrilər, oğrular çəkilər başa,
Cahanda hökm edər bu başı boşlar.

***

1167.Bu ömrün əlindən gəlmişəm zara,
Yazan bu bəxtimi yazıbdı qara.
Sağalmaz dərdimə məlhəm qoymadı,
Yaramın üstündən vurur min yara.

***

1168.Getmək istəyirsən get, get qayıtma,
Yatmış duyğuları daha ayıltma.
Hər fəraq içində bir hicran yatır,
Canı yaxın bilib onu ayıltma.

***

1169.Əridi şam kimi ömrüm hicranda,
Nə taqət, nə halət qalmadı canda.
Fələyin cövrünə dözən ürəyim,
Sanki fərağıyla dolanır qanda.

03-04.04.1986

***

1170.Milyonlar ötürən bu qaynar həyat,
Birinə doğmadır, birinəsə yad.
O ərşi-ələdan qopan səs deyir,
İnsanın şüuru olmadı abad.

***

1171.Bir yol şad olmadı dünyada ürək,
Ağrını-acını özü çəkir tək.
Saçını yolduqca bəxt küləkləri,
O da ağrı tökür, hey ətək-ətək.

***

1172.Zalım zamanədən gileyim çoxdu,
Məzlumun naləsi sinəmə oxdu.
Şadiman, dünyadan əl üz, ya üzmə,
Onsuz da dadına yetənin yoxdu.

06.04.1990

BAYATILAR

1

Bax can mənə neynədir?
Qəlbi yaman göynədir,
Ruhumun getdiyi yer,
Yer üstəndə göy nədir?!

2

Əzizim, sarı canım,
Saralıb sarı canım,
Sən gedəli buradan
Qalmayıb yarı canım.

3

Əzizim, unutmaram,
Səni qəlbdən atmaram.
Bülbül gülə yığışır,
Gül dərib, qurutmaram.

4

Gözün yaşı üz yuyar,
Qəlbə düşən söz yuyar.
Hər kəsin bəxt aynası,
Göz alışar, göz uyar.

5

Sevdi bu ah-zar məni,
Etdi dərdə car məni.
Heç nə süpürüb atmaz,
Atacaq bu yar məni.

6

Əzizinəm bağımda,
Gül soluxub bağımda,
Neylədim ki, mən sənə
Dərd verdin bu çağımda?

7

Əzizim, bu gül nədi?
Gül yoxsa, bülbül nədi?
Durub qapıda həsrət,
Tökdüyün bu dil nədi?

8

Əzizim dəmi gəlməz,
Göz gülsə, nəmi gəlməz.
Ruhumu dəryalarda
Batıran gəmi gəlməz.

9

Əzizim gəzən fələk,
Qəlbimi üzən fələk.
Ömrümün yollarına
Elə qəm düzən fələk.

10

Əzizim qəlb közüdü,
Can həyatın gözüdü.
Məni yandırıb yaxan,
Ürəyimin özüdü.

11

Əzizinəm naləmə,
Naləm çıxıb aləmə.
Heç kəs əlac etməyib
Fələk çalan qələmə.

12

Əzizinəm yetəndi,
Qəlb içində bitəndi.
Canla ürək arası,
Yolun salan Vətəndi.

13

Eləmi can arası?
Canım var can arası.
Düşmüşəm elə dərdə,
Sağalmayır yarası.

14

Eləmi ömür ötür?
Günləri bir-bir ütür.
Hər acısı, ağrısı
Gəlib ürəkdə bitir.

15

Eləmi cavan ömrüm?
Keçmədi rəvan ömrüm.
Savaşdın ağılımla,
Bitmədi davan ömrüm.

16

Əzizim, selə döndüm,
Bir əsən yelə döndüm.
Səhər-axşam çağlayan
Yanıqlı dilə döndüm.

17

Əzizim Vətən hanı?
Yad əldə bitən hanı?
Bu bağın gülü solub
Bülbültək ötən hanı?

18

Əzizim Araz axır,
Araz axır göz baxır.
Biztək yurdu dağılmış
Qəlbi yandırıb yaxır.

19

Əzizinəm, bilməsin,
Yanağı yaş silməsin.
Yurda sərhəd çəkənin,
Görüm üzü gülməsin.

20

Əzizinəm Dərbəndə,
Şərə neyləsin bəndə?
Vətənim parça-parça,
Yolu düşüb dar bəndə.

21

Əzizim, gələn yoxsa,
Dərdimi bilən yoxsa,
Vətən Vətən olmayır,
Yolunda ölən yoxsa.

22

Əzizim canlar olur,
Cana divanlar olur.
Azadlığa çatanın
Yolunda qanlar olur.

23

Əzizim, həyat baha,
Pənah qalıb Allaha.
Çalışdım ki, ömrümü
Batırmayım günaha.

24

Əzizim əsdi keçdi,
Günüm tələsdi keçdi.
Ələm çəkdi qoşunun
Ömrümü kəsdi keçdi.

25

Əzizim, hala düşdüm,
Min qeylü-qala düşdüm.
Çalışdım tez yeriyim,
Yıxıldım dala düşdüm.

26

Əzizim, bağ üşüdü,
Ömrümdə çağ üşüdü.
Həsrətin qar ələdi,
Sinəmdə dağ üşüdü.

27

Əzizinəm, düş izə,
Ayrılıq bıçaq bizə.
Nə deyirsiz deyin siz,
Bu yol gedir Təbrizə.

28

Əzizinəm Kərkükə,
Qovun yağını hürkə.
Deyin nə pislik olmub
Bu dünyada biz türkə?!

29

Əzizinəm başdadı,
Ellərim tələşdadı.
Düşmən edən pisliyin,
Çarası savaşdadı.

30

Əzizim, yola düşdüm,
Gağımdan sola düşdüm.
Gördüm səni qəfildən
Min cürə hala düşdüm.

31

Gün gəldi, əsdi fələk,
Yolları kəsdi fələk.
Ömür axan bir sudu,
Yaman tələsdi, fələk.

32

Əzizim, zamanım dar,
Eşqinə gümanım dar,
Hardan baxsan üzümə
Ürəyimdə yeri var.

33

Əzizinəm, düz sına,
Yarı ara, düz sına.
Hər kəsin öz bəxti var,
Onu-bunu az qına.

34

Fələk qələmi yazar,
Yazarkən yolu azar.
Halal-haram bilməyən
Dünyanın özü bazar.

35

Əzizim, yuxu qaçıb,
Qəm atıb oxu, qaçıb.
Bir də ayılıb gördüm
Ömürdən çoxu qaçıb.

07-08.10.1988

MÜƏLLİF HAQQINDA

Şirinxanım Ağabala qızı Kərimbəyli (ədəbi təxəllüsü ŞADİMAN) 2 sentyabr 1955-ci ildə Siyazən (keçmiş Dəvəçi, indiki Şabran) bölgəsinin Tağay kəndində anadan olub. Doğulduğu kənddə səkkizillik məktəbi, sonra Siyəzən şəhər 2 saylı orta məktəbi bitirib. 1973-75-ci illərdə Yenikənd üzümçülük sovxozunda fəhlə,1975-76-ci illərdə Volodarski adına tikiş fabrikında tikişçi işləyib.1977-ci il-də ADU-nun (indiki BDU) hazırlıq şöbəsində dinləyiçi, 1978-83-cu illərdə Kitabxanaçılıq (indiki İnformatika fakultəsinin əyani şöbəsini bitirib. 1992-ciildə Azərbaycan jurnalist Sənətkarlığı İnstitutun məzunu olub. 1984-cu ildə Dəvəçi rayonun (indiki Şabran), hal-hazırda Siyəzən rayonun inzibatı ərazisi sayılan Gilgilçay qəsəbəsində kitabxana müdiri vəzifəsində çalışıb. 1985-2007-ci illərdə ADNŞ-nın Mədəngeofizik idarəsinin «Neft Daşları» geofizik ekspedisiyasında cizgiçi, texnik, mühəndis peşələrində

çalışıb. 2007-ci ildən həmin idarədən əmək təqaüdünə çıxıb. Əmək fəaliyyəti ilə bərabər bədii yaradıcılığını davam etdirib. Dövrü mətbuatın mətbu orqanları olan «Neft Daşları», «Ədalət», «Çənlibel», «Azərbaycan müəllimi», «Bütöv Azərbaycan», «Kredo», «Mütərcim», «Məhsəti» və sair qəzet-jurnallarda çap olunub. «Məcməüs-şüəra»(Şairlər məclisi), «Füzuli» ədəbi məclislərin üzvü olub. AYB-nın və CASCFEN(Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi)nin üzvüdür. Hal-hazırda ədəbi fəaliyyətlə məşğuldur. «Modern.az», «Yalquzaq.com», «Davam.az» «Lit.parad», «Dayaq.az» və sair internet portallarla yaradıcılıq əlaqələri saxlayır. «Azpressin» və «Kredo» qəzetinin əməkdaşıdır. Şəxsi saytı aktiv faliyyətdədir.

Müəllifin çapdan çıxmış kitabları:

1. **«Ürək niyə ağrıyırsan?», (Şeirlər), Bakı-1991, «Azərnəşr», 56 səhifə, sayı 3000.**
2. **«Çəkənə qəm dünya, çəkməyənə dəm dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2000, AEK «Marfa press» nəşr., 400 səhifə, sayı 1000.**
3. **«Kiminə acı dünya, kiminin tacı dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2002, «Nurlan», nəşr., 566 səhifə, sayı 500.**
4. **«Ağıla bəhər dünya, ürəyə qəhər dünya» (Şeirlər, poema), Bakı -2007, «Nurlan» nəşr., 742 səhifə, sayı 500.**
5. **«Seçmələr» (1 cild), Bakı-2008, «Nurlan» nəşr., 292 səhifə, sayı 1200.**
6. **«Məni illərdən soruşun» (Publisist düşüncə), Bakı-2008, «MBM» 95 səhifə, sayı 300.**
7. **«Dünya mənə tanış gəlir» adı ilə «Ürək niyə ağrıyırsan?» və «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya» kitablarının birlikdə təkrar nəşri, Bakı-2009, «Nurlan» nəşr., 522 səhifə, sayı1000.**
8. **«Tağayım», poema, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 56, sayı 500.**
9. **«Ay adamlar, mən burdayam», «Adiloğlu» nəş. Bakı-2012 səhifə 454, sayı 500.**
10. **«Seçmələr», 2-ci cild, Bakı-2012, «Adiloğlu» nəş., səhifə 326, sayı 1200.**
11. **«Ötənlərdən gələn səslər-I», Bakı-2013, «Qanun» nəş., səhifə 632, sayı 500**

Müəllif və əsərləri haqqında çap olunmuş kitablar:

1. **«Adı Şadiman olanın», Əli Rza Xələfli, Bakı-2009, «Təknur» nəş., səhifə 256, sayı 1000.**
2. **«Axtala əfsanəsi», Əli Rza Xələfli, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 144, sayı 500.**
3. **«Üç rəngli bayrağa bürünmüş şairə» Nəzirməmməd Zöhrablı, Bakı-2010, «Adiloğlu» nəşr., 148 səhifə, sayı 500.**
4. **«Qırmızı həqiqətlər», Əli Rza Xələfli, Bakı-2011, «Adiloğlu» nəşr., səhifə 130, sayı 500.**

MÜNDƏRİCAT

ÖTƏNLƏRƏ BİR NƏZƏR ... 3
ÖTƏNLƏRDƏN GƏLƏN SƏSLƏR ... 4

YARADANDAN GƏLƏN İŞIQ

YET FƏRYADA ... 5
XUDAYA, ALIŞIB YANDI ÜRƏYİM ... 6
İLAHİ ... 6
MƏN NİYƏ GƏLDİM ... 7
AMAN ETMƏK OLMAYIR ... 8
ÖTMÜR İLAHİ ... 8
BİTMƏDİ BU SEVGİ ... 9
YET FƏRYADA ... 10
HEÇ DEMƏDİ ... 10

DÜNYA BİR PƏNCƏRƏDİ

DÜNYA ... 11
ACI GÖZ YAŞI ... 11
NƏ OLDU ... 12
DÜNYA QƏMDƏN UZAQ OL ... 14
HAQQ OĞLU HAQQ ... 15
GÖZƏL DÜNYADIR ... 16
DOSTLUQDUR ... 17
TƏK YOLU DÜNYAM ... 18
AĞ YAĞIŞLAR ... 20
BİR ALƏMSƏN ... 22
KÖÇÜN SÜRƏN DÜNYADI ... 24
DÜNYA ŞƏRƏ MÜBTƏLA ... 26
İNSANLAR YARADIR ... 26
YIXILASI DÜNYADI ... 28
TUŞ OLMASIN NAKƏSƏ ... 30
BU DÜNYA MƏNİMDİ ... 31
NAMƏRDLƏR ... 32
KƏŞF EDƏN İNSAN ... 33
SƏN SİRLİSƏN ... 34
DÜZDƏ QOYAN DÜNYADI ... 35

O TAY, BU TAY VƏTƏNDİ

TƏBRİZ DEDİM ... 36
PIÇILDAŞAN DEYİLMİ? ... 37
NECƏ GEDƏ BİLƏYDİM ... 38
ŞƏHİD XƏLİL RZA ... 38
VÜQAR ... 40
YAŞAMAĞA DƏYƏR BU YERDƏ ... 41
BİZİM BİRLİYİMİZ ... 42
SƏNİN DƏRDİN ... 43
NƏ ŞİRİNSƏN, ANA DİLİM ... 44
TORPAĞINA YAZ GƏLİB ... 45
EY DƏNİZ ŞƏHƏRİ ... 46
TORPAĞINDA AYAQ AÇDIM ... 46
ŞƏHİDİN QANI ... 47
DOYMAQ OLMUR ... 48
ƏYİLƏN DEYİL ... 49
BİR GÜN GƏLƏR ... 50
TAĞAYIM ... 51
ANA VƏTƏN ... 52
CAN ARAZ ... 54

TƏBRİZ DEDİM 55
AŞIR-DAŞIR SİNƏNDƏ 56
VƏTƏN TORPAĞI 57
TORPAĞIM 58
EY ŞƏHİD QƏBİRİ 59
SEHRİNDƏN ALIŞDIM 60
VƏTƏN DEDİM 62
ÜZÜ GÜLMƏSİN 63
VƏTƏNİM HARAY 63
GÜNAHKAR KİM OLDU 64
XALQIN SƏSİ 65
YAĞI GÜLLƏSİNƏ TUŞ OLAN BAKI 66
TƏBRİZƏ MƏKTUB 68
VƏTƏN DEYİB 69
NECƏ YAŞAYIRIQ BİZ 70

ÖZÜMÜ AXTARIRAM

YOLLARA DİKİLİB QALIB 72
GÖZ AÇDIM 72
XƏTAKAR 73
ƏLLƏRİNDƏ ŞƏFQƏT VAR 74
DOĞUM GÜNÜM 74
DÖVRAN DOLANIR 75
ÖMRÜN İLLƏRİ 76
ÖMÜR SINAQ MEYDANI 76
ƏSİR ÜRƏYİMDƏ 77
AĞIL QOY 78
İÇİMDƏ DOLAŞIR 79
TALEYİMİN ÖNÜNDƏ 80
BAŞI POZUQ ZAMANƏDƏN 80
BİZ SABAHA YOL GEDİRİK 81
MƏKTƏB İLLƏRİ 82
ANANIN BAXIŞLARI 83
QARA YELLƏR 83
A NEFTÇİ OĞLAN 84
QURBAN OLUM, AY ANA 84
ÖTÜR KEÇİR GÜNLƏRİM 85
XƏTİRİNƏ DƏYİBLƏR 86
SALDI YAMAN QƏMLƏRƏ 87
VİCDAN 88
YAZIQ 89
ÇƏTİNDİR 90
MƏN NEYLƏYİM, AY ANA 91
VİCDAN GÖZÜN YUMANDA 92
MƏNİM ATAM 93
ATA-ANA QOCALDI 94
ADAM VAR Kİ 95
ÇATANDI QARDAŞ 96
KÖNLÜNÜ ALAN BACIDI 97
NƏ DEYİM? 98
QULAQ AS 98
ŞƏFALIDIR 99
TALEYİMİN GÜNLƏRİ 100
BƏXTƏ BAX 100
İLLƏRİNİZ MÜBARƏK 101
YETMƏZ TANRIYA GİLEYİM 101
ÜRƏYİM DƏNİZDƏ 102
KÖNLÜM EVİ 102
A TALE QUŞU 103
BOĞULDUM 103

QADINLAR 104
ANALAR 105
ŞİRİN LAYLALAR 106
KÖNÜLLƏRİN ƏLACI 106
NECƏ AYRILIM 107
HARDA BİR GÖZƏL GÖRDÜN 108
HAQQ DEYƏN ÜRƏK 108
ŞAMINI YANDIRIR HƏYAT 110
BİR HƏSRƏT GƏZƏR 110
YAŞAMAQ OLMAZ 111
TALE QARŞINDAYAM 112
BU QƏDƏR BAĞLIYKƏN 113

TƏBİƏT RUHA QİDA

ANAM DƏNİZ 114
MİRVARİ SƏPİLİB 114
BAHARIM 115
BU BAYRAM AXŞAMINDA 116
XOŞ GƏLMİSƏN 117
ÜÇ DƏNƏ NƏRGİZ GÜLÜ 118
ÇILĞIN KÜLƏKLƏR 118
QAĞAYI 119
YURDUMUZA YAZ GƏLƏNDƏ 120
PAYIZ DÜŞÜNCƏLƏRİ 121
BAHAR, XOŞ GƏLDİN 122
EY DALĞALAR 123
BİR XALIDIR 123
TƏBİƏT ŞƏRQİSİ 124
BAHAR, TUT ƏLİMDƏN 124
BULAQLAR QAYNASIN 125
MAVİ GECƏM 126
QAMÇILAYAR KÜLƏKLƏR 126
AY NİYƏ TƏN BÖLÜNÜB? 127
AY DƏNİZDƏ ÇİMƏNDƏ 128
EY SARALAN YARPAQLAR 128
SEVGİLİ DAĞLAR 129
BƏNÖVŞƏ 130
TƏK CANIM BAHAR 131
GƏL EY BAHAR 131
YAZ GÖZƏLİ 132
KEŞİYİ ÇƏKİR 132
HEKAYƏSİ DAĞLARIN 133
DUMANLARI KÖKSÜNÜ SARAN 134

İLHAMA BAĞLI ANLAR

MƏNİM İLHAMIM 135
QÜVVƏTİM OL 136
PEYMANIM VAR 136
XƏYALINLA ALIŞARAM GECƏLƏR 137
GƏZMƏ YENƏ HAVALI 138
ARZULARIM AŞIB DAŞIR 138
MİSRALARIM 140
ÜRƏYİM 140
NALƏSİLƏ GÖZ AÇIB 141
İLLƏR NƏ TEZ ÖTÜŞÜR 142
KÖNÜL NƏĞMƏSİ 143
SƏNDƏN KİM DOYDU? 144
CAN ATIRSAN AĞRIMAĞA, ÜRƏYİM 145
DİLLƏR EŞİTSİN 146
ŞİĞIYIB GEDƏN ZAMAN 147

NƏĞMƏSİ ÇAĞLAYAN 147
MƏHƏBBƏT – MÖCÜZƏ 148
ZALIM ZAMAN 148
QAYIT BU YOLDAN 149
OCAĞIYLA YANDIRAN 150
SIZLAR XƏYALLARIM 150
DİLƏ GƏLİR 151
OVUT KÖNLÜMÜ 152
YARILIR BAĞRIM 152
RƏBBIM İLƏ DANIŞIRAM 153
LAYLA ÇALANDAN 154
YAŞIMIZA YAŞ GƏLİR 155
AŞIR-DAŞIR ÜRƏYİM 156
CAN, NƏFƏSİMDİR 156
GƏLİN KİMİ GÖRÜNDÜ 157
YAYIB ÜZÜNƏ 157
KÖNLÜMÜN SƏSİ 158
QOPDU ŞİMŞƏKLƏR 158
KÖNLÜMDƏKİ DUYĞULARIM 159
DƏRD QOYAN FƏLƏK 160
MÖHNƏTƏ DÜŞƏNDƏN 160
QAPIM DÖYÜLDÜ 161
KİMSƏSİZ HƏSRƏT 162
ÜZÜB MƏLALI 162
QƏFƏSƏ DÜŞMÜŞƏM 163
BƏXTİ GƏZDİ 164
ÇİÇƏK ƏTİRİ 164
DƏYDİM QƏLBİNƏ 165
QUŞCAĞAZ KİMİ 166
BƏXTİMİN GÜLLƏRİ 166
TELƏ SÖYLƏDİN 167
TANRI MƏNİ DOST EYLƏDİ 168
MÖHNƏTİNƏ DÖZÜM QALMAYIB 168
NECƏ DÖZÜRSƏN MƏNSİZ 169
İNDİ SÖYLƏ NECƏSƏN 170
ARALI DÜŞDÜK 171

EŞQİ QAYNADAN MİSRALAR

SƏN NİYƏ GƏLMƏZ OLDUN? 172
HƏSRƏT ƏLİNDƏ 172
GƏLMƏDİN, GƏLMƏ DAHA 173
KÖNÜL VERDİM 174
AĞLADI GÖZÜM TƏKİ 174
SƏNƏ CANDAN SÖZÜM VAR 174
GÖZLƏRİMİN YUXULARI ÇƏKİLƏR 175
AY NAZ İLƏ GEDƏN YAR 176
BAĞDA ÇİÇƏK ƏKMİŞƏM 176
QAYA DİBİNDƏ YER VAR 177
QONŞUDA BİR OĞLAN VAR 178
QAPI ÜZƏ AÇIQDI 178
YAXINSAN AXI 179
QAYIT KÖNLÜMƏ 180
DAHA SÖZÜM YOXDUR 180
YAŞAYIRAM MƏN 181
MƏNİM RAHATLIĞIM 182
KÖNÜL VURULUBDU 182
VARLIĞINDA ÖZÜM VAR 183
SEVDİM SƏNİ 184
SEVGİ ATƏŞİ 185
BİR VÜSALIN EŞQİYLƏ 185
HƏYATIMIZ QAYNAYIRDI 186

AÇILIR BAĞÇAMIN GÜLLƏRİ 186
SALIBDI TUFAN 187
ALIŞIR QÜSSƏDƏN 187
SƏN YUXUMA GƏLƏNDƏ 188
KÖNLÜM EVİN 188
GÖZLƏMƏ MƏNİ 189
TALEYİMİN QAPILARI 189
TOXUNDUN KÖNLÜMƏ 190
TƏQDİM EYLƏDİN MƏNƏ 190
QƏLBİMƏ QƏM GƏTİRDİ 191
GÖZLƏRİMİ DİKMİŞƏM 191
DİLBİMƏZ 192
BƏXTƏ YAZANA DÜŞDÜ 192
ASAN OLDU 193
GÖZLƏRİMİ DİKMİŞƏM SABAHA 194
KÖNÜL Kİ, ƏRKÖYÜN 194
PƏRİŞAN 195
BİR LALƏ TƏKİ 195
FƏLƏYİ OL 196
ZAMANIM DAYANAR 196
HƏSRƏTİNLƏ ALIŞACAĞAM 197
GÜMANIM YOX, NEYLƏYİM? 198
GÖZLƏRİN 199
MƏN OL 200
GÖZLƏRİNİN ATƏŞİ 200
MƏNİM ÜRƏYİM 201
DƏNİZ GÖZLƏR 202
BƏBƏYİMSƏN 202
NECƏ XATIRLAYIRSAN? 203
BAHAR GÜNÜNDƏ 204
TALEYİMİN BAHARI 204
SEVGİNİ ÖYƏCƏKDİR 204
SƏNDƏN KÜSMƏRƏM 205
ƏLLƏRİN OCAQ OLSUN 206
ƏĞYARA TAY TUTMARAM 206
QÜRURU MƏNƏM 206
QAYITMAYACAQ 207
GÖZLƏRİMDƏ NƏM 208
ÖLÜNCƏ 208
TƏNHALIQ 209
TANIDI SƏNİ 209
HƏSRƏTLİYƏM 210
AYRILIQ DƏMİ 210
HƏSRƏTİN ŞİDDƏTİ LEYSAN ANDIRIR 211
MƏHƏBBƏT YALANMIŞ 211
SƏNİN UCUNDAN 212
SƏNİ GÖRMƏYƏNDƏ 212
HƏSRƏT QALDIM ÜZÜNƏ 213
MƏN SƏNİ ARZULARAM 214
QALA BİLMİRƏM 214
QARA BULUDLAR GƏZİR 215
QƏLBİMDƏ GÖYNƏYİR 216
KƏMƏNDƏ SALIR 216
YAMAN DARIXMIŞAM 217
BAXMA MƏNƏ UZAQDAN 217
SƏN YADIMA DÜŞƏNDƏ 218
İTİRDİM MƏN SƏNİ 219
DÖNDÜ YANIQLI NEYƏ 220
HƏSRƏT BAŞA BƏLAMIŞ 220
NƏ DEYİRSƏN 221
ALƏMSƏN, GÜLÜM 222

ÇIRPINAN QUŞAM 222
DUMAN BÜRÜYÜB 223
AĞIR YÜK OLUB 224
BİRCƏ BAXIŞINLA 224
BÜRÜNÜB GECƏ 225
QURBANAM 225
UZAQ EYLƏDİN 226
ÇÖKDÜ KÖNLÜMƏ 226
SEVGİLİM, HARDASAN? GƏL 227
MƏN SƏNİ GÖZLƏYİRƏM 228
İŞIQ OLMUSAN 228
ARALI QALIB 229
MƏHƏBBƏT OLMAYANDA 230
ALA GÖZLƏRİN 231
HƏSRƏTLƏ QOL-BOYUN 232
QARA GÖZLƏRİN 232
BƏLKƏ SƏNSƏN QİSMƏTİM 233
GÖZLƏRİN AXTARACAQ 234
ƏRİDİ SİNƏMİZDƏ 234
ÇƏKMİŞƏM MƏN 235
AĞLAMA 236
İNCİMƏ MƏNDƏN 236
NƏ MÜDDƏTDİ DÖZMÜRƏM 237
YENƏ NƏ OLDU KÜSDÜN 238
GEN GƏZİRSƏN 238
YADLAR İÇİNDƏ 239
HARA GEDİRSƏN 240
BAŞIMDAN GETMƏYİR 240
GECİKDİ 241
MƏHƏBBƏTİN ÇİÇƏK AÇDI 241
QAYIDACAQSAN 242
QOPARMAQ ÇƏTİN 242
NECƏ QƏRİB BU GEN KAİNAT 243
ÜŞÜDƏR KÖNLÜMÜ 243
SALDI ƏCƏB DƏRDLƏRƏ 244
YETİŞMƏZ DADINA 245
DOLAŞ KÖNLÜM İÇİN 245
QƏLBİMİ AĞLADIR 246
ALDIN ÜRƏYİMİ 246
XƏYALLA SÖHBƏT 247
SALDI NAXIŞLAR 248
MƏHƏBBƏTLƏ SİNƏM DOLU 248
ODA SALMISAN 249
SAF MƏHƏBBƏTİN 250
SEVƏN SAVAŞMAZ 250
EŞQ QƏHRƏMANI 251
SİNƏMDƏKİ DUYĞULARIM 252
HƏZİN BİR KƏDƏR 252
DƏRİN MƏNALAR YATIB 252
BAŞINA DÖNDÜYÜM 253
SƏNİNLƏ GÖZƏLDİR 254
TAPMAQ İSTƏRƏM 254
ÇATAN OLMUŞAM 255
HİCRANINDAYAM 255
YAR EYLƏYƏN GÖZLƏRİM 256
BU SEVGİ HARDAN GƏLDİ? 256
AY OĞLAN 257
GETMƏK İSTƏYİRSƏN 257
SƏN ALIB ƏLƏ 258
KÖNLÜMÜ OVLAR 258
QINAMA MƏHƏBBƏTİ 259

GÖZLƏDİM YOLLARINI 259
GET DAHA 260
İNANDIM NİYƏ? 260
SƏNİ GÖRÜRƏM 261
CIRIR YAXASINI 261
NƏ DEYİM SƏNƏ 262
OLAN İSTƏYİ 262
BULUDTƏK QƏZƏB ETMƏ 263
GETMƏYİNƏ NƏ VAR Kİ 263
İNCİMƏRƏM 264
QURBANAM 264
DƏRDLİYƏM 265
AĞLADIB GÜLDÜRMƏ YAR 265
QURBAN OLUM 266
KÖNÜL OYUNCAQMI? 266
SEVGİ BAŞA BƏLADI 267
HƏMİŞƏ BAHARIM 268
GÜNAHKARAM 268
QAYIT GƏL YENƏ 269
ƏYLƏN, SƏNƏ SÖZÜM VAR 270
ƏGƏR SEVMƏYİRSƏN 270
GÖZLƏRİN 271
HİCRAN NEYLƏSİN 272
GƏLİŞİNƏ QURBAN OLUM 272
KÖNLÜMÜN GÖYÜNDƏ 273
BİLMƏZDİM SƏNİ 274
YETMƏDİ SƏSİM 274
İTİRDİM SƏNİ 275
FEİLİNƏ DÜŞMÜŞƏM 276
ÜRƏYİMİ AĞRIDIR 276
QORUYACAĞAM 277
YANDIRDI MÖHNƏT 277
SALIB VƏLVƏLƏ 278
SİNƏMİ PARALAYAN 278
NECƏ ÜRƏK ETDİN 278
İZTİRABLAR İÇİNDƏ 279
ÜRƏK FƏĞAN EYLƏDİ 280
GETMƏ AMANDI 280
SƏN DƏ MƏNDƏN XƏBƏRSİZ 281
UNUTDUN 282
QORTƏK YANMAYAYDI 282
DÖZƏ BİLMƏZSƏN 282
ÇIRAĞINA DÜŞƏRƏM 283
ƏLİNİN HƏRARƏTİ 284
SİRDAŞ GÖRÜRƏM MƏN 284
HƏSRƏTİNƏ DÖZMÜRƏM 285
YIXILAN KÖNLÜMÜ 285

RUHUM ÇEŞMƏTƏK QAYNAYAR

LEYLİ KİMİ RUHUM 286
BİR XƏTA YAPMIŞAM 286
SEVGİNİN GÜLZARI İLƏ 287
OLMUŞAM DİVANƏ 287
YAR BİLMƏ 288
ÇARƏ ELƏ 288
TANRI TUŞ ETDİ 289
TUŞ OLDU EŞQ KAŞANƏSİ 289
ÜRƏYİM PARTLADI, YA RƏBB 290

MÖHNƏTƏ DÜÇAR OLMUŞAM 290
TÖKÜLÜB ÜSTÜMƏ QƏM 290
ŞAM ELƏDİ 291
TALEYƏ ETDİM GÜVƏN 291
TUŞ OLUB HƏR QOVĞAYA 292
AHİ-QƏLBİ-ZARI MƏNƏ 292
ÜRƏYİMİN DUSTAĞIYAM 293
EŞQİDƏ VƏFASIZ MƏNƏM 293
MƏN BİNƏVA 294
AÇMA ÜRƏK QAPISIN 294
EY BİVƏFA 294
GÜLÜZLÜ SABAHI SANDIM 295
DOLANIM MƏN BAŞINA 295
BİR BELƏ ZÜLÜM OLMAZ 296
BAXIŞIN SƏYYAD OLUB 296
BƏXTİMƏ BAX 296
QURBANIM OLUM 297
MEYDAN SULAYIR 297
BİR KƏS HANI 298
BİQƏRAR OLDU 298
KÖNLÜM EVİN 298
DƏRD MƏNİ ÇƏKDİ SINAĞA 299
TUTUŞUB HİCRANINA 299
AYRILIĞIN QORDU 300
ŞAMI SÜBH EYLƏYİRƏM 300
ALƏMƏ YENƏ 300
MƏCNUNLUQ İSTEDADI VAR 301
AH EYLƏDİYİM 302
ƏSDİ RÜZGARIM QARA 302
BATDI ÜRƏYİM QƏMƏ 303
BİR BELƏ MÖHNƏTİN QƏMİ 303
NƏ DEYİM 304
QOYMA QƏMLƏRİ YAXIN 304
QAN DOLU SABAHLARA BAX 304
DİLDƏN-DİLƏ DÜŞDÜ 305
GÖZÜM GÖZÜNDƏN UZAQ 305
DUSTAQ EYLƏDİN 306
ZÜLFÜ-PƏRİŞAN OLMUŞAM 306
GÖR NECƏ SEL ETDİ YARIM 307
CANIMDAN AYRI BİLMƏDİM 307
YOX BÖYLƏ HALIM GƏLMƏYƏ 308
TƏKCƏ VƏTƏN 308
FƏLƏK SALDI MƏNİ 309
KÖNLÜM YAMAN QAN EYLƏYİR 309
GÜNÜM XOŞ OLUR 310
BAĞRIMI QAN ELƏYƏN 310
GÜLÜZLÜ SABAHIM GEDİB 311
DİLDƏ BƏYAN EYLƏMİŞƏM 311
QƏMİNƏ SİLDİRDİ YARIM 312
BELƏ DAD EYLƏMƏ 312
YOLUMDA YANDIRDIN ANA 312
KÖNLÜMƏ YAR BİLMİŞ İDİM 313
BƏSLƏDİM KÖNLÜM EVİNDƏ 314
GÜNÜ QARƏ MƏMLƏKƏTİM 314
GÜNÜM XOŞ OLUR 315
TƏK SƏNDƏN İMDAD UMMARAM 315
KEÇDİ ÖMÜR AH-VAYLARDA 316
POZULDU İTTİFAQIMIZ 316
EY GÜLÜZLÜM, CANINDADIR 317
YAMANCA ABAD EYLƏDİN 317
YARIM BƏXŞİŞ EYLƏDİ 318

BƏNİ-BƏŞƏR GƏLDİ-GEDƏR 318
FANİ DÜNYANIN ƏHLİYƏM 319
GÖYLƏRƏ TUŞ OLDU FƏLƏK 319
UDDU MƏNİ EHTİYAC 320
İMDAD EYLƏ 320
ŞÖVKƏTİNƏ QURBAN OLUM 321
ALƏMƏ XAR ETDİ MƏNİ 321
GƏL EŞQİMİN ÇARASI 322
TÖKÜLÜB QƏLB İÇİNƏ 322
YANDIM ODA 323
ALƏMƏ BƏYAN ELƏMƏ 323
FƏLƏK İMTAHANA ÇƏKİR 324
QƏMƏ ƏSİR ÜRƏYİM 324
ƏHLİ-HALI İSTƏRƏM 325
ÇƏKMƏ İMTAHANƏ MƏNİ 325
SƏDAQƏT EYLƏ 326
ÜRƏYİM VURMADADI EŞQ İLƏ 326
CAN AĞLAYAR 327
CANDAN ƏZİZ 327
ÖMÜR ÖTƏR BULUDLARTƏK 328
EYLƏDİ ZİYAN KÖNLÜMƏ 328
ŞİKAR ELƏDİ 329
AŞİKARƏ SÖYLƏYİRSƏN 329
GƏL, GÖZÜM GÖRSÜN SƏNİ 330
VERMƏDİ QİYMƏTİMİ 330
MƏNİ CANDAN ELƏYƏN 331
ƏFĞAN ELƏDİ 331
SƏN QİDA VERDİN ANA 332
YOXDU SƏNDƏN SAVAYI 332
MƏNİ CANDAN ELƏYİR 333
RUSVAY ELƏDİN 333
DEDİLƏR ALDATDI SƏNİ 334
QƏLBİMİZİ YARƏ EDƏ 334

DÖRDLÜKLƏR 335
BAYATILAR 467
MÜƏLLİF HAQQINDA 471

Şirin Xanım
Kərimbəyli Şadiman

ÖTƏNLƏRDƏN
GƏLƏN SƏSLƏR - 2

Dizayn: Rafael Qasımov
Kağız formatı: 60x84 1/16
Həcmi: 30 ç.v. Sayı: 500

QANUN NƏŞRLƏR EVİ
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18 Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az; www.qanun.az